ƏN YENİ
RUS ƏDƏBİYYATI

Antologiya

2 cilddə

1

Nəsr

Bakı

MÜTƏRCİM

2014

Издание осуществлено при поддержке
Института художественного перевода (Россия).

Nəşr Bədii Tərcümə İnstitutunun (Rusiya)
dəstəyi ilə həyata keçirilmişdir.

Məsləhətçi:

Kamal Abdulla
AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor

Redaktorlar:

Telman Vəlixanlı
filologiya elmləri doktoru, professor,

Bella Musayeva
filologiya elmləri doktoru, professor

Tərcümə edənlər:
Telman Vəlixanlı, Seyfəl Həsənov, Kamran Hacıyev,
Etimad Başkeçid, Əliş Mirzallı, Jalə İsmayılova

Ən yeni rus ədəbiyyatı: Antologiya. 2 cilddə. 1-ci cild: Nəsr.
– Bakı: Mütərcim, 2014. – 296 səh.

Kitaba ən yeni rus ədəbiyyatının görkəmli nümayəndələri – Y.Polyakov, V.Voynoviç, B.Yevseyev, L.Ulitskaya, T.Tolstaya və L.Petruşevskayanın əsərlərinin Azərbaycan dilinə tərcümələri daxil edilmişdir.

ISBN: 978-9952-173-6

© (tərcümə, dizayn) "Mütərcim", 2014

Ən yeni rus nəsri nümunələri yeni tərcümə layihəsində

Son on il ərzində ölkə Prezidentinin sərəncamları ilə reallaşan latın qrafikalı nəşrlərdə, o cümlədən "Dünya ədəbiyyatı kitabxanası" seriyasında xarici ölkə ədəbiyyatlarının antologiyaları geniş təmsil olunub. Bu antologiyalar arasında rus ədəbiyyatı üzrə antologiyalar xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə, bu layihələrdə bütün rus müəlliflərinin ayrıca kitab şəklində nəşri qeyrimümkündür. Hərçənd ilk mərhələdə həyata keçirilmiş tərcümə və nəşr layihələrində sovet dövründə tərcümə olunmuş əksər müəllif və əsərlərin təqdim olunmasına və tərcümə mətnlərinin müəyyən səviyyədə redaktəsinə şərait yaradılmışdı. "Dünya ədəbiyyatı kitabxanası" seriyasında da bütün rus müəlliflərinin əhatə olunması, təbii ki, mümkün deyildi. Klassik ədəbiyyatdan Puşkin, Tolstoy və Dostoyevski, XX əsr ədəbiyyatından rus ədəbiyyatının Nobel mükafatçıları bu layihədə ayrıca cildlə təmsil olunmaqla yanaşı, digər müəllif və əsərlər ikicildlik antologiyaya daxil edildi. Bununla belə, XIX əsrin 80-ci illərindən başlayaraq onilliklər boyu dilimizə fəal şəkildə tərcümə olunan çoxəsrlik rus ədəbiyyatının bəzi nümayəndələrini istər 2005-2006-cı illərdə tərtib olunmuş antologiyalarda ("Rus şeiri antologiyası" və "Rus nəsri antologiyası"), istərsə də 2011 və 2013-cü illərdə "Dünya ədəbiyyatı kitabxanası" seriyasında işıq üzü görmüş eyni adlı, lakin fərqli antologiyalarda təqdim etmək mümkün olmamışdı. Bu, ilk növbədə, postsovet dövrün rus ədəbiyyatına aiddir. Digər bir məqam: ədəbi jurnallarımızın və qəzetlərimizin rus ədəbiyyatına, o cümlədən ən yeni ədəbiyyata fəal şəkildə müraciəti nəticəsində keyfiyyətli və lazımlı tərcümələr ortaya çıxmış, onların dəyərləndirilməsi və kütləvi oxucuya təqdim olunmasına ehtiyac yaranmışdır. Postsovet dövrdə Azərbaycan ədibləri əsasən sovet dönəmində qadağan edilmiş yazıçılara və əsərlərə, eləcə də ən

müasir rus ədəbiyyatının postmodern nümunələrinə müraciət etməyə üstünlük verməyə başladılar. Müstəqillik dövründə ən yeni rus ədəbiyyatından tərcümələr zamanı yazıçıların Azərbaycanla əlaqələri, onların yaradıcılığında Azərbaycan mövzusu, şəxsi və yaradıcılıq münasibətləri də müəyyən rol oynayır. Məsələn, elə bu kitabda yeni tərcümələri verilən Yuri Polyakov ("Rayon miqyaslı FH") və Boris Yevseyevin ("Qəssab") yazıçılarımız və tərcüməçilərimizlə şəxsi və yaradıcı əlaqələri sayəsində onların yaradıcılığı bir sıra tədqiqatların obyektinə çevrilmişdir. Bakı Slavyan Universitetinin nəşri olan "Azərbaycanda rus dili və ədəbiyyatı" jurnalı göstərilən müəlliflər də daxil olmaqla ən yeni rus ədəbiyyatının təqdimatı ilə bağlı silsilə məqalələri təqdim etməkdədir... Bütün bunlarla yanaşı, Siyavuş Məmmədzadə və Eyvaz Borçalı kimi tanınımış tərçüməçi-şairlər 90-cı illər – yeni yüzilliyin ilk iki onilliyində də əvvəl başladıqları işləri tamamlamaqda davam edirlər. Bunun nəticəsidir ki, Puşkin, Lermontov və Yeseninin yeni və hətta bəzi əsərlərinin ilk Azərbaycan tərcümələri ərsəyə gəldi. Hətta klassiklərimizin qələmindən çıxmış "Hamlet", "Otello" "Yevgeni Onegin", "Mtsıri", "Demon" və s. kimi əsərlərin tərcümələri yeni təqdimatda oxucuların ixtiyarına verildi. Eyni fikirləri xalq yazıçısı Anarın ideyası və geniş müqəddiməsi ilə 2009-cu ildə rusca nəşr olunmuş üçcildlik "Azərbaycan ədəbiyyatı antologiyası" barədə də söyləmək olar.

Bütün bunlar onu göstərir ki, rus və Azərbaycan ədəbiyyatlarının qarşılıqlı əlaqəsi, bu ədəbiyyatlardan birinin digəri tərəfindən adekvat resepsiyası prosesi bədii-professional, müasir tələblərə cavab verən tərcüməsiz mümkün deyil. O da həqiqətdir ki, orijinaldan fərqli olaraq (düzdür, bəzi orijinallar müəyyən zaman kəsiyini qət etmədən öz aktuallığını itirə bilir), tərcümə məhsulu köhnələ və bir əsər bir neçə müəllif tərəfindən icra oluna bilər.

Təqdim olunan növbəti ikicildlik "Ən yeni rus ədəbiyyatı" antologiyasını Bakı Slavyan Universiteti və Moskva Dövlət Linqvistik Universitetinin davamlı əlaqələrinin, onlar tərəfindən təşkil olunan müştərək elmi məclislərin, ölkələrimizin tanınmış ziya-

ıları – AMEA-nın müxbir üzvü, prof. Kamal Abdullayevin və akad. İrina Xaleyevanın şəxsi təşəbbüslərinin nəticəsi hesab etmək olar. Birinci cilddə nəsr əsərləri, ikinci cilddə isə poeziya nümunələri toplanmışdır. Hər iki cildə daxil olan əsərlər Azərbaycan dilində ilk dəfə səsləndirilir. Nəsrdə ən müasir rus ədəbiyyatının Y.Polyakov, V.Voynoviç, B.Yevseyev, T.Tolstaya, L.Petruşevskaya və L.Ulitskaya kimi məşhur nümayəndələri təmsil olunub. Azərbaycan dilinə tərcüməçilər qrupunda da kifayət qədər tanınmış qələm sahibləri var: Seyfəl Həsənov, Etimad Başkeçid, Kamran Hacıyev, Telman Vəlixanlı, Əliş Mirzallı. Gənc tərcüməçi, layihəyənin tələbinə uyğun bu işə cəlb edilmiş Bakı Slavyan Universitetinin magistrantı Jalə İsmayılovanın də tərcüməsi pis təsir bağışlamır.

İkinci cild – ən yeni rus şeri antologiyası tərcümə prosesindədir. Buraya da istedadlı tərcüməçilər, əsasən Bakı Slavyan Universitetinin əməkdaşları cəlb olunub.

Ən yeni Azərbaycan və rus ədəbiyyatlarının bir-biri ilə tanışlığı prosesi, təbii ki, ilk növbədə bədii tərcümə vasitəsilə mümkündür və prosesin qarşılıqlı şəkildə təşkili məqsədilə digər bir vacib layihə – Azərbaycan nəsr və poeziyasının rus dilində təqdimatı təklifi ilə çıxış etmişik. Bu təqdimatı ən yeni ədəbiyyatımızla bağlı "Literaturnaya qazeta"nın əlavəsi "Yevraziyskaya muza"da gedən materialların və Almatıda nəşr olunmuş "Ən yeni xarici ədəbiyyat" monoqrafiyasına son iyirmi il ədəbiyyatımız haqqında daxil edilmiş fəslin davamı kimi də qiymətləndirmək olar.

Bu layihənin təqdim olunmasında Moskva Dövlət Linqvistik Universitetində fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzinin rəhbəri prof. Bella Musayevanın da zəhmətini qeyd etməyi özümüzə borc bilirik.

Telman Vəlixanlı

Yuri Polyakov

Rayon miqyasında FH

(povest)

1

Dombagöz xanı balığı suyun dibindəki daşların arasında donub qalmışdı. Balığın özü də solğun-boz, biz-biz yosun qatıyla örtülmüş uzunsov daşa bənzəyirdi. Qonur rəngə çalan sualtı otlar, yuxarıda şütüyən dalğaların ahənginə uyğun olaraq əyilib-qalxdıqca, otların arasındakı rəngbərəng balıqlar görsənirdi. Bir az da yuxarıda, dibdə yaşayanların fikrincə, səmanın olduğu yerdə gümüşü körpə balıqların eskadrilyaları keçib-gedirdi. Lap yuxarılarda isə iki dünyanın qovuşuğunda meduzaların göy kölgələri gözqamaşdırıcı qızılı şüalarla əhatə olunmuşdu. Ancaq suyun altından belə günəşə baxmaq mümkün deyildi.

Ayağında lastlar olan maskalı adam gözlərini qıydı, çünki yuxarıya baxdıqdan sonra suyun dibi qımıldanan tünd-göy rəngli ləkə kimi görünürdü. Sonra bir əlilə yosunların sərt saplağından yapışıb, qaya parçasının üzərindən irəliyə əyildi və yavaş-yavaş harpunun ucluğunu hərəkətsiz xanı balığına yaxınlaşdırmağa başladı. Hədəfi qaçırmamaq üçün harpunun ucluğunu lap yaxına gətirməlisən (yəqin, sualtı tüfənglərin hazır-

landığı zavod Təbiəti Mühafizə Cəmiyyətinin kollektiv üzvüdür).

Ancaq tüfəng titrəyərək harpunu atdığı anda xanı balığı reaktiv sürətlə yerindən götürüldü və arxasınca bulanıq iz buraxaraq, yarıqda yox oldu. Harpun cingiltiylə daşa dəyib kənara sıçradı və ağır kapron şnur qıvrıla-qıvrıla suyun dibinə enməyə başladı.

Nəfəs borucuğundan qurultuyla çıxan iri qovuqlar yuxarıya doğru istiqamətləndi: ovçu söyüş söydü. Ciyərlərində hava ehtiyatı qurtarmaq üzrə olan balıqçı xanı balığının gizləndiyi yeri yadında saxlamaq üçün ətrafa göz gəzdirərkən, yenidən yosunlara diqqət etdi: yarığın kənarında addımlayan yadplanetli özüyeriyən aparata bənzər iri bir krab dayanmışdı. O, cilalı qara qısqac-manipulyatorları ilə nəyisə ağzına aparırdı.

Nəfəsini zorla saxlayan dalğıc borucuğun rezin ucluğunu dişlərilə bərk-bərk sıxdı. O on il idi sualtı ovla məşğul idi, amma ilk dəfəydi ki, belə nəhəng Qara dəniz krabı görürdü! Təki qayanı itirməyəydi! Yuxarı tələtümlüdür, nəfəsini dərənə kimi dalğalar adamı kənara apara bilər! O, nəfəssizlikdən darıxan cismini aldatmağa çalışaraq, tez-tez udqunmağa başladı, amma artıq bu da kömək etmirdi.

Bəsdir! O, ayaqları ilə güclü təkan verib qayadan aralandı, sim kimi tarıma çəkilərək və ayaqları qıc oluncayadək lastları işlədib, yuxarı, havaya doğru şığıdı. Sudan qurşağacan yuxarı qalxan adam borunun ucluğunu ağzından buraxıb, ciyərlərində ağrı hiss edənəcən, dərindən nəfəs aldı. Gözləri önündə isti, mavi səmanın qarşısını kəsən bənövşəyi ləkələr uçuşurdu. Gicgahlarında dəhşətli zəiflik hiss edirdi. Yavaş-yavaş baxışları duruldu, gücü özünə qayıtdı, amma hələ də nəfəsi darıxır, ürəyi bərk-bərk döyünürdü.

O sakitləşmək üçün ətrafına göz gəzdirdi: iki yüz metr aralıda adamsız daşlı sahil görünürdü, üç oğlan dalğaların sahilə çıxardığı kələ-kötür kötüyü sürüyürdü. Uzaqda, sağ tərəfdə isə «Yojik» dağı donqarlanmışdı, dağın tikanlı yaşıl bitkiləri içərisində pansionatın ağ qülləsi sezilirdi. «Yojik»in ətəyindəki dalğaqıranların arasında böyük çimərlik var idi.

Narıncı buyların yanında qorxu bilməyən üzgüçülər lastlarını yellədərək, rəngli daşlar və kiçik rapanlar çıxarmaq üçün tez-tez suya dalırdılar. Bir az aralıda havayla doldurulmuş döşəkçələrin üstündə, yəqin ki, özlərini açıq dənizdə hiss edən bir neçə cəsur adam özünü günə verirdi. Meqafonun gücləndirdiyi xırıltılı səs öz cənub aksenti ilə vaxtaşırı onları sahilə qayıtmağa səsləyirdi. Üfüqdə isə dənizlə səmanın iki tərəfdən də qabarıq linza kimi qovuşduğu yerdə gəmi silueti görünürdü.

O, dərindən nəfəs alıb, maskasını taxdı, borucuğun ucluğunu ağzına alaraq başını suya saldı və qayanın tanış cizgilərini axtarıb-tapdı. Beləcə, dalğaların üzərinə sərilib, nəfəsini rahatlatmağa və tapdığı yeri gözdən qaçırmamağa çalışırdı.

Sən bir işə bax! Bütün məzüniyyətini elə yerlərdə keçirmişdi ki, buradakı kiçik sualtı varlıqlar xanı balığı və krabları biz mamontları xatırlayan kimi xatırlayırdılar. Amma budur, getməyə üç gün qalmış belə bir qoruğa rast gəlmişdi! Xanı balığı bir yana, sən kraba bax, kraba! Savaş qısqacları əl boydadır – əldən buraxsan heç kəsi inandıra bilməyəcəksən. Onu əllə tutmağa çalışmaq lazımdır, alınmasa atəş açmalı olacaq, baxmayaraq ki, zirehini korlamaq istəmir.

Bunları düşünən ovçu pnevmotik silahın tutacağını qarnına dirədi və harpunu birtəhər lüləyə itələdi. Sonra borucuqdan ciyərlərinə hava çəkib, ikiyə qatlandı və lastlarını suyun üzərində oynadaraq suya daldı.

Krab həminki yerindəydi. Ovçu ehtiyatla yaxınlaşaraq, diqqət çəkmədən əlini krabın arxasına apardı və qəfildən silahını onun gövdəciklərə bənzəyən gözləri qarşısında oynatdı. Gövdəciklər dərhal göz yuvasına çəkildi, krabın özü isə müdafiəni yarmış hücumçunun qarşısındakı təcrübəsiz qapıçı kimi əllərini yana açdı və ovçunun cənginə keçdi. Ovçu yenicə suyun üzünə qalxmağa başlamışdı ki, öz buğumlu ayaqlarını cəld hərəkət etdirərək, yanpörtü yarığa doğru qaçan iri – tutduğu krabdan da böyük – başqa bir krab gördü. Ovçu nəfəs borucuğunun ucluğunu dişləri ilə sıxıb, silahı ayağa çəkdi və atəş açdı. Harpun krabın qalın zirehini deşdi. Ovçu harpunun bağını özünə doğru çəkməyə başladı. Krab iti dırnaqlı ayaqları ilə bağı cırmaqlayır, qısqaclarıyla polad çubuğu kəsməyə çalışırdı. Zirehin deşilmiş yerindən burum-burum qonur bulud topası qalxırdı.

«Yaxşı olmadı…» – düşünməyə başlamışdı ki, başında nəsə səsləndi, ağzına duzlu su doldu, bədəni isə tamamilə susturdu və köməksiz vəziyyətə düşdü. Suyun üzünə qalxdıqdan bir an sonra ətrafında sanki hərəkətsiz dənizin xəfifcə ləpələndiyini gördü. Yuxarıda, qara bulud rəngi almış səmada sanki qırmızılı-yaşıl haşiyəyə salınmış günəş parlayırdı. O hiss etdi ki, artıq üzə bilmir…

Uzaq sahildə kiçik adamlar qışqırışırdılar, ancaq üst qatı ilıq, işıqlı, dərinliyi isə soyuq, qaranlıq olan, hündürlüyü dörd metrə çatan su sahilin uzaqlığından da qorxulu idi. Bununla belə, o öz cisminə nə etmək lazım olduğunu heç cür izah edə bilmirdi. Bənövşəyi rəngə çalan ağır göyüzü sanki onu geri - suya basmaq istəyirdi. O, qəfildən sıçradı, əlindəkiləri bir kənara atıb arxası üstə çevrildi. Ürəyi adi qaydada döyünmürdü, ürəyi vurduqca bütün bədəni lərzəyə gəlirdi. Sanki «Yox-yox-yox-yox…» sözləri beynində təlatüm yaradırdı. Gün işığı əsib-

titrəyir, xarab olmuş elektrik lampası kimi gözləri önündə səyriyirdi. Ona elə gəlirdi ki, nəsə sərt hərəkət eləsə zülmət çökə bilər.

Lastlarını güclə hərəkət etdirən adam sahilə doğru üzdü. Bircə dəfə ətrafına göz gəzdirdi və ona elə gəldi ki, quru nəinki yaxınlaşmır, hətta ondan uzaqlaşır. Onda köməksiz bədəni yenidən qıcolmaya tutuldu, dəhşət hissi bütün varlığını sardı. Artıq iradəsinə tabe olmayan ayaqlarını güclə hərəkət etdirərək, ətrafına baxmadan, gözlərini belə qırpmadan üzməyə başladı. Yalnız kürəyi sahil daşlarına toxunandan sonra dayandı, sonra qurşağacan suya oturdu və nəhayət başını döndərdi.

Düz onun qarşısında, xışıldayan kiçik daşların üstündə vurnuxan iki oğlan qazan asmışdı. Konserv qutularını açan üçüncü oğlan üzüb sahilə çıxan adama maraqla baxaraq, gülümsündü:

- Bağışla, yerli! Şalvarının cibindən siqaret götürdük, sən gəlib çıxmaq bilmirdin. Petkanı gülmək tutmuşdu: «Götür, götür! O… yəni sən artıq siqaret çəkmirsən, çünki dənizdə batmısan…» Oğlanlar qəhqəhəylə öz zarafatlarına gülməyə başladılar.

2

O, üzüqoylu qızmar daşlara uzanıb, başına gələnləri anlamağa çalışırdı. Ancaq başında qonşunun mənzilində ucadan səslənən musiqi kimi bütün başqa səsləri batıran «Yox-yox-yox-yox-yox!» nidası vardı. Bu nidanı dayandırmaq mümkün deyildi, onu yalnız şüurun alt qatlarına soxmaq olardı. O, arxası üstə çevrildi və yumulu göz qapaqları günorta günəşinin al-qırmızı pərdəsi ilə örtüldü.

Sən demə, hər şey çox sadəymiş. O, dənizin, göy üzünün, qayaların, ocağın qırağındakı oğlanların, belinə batan naqolay daşın aşıladığı küməşmədən qurtulmasaydı, artıq heç vaxt bu şeylərin heç biri olmayacaqdı! Bir dəfə orduda buna bənzər hislər yaşamışdı – alay klubundakı qaranlıq kinozalda qışqıraraq növbəyə getməli olanları səslədilər… Film isə davam edirdi və sən zaldan çıxandan sonra baş verəcək hadisələri yalnız təxmin edə bilərdin.

Maraqlıdır, onu tezmi tapacaqdılar? Pansionatda o dəqiqə əl-ayağa düşmürlər, yəqin ki, şam yeməyi zamanı, bəlkə də, səhər açılanda tapardılar. Yox, başqalarının siqaretinə tamah salan bu oğlanlar daha tez duyuq düşərdilər: doğrudan da, paltar atılıb qalıb, sahibi isə çoxdandır yoxdur… Sonra xilasedicilər dəstəsindən olan, günəşdə qaralmış oğlanlar, günəşdən və kurort keyfindən məst olmuş qızlardan müvəqqəti əl çəkib, qayığa atlanacaqdılar və təlimatçının sözləri ilə desək, «dənizlə zarafat etmək fikrinə düşmüş» adamı şəffaf sudan çıxaracaqdılar… Sonra ölgün, ruhsuz kurort həkimləri gömgöy olmuş bədəni həyata qaytarmaq üçün əlləşəcəkdilər, xilasedicilər isə getdikcə çoxalan maraqlılar kütləsini dağıtmaq uçun qışqırmağa başlayacaqdılar: «Çəkilin! Hava… Ona hava lazımdır!» Ancaq insanlar getdikcə çoxalacaq, yaxşı görmək üçün bəziləri barmaqlarının ucuna qalxacaq, hətta yerlərində hoppanmağa başlayacaqdılar… Sonra «Təcili yardım» maşını artıq fit vermədən meyiti aparacaqdı və çimərlikdəki insanlar bədənlərinin çətinliklə qaralan yerlərini günəşə çevirib, hələ bir müddət hərarətlə bu hadisəni müzakirə edəcəkdilər:

- Bu həmin uzunboylu, xurmayı saçlı adamdır… Sualtı tüfəngi də vardı… Onunku da bura qədərmiş…

- Arvadı və bir kiçik qızı qaldı. Hələ xəbərləri yoxdur!

- Dəhşətdir! Yeni dəb salıblar – tək-tənha dincəlirlər… Onlarla gəlsəydi, bəlkə də, heç nə olmazdı!

- Müdirlər həmişə tək dincəlirlər. O, cavan olsa da, müdir imiş. Deyilənə görə, raykom katibiymiş!

- Partiya raykomunun?

- Yox, kosomolun, nə fərqi var? Yeri gəlmişkən, o sizin şəhərdəndir!

- Bizim şəhərdən?! Şəhərin hansı rayonundan?

- Deyirlər, Krasno… Krasno… Krasnoproletar rayonundan. Sizdə belə bir yer varmı?

- İlahi, bu ki bizim rayondur! Oy, gərək ərimə danışam – o, raykomdakıların hamısını tanıyır! Bəs familiyası nədir?

- Mişulin, ya da… Şumilindir, deyəsən…

Bəs sonra? Sonra insan ölümü ilə bağlı hansısa formallıqlar, sonra geriyə yol… Buninin hekayəsində olduğu kimi – qəzadan və fəlakətdən qorxmayan yeganə sərnişin sənsən… Sonra «Komsomolets» də nekroloq və dəfn mərasimi. Matəm mitinqi (yəqin ki, avtotəsərrüfatın klubunda təşkil olunacaqdır), adamda «bu insansız dünya sivilizasiyasının axırı nə olacaq?» fikri doğuran kədərli sicilləmələr. Nəfəsli orkestr və qəmli-qəmli gumbuldayan böyük baraban. Sonra çəkic zərbələri – bu zaman adama elə gəlir ki, tabutda uzadılmış ölünü yaralaya bilərlər. Sonra zərblə tabutun üstünə düşən ovuc-ovuc torpaq… Öncə qara geymiş anası və arvadı torpaq atacaqdılar. Maraqlıdır, Qalya özünü necə aparacaqdı: axı formal olaraq onlar hələ boşanmayıblar. Sözsüz, özünü tox tutacaqdı, heç nə olmayıbmış kimi. Vida nitqlərini dinlərkən isə bu cür yaxşı ərlə niyə yola getmədiyinə təəcüblənəcəkdi! Lizkaya deyəcəkdi ki, ata çox-çox uzaqlara gedib və yalnız qızı böyüdükdən sonra qayıdıb gələcək. «Gələndə nə gətirəcək?» - Lizka soruşacaqdı…

Şumilin göz yaşlarının günəşdə az qala qaynadığını hiss etdi. Yaxşı, bəsdir! Dəfn mərasimi texniki səbəblərə görə qeyri-müəyyən müddətə təxirə salınır. Tüfəngi sudan çıxarıb, nahara getmək lazımdır.

O, tələsik maskanı və lastları taxdı, borucuğun ucluğunu ağzına aldı, dal-dalı suya girdi və arxası üstə bir neçə metr üzdükdən sonra çevrildi. Yaşıl şüalara qərq olmuş sualtı dünya yenidən ətrafını sardı: yosunlar yırğalanır, parlaq ala balıq daşların arasında vurnuxur, şüşə kimi şəffaf krevetlər ora-bura qaçışırdılar.

«Artıq suda batanları xilas etmək təcrübəsinə yiyələnmişəm, - Şumilin özü-özüylə zarafat etdi. – Əsas odur ki, ayaqlarım yenidən tutulmasın…» Ancaq bunu fikirləşən kimi həmin tanış əlacsızlıq və dalğa-dalğa üzərinə gələn qorxu bədəninə hakim kəsildi, qəlbində «Yox-yox-yox-yox-yox…» sözləri sürətlə vurmağa başladı. O, lastları nizamsız hərəkət etdirərək, quruya çıxdı, sakitləşmək üçün dalbadal bir neçə siqaret çəkdi, sahil boyu bir qədər gəzişdi və titrəyən əllərilə dənizə ona yaxın yastı daş fırlatdı. Otuz il idi ona elə gəlirdi ki, onun bədəni, şüuru «dünya» adlı bu nəhayətsiz kəhrəba parçası ilə çulğaşıb. Amma indi məlum olur ki, səni həyata yalnız nazik, tarıma çəkilmiş tel bağlayır. Ən kədərlisi isə odur ki, bədən yalnız dəymədüşər qılaf, ruhun yerləşdiyi etibarsız qab imiş. Əlbəttə, bütün bunlar əvvəldən də bəlli idi, amma bilmək ayrı, hiss etmək ayrı…

Pansionata aparan yol sərv ağaclarının bitdiyi xiyabandan keçirdi. Xiyabanın sonunda akvarium kimi şəffaf olan yeməkxanaya vardı. Sərv ağacları bu gün borş qoxuyurdular.

Ağacların kölgəsində həmişə nəyləsə qarışdırılmış «İzabella» şərabı satan iki-üç yerli sakin olurdu. Şumilin cins şalvarının cibindən islanmış birmanatlıq tapdı, qeyri-sandart

ölçülü kiçik stəkanda şərab aldı və xilas olması münasibətilə özünü təbrik edərək içdi. Bu yerlərin şərabçıları «pulun qalığı» anlayışından xəbərsiz olduqları üçün bir stəkan da şərab içdi və borş qoxusu gələn tərəfə yollandı.

Nahar vaxtı çoxdan qurtarmışdı, odur ki, yeməkxanada çirkli qab-qaşığı yumağa aparan və stolların üstünü silən qaşqabaqlı ofisiantlardan başqa heç kim yox idi. Şumilin çuğundur şorbasını xatırladan soyuq borşu qaşıqlamağa, bərkimiş kotletləri yeməyə girişdi və arvadı ilə birgə dincəldiyi keçən mövsümü xatırladı. Onda da tez-tez dənizdən gec qayıdır, nahara gecikirdi. Adətən Qalya onun yeməyini sonacan saxlayır, amma onu qəzəbli baxışlarla qarşılayırdı. O, yeməyini təqsirkaranə yeyir, arvadı isə dayanmadan donquldanırdı: niyə axı o bütün günü tək gəzib-dolaşmalı, çimərlikdə ona sataşanları, söz atanları milçək kimi qovmalıdır. Sonra bir qayda olaraq, vəd edirdi ki, bu zəhrimar lastları, maskaları və tüfəngi suya atacaq.

Onda zarafatla qayıdırdı ki, tüfəngi batırmaqdansa elə onun özünü batırsa yaxşıdır. İndi Şumilin belə zarafatlar etməzdi.

Əslində Qalya tez-tez özündən çıxırdı. Həm də təkcə sualtı *ovlanma* və məzuniyyət zamanı yox. Onu başa düşmək olardı. Öz ərlərini ən az görənlər düşmən arxasına atılmış və orada naturallaşmış kəşfiyyatçıların arvadlarıdır. Komsomol işçilərinin arvadları onlardan sonra gəlir. Buna baxmayaraq, Qalya həmişə deyirdi ki, onun yeganə arzusu heç olmasa bir neçə gün təklikdə dincəlməkdir. Amma o böyük qalmaqal məhz ona görə baş vermişdi ki, Şumilin evə bir neçə gün ondan tez qayıtmalı olmuşdu. Bu il tələsməyin yeri yoxdur, amma artıq bu əhəmiyyətli deyil. İndi onu məzuniyyətdən geri

çağırsaydılar, məmnun olardı. Nə qədər dincəlmək olar, artıq qızından, raykomdan ötrü darıxıb.

«İnsanın həmişə bir məqsədi olur, - Şumilin yeməkxanadan çıxarkən fikirləşirdi, - üç həftə bundan əvvəl məzuniyyətə tələsirdim, indi isə evə getmək istəyirəm».

…Bəlkə də, ÜLKGİ Krasnoproletar RK-nin birinci katibinin heç bir arzusu bu qədər tez yerinə yetməmişdi: yataq korpusunun hollunda növbətçi onu səslədi və əlində tutduğu teleqram blankını ona uzatdı: RAYKOMA FH ZƏNG VUR KOMİSSAROVA».

«Görəsən, nə olub?» - Şumilin abonentlərin doldurduğu şəhərlərarası stansiyaya girməyə çalışarkən həyəcanlıydı. Nəhayət, raykoma zəng edə bildi.

- Allo, raykomdur? Nadya, sənsən? – baxmayaraq ki, səs yaxşı gəlirdi, o var gücü ilə qışqırdı. – Nə baş verib orda?

- Allo, Kolya… Nikolay Petroviç… allo! – həyəcanlı səs cavab verdi. – Kolya, dəhşət! Təsəvvür edirsən, bu gecə kimsə raykomun iclas zalına soxulub, aləmi qatıb bir-birinə…

- Necə yəni aləmi qatıb?

- Telefon söhbəti deyil, Kovalevski artıq bilir. Qorkomda da xəbərləri var…

- Belə de. Bəs milis necə?

- Milis də gəlmişdi. İtlə. Kolenka, tez gəl, mən burda tək-tənha qalmışam. Biz toplantı hazırlayırdıq, başımıza gələnə bax! Bilirsən axı, Kononenko vaxtından əvvəl getdi, mən tək qaldım…

- Zarıma. Axşam təyyarəylə gələrəm, sabah işdə olacağam. Bu gün hansı gündür, şənbədir? Səhər tezdən bütün aparatı çağır. Aydınlaşdırarıq. Hələlik.

Şumilin dəstəyi asdı, komsomolun yerli şəhər komitəsinin telefon nömrəsini öyrənib, birinci katibə zəng etdi, o,

paytaxtdan gəlmiş həmkarının xahişini dəiqqətlə dinləyib, onun özü haqqında verdiyi məlumatları yazdı və bron təşkil edəcəyinə söz verdi. Bir neçə dəqiqə bundan qabaq telefon köşkünə yorğun-ağın girən Nikolay oradan fikrini cəmləmiş məsul işçi kimi çıxdı.

«Onlar da bizim kimi gecəli-gündüzlü çalışırlar! – O, gec də olsa, təəccübləndi. – Axı bu gün şənbədir!»

İşdə gözləri önündə həmişə aşırma təqvimin olduğuna öyrəşmişdi, odur ki, məzuniyyət zamanı günlərin hesabını itirirdi. Buna baxmayaraq, bu gün hansı gün olduğunu fəhm edə bildi: səhər-səhər pansionatın pəncərəsi önündən əllərində gül dəstələri aparan qarasaçlı uşaqların keçib getdiyini görmüşdü – bu, kurort şəhərciyi üçün bir qədər qeyri-adi görünürdü, sən demə, burada da oxuyurlarmış. Elə isə hər şey aydındır: sentyabrın birində Şumilinin özü də işdə olurdu.

- Harda itib-batmısan? Arıqlayırsan nədir? – Zəng etmək üçün növbədə dayanmış həmkarı – komsomolun Voloqodsk vilayət komitəsinin şöbə müdiri gülə-gülə onu saxladı.

- Əşşi, işə düşmüşük: hansısa axmaqlar gecəyəkən raykomun binasına giriblər…

- Maxnoçular da!

- Ciddi sözümdür. Getmək lazımdır… Biz tərəflərdə olsan, Krasnoproletarskiyə də gələrsən. Dəyişik salma: orada Krasnoarmeyski deyilən rayon da var. Bəzən dəyişik salırlar.

- Narahat olma… Bəs elə bildim sən zarafat edirsən… Bu ki şəhər miqyasında fövqəladə haldır.

- Belə hə? Bunu sən mənə deyirsən?

- Bura bax… Bəlkə yır-yığış üçün kömək lazımdır?

- Yox, sağ ol – özüm öhdəsindən gələrəm.

- Elə isə, yaxşı yol! Özünü tox tut, dostum, hər şey yoluna düşəcək…

O qədər də yaxından tanımadığı bu oğlanın sifətinin tutulduğunu və ciddiləşdiyini görən Şumilinin kurort xətircəmliyi bir anda yox oldu. O, otağına qalxıb, toz basmış çamadanı çarpayının altından çıxardı, barmağıyla çemodanın qapağında kədərli bir sifət şəkli çəkdi və pal-paltarını necə gəldi bürmələyib, çamadanın içinə qalaqlamağa başladı. Beynində naməlum xuliqanlar özlərinə yer eləmişdi, amma nədənsə gözləri önündə keçənilki mübahisənin təfərrüatları canlanırdı.

Bir il öncə, raykomla eynən buna bənzər söhbətdən sonra o, yola hazırlaşmağa başladı. Qalya isə üzüdivara çarpayıda uzanmışdı: dünən başqa bir şeyin üstündə ağızlaşmışdılar. Odur ki, ərinin öz əşyalarını toplamasını başqa yerə yozmuşdu:

- Mənə də elə gəlir ki, biz ayrılmalıyıq…

- Boş-boş danışma! Raykoma zəng etmişdim: Kononenkonu hərbi hazırlığa aparıblar, Komissarova isə kor bağırsaq ağrısı ilə xəstəxanadadır. Toplantını aparmağa adam yoxdur. Sən mənimlə gedirsən, yoxsa qalırsan?

- Yəni sənsiz keçinə bilməzlərmi?

- Sən özün də bilirsən ki, yox!

- Hə də, əlbəttə! Sən həmişə birincisən!

- Gülməli deyil.

- Mənə də gülməli deyil. Amma bilirsən, Kolya, - o, müəmmalı şəkildə arxası üstə çevrilib, gözlərini tavana zillədi, - çıx get mənim həyatımdan! Bu daimi qəzalar və föqəladə hallar lap zəhləmi töküb. Bəzən sən mənə dərslikdəki çaydanı xatırladırsan: odda istiləndiyin üçün yox, yüksəkliyə qaldırıldığına görə qaynayırsan. Bir mayda sənin tribunada dayanmağın mənim həyatıma rəng qatmır. Əgər belə böyük ictimai xadimsənsə, elə tribunadaca yaşa! Ailə, uşaq nəyinə lazımdır? Mənə saat yeddidə evə gələn, mıx vura bilən, uşaqla məşğul olan kişi lazımdır…

- Sənin istədiyin kişi bir növ kimi mövcud deyil. Başa düşmürəm, mənim işimin bura nə dəxli var?

- Dəxli var! Hər xırda-para işə görə səni məzuniyyətdə də rahat buraxmırlar, uşaq kimi burdan ora atırlar, ordan bura…

- Sən axı kimə ərə getdiyini bilirdin!

- Mən tələbəyə ərə getmişdim, amma indi görürəm ki, sadəcə buyruq qulusan… Yaxşı stop-kadr kimi quruyub qalma, durr qaç, yoxsa raykom dağılar, sənin karyeran da onunla birgə!

- Qalya!

- Mən iyirmi səkkiz ildir ki, Qalyayam – onlardan yeddi ilini isə axmaq, çünki sənə ürcah olmuşam. Ancaq daha bəsdir…

- Sus!

- Bəsdir, dedim!

- Amma sonra fikrini dəyişməyəsən ha!

- Bunu sənə vəd edə bilərəm!

- Belə oldu, hə?

- Hə!

- Lap yaxşı! – Şumilin dizi ilə çamadanın üstündən basıb, çamadana sığmayan pal-paltarı zorla içəri təpərək, mübahisəyə son qoydu.

Onlar vaxtilə eyni institutda oxuyurdular, bir-birinə sevdalanıb evlənmişdilər, amma pis yaşayırdılar. Bütün bədbəxt ailələr isə, klassikin dediklərinin əksinə olaraq, bir-birlərinə bənzəyirlər. Bir qəribəlik də vardı: Şumilin irəliyə və yuxarıya doğru nə qədər qətiyyətlə irəliləyirdisə, ailə münasibətləri də bir o qədər korlanırdı. O bunu özü üçün belə izah edirdi: məsul işçilərin arvadları çox vaxt gündəlik əsəb, daimi vurnuxma, evdə də işdən ayrılmamaq hesabına vəzifə pillələri ilə irəliləyən

ərlərindən daha mənsəbpərəstdirlər. Qadınlar mürəkkəb, amma nəşəli və təəssüf ki, birtərəfli anlaşılan mükəlləfiyyət daşıyırlar – öz həyat yoldaşlarının növbəti mövqeyinə uyğunlaşmaq. Onlar hardasa eşidiblər ki, kişilərin uğur qazanmasında qadın əməyinin payı doxsan faiz təşkil edir və yüz faizlik göstəricilərə nail olmaq istəyirlər. Bu azmış kimi, istəyirlər ki, onların bacarıqlı və məsul ərləri işdən qayıtdıqdan sonra adi ev kişilərinə çevrilsinlər, ailədaxili əməklə məşğul olsunlar. Ərin mənəvi və fiziki qüvvəsi ilə ailə münasibətləri arasında ziddiyyət yaranır, nəticədə iş boşanmaya qədər gedib çıxır. Beləliklə, günlərin bir günü ər çamadanını yığışdırıb, qətiyyətlə qapıya sarı gedir, yalnız kandarda başını çevirmədən buyurur:

- Mən getdim.

- Hələlik, - üzünü balışa tutmuş qadın cavab verir.

Keçən il Şumilin məzuniyyətdən tək getmişdi, sonra onlar, əlbəttə ki, barışdılar, sonra yenidən araları dəydi… Onların evliliyi beş-altı ay birtəhər tarazlıqda qaldı, nəhayət, ayrıldılar, ancaq hələlik boşanma ərizəsi vermədilər: ya nəyəsə ümid edirdilər, ya da bu xoşagəlməz proseduru sonraya saxlamaq istəyirdilər. Xoşbəxtlikdən azadlıq Şumilinin qarşısına mənzil problemini həll etmək zərurətini çıxarmadı; o, anasının yanına, öz otağına qayıtdı. Öz əşyalarını, köhnə vaxtlarda deyildiyi kimi, zövqlə, deməli, çətinliklə topladığı kitabxanasının bir hissəsini də otağına daşıdı. Bir sözlə, onlar yaxşılıqla ayrıldılar. Bu ayrılıq irəlidə yeni görüş vəd etməsə də, hər halda, iki yad adam arasında olduğu kimi, normal münasibətlərin qurulacağından xəbər verirdi. Onların ümumi həyatından bir uşaqları qalmışdı…

Aeroportda hər şey təkrarlandı: burada hansısa raykom katibi üçün saxlanılmış brondan heç kimin xəbəri yox idi. Ötənilki təcrübəsinə əsaslanan Şumilin aeorovağzalın müdiri,

tranzit üzrə növbətçi və bron kassası arasında bir saatdan çox vurnuxdu, qırmızı üzlü vəsiqəsini hamıya göstərdi, qorkoma zəng elədi. Axırda skamyaya əyləşərək başını çamadanın üstünə qoydu, gözlərini yumub gözləməyə başladı.

«Suda batmıram, havada uçmuram!» - Şumilin öz-özüylə zarafat etmək istədi, ancaq dərhal dənizdə başına gələnləri xatırladı. Hansısa gizli bir narahatlıq, onda öz bədəninə qarşı yaranmış inamsızlıq bu hadisəni unutmağa qoymurdu. Üstəlik, iclas zalına soxulmuş xuliqanlar haqqında fikirlər də ondan əl çəkmirdi.

Eyni gündə həm az qala suda boğulacağını, həm də öz doğma raykomundan fövqəadə hal barədə xəbərlər alacağını düşünməmişdi. Raykomun üçüncü katibi Komissarova teleqram vurub, «tez gəl» deyə yalvarırsa, deməli, orada doğrudan da işlər qarışıb. «Telefon söhbəti deyil» nə deməkdir? Bəlkə, xuliqanlar maliyyə-təsərrüfat sektoruna da giriblər, yaxud kartotekanı ələk-vələk ediblər? Yox, Komissarova yalnız iclas zalı haqqında danışırdı. Maraqlıdır, görəsən, birinci katib suda boğulsaydı, bu qadın neyləyərdi?

Ancaq başına gələnlərlə bağlı qeyri-ciddi fikirlərin ardınca yenə də qəlbini ümidsizlik və qorxu hisləri sardı. Bu hisslərdən arınmaq üçün özünü qadın kimi söhbətə tutmağa çalışırdı.

Yeri gəlmişkən, qadınlar haqqında. Liza doğulmamışdan Qalya ilə ayrılmaq lazım idi. Hər halda, uşağın doğulmasını boş yerə uzatmırdılar. Ləçərlərlə ayrılmaq çətin deyil, burada hər şey aydındır: o, yaramazdır – ondan qaçıb qurtulmaq lazımdır. Bəs sənlə yola getməyən abırlı, ailəcanlı qadınlarla neyləyəsən? Niyə yola getməyəsən? Çünki sən ona yaraşmırsan. Amma axı yeddi ilə əvvəl onlar bir-birinə çox yaraşırdılar. Burada bir incə məqam var! Əsas odur ki, başlanğıcda bir-

birinizə yaraşmasanız da, sonradan eyni istiqamətdə dəyişəsiniz. Onda fərqli adamları birləşdirən ümumi şeylər meydana çıxır, əksinə olduqda yox! Qayıdan baş «Bilik» cəmiyyəti ilə danışıb, gənclər üçün nikah və ailə psixologiyası mövzusunda söhbətlər aparmaq, mühazirəçi dəvət etmək lazımdır, özü də hər hansı boşboğazı yox, əsl mütəxəssisi. Bəlkə rayonda boşanmaların sayını azaltmaq mümkün oldu. Yeri gəlmişkən, boşanma haqqında. Hardasa oxumuşdu ki, ayrıldıqdan sonra qadın başqa kişi ilə izdivac qurur, kişi isə heç kimlə. Ola bilsin… Otuz yaşda həyat hələ qurtarmır, hələlik isə xuliqanlarla məsələni ayırd etmək və toplantını aparmaq lazımdır! Əlbəttə, boşanma onun kimilərə yaraşmır, amma, şükür Tanrıya, son vaxtlar anlamağa başlayıblar ki, funksionerin (bu söz niyə bəzilərinin xoşuna gəlmir?) ruhi tarazlığı pasportdakı gərəksiz ştamplardan və alimentin ödənilməsi ilə bağlı sadə maliyyə əməliyyatlarından daha vacibdir. Liza da atasına daha çox bağlanar, yoxsa anasının qışqıraraq nələr dedyini, atasının nə cavab verdiyini qonaqlara təkrar-təkrar danışmağa başlayıb. Bax belə!

Sözün düzü, o fikrini həyat problemləri üzərində ona görə cəmləmişdi ki, raykomda baş verənlər (doğrudan da, əsl maxnoçulardır!) barədə düşünməsin. Şumilinin illərin təcrübəsinə dayanan bir prinsipi vardı: əvvəlcədən kefini pozmamalı, yoxsa heç bir əsəb və ürək buna dözməz. Bəzən işdə başını itirmək dərəcəsinə çatırdı, amma sonra məlum olurdu ki, qorxulu heç nə yox imiş! Doğrudur, bəzən bunun əksi də baş verirdi. Odur ki, indi əsas məsələ – gedib yerində araşdırmaq olmalıdır, bütün təfərrüatlar, səbəb və nəticələr onda üzə çıxacaq. O, gözünü çamadana zilləyib, qəribə mürgüyə dalmışdı, sanki yuxuya gedə bilməməsi haqqında yuxu görürdü. Onu mürgüdən bütün zala yayılan elan səsi oyatdı:

- Yoldaş Şumilindən xahiş olunur, təcili olaraq aerovağzal növbətçisinin otağına getsin.

Görəsən nə olub? Növbə dəyişərkən itirilmiş bron haqqında qeydi tapıblar, yoxsa bir sentyabr hay-küyündən başını itirmiş yerli komsomol katibi axır ki, buraya zəng eləyib, bəlkə Krasnoproletarski rayonunda baş vermiş fövqəladə halın səs-sədası Qara dəniz sahillərinə də gəlib çatıb? Nə isə, nəticədə bir neçə dəqiqə sonra o, 01.46-da havalanacaq təyyarəyə bilet aldı. Ancaq reysi təxirə saldılar və Şumilin yalnız beş saatdan sonra TU-154-ün trapına ayaq basa bildi. O, son dəfə isti və hamamdakı kimi rütubətli cənub havasını ciyərlərinə çəkdi. Ətrafı zülmət gecə sarmışdı, başı üzərində isə ulduzların şüşə həftəbecəri ilə süslənmiş göy üzü qaralırdı.

3

İllüminatorlardan qırov basmış təyyarə qanadının şübhəli tərzdə əsib-titrədiyi görünürdü. Stüardessa oturacaqların arasında professional ədayla dolaşaraq, sərnişinlərə qəzet və su paylayırdı. Onun arxasınca gecikmiş səs dalğası kimi ətir qoxusu yayılırdı.

Uçuş zamanı çox şeylər etmək olar: yatmaq, yemək, oxumaq, həyat haqqında fikirləşmək… Şumilin fikirləşirdi. Öz prinsiplərinə sadiq qalaraq, raykomda baş vermiş hadisə barədə fikirləşməməyə çalışırdı. Əvəzində son vaxtlar yaşadıqlarını xatırlayırdı: kurort görüşləri və tanışlıqları; məzuniyyətdən öncə aldığı və oxumadığı kitablar; yeni sahə həkimi – pansionata yollanmamışdan evlərinə qədər ötürdüyü Tanya adlı yaraşıqlı, cavan qadın; aeroport yolunda qızı üçün tələsik aldığı qırmızı, böyük, sanki laklanmış almalar… Yeri gəlmişkən,

dincəlməyə yollanmamışdan qabaq o, Lizkaya dəyməyə getmişdi və burada gözlənilmədən Qalya ilə boşanmaq barədə danışmalı oldu. Qalya istehzayla dedi ki, deyəsən o, öz karyerasına son qoymaq və əvvəlki peşəsinə qayıtmaq arzusundadır. Qalya fizika müəllimi işləyirdi və haqlı olaraq belə fikirləşirdi ki, «qırxbaşlı» 9 «Q»-ni itaətdə saxlamaq çoxminlik rayon komsomoluna rəhbərlik etməkdən asan deyil. Ancaq o başqa şeydən də xəbərdardı: raykomun birinci katibi işləmiş və öz əvvəlki peşəsinə qayıtmış adamı nadir nüsxə kimi muzeyə yerləşdirmək olar, amma muzeyə gələn adamlar yenə də onu fəaliyyətdə olan model kimi qəbul edəcəklər.

Ancaq… Əlbəttə, hər şey ola bilər, odur ki, hər şeyə hazır olmaq lazımdır, xüsusən də, baş verənlərdən sonra. Sözün düzü, son illərdə Şumilinin həyatı eləydi ki, «kim olmalı?» məsələsini onun yerinə, əsasən, başqaları həll edirdi. Bugünkü günə kimi… O, baş verənlərin qorxunc təfərrüatlarını təxəyyülündə canlandıraraq, yenidən xuliqanlar haqqında düşünməmək üçün anasının yanına köçdükdən sonra yazdığı dissertasiyanın eskizləri olan qovluğu hara qoyduğunu xatırlamağa çalışdı.

Aydınlıq gətirək.

Birinci katib heç vaxt professional komsomol işi arzusunda olmamışdı, ordudan tərxis olunduqdan sonra pedinstitutun tarix fakültəsinə də ona görə girmişdi ki, tarixçi olmaq istəyirdi. Amma neyləmək olar: ictimai fəaliyyət sevdası Şumilinin canına anasının südü ilə keçmişdi. Anası, demək olar, zavoddan çıxmırdı – gah növbəti toplantıya hazırlıq görür, gah mitinq təşkil edir, gah da özfəaliyyət dərnəyini məşq etdirir və özü də Mayakovskinin və ya Şipaçovun şeirləri ilə bu dərnəyin konsertlərində çıxış edirdi. Onda onlar zavodun yataqxanasında qalırdılar, atası çox vaxt ezamiyyətlərdə olurdu, odur ki,

onu qonşular yedirib-yatırırdılar. Artıq bu qonşular da yoxdur – onların hamısı əllinci-altmışıncı illərin yataqxanalarında və kommunal mənzillərində qalıblar.

Kolyanın anası Lüdmila Konstantinovna oğluna tapşırılan ictimai işlərə ev tapşırıqlarından və yeri gəlmişkən, «4»-dən aşağı enməyən qiymətlərindən daha çox əhəmiyyət verirdi. Məktəb yoldaşları və müəllimlər bilirdilər ki, hər hansı toplantının və ya ŞHK-nun hazırlığı Şumilinə həvalə olunubsa, narahatlığa və ona nəzarət etməyə ehtiyac yoxdur. Ancaq ictimai temperamenti anasından miras alan oğul, ondan fərqli olaraq, başqalarına əmr etməyi xoşlamırdı: başqalarının ondan asılı olması fikri Kolyanın qəlbini fərəhlə doldurmur, heysiyyatını oxşamırdı, əksinə, qayğı və narahatlıq hisləri keçirirdi. Bir sözlə, o, lider olmaq arzusu ilə alışıb-yanmırdı və bu da onun taleyində həlledici rol oynamışdı: ardıcıl olaraq dəstə şurasının sədri, sinfin komsomol təşkilatçısı, ÜİLKGİ məktəb komitəsinin, sonra hərbi bölüyün, daha sonra isə kursun və fakültənin komsomol katibi seçilmişdi. Nəhayət, diplomunu müdafiə edib, aspiranturaya daxil olduqdan sonra pedaqoji institutun komsomol katibi oldu. Amma yox, əvvəlcə onu katib seçdilər, yalnız bundan sonra aspiranturada saxladılar.

Şumilin pedaqoji instituta tarixçi olmaq üçün girmişdi, amma birinci kursda pedaqogika ilə, daha doğrusu, pedaqogikanın pis tədris olunan nəzəriyyəsi ilə yox, praktikası ilə maraqlanmağa başladı. O dərhal uşaq evi və baza məktəbinə hamilik edən pedaqoji dəstənin daimi üzvünə çevrildi. Üçüncü kursda isə özünü qeyri-adi qabiliyyətləri olan tərbiyəçi zənn edərək fərdi hamilik etməyə – sadə dillə desək, on dörd yaşında ikən yeniyetmələrlə iş üzrə inspeksiyanın yaxşı tanıdığı, məktəbdə çətin tərbiyə olunan uşaq kimi bilinən, ailədə isə «avara» adlandırılan Gennadi Salenkov adlı birisini pis yoldan

çəkindirməyə qərar verdi. Şumilin himayəyə götürdüyü oğlanın anasını heç görməmişdi. Eşitdiyinə görə, qadın ticarətlə məşğul olurmuş: orda-burda tutulan siyahılara yazılan, defisit malların satıldığı yerlərdə növbə tutan bu qadın «əmtəə-pul-əmtəə» zəncirində dolaşıb qalmışdı… Yanan hər şeyi içəri ötürən ata Salenkov mənzilinin hisli-paslı qapısını hər dəfə bu inadcıl tələbəyə açarkən, gözüyaşlı sızlayırdı: məni xilas edə bilmədiniz, heç olmasa, oğlumu qurtarın. Ancaq, təəssüf ki, Genka adam olmağa tələsmirdi, odur ki, onu koloniyaya göndərməli oldular.

Əvəzində Şumilin başqa oğlanı, Andrey Neuşevi xilas edə bildi, onun TPM-nə girməsinə kömək etdi, sonra zavodda yaxşı komsomolçu-gənclər briqadasında işə düzəltdi və artıq birinci katib olduqdan sonra onu «Beşilliyin gənc qvardiyaçısı» nişanı ilə təltif elədi. İndi isə, bir qədər geciksə də, Neuşev orduda xidmət edirdi (anası xəstə olduğuna görə ona möhlət vermişdilər) və bəzən öz hamisinə məktub da yazırdı. Doğrudur, bu məktublar «Yunost» radiostansiyasının «Səyyar poçtu»nda səsləndirilən məktublar kimi təmtəraqlı sözlərlə dolu deyildi.

Sonuncu kursda Şumilin ÜİLKGİ institut komitəsi katibinin müavini oldu və hesabat-seçki konfransında «Pedaqoji institut pedaqoqlar üçün!» şüarını ortaya atmasıyla ad çıxardı. Əgər kimsə pedinstitutların yalnız müəllim hazırladığını düşünürsə, böyük səhvə yol verir. Krasnoproletar komsomolunun gələcək rəhbərinin oxuduğu kurs ölkəyə şair və Sosialist mülkiyyətinin oğurlanması ilə mubarizə şöbəsinin inspektoru, radiodiktor və deltaplanerizm üzrə ölkə çempionu, kitabxanaçılar, redaktorlar, ekskursiya rəhbərləri, jurnalistlər, zabitlər, evdar qadınlar da bəxş etmişdi… Doğrudur, buradan müəllimlər də çıxırdı, onlar öz peşələrini sevirdilər, ancaq bütün söz-

söhbətləri ondan ibarət idi ki, indiki uşaqlarla indiki məktəbdə indiki proqram üzrə işləmək mümkün deyil. Ancaq işləməyə davam edirdilər.

Katib olan kimi Şumilin müsahibə-söhbətlər aparmağa başladı – müsahibəni komitə üzvləri abituriyentlərlə aparırdılar. O hesab edirdi ki, tərcümeyi-halları və zəmanət məktublarını bir tərəfə qoyub, araşdırmaq lazımdır, görək abituriyentlərdən hansılar pedaqogika ilə məşğul olmaq istəyir və hansılar sadəcə diplom üçün gəliblər? İmtahanlardan sonra isə gələcək müəllimlər öz pedaqoji «müqavimət materialları» ilə təcrübədə tanış olmalı, müəammalı insan materialının, yeri gəlsə, nə dərəcədə alicənab olduğunu və necə müqavimət göstərdiyni öyrənməli idilər. Hələ on il bundan qabaq «Uşaqlar – həyatın çiçəkləridir» ironik deyimi dəbdə idi. Lap əvvəllər bu sözlərdə heç bir ironiya yox idi: çünki uşaqlar, doğrudan da, həyatın çiçəkləridir, onlar açılmasa bar-bəhər də olmaz. Bağda açılmış ətirli, rəngbərəng çiçəklərin sıxlığına baxıb, gələcək məhsul barədə fikir yürütmək olar. Şumilin bu barədə çox ciddi fikirləşirdi. Əlbəttə, institutda təlim-tərbiyə məsələləri barədə yalnız səliqəli kurs yoldaşlarının konspektlərindən xəbər tutan tələbələr də az deyildi və şübhəsiz, sovet pedaqogikasının tarixində Şumilin şəxsiyyətinin rolunu da şişirtmək olmazdı, amma hər halda o işləyirdi, bunun özü az əhəmiyyət kəsb etmirdi!

Onda gələcək birinci katib hələ professional komsomol fəaliyyəti haqqında düşünmürdü – o, yeni mənəvi tərbiyə formaları üzrə dissertasiya mövzusunu təsdiq etdirmişdi və perspektivdə özünü gənc, ağıllı, xüsusən də, yaraşıqlı tələbə qızlar üçün şəfqətli dosent kimi görürdü. Elə bu vaxt ölkə pedaqoji elminə ciddi zərbə vuruldu: Şumilinə komsomol şəhər komitəsində vəzifə təklif etdilər. Artıq qərar verməli idi: elm adamı,

sən kiminləsən? O, çox götür-qoy etdi, çox adamlarla məsləhətləşdi. O vaxtlar həyatda olan atası özünəxas ədayla dedi:

- Madam ki anana çəkmisən, onsuz da bu işlə məşğul olacaqsan, özü də ictimai əsaslarla. Elə isə, bu işi pula görə görsən, daha yaxşı olar…

Lyudmila Konstantinovna, əlbəttə ki, dərhal «hə» dedi, Qalya isə «bitərəf» qaldı, çünki artıq başa düşmüşdü: eyni vaxtda həm komsomol rəhbəri, həm də ailə başçısı olmaq çətin məsələdir. Nəhayət, razılıq verdi və sonrakı həyatına qorkom binasının dolanbac dəhlizlərində davam etməyə başladı.

Enerjili, təmkinli, təşəbbüskar, çox şeylərdən xəbərdar olan Şumilin öz zahiri görünüşü ilə də komsomol rəhbəri roluna uyğun gəlirdi: ucaboylu idi, daim gülümsəyirdi, amma baxışları sərt idi, saçı dəblə, səliqəli qırxılmış olurdu, kostyumu əyninə yaxşı otururdu… Nitqində müəyyən qüsurlar vardı, loqopedlərin səylərinə baxmayaraq, bəzi sözlərdəki «l» səsini çox yumşaq tələffüz edirdi. Ancaq qəribə də olsa, bu qüsur adamlarda ona qarşı rəğbət oyadırdı: əvvəla, qüsursuz insan olmur, ikincisi də, tribunadan telediktor kimi danışan adamlar həmişə qıcıq doğururlar. Doğrudur, yeni müavin nitq söyləməkdən və canlı işlə məşğul olmaqdan daha çox qeydiyyat və nəzarət işləri ilə məşğul olurdu. Müxtəlif şəhər miqyaslı tədbirlər keçirən Şumilin fikir verib görmüşdü ki, işdə ümumi xəttin yaranmasına xidmət etməli olan toplantılar, müşavirələr, konfranslar çox vaxt formal xarakter daşıyır. Təşkilatçıları «çıxışçıların yerini dəyişməklə həyat dəyişmir» faktından daha çox uğursuz tərtib olunmuş məruzəçilər siyahısı narahat edirdi. Şumilin bu cür munasibəti qəbul etmirdi, vicdanlı əmək isə, məlum olduğu kimi, adama boş vaxtdan savayı hər şey verir – odur ki, həvəslə yazmağa başladığı dissertasiya artıq itirilmiş

böyük məhəbbətə oxşayırdı: keçmişə qayıtmaq mümkün deyil, yaddaş isə ölmür!

Şəhər komitəsində katibin yeni müavininin əməyini qiymətləndirirdilər: axı başqalarının əməksevərliyi qıcıq yaratsa belə, istər-istəməz rəğbətlə qarşılanır. Tezliklə Krasnoproletarski rayonunda (Şumilini burada pedinstitut vaxtlarından tanıyırdılar) UİLKGİ RK-də birinci katib yeri boşaldı – əvvəlki katib həmkarlar ittifaqında vəzifəyə təyin olundu. Şumilinin namizədliyi heç bir etiraz doğurmadı. Sözün açığı, bu dəfə o tərəddüt etmədi və heç kəslə məsləhətləşmədi.

Nəhayət, təbriklər səngidi, böyük kabinet onun gözündə adiləşdi, evinin qarşısında gözləyən xidməti maşina üzü öyrəşdi, təntənəli «birinci» sözü və onun əvvəl-əvvəl doğurduğu xoş duyğular bayağılaşdı. Bundan sonra işdə hansısa çatışmazlıqlarla, çığır-bağırla, töhmətlərlə, sinəsinin sol tərəfində davamlı ağrılarla müşayiət olunan ağır, yorucu işə başlamalı oldu. Rayon komsomolunun özünə vaxt ayırmağa vaxtı yox idi, o xalqa məxsus idi. Buna baxmayaraq, Şumilin işindən razı idi, ən vacibi isə yuxarı orqanlarda işləyən yoldaşları ondan razı idilər. O, qarşısında açılan perspektivlər barədə düşünməyə bilmirdi: şəhərin mərkəzi rayonlarından birinin birinci katibi olmaq bir növ dənizə açılmaq demək idi, buradan ən gözlənilməz limanlara yan almaq olardı. Onunla çalışan, yuxarı vəzifələrə çəkilən iş yoldaşları da onun üçün layiqli nümunə idilər. Əlbəttə, Şumilin çox ehtiyatlı idi, həmişə yeni işə başlayarkən yuxarıların buna nə deyəcəyini nəzərə alırdı, amma heç vaxt yalnız rəhbərliyin iltifatlı münasibətini əsəs tutub iş görmürdü. Bir dəfə buna görə başı da çəkmiş, xoşagəlməz vəziyyət yaranmışdı. Kimsə belə bir ideya irəli sürmüşdü ki, Krasnoproletar gənclərindən ibarət zərbəçi dəstəni Tula vilayətində aparılan tikinti işlərinə cəlb etsinlər. Bu vilayətdə adam-

ları müəssisələrə limit üzrə işə görütürdülər. Gülməli vəziyyət idi, ancaq bu əmri sakitcə yerinə yetirib, özünə sərf edən şəkildə yuxarılara məlumat vermək olardı. Ancaq birinci katib «yox!» dedi və bununla da bədxahların hədəfinə çevrildi. O özünün haqlı olduğunu sübuta yetirmək üçün o qədər enerji sərf etdi ki, bu enerji ilə kiçik bir peyki orbitə çıxarmaq olardı. Üstünə qumaş parçadan şüarlar atılmış yaşıl tikinti formaları uzun müddət maliyyə-təsərrüfat bölməsinin dəhlizində atılıb qaldı.

Ancaq bu formalar hər halda işə yaradı. Krasnoproletarski rayonunda bir uşaq evi vardı və əlbəttə ki, komsomol bu evə hamilik edirdi. Uşaqların doğum günlərində hədiyyələr alır, buradakı kitabxana üçün kitablar və təşviqat briqadası üçün konsertlər təşkil edirdi. Şumilin orada tez-tez olurdu və doğrusu, hər dəfə əhval-ruhiyyəsi pozulmuş halda qayıdırdı. Bir-birinə oxşayan, ata-anasız qalmış bu uşaqları birləşdirən ümumi bir cəhət vardı: hər yeni gələn adama elə baxırdılar ki, sanki onlar indi deyəcəklər: «Salam! Məni tanımırsan? Mən sənin atanam axı…»

Şəhər ətrafında yerləşən uşaq evi binasının tikintisinə hələ Şumilin rayona gəlməmişdən başlanmışdı. Binanın yeri yaxşı seçilmişdi: meşəlik, çay, yardımçı təsərrüfat – bunların hamısı şəhərdən cəmisi on kilometr uzaqlıqda. Ancaq bu on kilometr tikinti tresti üçün böyük məsafə imiş. Trest bu obyektdə işləyən briqadanı başlı-başına buraxdığına görə tikinti işləri illərlə uzandı. Onu da deyim ki, tikintinin yaxınlığında bağ evlərindən ibarət qəsəbə salınırdı və tikinti materialları və işçi qüvvəsi orada da tələb olunurdu.

Bu zaman uşaq evinin direktoru ÜİLKGİ RK bürosuna gəldi. O gün çağırılmış iclas çox uzun çəkdi. Bir həftə sonra isə şəhər kənarındakı obyekt rayon komsomolunun zərbəçi

tikintisi elan olundu. Yerli komsomol təşkilatlarının hər biri tikintidə işləmək üçün ciddi qrafik üzrə adamlar ayırırdı. Tikintidə işləyənlər üçün forma da bu zaman kara gəldi. Şumilinə irsən keçmiş möhkəm əsəb sistemi də işə yaradı. «Adam-saat» üzrə planı yerinə yetirməyənlər birbaşa Krasnoproletarski komsomolu rəhbərinin hüzuruna çağırılırdı. Nəticədə dekabrın 31-də buraya köçməli olan adamlara evin açarları təqdim olunmalı idi. Birinci katib isə yavaş-yavaş belə qənaətə gəlirdi ki, bayramlar olmasaydı, binaların tikintisi heç vaxt qurtarmazdı!

Raykoma birinci katib təyin olunandan sonra Şumilin digər istiqamətləri də yaddan çıxarmadan öz təlim-tərbiyə xəttini yürütməyə başladı. O, ciddi tədbirlər görərək pedinstitutu hərəkətə gətirdi. Çətin tərbiyə olunan xeyli yeniyetmə avtomobil qaçırmaq və dava-dalaş salmaq əvəzinə, öz artıq enerjisini raykomun iştirakı ilə yaradılmış güləş və boks seksiyalarında xərcləyir, yaxud hərbi-idman düşərgələrində hərbi hazırlıq keçirdilər. Komsomol briqadaları da yaxşı nəticələr verirdilər. Tələbkar kişi kollektivi – bu, sizin üçün əsəbləri pozulmuş, proqram və fənn arasında özünü min yerə vuran sinif rəhbəri deyil. Özlərini yaxşı tərəfdən göstərmişdilər… Ancaq, əvvəla, müəllif artıq hesabat məruzəsi stilinə keçmiş oldu, ikincisi də, əgər biz diqqətimizi birinci katibin rəhbərliyi altında Krasnoproletarski komsomolunun bacarmadığı, yaxud çatdırıb görə bilmədiyi işlərin üzərində cəmləsək, onun hansı hadisəyə görə təcili evə getməli olduğunu öyrənə bilməyəcəyik. Odur ki, yalnız bir şeyi qeyd etməklə kifayətlənək: sizə elə gəlməsin ki, qəhrəmanımız irəliyə doğru hərəkət edərkən heç bir maneəyə rast gəlmirdi. Çətinliklər kifayət qədərdi. Üstəlik, bəzi bədgüman yoldaşlar haqsızcasına düşünürdülər ki, onun təşəbbüskarlığı yalnız diqqət çəkmək, vəzifədə irəliləmək vasitəsidir.

Məhz bu səbəbdən, məsələn, o vaxtkı üçüncü katib Şnurkova ilə ciddi ixtilaflar yaşamalı olmuşdu. Yaxşı ki, sonralar həmin üçüncü katibi başqa vəzifəyə keçirdilər, indiki üçüncü katib Nadya Komissarova birincinin bütün sadəlövh təşəbbüslərini dəstəkləyirdi. İstənilən qərəzsiz adama bəlli idi ki, qəhrəmanımız heç vaxt Qalyanın incidilmiş qadın rəhmsizliyi ilə dediyi şəkildə özünə karyera qurmağa çalışmırdı.

Oxucu, əgər sən həyatda bu cür adamların olmadığına, onlara yalnız gerçəkliyi əks etdirən bədii ədəbiyyatda rast gəlindiyinə əminsənsə, onda mənim hekayətimi qatlayıb bir kənara qoya bilərsən.

- Belə oldu, hə? – bu sözləri eşidən Şumilin soruşardı.

- Hə, belə oldu!

4

Təkərlər yüngülcə beton yola toxundu və bir az öncə havada süzən təyyarə eniş zolağı boyunca şütüməyə başladı, sərnişinlər doğma baxışlarla bir-birlərinə sarı boylandılar. Aeroportdan çıxan taksi elə sürətlə gedirdi ki, elə bil, bir az da sürətlənsəydi uçacaqdı. Evdə heç kəs yox idi. Aydındır: istirahət günlərində Lyudmila Konstantinovna həmişə rəfiqəsigilin bağ evinə gedirdi. Onu təəccübləndirən başqa şey idi: ətrafa səpələnmiş uşaq oyuncaqlarına baxanda bəlli olurdu ki, baş verənlərdən sonra ilk dəfə Qalya Lizkanı qayınanasının yanında qoyub. Nə isə, o da öz şəxsi həyatı ilə məşğul olmalıdır, qayınanası və qayınatası isə yəqin ki, məzuniyyətdədirlər.

Şumilin divana oturdu və hadisənin təfərrüatlarını öyrənmək üçün dərhal Komissarovaya zəng etdi, ancaq nömrəni yığıb qurtarmamış xatırladı ki, bu, «telefon söhbəti deyil».

Yorğun və əzgin idi, yuxusuz gözləri acışırdı. Ən xoşagəlməzi isə onu öz ürək döyüntülərini belə həyəcanla dinləməyə məcbur edən inamsızlıq hissi idi.

Boş şeydir! Məsul işçi artist və ya idmançı kimi özünü ələ almağı bacarmalıdır. Duş. Tünd qatı qəhvə. Yüngülməcaz cins şalvar və tennis köynəyi əvəzinə ciddi boz kostyum və qalstuk. Bax belə, artıq hadisə yerinə və işə yollanmaq olar.

Rayon komsomolu ötən əsrlərdən qalmış, qədim vaxtlardan başı çıxan adamlar tərəfindən yaşıla boyanmış tikilidə yerləşirdi. Bu ev inqilabdan əvvəl tanınmış çay tacirinə məxsus imiş. Oktyabr inqilabından sonra evi istismarçıdan alıb komsomola vermişdilər. Altmış il sonra isə Şumilin malikanənin keçmiş sahibinin qızını, brilyantların ağırlığından halsızlamış mumiyaya bənzər gözəlçəni burada gəzdirir və məlumat verirdi:

- Bu bizim iclas zalımızdır…

- Aman Tanrım! – xanım bərkdən səsləndi. – Bu atamın yataq otağı idi, on beşinci ildə burada böyük mərəkə qopmuşdu: anam balerina Sobolinskayanı bu otaqda yaxalamışdı! Bu ad sizə nəsə deyir?

- Əlbəttə! – Rus baleti ulduzunun ağına-bozuna baxmayan adam olduğuna kədərlənən Şumilin cavab verdi.

Qonağı yola salarkən Şumilin ona öpmək üçün uzadılan, dərisi qırış-qırış olmuş əli tərəddüdlə sıxdı. Qarı isə atasının yadigarını satın alacağını bildirdi və kino səhnədəki kimi parıltılı «Mersedes»ə əyləşərək, çıxıb getdi.

- Demək, yataq otağıymış» - raykomun təşkilat şöbəsinin müdiri Oleq Çesnokov fikirli-fikirli dedi. – Mən də deyirəm, bəzən iclaslarda niyə adamın ağlına hətərən-pətərən fikirlər gəlir.

Ertəsi gün özüylə böyük bir çamadan gətirib, əşyalarını toplamağa başladı. O, bütün suallara kədərli cavablar verirdi:

- Telefonoqram gəlib. Malikanə iki yüz otuz yeddi min dollara satılıb, rublla bir qədər az eləyir. Onu hissə-hissə Braziliyaya daşıyacaqlar.

Üçüncü katib Nadya Komissarova da Şumilinin yanına bu xəbərlə gəlmişdi. O, mavi gözlərini geniş açıb, müəllim kostyumunun düyməsini əlləşdirir, «indi nə olacaq?» soruşurdu.

Şumilin doyunca güldü, sonra Çesnokovu çağırıb dedi ki, onun ağlını-zəkasını qiymətləndirir və buna görə də bazar günü tərəvəz bazasında işləməyə gedən TPM tələbələrindən ibarət briqadanın başçısı təyin edir.

Baza haqqında ayrıca danışmaq lazımdır: bu baza qaçılmaz olaraq, Minotavr kimi, gənc oğlan və qızlardan qurbanlar tələb edirdi – axı istirahət günlərində də vaqonları kimsə boşaltmalı, meyvəköklüləri çeşidləməliydi. «Vitaminləri hamı xoşlayır, bəs kisələri kim daşıyacaq?» - tərəvəz bazasının başdan-ayağa dəri paltar geymiş qırmızısifət direktoru deyirdi. Baxmayaraq ki, natural məmulatlara meyil etdiyinə görə onun özünü heç kəs şəhərin dəri emalı müəssisələrinə göndərmirdi. Nə isə, bazada həmişə komsomol briqadaları çalışırdı, vaxtaşırı Şumilin büro üzvləri başda olmaqla bütün raykom aparatını bu işə cəlb edirdi – qoy kütlələrdən ayrı düşməsinlər.

Belə-belə şeyləri xatırlayan birinci katib çalışırdı ki, baş verən hadisə haqqında düşünməsin, ancaq bu fikir diqqət vermək istəmədiyin ağrı kimi dayanmadan ürəyini sızladırdı. O, getdikcə addımlarını yeyinlədirdi, raykomun pillələrini az qala qaça-qaça qalxdı.

İlk baxışdan məlum olurdu ki, bütün aparat toplanıb və səbirsizliklə onun gəlişini gözləyir: bəs, ağa gəlib, hər şeyi yerbəyer edəcək. Maraqlıdır, necə?

Şumilin həmişəki qaydada qəbul otağının şüşə qapısını açdı. Yaraşıqlı, zövqlə ətirlənib-boyanmış katibə elektrik çıtırtısını xatırladan gülüşünü yarıda kəsdi.

- Salam, Nikolay Petroviç! Necə də qaralmısınız!

- Salam, Alloçka, hələ ərə getməmisən? Buraya girənlər yəqin sənin ardınca gəliblərmiş!

Qalın kirşan qatı Allanın yanaqlarının necə qızardığını gizlədə bilmədi. O, indi iş gününün sonunacan şən müdirə nə cavab verəcəyini fikirləşəcək.

Qəbul otağındakı qapı birbaşa birinci katibin otağına bitişik olan iclas zalına açılırdı. Zalda – yapma naxışları və rudimentar kamini olan böyük otaqda – uzun hamar stolun arxasında məhzun görkəmli Komissarova, Çesnokov və tez keçəlləşməyə başlamış, tanımadığı, sərt üz ifadəli cavan birisi əyləşmişdilər. Kədərlənməyə dəyərdi: ətrafda hər şey alt-üst edilmişdi. Adama elə gəlirdi ki, sonuncu basqınçı elə indicə tavana güllə sıxıb, hündür mərmər pəncərəaltının üstündən atlanıb qaçıb. Döşəməyə saxsı qırıqları, müxtəlif kollektivlərin və nümayəndə heyətlərinin raykoma hədiyyə etdiyi suvenirlər səpələnmişdi. Burada bütün divar boyunca gözəl bir sərgi qurulmuşdu! Bunun üçün xüsusi stellajlar sifariş etmişdilər. Küncə qoyulmuş bayraqlardan birinin dəstəyi yarıyacan çıxarılmışdı, stolun üstündə laxtalanmış xurmayı gölməçə vardı. «Qandır?!» - Şumilin üşəndi.

- Çəhrayı portveyndir, - onun baxışlarını tutan gözüaçıq gənc özünü təqdim etdi: - RDİİ təhqiqat şöbəsinin inspektoru kapitan Mansurov… Mixail Vladimiroviç.

- Deməli portveyndir? – kapitanın və tabeçiliyindəki adamların əlini sıxan birinci katib bir daha soruşdu.

- Elədir ki var, - inspektor təsdiqlədi. Görünür, o belə hesab edirdi ki, qarşısındakı komsomol rəhbəri olsa da, hər halda

rəhbərdir, odur ki, rəsmi tonda danışırdı. Ancaq onun səsində elementar şeyləri izah etməli olan mütəxəssis ironiyası da vardı. – Şüşələrdən biri stolun altındadır, digərini isə pəncərə altlığına vurub sındırıblar. Portveyni şəhər spartakiadasının kuboklarında içirmişlər, kuboklardan biri yoxdur. Ola bilsin oğurlanıb.

- Başqa heç nə oğurlanmayıb?

- Əməkdaşlarınız deyirlər ki, qalan şeylər yerindədir… Başqa heç nə oğurlanmayıb.

- Burada oğurlanmalı nə var ki!? – Çesnokov gülümsədi.

- Necə yəni? Bəs çexlərin hədiyyə verdiyi büllur? – Komissarova sözə qarışdı.

- Adətən yeniyetmələr maddi dəyərlərə çox əhəmiyyət vermirlər. Dediyiniz bülluru onlar sındırıb töküblər. – Kapitan döşəməyə səpələnmiş qırıntılara işarə etdi.

- Sizə niyə elə gəlir ki, bunu yeniyetmələr edib? – Şumilin incik səslə soruşdu. O, yeniyetmələrlə işin yaxşı təşkilinə görə bu yaxınlarda raykom katibinin əlindən fəxri fərman almışdı.

- Ona görə ki, yaşlı cinayətkarlar, bir qayda olaraq, bu cür mənasız hərəkətlərə yol vermirlər və bu qədər iz buraxmırlar.

- Bəli, məhz mənasız! – Təşkilati işlər müdiri onun səsinə səs verdi. – Raykoma soxulmaq kimə lazımdır – bura «komission» mağazanın müdirinin mənzili deyil axı.

- Yoldaş Çesnokov, hardan bilirsiniz ki, komission mağazanın müdirinin evi qarət edilib? – Mansurov soruşdu.

- Bilmirdim, misal üçün dedim. Kimi soyublar?! Aydındır: bu xidməti sirdir.

- Bəlkə bu, təxribatdır?! – Komissarovanın bol-bol tuş sürtülmüş uzun qaşları çatıldı.

- Əlbəttə, - Çesnokov ciddi səslə dedi. – İki rayon arasında həyasızcasına hərbi konflikt yaratmaq cəhdi!

- Oleq İvanoviç! Belə zarafatların yeri yoxdur! – Üçüncü katib onun sözünü kəsdi. Bu səslə hesabaalma vərəqinə qeyd edilməklə töhmət elan edirlər.

- Təxribat? Təxribat olduğunu düşünmürəm. Ancaq bu versiya da yoxlanır, - inspektor qətiyyətli səslə dedi.

- Deməli belə? Sizcə, bu, yeniyetmələrin işidir? – Şumilin bir daha soruşdu.

- Mənə görə, hə. Həm də təkcə mənə görə yox, - kapitan istehzayla qımışdı, - şübhələriniz varsa, baş müstəntiq mayor Botviçə zəng edə bilərsiniz. Bu da nömrə. Yox, əgər sizi işin təfərrüatları maraqlandırırsa, yoldaş birinci katib, qoyun izah edim: dünən şəhərin operativ qrupu çağırışla burada idi, müstəntiq, ekspert və kinoloq təhqiqat aparıblar. İndi bu işlə biz məşğul oluruq. Hadisə yerinə baxış keçirildikdən sonra çox şeylər aydın oldu: buraxılmış izlərə görə burada iki adam olub. Onlardan biri ucaboyludur, tünd-mavi sviterdə olub (sviter stellajdakı çata ilişib). Cinayətkarlar içəriyə axşam saat doqquz-on arası açıq pəncərədən soxulublar. Burada iki şüşə çaxır içiblər və sərxoş vəziyyətdə, yəqin ki, oğurluq etmək istəyiblər. Doğrudur, hadisə yerinə baxış keçirdikdən sonra aydın oldu ki, onların başqa otaqlara, məsələn, mühasibata girmək niyyətləri olmayıb.

- Deyirəm axı, oğurlanmalı heç nə yoxdur! – Çesnokov müdaxilə etdi.

- Dayan, - Şumilin üz-gözünü turşutdu.

- İzah edirəm, - kapitan davam etdi. – Ola bilsin, cinayətkarları kimsə hürküdüb. İt onların izini «Novıye doma» dayanacağına kimi sürdü. Dayanacaq sizin pəncərədən də görünür. Hələ ki şahidlər tapılmayıb. Bu gün üçün əlimizdə olanlar bun-

lardır. Professional təfərrüatları nəzərə almasaq. Həddi-büluğa çatmamış uşaqlar üzrə inspeksiya da bizə qoşulub. Müstəntiq oğurluğa cəhd faktı üzrə cinayət işi açıb.

- Aydındır, - inspektorun təkəbbürlü ədasından pərt olmuş Şumilin sözə başladı. – Bütün bunlar çox gözlənilməzdir…

- Cinayət həmişə gözlənilməzdir. – Mansurov dedi. – İlk baxışdan…

- Eləmi? – Birinci katib eyni tonda səsləndi. – Bizim üçün, yoldaş kapitan, istərsənizsə, bu həm də şərəf məsələsidir…

- …Bu, komsomolun şanlı tarixinin təhqir olunmasıdır, - Komissarova bu fikri ehtiraslı səslə davam etdirdi, - bu, komsomol nişanı gəzdirən hər kəsə meydan oxumaqdır, şəhərdə ən yaxşılardan olan bütün rayon təşkilatının işinə kölgə salmaqdır. Təsəvvür edin ki, RDİİ-nə soxulublar…

- Bağışlayın, təsəvvür edə bilmərəm. Adətən, bizdən qurtulmağa çalışırlar.

- Nadejda Gennadyevnanın emosionallığını başa düşmək olar, – üçüncü katibi əsəbi baxışlarla süzən Şumilin yenidən sözə başladı, - bu, doğrudan da, meydan oxumaqdır, ona görə də bizim rayon operativ dəstəsinin də axtarışa qoşulması vacibdir.

- Bu dəstə şəhərin ən yaxşılarındandır! – Komissarova qürurla əlavə etdi.

- Krasnoproletarskidədirsə – deməli, ən yaxşıdır, - təşkilati işlər müdiri kənara donquldandı.

- Bunu biz də bilirik, - kapitan gülümsündü. – Sizin müdafiə-idman şöbənizlə hər şeyi danışmışıq, drujinaçılar artıq yeniyetmələri sorğu-sual edirlər, bəzi yerlərdə növbə çəkirlər.

- Yaxşı. Başqa nə işlər görə bilərik?

- Bu zibilləri buradan yığışdıra bilərsiniz – onları sizin gəlişiniz üçün saxlamışdıq. Başqa nə? Gecələr pəncərəni bağlamağı unutmayın. Pəncərə bağlı olsaydı, bəlkə də, içəri girməzdilər. Mən isə icazənizlə raykom işçilərilə söhbət edəcəyəm…

İnspektor onlarla vidalaşaraq qapıya doğru getdi. Qırıntılar onun ayağı altında xırçıldayırdı.

- Pəncərəni kim açmışdı? – O çıxdıqdan sonra Şumilin acıqlı soruşdu.

-Mən! – Çesnokov sakitcə boynuna aldı.

- Sən?! Nə vaxt?

- Hələ may ayı idi, aparatın iclası zamanı. Yadındadır, sən dedin: «Oleq İvanoviç, pəncərəni aç, elə bil yay ayıdır!»

- Nə çərənləyirsən?

- Elə danışırsan, sanki yay vaxtı pəncərənin taybatay açıq olduğunu bilmirsən.

- Heç olmasa gecə vaxtlarında bağlamaq lazımdır axı!

- Sən özün dəfələrlə hamıdan axırda çıxmısan, pəncərəni həmişə bağlamısan?

- Y-yox… Yaxşı, bəsdir. Başqa şeylərdən danışaq: siz heç olmasa inspektordan utanardınız. Oleq, sən zarafatının yerini bil.

- Bağışlayın, komandir.

- Yaxşı. Bu mənzərəni birinci görən kimdir?

- Mən, – Komissarova işlər müdirinin arxasından boylandı. – Toplantıya görə şənbə gününü iş günü elan etmişdim, saat doqquzda işə gəldim, qapını açdım – halım pisləşdi. Kononenko artıq işləmir. Sən məzuniyyətdəsən. Mənsə ömrümdə bir dəfə də olsun milis çağırmamışam. 02-yə zəng etdim, sonra sənə teleqram vurdum.

- Belə. Partiya rayon komitəsinə özünüz xəbər verdiniz?

- Özümüz.

- Afərin. İlk reaksiya göstərən kim oldu?

- Onun bağına növbətçi zəng elədi. Kovalevski dedi ki, komsomol adamı darıxmağa qoymur.

- O mənim məzuniyyətdən geri çağırıldığımı bilirmi?

- Yəqin ki bilir.

- Yaxşı. Şəhər komitəsindən nə xəbər?

- Qəbul otağına mən özüm zəng etmişəm.

- Oldu. Hələlik hər şey yaxşıdır. Cari işlərə baxaq. Nadya…

- Mən pioner təbriki ilə bağlı müşavirə keçirməliyəm.

- Get keçir. Oleq, sən iyirmi dəqiqədən sonra mənə toplantının keçirilməsi ilə bağlı məruzə edəcəksən, saat birin yarısında isə aparatı toplayarıq. Hələlik qoy büro üzvlərindən kimi tapsalar, zəng edib çağırsınlar. Şəhəri cümə günündən tərk etməyiblərsə, saat on ikiyə kimi evdə olacaqlar. Saat ikidə büronun fövqəladə iclası olacaq. Ona kimi kiçik bir iməcilik təşkil edin – qoy uşaqlar iclas zalını qaydaya salsınlar. Hər şey aydındır?

- Büro üzvlərinə nə deyək? – Çesnokov soruşdu.

- Heç nə. Deyin ki, onları mən çağırıram.

… Yarıaçıq qapıdan təmizlik işlərinin səsi gəlirdi. İclas zalında saxsı qırıntılarını xakəndaza toplayır, yaş əskiylə döşəməni silir, stulları yerbəyer edir – srağagünkü hadisənin izlərini yox edirdilər.

- Yaxşı-yaxşı süpür! – Çesnokov komanda verirdi. – Görmürsən, burada şüşə qırıntısı qalıb!

- Bir dəfəyə hamısını süpürmək olmur, - Alla özünə haqq qazandırırdı. – Şüşə qırıntıları parketə sancılıb, xadiməyə demək lazımdır, əlini kəsməsin…

«Bu şüşə qırıntıları təkcə əl kəssəydi, nə vardı ki!» - Şumilin hirslə donquldandı və partiya raykomundakı növbətçinin nömrəsini yığdı, ona gəlişi barədə məlumat verdi, dedi ki, hadisə yerində araşdırma aparır. Növbətçidən öyrəndi ki, Sov.İKP Krasnoproletarski rayon komitəsinin birinci katibi Vladimir Sergeyeviç Kovalevski sabah səhər onu görmək istəyir.

5

Yarım saatdan sonra Şumilin öyrəndi ki, ona həvalə olunmuş raykomda iki fövqəladə hal baş verib: naməlum xuliqanların buraya soxulması (bununla milis məşğul olurdu) və məlum aparat işçilərinin ucbatından ənənəvi toplantının baş tutmaması (bunu Şumilinin özü araşdırmalı idi). Hər şey kadrların yarıtmazlığındandı. Dörd il əvvəl onun sağ əli Viktor Kononenko idi. O ağıllı, təcrübəli, sadiq yoldaş idi, belə müavinlərə az-az rast gəlinir. Kononenko təlimatçı vəzifəsindən ikinci katib pilləsinə qədər yüksəlmişdi, aparat işlərini incəliklərinəcən bilirdi. Birinci katib məzuniyyətə çıxdıqda və ya «Sputnik» xəttilə turist qrupunun başında xaricə getdikdə narahatlıq keçirmirdi – Vitya onu pis vəziyyətdə qoymazdı. İndi isə, çətin dəqiqələrdə ona zəng etmək belə mümkün deyil: keçmiş ikinci katib indi BAM-dakı sahələrdən birndə komsomolu idarə edirdi. Amma komsomolda qəfil keçidlər olmur – hər şey əvvəlcədən danışılırdı, elə tikinti mühəndisi olan Kononenkonun özü də çoxdan operativ genişliyə çıxmaq istəyirdi.

Yeri gəlmişkən, ay yarım bundan qabaq Şumilinlə onun arasında maraqlı söhbət olmuşdu. Onlar gecə yarısına kimi

oturub, səhər tezdən təhvil verməli olduqları hansısa arayış üzərində işləyirdilər.

- Bilirsən, Kolya, - Kononenko siqaretini tüstülədərək dedi, - komsomolda belə bir ifadə var: «lazımdır…»

- Bilirəm, - ikinci katibin birdən-birə nə üçün ironiya etdiyini başa düşməyən Krasnoproletarski komsomolunun rəhbəri mızıldandı.

- Demək istəyirəm ki, - Kononenko əlilə siqaret tüstüsünü dağıdaraq dedi, - bəzən mənə elə gəlir, bizim raykomda bu ifadə çoxdandır ki, işgüzar sahədən kağız üzərinə köçüb.

- Deməli, belə? – Şumilin üzündə yalançı təəccüb ifadəsi yaradıb, makina kağızlarını kənara itələdi. – kağız-kuğuz aludəçiliyi ilə mübarizə metodları haqqında danışmağın əsl vaxtıdır. Səni diqqətlə dinləyirəm, Vitya!

- Buyur! Biz, Kolya, daim hansısa mənfi hallarla, çatışmazlıqlarla mübarizə aparırıq, amma ilk növbədə özümüz özümüzlə mübarizə aparmalıyıq, çünki bax, bu kağız-kuğaz aludəçiliyi – bu, təbiət hadisəsi (yağış və qar kimi) yox, bir fəaliyyət növüdür. Daha dəqiq desək, fəaliyyətsizlik…

- Hə, sən nə təklif edirsən? Arayış verməyək?

- Bu, qurşaqdan aşağı zərbədir. Mən heç nə təklif etmirəm. Hələ mən özüm də bilmirəm…

- Elə bilirsən bu, magistralda sənə bəlli olacaq?

Kononenko fikrə getdi, sanki suala daha əhatəli cavab vermək istəyirdi. Stolun üstündən bir yazılı kağız götürüb, dedi:

- Qulaq as, gəl bax burada «zəif fəaliyyət» əvəzinə yazaq ki, əslində heç nə etməmişik» - nə deyirsən?

Ümumiyyətlə, ikinci katib «donquldanmağı» sevirdi və bununla iş zamanı da məşğul olurdu. Ancaq başqaları kimi işi bir kənara qoyub donquldanmırdı. Odur ki, məzuniyyətə ge-

dərkən Şumilin çox rahat idi. Əgər Kononenkonu ondan belə tez alacaqlarını bilsəydi! Hə, bu məsələdə fürsəti qaçırmışdı: birinci katib hər şeyi əvvəlcədən hiss etməlidir!

Sonrakı qəmli hadisələri bərpa etmək çətin deyildi.

Raykomda tək qalan üçüncü katib Komissarova toplantı iştirakçılarına pioner salamı təşkil etməklə məşğul idi və işləri başlı-başına buraxmışdı. Aldadıcı bir təəssürat yaranmışdı, guya iş aparılır, nəzərdə tutulan məsələlər həll edilib və başqa hədəflər müəyyənləşdirilir, real işə gəlincə isə budur, şəhər miqyaslı tədbir pozulmaq təhlükəsi ilə üzləşmişdi. Xırda-para nə işlər görülübsə, bir neçə gün əvvəl məzuniyyətdən qayıtmış təşkilati işlər müdiri Çesnokovun sayəsində görülüb. Yaxası-açıq dəri pencək geymiş Çesnokov iri qarnıyla havanı yara-yara raykomda ora-bura vurnuxur, eyni vaxtda iki telefonla danışır, iki təlimatçıya tapşırıqlar verir və makinaçı qıza öz məruzəsini diktə edir… Bəlkə, onu Kononenkonun yerinə götürsün? Şəhər komitəsində də onu məsləhət görürdülər.

Budur, qıvrımsaç Çesnokov birinci katibin qarşısında dayanıb, sədaqətli baxışlarını ona zilləyib və toplantıya hazırlıq barədə məlumat verir.

- Birinci bənd. Sədarət. Dəqiq gələcəklər: Kovalevski, komsomolun şəhər komitəsinin katibi Okolotkov, Sovet İttifaqı Qəhrəmanı general-leytenant Pankov, Sosialist Əməyi Qəhrəmanı toxucu Sablina, qurultay nümayəndəsi və büromuzun üzvü Qurkina, pedaqoji institutun rektoru Şoroxov… Hələlik bunlardır. Bir kosmonavt, dram teatrından tanınmış aktyor və mütləq veteran da çağırmaq lazımdır. Veteran çox danışan adam olmamalıdır, yadındadır, keçən il bir qoca düz bir saat ayağını üzəngiyə necə qoyması barədə danışdı…

- Oleq, sən, ümumiyyətlə, nə danışdığını bilirsən?

- Başa düşdüm. Danışmaram. İkinci bənd. Sənin məruzən. Muxindən başqa bütün şöbələr özlərinə aid hissələri verib-lər, mən də onları birləşdirmişəm. Alla onları çap edir, sən bir rəhbər kimi əl gəzdirə bilərsən.

- Yeniyetmələrlə iş barədə faktları unutmamısınız?

- Xətrimə dəyirsən, komandir! Loktyukovla Komissarova hər şeyi düzüb-qoşublar. Himayəmizdəki uşaq evi haqqında məlumat lap əla alınıb!

- Lap yaxşı! Sonra?

- Çıxışçılarla bağlı problem var. Təbliğat şöbəsi hələ ki heç kimi hazırlamayıb. Muxinlə özün danış. Mənimkilər çap işçisi, inşaatçı və iyirmi dörd yaşlı elmlər namizədini hazırlamaqla məşğuldurlar, təsəvvür edirsən? Digər şöbələrdən aşağıdakılar olacaq: pedaqoji institutdan tələbə (birinci kursda oxuyur, sən onu tanımırsan), idmançı, əsgər, yaradıcı gəncliyin nümayəndəsi, həmişəki kimi Poluboyarinov çıxış edəcək. Hə, tamam unutmuşdum, Mayonez zavodundan… nəydi onun adı?

- Kobankovu deyirsən?

- Hə, onu. O öz toplantıları üçün əla hesabat mətni yazıb. Ürəkdən tikan çıxarır. Əsl istedaddır!

- Onların toplantısı nə vaxt olacaq?

- Sabah. Birinci onların toplantısı olacaq.

- Hə? Orada iştirak etmək lazımdır. – Şumilin stolüstü təqvimə qeyd etdi.

- Çıxışlar barədə: məktəblər şöbəsi «Parta arxasında savaşda olduğu kimi!» adlı inşa hazırlayır.

Birinci katib həvəssizcə gülümsəyərək soruşdu:

- Cəmisi neçə çıxışdır?

- Doqquz. Onlardan ikisi ehtiyat çıxışıdır.

- Neçəsi hazırdır?

- İkisi: Kobankov və Poluboyarinov.

- Toplantı çərşənbə günü olacaq! Elə bundan başlamaq lazım idi. Sonra?

- Üçüncü bənd. Dəvətnamələr. Hələ həftənin əvvəlindən çap edilib, artıq paylamışıq. Bu da nümunə. – Çesnokov basmanaxışlı, qırmızı üzlü dəvətnaməni stolun üstünə qoydu.

- Qəşəngdir, - birinci katib başını yellədi. – Belə çıxır ki, raykom hazır deyil, amma dəvətnamələr artıq paylanıb. Toplantını yaraşıqlı biletlər üçün keçirmirik axı! Sonra?

- Dördüncü bənd. Alqışlayan qrup. Dramatik teatrdan qrup cəlb etmişik: onları eşidəndə adam qalxıb oxumaq istəyir…

- Toplantı günü tamaşada-filanda oynamırlar ki?

- Kim?.. Yəqin ki, yox…

- Yoxla.

- Aydındır. Beşinci bənd. Təbliğat şöbəsi plakatları hələ hazırlamayıb, Muxinlə özün danış. O bütün süallara bir cavab verir: işçi qaydada həll edərik. Yeri gəlmişkən, kino haqqında – o işçi qaydada kinonu da sifariş etməyib. Qorxuram son anda «Sentrnauçfilm»i gətirsin. Götür zəng elə, bəlkə, dublyaj olunmamış film verdilər. Fəallarımızı sevindirmiş olarıq.

- Verməzlər?

- Niyə?

- Çünki ziyanlıdır!

- Anladım, komandir. Onda bizim üçün film alan şəxsləri kənarlaşdırmaq lazımdır.

- Nə üçün?

- Çünki burjuaziya ideologiyası ilə zəhərləniblər: axı onlar yalnız dublyaj olunmamış filmlərə baxırlar. Dəhşətdir! Altıncı bənd. Nəqliyyat işləri ilə Şesiopalov məşğuldur. Mən ona dedim ki, əgər avtobus məsələsini həll etməsə, adamları öz belində daşımalı olacaq.

- Avtobus üçün məktub yollamısınızmı?

- Hələ yox.

- Neçə məktəbdən pionerlər gələcək?

- Beş.

- Onları hara toplayacaqsınız, harada məşq edəcəklər?

- Deyəsən, sarayda.

- Direktorla danışmısınız?

- Deyəsən, hə…

- Deyəsən… Toplantıya üç gün qalıb, dəqiq bilməlisən! Deyəsən… Sonra?

- Yeddinci bənd. Səhnə, sədarət, avtotəsərrüfatla əlaqə, səs rejissurası – bütün bünlarla Muxin məşğuldur. Söz verib ki, işçi qaydada həll edəcək, onunla özün danış.

- Deməli, bu iş də görülməyib, - Şumilinin sifəti tutuldu.

- Səkkizinci bənd. Adamların zalda əyləşdirilməsi qaydası. Uşaqlar bununla məşğuldur, Zayaşnikov pedaqoji institutun birinci kursunu gətirəcək, mənimkilər müəssisə və təşkilatlardan adamların gəlişini təmin edəcəklər, məktəblilərlə sığortalanarıq. Əgər zalda bircə boş yer qalsa, məni qaçmağa cəhdə görə güllələyə bilərsən. Doqquzuncu bənd. Drujinniklər. Loktyukov tədbir görüb. Göy qurşağının bütün rənglərini təmsil edən qurşaq bağlamış otuz rayon karatisti növbə tutuacaqlar. Zarafat edirəm. Onuncu bənd. Bufet. Danışmışam: yeməkxana tresti iki stol təşkil edəcək. Kitablar və vallar qoyulmuş köşklər də olacaq, siyahıya bax – orda maraqlı şeylər var… On birinci bənd. «Komsomolets» qəzetindən müxbir çağırmışam, sənin adından zəng etmişdim, radiodan da adam gələcək. Televiziyadan dedilər ki, bizi keçən dəfə çəkiblər, nə qədər olar? Əslində bunu Muxin etməli idi, amma kütləvi informasiya vasitələri ilə işləməyi heç kimə etibar etmirəm. Məsələn, sən sonuncu dəfə öz şəklini qəzetdə haçan görmüsən?

- Nədir ki?

- Heç nə. On ikinci bənd. Pioner salamı. Özün məşğul ol: Komissarova həmişəki kimi əməlli-başlı misteriya yaradıb. Təbillər, fanfara, körpə uşaqların şeir deməsi, sonda bütün sədarət qırmızı qalstuk taxır.

- Qurtardın? – Şumilin yenə gülümsədi.

- Toplantı ilə bağlı, hə.

- Yaxşı. Zəif yerləri aparatda müzakirə edərik. Sən Komissarova ilə birlikdə sabaha əhatəli ssenari hazırla. Başqa?

- Podleşşikov yenə məktub yazıb.

- Sərgi ilə bağlı?

- Yox, sərgi ilə bağlı ona çoxdan cavab vermişik, sakitləşib.

- İndi nə istəyir?

- Xalq teatrı «Qırmızı yelkənlər»in motivləri əsasında pantomimo tamaşası hazırlayıb.

- Maraqlıdır!

- Podleşşikov hiddətlənib, yazır ki, nə üçün səhnədə «Assol alt paltarında ora-bura qaçır», kapitan Qrey isə «qurşağacan çılpaqdır».

- Bəs niyə bununla sənin şöbən məşğul olur?

- Muxinə tapşırsaq, hər şeyi korlayacaq.

Birinci katib fikrə getdi: Podleşşikovun praporşik hərbi rütbəsi vardı, istefaya çıxdıqdan sonra nizami təlimlərdə xərcləyib qurtarmadığı enerjisini epistolyar janra həsr etmişdi. O, əsasən ədəbiyyat və incəsənətlə maraqlanırdı, ancaq yeri düşəndə iqtisadiyyat, mənəviyyat, hüquq məsələləri üzrə də fikir söyləməkdən çəkinmirdi… Raykom çoxdandır ki, onunla yorucu yazışmalar aparırdı.

- Yaxşı, - Şumilin bir qədər götür-qoy etdikdən sonra razılaşdı. – Adi qaydada cavab yaz. Yaz ki, məktub raykomda

müzakirə edilib, teatrın bədii rəhbəri ilə söhbət aparılıb. Qeyd elə ki, rejissor pis niyyətdə olmayıb, o sadəcə Qrin qəhrəmanlarının romantikliyini və hislərinin çılpaqlığını göstərməyə çalışıb. Gəncliyin işlərinə diqqət yetirdiyinə görə ona təşəkkür etməyi unutma.

- Başa düşdüm, komandir.

- Başqa?

- Nİİ TD-də mühəndis ştatı boşdur, maaşı yüz otuz manatdır. Sənin adından Smirnovla danışmışam, o, təlimatçı götürməyə razıdır.

- Belə! Hansı şöbəyə?

- Hər halda Muxinin şöbəsinə yox! Mənim təlimatçılarım nə qədər təşkilatla işləyirlər, bunu özün də bilirsən.

- Yaxşı, fikirləşərəm. Ancaq icazə ver, gələcəkdə öz adımdan mən özüm danışım.

- Aydındır, Nikolay Petroviç.

- Mənim adımdan başqa heç nə danışmamısan?

- Y-yox.

- Şükür! Bura bax, sən bilirsənmi ki, şəhər komitəsi Kononenkonun yerinə səni məsləhət görür?

- Məni?

- Səni.

- Əlbəttə, bilirəm.

- Bəs bu barədə nə düşünürsən?

- Həmişə hazıram!

- Mənə görə isə, Oleq İvanoviç, hələ hazır deyilsən, yəni həmişə hazır deyilsən. Bayaqkı inspektorun təbirincə desək, izah edirəm: sən onun yanında nə hoqqa çıxarırdın? Sən sirk məktəbini bitirmisən, yoxsa iqtisadiyyat fakültəsini?

- Günahım var, komandir.

- Bilirsən, Oleq, iyirmi dörd yaşında ikinci katib olmaq ciddi məsələdir: geriyə çəkilmək, büdrəmək olmaz. Ən əsası isə işini sevmək lazımdır. Bax, belə.

- Əvvəla, Nikolay Petroviç, sirk məktəbi barədə, - Çesnokov incimişdi. – Sənə işçi lazımdır, yoxsa qəzetlərdəki baş məqalələri öz sözləri ilə və hər şeyi işçi qaydada həll edən kloun? Sevgiyə gəlincə, toyqabağı hamı «hə» deyir.

- Sonra isə məlum olur ki, bu hesablanmış nikah imiş.

- Statistikaya görə ən rifahlı nikahlar hesablanmış nikahlardır.

- Bəli, məhz rifahlı.

- Nikolay Petroviç, biz sənlə kadr məsələlərini müzakirə edirik, yoxsa eşq izhar edirik?

- Yaxşı, sonra davam edərik. İndi isə de görüm: xuliqanlar təsadüfən buraya soxulmuşdular, yoxsa burda başqa bir şey var?

- Əminəm ki, təsadüfən. Məsələnin iyrənc tərəfi də məhz budur!

- Belə düşünürsən? Yaxşı, aparatı topla.

Əməkdaşlar yava-yavaş toplaşırdı, Şumilin isə düşüncələrə dalmışdı: hə, Çesnokov onları tərk etmiş Kononenkoya heç oxşamır, işlər müdiri ikinci katib olsa, birinciliyə can atmağa başlayacaq, doğrudur, bu zaman Şumilin artıq başqa işə keçmiş olacaq, amma hər halda bu fikir onun xoşuna gəlmirdi. O, Kovalevski ilə baş tutacaq söhbət haqqında da düşünürdü. Vladimir Vladimiroviç adamı danlayanda da heç vaxt səsini ucaltmır, ayağını yerə vurmurdu, həmsöhbətini lağa qoyurmuş kimi danışırdı. Ancaq ümidini boşa çıxarmış əməkdaşın partiya işinə yaramadığına əmin olduqdan sonra onun işinə çox tez və amansızcasına əncam çəkirdi. Cəbhə keçmiş çox adamlar belə edirlər.

Sabah Kovalevski ilə edəcəyi söhbət onu heç açmırdı: günah həmişə birincidədir, bu qanundur. Bundan başqa, Şumilin neçə il idi ki, komsomol işində çalışırdı, özünü yaxşı funksioner saymağa alışmışdı, odur ki, sərxoş yeniyetmələrin bu sərsəm hərəkəti onun heysiyyətinə toxunurdu. Bu niyə məhz mənim rayonumda baş verməliydi? Şəhərdə gənclərlə az məşğul olan raykomlar nə çox! Bir şey də vardı: suda xilas olduqdan sonra qəlbinə hakim kəsilmiş narahatlıq hissi səbəbsiz, səbəbsiz olduğuna görə də dəfolunmaz günah hissi ilə çulğaşmışdı.

Şumilin iclas zalına gəldi: hər yer səliqə-səhmanlı idi, sanki heç nə baş verməmişdi. Təkcə suvenirlər qoyulan stellajlar boş görünürdülər.

Raykom işçiləri həmişəki qayda üzrə uzun, hamar stolun ətafına əyləşdilər: hər şöbə üçün xüsusi yerlər ayrılmışdı və təlimatçılar öz müdirlərinin ətrafında qruplaşmışdılar. Başqaları üçün nəzərdə tutulmuş yerlərdə oturmaq yaxşı hal sayılmırdı.

Stolu idarə edən birinci katibin sol tərəfində, Kononenkonun yerində tərəddüd keçirən Çesnokov, sağ tərəfdə isə həmişəki kimi müşavirədən qaçıb gələn Komissarova əyləşmişdilər. Onlardan sonra təlimatçılarla birlikdə şöbə müdirləri gəlirdi: tələbə şöbəsi – Nadya Bıkovskaya, müdafiə-idman şöbəsi – İvan Loktyukov, qeydiyyat şöbəsi – Olqa Lyaşko ilə təmsil olunmuşdu, stolun o başında isə maliyyə-təsərrüfat şöbəsinin müdiri Nina Volovçuk oturub, narahat baxışlarını birinci katibə zilləmişdi. Çoxsaylı təşkiat işləri şöbəsinin əməkdaşları səliqəsizcə öz rəhbərləri Çesnokovun boş stulunun ətrafına cəmləşmişdilər.

- Bəs Muxin hanı? – Təbliğat və təşviqat şöbəsi müdirinin stulunun boş olduğunu görən Şumilin soruşdu.

- Müəssisəyə gedib, - təlimatçı Xomiç öz şefini təmizə çıxarmağa çalışdı.

- Nə müəssisəsi? Bu gün bazar günüdür!

- Deməli xəstələnib…

Birinci katib burada ciddi nitq söyləməyə hazırlaşırdı, ancaq özünü saxlaya bilməyib, söhbətə belə bir iradla başladı ki, o yerində olanda heç kim gecəylə raykomun binasına soxulmur, o gedən kimi fövqəadə vəziyyət yaranır. Hirsini birtəhər boğan Şumilin bu hadisəni təəssüf doğuran təsadüf kimi qiymətləndirdi, bildirdi ki, bu vəziyyətdə əməkdaşlar özlərini ələ almalı, əlavə söz-söhbətə yol verməməlidirlər. Bundan başqa, xuliqanların bu hərəkəti istər-istəməz raykomun gördüyü işlərə kölgə salır, ona görə də ənənəvi toplantı ən yüksək səviyyədə keçirilməlidir!

Bundan sonra Şumilin bəzi tapşırıqları aşağıdakı prinsip üzrə yenidən paylaşdırdı: ən mürəkkəb işləri ən təcrübəlilər görməlidir. Beləliklə, təbliğat şöbəsinin görməli olduğu işlərin çoxusu, yüngül etirazlara baxmayaraq, başqa şöbələrə həvalə olundu.

Sonra, birinci katib qoyulmuş ənənə üzrə növbəti yubilyarı – təlimatçı Tamara Raxmatullinanı təbrik edib, ona gül dəstəsi və hədiyyə təqdim etdi. Hədiyyə həmkarlar birliyi tərəfindən alınmayana qədər illərlə mağaza rəflərində tozlanan keramik vazadan ibarət idi. Nəhayət, o, aparat işçilərini buraxıb, kabinetinə qayıtdı və arvadının telefon nömrəsini yığdı: necə olmasa da, informasiya-məişət məsələləri ilə bağlı onlar ünsiyyət saxlayırdılar. Amma telefon susurdu.

Büro üzvləri toplaşana qədər vaxt itirməmək üçün Şumilin makinada yazılmış səhifələri qarşısına çəkib, toplantıda söyləyəcəyi nitqi gözdən keçirməyə başladı.

Tribunadan danışmağı, yazılı mətnlə olsa belə, hər kəs bacarmır. Əvvəla, mətnin özü sadə yox, aydın; quru yox, ciddi; sitatlarla yüklənmiş yox, arqumentləşdirilmiş; mızı yox, tənqidi olmalıdır. İkincisi, məruzəni oxuyarkən (yalnız çoxlu asudə vaxtları olan qədim natiqlər kağızsız çıxış edirdilər) tez-tez gözünü səhifələrdən ayırmalı və zala baxmalısan. Hərdən mövzudan kənar da nələrsə deyib, dinləyiciləri gülümsəməyə vadar etsən lap yaxşı olar. Nəhayət, aydın danışmalı, sözlərin sonluğunu yeməməli, məntiqi pauzalar etməli, sözlərin yerin dəyişik salmamalı və vurğuları düzgün qoymalısan. Ən əsası isə, dediyin sözləri hiss etməlisən. Zal Stanislavski deyil ki, parterdən qışqırsın: «İnanmıram!». O, səbrlə dinləyəcək, amma heç nəyi yadda saxlamayacaq.

Şumilin natiqlik sənətini heç yerdə öyrənməmişdi, o bu sənətə tökdüyü soyuq tərlərin, ilk çıxışları zamanı dizlərinin titrəməsi hesabına yiyələnmişdi. O, səhifələri çevirərək, məruzəni nəzərdən keçirir, səhvləri düzəldir, səhifələrin kənarlarında qeydlər aparır və hirslənirdi. Tənbəllər! Mətni redaktə etməyə belə əriniblər. Bax, bu hissə gənc mütəxəssislərin müşavirəsindəki çıxışdan götürülüb. Burada isə sürəkli alqışlar doğurmaq üçün nəzərdə tutulan «təntənəli» məqamlar yoxdur. Aparıb evdə işləmək lazımdır. Qalan şeylər pis deyil. Amma yenə nəsə çatmır.

Birici katib yaxşı bilirdi: toplantı iştirakçıları raykomda baş vermiş hadisədən mütləq xəbər tutacaqlar və məruzədə bu haqda heç nə deyilməyəcəyini bilə-bilə yenə də gözləyəcəklər – birdən nəsə dedi. Doğrudan da, bəlkə…

6

On üç büro üzvündən yalnız üçünə zəng etmək mümkün oldu. Avtotəsərrüfatın komsomol komitəsinin katibi saçını köhnə dəbli «yarımboks» stilində qırxdırmağı xoşlayan tünd xasiyyətli Aleksey Butenin iki uşağı ilə evdə tək qalmışdı. Kağız kombinatının komsomol ilahəsi Svetlana Qurkina siyasi təlim sistemi üzrə məşğələyə hazırlaşırdı. Bu ciddi, yaraşıqlı, əyin-başına fikir verən qız son vaxtlar bütün söhbətlərini bu sözlərlə başlayırdı: «Biz qurultayda…» Dramatik teatrın komsomol katibi Maksim Poluboyarinov dünənki tamaşadan sonra yatıb-dincəlirdi. Tamaşaçı onu yeddi seriyalı «Qara çay» telefilmindən tanıyırdı. Dolayısıyla böyük şairlə təmasda olması onun xasiyyətini korlamışdı.

Onların hamısı hərbçilər sayağı «oldu» cavabı verərək, saat on dörd nol-nolda raykoma gəldilər.

Kvorum yox idi, amma indiki vəziyyətdə nizamnamə haqqında düşünməyin yeri deyildi. Şumilin büro üzvlərini yerbəyer edib, təcili çağırışın səbəbini açıqladı və inspektorla söhbətinin məğzini onlara çatdırdı.

- Mən də deyirəm niyə stellajlar boşdur? – Poluboyarinov fəhmini işə saldı. – Burada qəşəng büllur qablar vardı axı…

- Nə büllur?! – Qurkina özündən çıxdı. – Bütün şəhərdə dedi-qodular yayılacaq, məsələni şəhər komitəsinin bürosuna çıxarsalar, minimum iki il heç bir yer tutmayacağıq. Amma niyə? Bizim nə günahımız var? Bir dəfə qurultayda Sibirdən olan nümayəndə mənə danışmışdı: onların raykomunun binasına ayı giribmiş. Ancaq buna görə onlara gözün üstə qaşın var deyən olmayıb!

- Əlbəttə, xoşagəlməz hadisədir, amma bu, bədbəxt hadisədir – bundan heç kim sığortalanmayıb. Onlar bizim teatra da soxula bilərdilər, - Maksim ona dəstək verdi.

- Yoldaş Butenin, niyə fəal deyilsiniz? – Şumilin canlandı.

- Əvvəldən fəal olmaq lazım idi. Kolya, başa düşürəm, pis vəziyyətdə qalmısan, müxtəlif kabinetlərdə cavab verməli olacaqsan. Bizə bel bağlaya bilərsən: büro səni həmişə dəstəkləyəcək, amma səni sakitləşdirmək istəməzdim. Bax sən, Maksim, heç içib sərxoş olmusan?

- Elə soruşursan, elə bil mənim Parisdə olub-olmadığımla maraqlanırsan? Əlbəttə olmuşam.

- Bəs misalçün sərxoş vəziyyətdə raykoma girmək keçməyib könlündən?

- Yaxşı misal deyil!

- Yaxşı, misalı bir tərəfə qoyaq! Demək istəyirəm ki, adam elə-belə raykoma girmək istəməz. Bəzən deyirlər: «Sərxoş idim, birdən beynimə düşdü», - bu ifadə düzgün deyil. Sərxoş ayıq adamın ağlından keçəni eləyir. Əvvəllər uşaqlar divarlara ulduz şəkli çəkirdilər, indi isə «Spartak – çempion» yazırlar, niyə? Mən özüm də azarkeşəm, amma uşaqların hamısının başının yerində futbol topu olacaqsa, bu iş yaxşı qurtarmayacaq. Bu xuliqanlar hamımız üçün həyəcan siqnalıdır. Yadınızdadırmı, illik yoxlama ilə bağlı çağırılmış büroda demişdim ki, biz insanlardan çox rəqəmlərlə və arayışlarla işləyirik. Cəmi iki istiqamət üzrə işləyirik: komsomolda olan gənclər və komsomolda olmayan gənclər. Amma axı gənclik çox müxtəlifdir. Şəhər yarışmasının nəticələrini təhlil edərkən nədən başlayırıq? Sıralarımıza nə qədər adam qoşulub. Soruşurlar ki, bu qədər böyük bazanız ola-ola nə üçün belə az adam qəbul etmisiniz? Sözə bax – «qəbul bazası», sanki ehtiyat hissələr bazasından danışırlar…

- Aleksey İvanoviç! Gəlin, öz xuliqanlarımız barədə danışaq, yoxsa mən tamaşaya gecikəcəyəm, yeri gəlmişkən, bu gün «Cinayət və cəza»nı oynayırlar, - Poluboyarinov kütləyə səsləndi.

- Mən də elə onu deyirəm! Adamları komsomola götürürük, amma sanki bilet vermək və üzvlük haqqı yığmaqla iş bitir. Gələnlər kimdir, nəçidir – bu onuncu məsələdir.

- Səni hazırlıqsız gəncləri qəbul etməyə heç kim məcbur eləmir! – Şumilin adəti üzrə etiraz etdi.

- Sən indi belə deyirsən! – Butenin istehzayla dedi. – Səni şəhər komitəsində sıxışdıranda başqa hava çalacaqsan. Bir sözlə, hansısa avaranın arxasınca minnətçi düşməli olursan: «Vasya, gəl komsomola…» Başqa bir misal: yaz ayları gələn kimi onuncu sinif şagirdləri büroya axışırlar, guya sovet gəncliyinin ön sıralarında olmaq istəyirlər. Bəs sizə institut üçün komsomol xarakteristikası lazım olmayan vaxtlarda hardaydınız, mənim əzizlərim?

- Yox, insanlara qarşı belə etinasız olmaq olmaz, - Qurkina öyüdverici tərzdə etiraz etdi. – Mən qurultayda bir oğlanla tanış olmuşdum, təsəvvür edirsinizmi, beş il bundan qabaq o çətin tərbiyə olunan yeniyetmə imiş! Onu komsomol düz yola çəkib.

- Başa düşün, - Butenin yumruqlarını döydü, - əgər biz düzgün tərbiyə versəydik, onları düz yola çəkməyə ehtiyac qalmazdı! Atam danışır ki, əvvəllər kimi komsomola götürmürdülərsə, o adam az qalırdı özünü öldürsün. Bunu özlərinə şərəf bilirdilər! İndi isə bəziləri komsomoldan kənarda olmaqları ilə öyünürlər. Yəni biz başqalarına bənzəmirik. Biz kommunist, başa düşürsünüzmü, kommunist gənclər ittifaqıyıq. Qoy sayımız az olsun, amma yaxşıları seçək, qoy sıralarımıza qoşulma-

ğı, komsomol bileti almağı arzulasınlar. Haçansa komsomola namizədlər deyilən bir anlayış vardı!

- Sən, Lyoşa, təftişçisən! – Poluboyarinov fikirli-fikirli dedi.

- Sağ təmayüllü, - Butenin razılaşdı.

- Niyə sağ təmayüllü? – Maksim təəccübləndi.

- Çünki sağlam düşünürsən! Bax, Svetlana deyir ki, biz yer tutmayacağıq, fəxri fərmanımız olmayacaq… Amma bu fərmanlardan o qədər varımızdır ki, asmağa yer tapmırıq. Axı mən, Kolya, təftiş komissiyası adından başqa rayonlarda da oluram…

- Dedim axı, «təftişçidir» - Poluboyarinov yerində qurcalandı.

- Maksim! – Şumilin üzünü turşutdu.

- Bir sözlə, - Butenin davam etdi, - digər rayonlarda, bəlkə də, komsomolun mükafatları bizimkindən azdır, amma oradakı gənclər daha canlıdırlar elə bil. Bunu üzlərindən də görmək olar! Bəzən bizim təlimatçı Simbalyuka baxıram: gözləri elə bil qurğuşundan tökülüb…

- Xuliqanların bura nə dəxli var? – Qurkina çaş-baş qalmışdı.

- Necə yəni nə dəxli var? Qısası, komsomola hörmət etsəydilər, raykoma soxulmazdılar.

- Bu, «sən mənə hörmət qoyursan?» səviyyəsində söhbətdir, - Poluboyarinov replika atdı.

- Maksim, bilirəm, hazırcavab adamsan, amma istəyirəm ki, məni başa düşəsiniz: bu xuliqanlar hardasa oxuyurlar və ya işləyirlər, ancaq axı orada da komsomol təşkilatı var. Bax, bu barədə düşünmək lazımdır! Bəlkə, elə onların özləri də komsomolçudurlar. Nə qədər ki bu təsadüf qanunauyğunluğa çevrilməyib, nəsə elmək lazımdır.

- Sən gəncliyə yaxşı gözlə baxmırsan, - Poluboyarinov yenə söz atdı.

- Maksim, mən vəziyyətə ayıq gözlə baxıram. Kolya, sən də məni başa düşməlisən: axı özün də yeniyetmələrlə məşğul olan adamsan!

Büro üzvləri susdu. Pəncərədən, küçədə şütüyən nadir bazar günü maşınlarının səsi eşidilirdi. Şumilin başa düşürdü ki, ondan qərar gözləyirlər.

- Mən istərdim ki, - hələ nə deyəcəyini bilməyən Şumilin elə bil xitabət kürsüsündən danışırdı, - bu sadəcə bir təsadüf olsun, baxmayaraq ki, bu təsadüfə görə də cavab verməli olacağıq. Aleksey, sənlə də razıyam, təsadüf sonradan qanunauyğunluğa çevrilə bilər, amma əminəm ki, bu xuliqanlar komsomolçu deyillər. Çirkli su ilə birgə uşağı da atmaq lazım deyil. Bu nə xasiyyətdir, hardasa bir çatışmazlıq görən kimi hər şeyi sındırıb tökməyə çalışırlar. Əzizim, məsələn, sən avtobazada filtri çirklənmiş və ya tormozu xarab olmuş maşını hesabdan silmirsən, düzdürmü? Bugünkü komsomol neçə-neçə nəsillərin əməyi ilə qurulub. Bax belə! Dediklərinin çoxusu doğrudur, ürək ağrısı ilə danışırsan. Mənə də bəzən elə gəlir ki, idman azarkeşləri hər tərəfi bürüyüb, iş görmək istəyən isə azdır. Fikrim belədir: toplantı ilə bağlı büronun iclası həftənin üçüncü günü yox, ikinci gün çağırılacaq. Ümid edirəm ki, bu vaxta kimi milis hadisəyə aydınlıq gətirəcək. Gəlin bütün başqa məsələləri bir kənara qoyaq – onları sonra da müzakirə etmək olar – tam tərkibdə bu məsələnin üzərinə qayıdaq. Aydınlaşdıraq, görək burada təsadüfi olan nədir, qanunauyğun olan nə, açıq qalmış pəncərəyə görə baş verənlər nədir, başqa səbəblərə görə baş verənlər nə? Necə eləyək ki, gələcəkdə belə hallar baş verməsin? Danışdıq?

Büro üzvləri hay-küylə stullarını arxaya itələdilər və getməyə başladılar.

- Al, sənin kolleksiyan üçün, - qapıdan geriyə dönən Butenin əlindək nazik kitabı Şumilinə uzatdı.

Tək qalan Şumilin siqaret yandırdı. Fikirləşdi ki, illərlə ictimai işlərdə çalışaraq, ehtirasları söndürmək, insanlar arasında gərginliyi azaltmaq bacarığı qazanıb. Bəlkə, ikinci katib vəzifəsinə Butenini götürsün? Doğrudur, onun nə savadı var, nə aparatda iş təcrübəsi, amma onunçün komsomol – komsomoldur, həyatın bir pilləsi yox, bununla o, Kononenkoya oxşayır. Lyoşa da pis oğlan deyil, amma xasiyyəti bir az tünddür… Görəsən, ədəb-ərkanlı xaricilər sayağı bizim çatışmazlıqlarımıza və nöqsanlarımıza ironik təəccüblə baxan bu susqun rişxəndçiləri niyə sevməyə başlamışıq? Axı onlar xarici turist-filan deyillər, öz həmvətənlərimiz, sözün əsl mənasında vətəndaş və bütün məsələləri həll edən insanlardır. Nəyə görə ürək ağrısı ilə hər şeyi öz adıyla çağıran adamı araqarışdıran, rahatlığı pozan adam kimi (daxilən onunla razılaşsaq da) qəbul edirik? Əslində elə yaxşı ki, rahatlığı pozur! Bütün səhlənkarlıqlar elə rahatlıqdan və müştəbehlikdən doğur. Butenin tamamilə haqlıdır! Elə isə, deməli, günah hissi təkcə onun qəlbini çulğamayıb, yoxsa ona elə gəlirdi ki, bu onun sualtı ovunun nəticəsidir. Şumilin qeyri-iradi içindən gələn səslərə diqqət kəsildi və həmin narahat gözləntini dərhal sezdi – ürəyi sıxılır, sanki fasilələrlə işləyirdi. Boş şeydir! O, Butenin verdiyi kitabçanı götürüb vərəqləməyə başladı. Demək olar, bütün rayon əhli bilirdi ki, Şumilin şairlərin ilk kitablarını toplayır. Onun kolleksiyasında, hələ indiki yazarların kitabları bir yana, bütün klassiklərin kitabları toplanmışdı. Amma çox az adam bilirdi ki, kolleksiyadakı ilk nüsxə Şumilinin kurs yoldaşının kitabı olub. O, heç kəsin gözləmədiyi halda şair olmuşdu.

Beləliklə, Verxne-Kamsk kitab nəşriyyatı, İvan Osotin. «Mavi qarışığı». Adı diqqətçəkici idi. Şəkildən iri cüssəli, gözlərini qıymış birisi baxırdı. Annotasiyada deyilirdi: gənc şair (otuz yeddi yaşlı) «öz müasirlərinin üz ifadəsinə diqqət yetirir və dövrün narahat nəbzini dinləyir…». Kitaba ön söz yazmış hansısa laureat könülsüzcə əmin edir ki, «Osetinin şeirlərinin arxasında insan taleyi dayanır və bu şeirlərdə saf lirik nəfəs hiss olunur… Komsomol mövzusu ona daha yaxındır…». Bax, bu maraqlıdır. Oxuyuruq:

Vəfa

Əgər gün çox ağır keçirsə,
Şaxtalı havada yol görünmürsə,
Onda mən deyirəm:
- Yoldaş Komsomol,
Çətin anlarımda kömək ol mənə!
Və dərhal bir arxa, dayaq duyuram,
Buluddan boylanan günəş görürəm,
Ürəyim şiddətlə vurur həməncə
Və bilirəm ki, bunun adı vəfadır!

«Pis deyil», - Şumilin fikirləşdi. Başlıcası, irad tutmağa yer qoymayıb, hər şey düzdür, amma bir şey var – görəsən, nə üçün şeirdə səmimiyyət az olduqca, «nərdivan»dakı pillələrin sayı çoxalır? Axı, mahiyyətcə bu İvan Osotin də raykoma soxulub, özü də pəncərə açıq qaldığına görə…

7

- Ata-a-a-a! – reklam plakatındakı uşağa oxşayan Lizka atasına doğru yüyürdü. – Sən dənizdə çimdin və boğulmadın?

- Çimdim və boğulmadım, - Şumilin təəccüblə cavab verdi və qızını çiyninə alıb, dövrə vurdu. Sonra yol çantasından iri, gözəl almalar çıxardı, almalar o qədər gözəl idi ki, onları yeməyə heyfi gəlmişdi. Lizka dərhal meyvə satıcısı roluna girib müştəri səsləməyə başladı.

- Liza, qoy yeməyimizi yeyək, - nənəsi Lyudmila Konstantinovna ciddi səslə xəbərdarlıq etdi. O, iki il idi ki, ortarəhbər vəzifədən getmişdi və səsindəki sövqedici-öyüdverici intonasiyadan heç cür xilas ola bilmirdi.

Lizka özü-özüylə alver etməyə başladı, Şumilin isə stol arxasına keçdi.

- Niyə vaxtından tez gəlmisən? – oğul solğun sosisləri bıçaqla kəsərkən anası soruşdu. Sosislər hazırda bütün vaxtını MİS-ə xərcləyən Lyudmila Konstantinovnanın evində əsas yemək idi.

- Həmişəki kimi geri çağırdılar, - Şumilin cavab verdi.

- Raykomda nəsə baş verib? Əvvəlcə yaxşı-yaxşı çeynə…

- Fövqəladə vəziyyət. Xuliqanlar iclas zalına giriblər, suvenirləri sındırıblar…

- Onları tapıblar?

- Hələ yox, amma milisdə deyirlər ki, yeniyetmələrdir.

- Başqa kim olacaqdı ki? Bilirsən, mənə elə gəlir, odlu silah açıq satışda olsaydı, yeniyetmələr bir-birini qırıb-çatardı. Uşaq cinayətkarlığı çox dəhşətli şeydir!

Ona diqqət verilmədiyindən küsən Lizka qaçaraq başqa otağa keçdi və nənəsinin sözlərinə illüstrasiya kimi əlində plastmas tapançayla qayıtdı.

- İndi neyləyəcəksən? – Lyudmila Konstantinovna məzəmmətlə soruşdu. Vəzifəsindən ayrılmış bir çox məsul işçilər kimi o da vəziyyətin çıxılmaz ola biləcəyinə inanmırdı.

- Hər halda ərizə yazmağa hazırlaşmıram! – Şumilin incik səslə cavab verdi.

- Onu demirəm… Amma mənim vaxtımda belə bir hadisə baş versəydi, ərizəmi yazıb çıxardım. Fövqəladə vəziyyətə aydınlıq gətirib çıxardım.

- Sən onsuz da çıxdın.

Anası əllinci illərdə Krasnoproletar rayon komsomol komitəsinin üçüncü katibi idi, çağırış üzrə kiçik bir zavodda işləməyə getmişdi və pensiyaya çıxana kimi orada çalışmışdı. Ola bilsin, onun bu işə keçməsinə əri Pyotr Filippoviçin ultimatumu səbəb olmuşdu. Pyotr Filippoviç yalnız evdəki bəzi qadın tualetinə aid əşyalara görə təxmin edirdi ki, burada qadın yaşayır. Burada kosmetika və parfümeriyadan söhbət getmir: o illərdə komsomol ilahələri əmin idilər ki, «Şanel №5» Parisdə Aleksandra Mixaylovna Kollontayın yaşadığı ev və küçənin adıdır. Günlərin bir günü Kolyanın atası məsələni qəti qoydu: ya mən, ya da raykom! O vaxtlar nikahın sirri itirilmiş orta əsrlər sementi kimi qəribə bir davamlılığı vardı. Odur ki, Lyudmila Konstantinovnanın tabe olmaqdan başqa çıxış yolu qalmadı.

- Bəs işdən nə üçün gedərdin? – Oğul bir qədər susduqdan sonra narazılıqla soruşdu.

- Onunçün ki, raykomda belə bir hadisə baş verdikdən sonra birinci katib kimi sənin qiymətin olmur.

- Deməli, belə? Bu maksimalizmdir, anna..!

- İşə yalnız bu cür yanaşmaq lazımdır, - səkkiz il dalbadal partkomun katibi seçilmiş Lyudmila Konstantinovna onun sözünü kəsdi. – Biz əvvəl-əvvəl xırdalıqlara əhəmiyyət vermirik, sonra isə tələcüblənirik ki, başqaları ilə dil tapa bilməyən adamlar necə olur ki, gəlib rəhbər vəzifəyə keçirlər.

- Sən öz zavodun barədə danışırsan? – anası ilə onun işlədiyi müəssisənin indiki direktoru arasında münasibətlərin gərgin olduğunu bilən Şumilin maraqlandı.

- Sənlik deyil!

- Deməli, düşünürsən ki, mən getməliyəm?

- Hər halda fikirləş, gör işi necə qurmusan?

- Siz bizdən yaxşı işləyirdiniz?

- Ola bilsin, sizdən pis işləyirdik – sizin qədər məharətli deyildik, amma biz təmənnasız və səmimi idik!

- Gəncliyi arxanızca apara bilirdiniz?

- Aparırdıq!

- Toplantılarda mübahisələr olurdu?

- Olurdu!

- Elliklə iməcliklər də keçirirdiniz?

- Keçirirdik!

- Sizin vaxtınızdı kolbasalar da daha dadlı idi, hə?

- Hə… Sənlik deyil!

Ciddi söhbətlər aparan böyüklərin biganəliyindən bezən Lizka soyuducunun qapısını açıb, oradan bir parça qurumuş «doktorski» kolbasası çıxardı.

- Ağıllı qızım. Yerinə qoy, - qaş-qabağı yerlə gedən nənəsi onu tərifləndi. – Köməkçim böyüyür. Bir məsələ də var, Kolya, Qalya ilə münasibətlərinə aydınlıq gətirməlisən. Belə olmaz axı! Mən heç vaxt sizin işlərinizə qarışmamışam, ancaq siz uşağa görə narahat olursunuzsa, problem deyil, siz məsələləri yoluna qoyana kimi o, mənim yanımda qalar.

- Birdən-birə nə olub ki?

- Yarım ildir ayrı yaşayırsınız, səncə bu «birdən-birə»-dir?!

- Sən onunla danışmısan?

- Danışmışam. Qalina Lizanı götürüb gəlmişdi, burada hay-küy saldı, dedi ki, boşanırsınız. Məncə, o barışmaq istəyir. Fikirləş, Kolya, yaxşı-yaxşı fikirləş! Əlbəttə, özünə başqasını tapacaqsan, bəlkə də, tapmısan, amma axı iş bununla bitmir…

- Aydındır. Qalya Lizkanı hansı müddətə burada qoyub?

- Sabah aparacaq. O, bu gun harasa getməlidir, sənin qayınanan isə həmişəki kimi cənuba əkilib!

- Düz də eləyib: dənizin gözəl vaxtlarıdır. Sən getmək istəmirsən?

- Mənim vaxtım yoxdur…

Lyudmila Petrovna mətbəxə keçib, səs-küylə qabları yumağa, Şumilin kresloda oturub, televizorda iri diametrli metal boruların termik işlənməsinin yeni metodları barədə verilişə baxmağa başladılar. İpatdı oyununun şnurunu əlində oynadan Lizka isə yumruğunu mikrofon kimi ağzına tutub asta-asta yırğalanır, estrada artistlərini yamsılayaraq oxuyurdu: «Həər şey keçəcək, həər şey keçəcək…»

8

Şumilin detektivsayağı bir yuxu görürdü: guya o, xuliqanların basqını ilə bağlı öncədən xəbərdar edilib və sualtı tüfəngini götürüb gecə iclas zalında pusquya yatıb. İlk kölgə pəncərədə görünən kimi o, tətiyi ayağa çəkir, ancaq elə bu an qulaqbatırıcı telefon zəngi səslənir. «Sarsaqlar», - Şumilin

dişlərini qıcırdadır və əlilə qaranlıqda telefonun dəstəyini axtarır. O ayılanda gördü ki, zəngli saatın düyməsini basıb…

Səhər açılmışdı. Pərdələrin arasından sızan günəş zolağında toz dənəcikləri oynaşırdı. Qəfildən səslənən saat zəngindən qorxduğu üçün ürəyi şiddətlə vururdu. «Xəstəxanaya getmək lazımdır, - o fikirləşdi. – Tanya isə yəqin məni yaddan çıxarıb».

İş gününün başlamasına saat yarım qalırdı. Özüylə evə götürdüyü məruzənin üzərində işləmək üçün kifayət qədər vaxtı vardı. O, səkkiz qırx beşdə evdən çıxdı. Bayırda gözəl, payız havasına oxşamayan hava vardı, yalnız sentyabrın nəfəsi dəymiş yarpaqlar bir qədər solğun görünürdü. Şumilin onu gözləyən, raykoma təhkim olunmuş qırmızı «Volqa»ya oturub buyurdu: təzə evə sür!

Raykomun sürücüsü, dəblə geyinən cavan erməni maşını yavaşca tərpətdi, ədalarından belə görünürdü ki, onu öz maşınını sürmək əvəzinə, dövlət maşınını sürməyə acı tale məcbur edib. Atalarının limuzinin rolu arxasında şəstlə oturan oğlanlardan onun zəndeyi-zəhləsi gedirdi. Kasıb ata-ananın oğlu Aşot imkan düşən kimi xidməti «Volqa»nı öz nəfinə istifadə edirdi. Əgər onun işıqforunun dördüncü işığı – qadınlar olmasaydı, üstəlik avtobazada tapılmayan ehtiyat hissələrinə pul xərcləməsəydi, özünə çoxdan maşın alardı. O iş gününə şikayətlərlə başlayırdı, hey deyinirdi ki, maşının xəttə çıxması üçün öz cibindən xeyli vəsait xərcləməli olur. «Volqa» köhnəydi və Aşot, doğrudan da, əziyyət çəkirdi. Amma bu gün onu başqa şey maraqlandırırdı.

- O axmaqları tutdular? – onun ilk sualı belə oldu.

- Hələ yox, amma tutacaqlar.

- Buna görə sənə nəsə olacaq? – Aşot yalnız orta yaşlı gözəl qadınlara «siz» deyə müraciət edirdi.

- Bilmirəm. Bəlkə də son günlərimizdir, - Şumilin istehzayla dedi.

- E-e, səni işdən çıxarmazlar: mən bu maşınla sən raykomda qazandığından çox qazanıram! – O, əlini maşının roluna şappıldatdı. – Bura bax, mümkünsə bu gün nahara iki saat vaxt ver. Evdə yemək yoxdur!

- Niyə, axı sən də mənim qədər maaş alırsan – iki yüz iyirmi.

- İki yüz on.

- Üstəlik, xaltura da eləyirsən!

- Xaltura eləyənlər musiqiçilərdir. İnşaatçılar muzd alırlar. Satıcılar daş-baş eləyirlər. Biz sürücülər isə – oğurlayırıq, biləsən.

- Belə de. Bildim. Amma mənim maaşım mənə çatmır.

- Ona görə də arvadın səni elə belə də sevir.

- Hardan bilirsən ki, o məni sevir?

- Ağıllı adamın qabaq güzgülərindən başqa arxa güzgüləri də olur.

- Mən səni yox, sən məni gəzdirdiyin üçün xəcalət çəkirəm…

- Şərab və qadın olmasaydı, qəhrəmanı heç kəs yenə bilməzdi! – Qırmızı işıqda maşını saxlayan Aşot köks ötürdü.

- Bunu kim deyib?

- Mən və xalq müdrikliyi. Sən isə, Nikolay Petroviç, qəhrəman deyilsən: iki yeniyetmə və bir qadın bəs eləyir.

- Sən bunu da arxa güzgüdən görmüsən?

- Raykom – kənd kimi bir yerdir, - yaşıl işıqda maşını yerindən tərpədən sürücü izah etdi. – Bilirsən, qeydiyyat şöbəsinin qızları səni necə adlandırırlar?

- Necə?

- Nikola müəllim.

- Gülməli deyil.

- Sənə gülməli deyil, amma onlar üçün gülməlidir. Kartoteka ilə müqayisədə hər şey gülməlidir… Çatdıq, yoldaş katib…

- Bu yaxınlarda tikilmiş gözəl ağ binada yerləşən partiya rayon komitəsini meydanda yaşıl küknar ağacları əhatə etmişdi. Maarif nazirliyinin rayon təşkilatı və digər idarələrin də yerləşdiyi köhnə binadan fərqli olaraq, aparat dairələrində onu Yeni ev adlandırırdılar.

Rastına çıxanlarla salamlaşan Şumilin qıvraq addımlarla üçüncü mərtəbəyə qalxdı, postda dayanan tanış milisionerlə əl elədi və qəbul otağında təbliğat və təşviqat şöbəsinin təlimatçısı Şnurkova ilə üz-üzə gəldi.

Şnurkova iki il öncə Yaşıl evdən partiya işinə keçmişdi və əmin idi ki, o getdikdən sonra şəxsən yoldaş Şumilinin yarıtmazlığı üzündən rayon komsomol komitəsində işlər günügündən pisləşməkdədir. O, bu fikri Yeni evdə işləyənlərin beyninə israrla yeritməyə çalışırdı.

- Salam, Nikolay Petroviç, - ağır göz qapaqlarının altından onu süzən qadın dedi. – Rayon komsomolunun toplantıya necə hazırlaşdığını bilirik. Bir vaxtlar biz başqa cür hazırlaşırdıq.

- Zinaida Vitalyevna, biz də pis hazırlaşmamışıq, o bədnam hadisəni isə milis araşdırır.

- Hə də, bəlkə, artıq komsomolun işləri ilə milis məşğul olsa, daha yaxşı olar.

- Nəyi nəzərdə tutursunuz?

- Yəqin ki, yaxın vaxtlarda fikrimi izah etmək imkanım olacaq.

- Necə istəyirsiniz, - Şumilin çiyinlərini çəkdi, Şnurkovanın yanından keçib qəbul otağına girdi və texniki katiblə danışıb gözləməyə başladı.

Nəhayət, kabinetin qapısı açıldı və icraiyyə komitəsinin sədr müavini qırmızısifət Kompaneets göründü. O, komsomol rəhbərini görüncə başını yellədi, bilinmirdi Şumilini məzəmmət edir, yoxsa halına acıyır.

- Birincinin kefi necədi? – Şumilin ona uzadılmış əli sıxaraq soruşdu.

- Fəlsəfi əhval-ruhiyyədədir, ancaq deyəsən özünü yaxşı hiss etmir.

Şumilin böyük, cilalı ağacla işlənmiş kabinetə daxil oldu. Rayon partiya komitəsinin birinci katibi, hərəkətli, sifətindən yorğunluq yağan, ürək xəstəsi olduğu göyümsov dodaqlarından bilinən Vladimir Sergeeviç Kovalevski pəncərənin önündə dayanmışdı. Əlində validol qabı tutmuşdu.

- Otur, - o, arxaya çevrilib dedi. – Bəlkə, doğrudan da, ürək əvəzinə odlu motor olsa, yaxşıdır, hə? Nə isə, sən hələ gəncsən, başa düşməzsən. Cəbhədə olarkən mən də tank motorundan çox özümə inanırdım. Yaxşı… Deyin görüm, qardaşlar, necə olur ki, sizin raykomu qarət edirlər? Bir azdan Aldo Moro kimi katibləri də oğurlamağa başlayacaqlar. Təəssüf! Milisdə deyirlər ki, yeniyetmələrdir bu işi görən, deməli, yaxşı işləməmisiniz onlarla. Niyə susursan?

- Vladimir Sergeyeviç, onsuz da hər şeydən xəbəriniz var.

- Hər şeyi heç Marks da bilmirdi. Sizin nəsil, qardaşlar, hər şeylə razılaşmağa hazırsınız, təki işin içindən iş çıxmasın, artıq söz danışmayasınız!

- Vladimir Sergeyeviç, bu məsələylə DİN Rİ məşğuldur.

- Aydın məsələdir, Skotlan-Yard məşğul olmayacaqdı ki.

- Bizim operativ dəstəmiz onlara kömək edir, ancaq xuliqanların kimliyindən asılı olmayaraq biz məsuliyyətdən qaçmırıq, biz büronun xüsusi iclasını çığırıb nəticələr çıxaracağıq…

- İş görmək lazımdır, nəticə çıxarmaq yox. Toplantıyla bağlı iş nə yerdədir.

- Hazırlaşırıq.

- Bu ciddi məsələdir, bu cür paradı keçirmək asan iş deyil. Siz bir az da əsas məsələ barədə düşünün: bu hadisə niyə baş verib, komsomolumuz nə haldadır, onun gələcəyi necə olacaq? Komsomol haqqında danışarkən dil boğaza qoymuruq: «Pavka Korçagin, Maqnitka, Komsomolsk, Aleksandr Matrosov, Zoya Kosmedmyanskaya»… Qızıl ehtiyatı xərcləmək asandır, bəs siz – səksəninci illərin komsomolu nə işlə məşğulsunuz. Bilirəm, indi BAM, KamAZ, KATEK barədə danışacaqsan… Bunların hamısı, qardaşlar, nəhəng əməliyyatlardır, bəs mərkəzi qəzetlərin yazdıqlarından savayı yerlərdə, öz miqyasınızda nə iş görürsünüz?

- Məgər biz az iş görürük, Vladimir Sergeyeviç! Biz…

- Sən mənə hesabat vermə! Bilirəm, komsomol hesabat verməyi hamıdan yaxşı bacarır. Belə ki, bəzən rəyasət heyətində adamın gözü yaşarır. Mübahisə etmirəm, çox işlər görürsünüz, təşəbbüskarsınız. Uşaq evi ilə bağlı gördüyünüz işlər təqdir edilməlidir. İməcliklər keçirmək üçün mehmanxana kompleksini də sizə həvalə etmək istəyirik. Yaxşıya yaxşı demək lazımdır, qardaşlar. Amma bax, bizim vaxtımızda timurçular hərəkatı vardı, sizdə gənclərə təsir edə bilən belə şeylər yoxdu!

- İndi başqa zamandır, Vladimir Sergeyeviç…

- Başqa zamandır… Biz özümüzü müharibəyə hazırlayırdıq, sizsə, getdikcə artan ehtiyaclarınızı ödəməyə, halbuki

müharibə o vaxtkından uzaqda deyil. Gənclik dəyişilib – razıyam, ancaq siz də memarlıq abidəsi deyilsiniz axı! Dəyişilmək, axtarışlar etmək lazımdır, yoxsa son vaxtlar küçələrdə gənclərin komsomol nişanı taxdığını görmürəm. Yalnız sən yaşda dayılar və veteranlar nişan taxırlar. Deyəsən, bu məsələdə mən də diqqətsizlik etmişəm. Özün də bilirsən ki, komsomola çox inanır və etibar edirik. Madam ki, öz fəaliyyətinizi özünüz qurursunuz, hərəkət edin! Ancaq, qardaşlar, belə çıxır ki, biz sizdən mütəşəkkil olmağı tələb edirik, sizsə elə işlər görürsünüz, başa düşmək olmur, gənclər raykom üçündür, yoxsa raykom gənclər üçün! Mən, əlbəttə, mübaliğə edirəm, şişirdirəm – ifrata varmaq da lazım deyil – amma sən, Nikolay, fikirləş. Sənin idarəndə olub-bitənlər bunu tələb edir! Bax, toplantılarda bu haqda danışmaq lazımdır.

- Vladimir Sergeyeviç…

- Belə toplantıda mən özüm də çıxış edərdim. Yoxsa siz komsomol toplantılarında həyatdan danışmağı yadırğamısınız, daha çox xüsusi kompleks planlardan, sıralarınızın artmasından danışırsınız? Bir də, «komsomol projektoru» ilə direktor barmağının göstərdiyi istiqaməti işıqlandırmağın hayındasınız…

- Yox, bu belə deyil!

- İnanmaq istərdim, qardaşlar, çox inanmaq istərdim! Hə-ə, Nikolay, sənin yeniyetmələrin səni pis vəziyyətdə qoydular. Bəlkə də, bu bir təsadüfdür, ancaq sən bu məsələyə də, öz idarəndəki işlərə də aydınlıq gətirməli, işləri səhmana salmalısan. Bir yenilik olsa, dərhal zəng elə – o basmaçıları şəxsən görmək istəyirəm… Sən, yəqin ki, oturmusan fikirləşirsən: Kovalevski komsomoldan təşəbbüskarlıq tələb edir, amma özü söz deməyə imkan vermir. Hə, eşidirəm səni.

- Vladimir Sergeyeviç, gəlin toplantını nəzərdə tutulduğu şəkildə keçirək, hansısa yaramazlara görə onu təxirə salası deyilik ki.

- Düzdür.

- Qonaqlar dəvət olunublar, uşaqlar hazırlaşıblar… Bunun ardınca, bir neçə gündən sonra aktivi toplayıb ciddi söhbət apararıq!

- Aydındır, bu qədər hay-küydən sonra qorxursunuz ki, əməyiniz zay olar?! Deməli, aktiv?

- Aktiv. Özü də nəticələr çıxarmayacağıq, iş görəcəyik!

- Yaxşı, mənimlə əlaqəni itirmə, - Şumilindən ayrılan Kovalevski söhbətə yekun vurdu, ancaq qapının önündə ona daha bir gözlənilməz sual verdi. – Kononenkonu gərək buraxmayaydıq, necə fikirləşirsən? Heç olmasa, əlaqə saxlayırmı?

- Hələ yox, amma söz verib ki, işləri sahmana salandan sonra məktub yazacaq, ya da zəng edəcək.

- Salam söyləyərsən. Nikolay, bəlkə, sən də ştab həyatını ön cəbhəyə dəyişəsən? Silkinib özünə gələsən?

Şumilin Kovalevskinin bu anlaşılmaz təklifinə ölçülübiçili cavab vermək üçün daxilən gərildi, ancaq bu zaman telefon səsləndi və Vladimir Sergeyeviç gülümsünərək, əlini yelləyib komsomol liderinin kabinetdən çıxmasına işarə etdi.

9

«Əsgəri xidmətdə ən ciddi məsələ nədir?» - Şumilinin haçansa xidmət etdiyi batareyanın starşinası bu sualı verməyi xoşlayırdı. Həmişə də özü cavab verirdi: «Xidmətdə ən ciddi məsələ rütbəcə böyüklərin zarafatlarıdır!»

Sözün düzü Kovalevskinin təklifi Şumilinin xətrinə dəymişdi. Yox, o öz kreslosunu itirməkdən qorxmurdu, həm də aydın idi ki, Vladimir Sergeyeviç onun qanına susamayıb. Amma hər halda bu ona ağır gəlsə də, özündən başqa heç kimi günahlandıra bilməzdi. Bu hiss ona hələ məktəb illərindən tanış idi – həmişə təriflənməyə öyrəşmiş Kolya Şumilinə gözlənilmədən «iki» hədiyyə etmişdilər və o evə qayıdarkən yol boyu çantasını hirslə günahsız ağaclara çırpırdı…

Bu söhbətdə birinci katibin kefinə soğan doğrayan daha bir məqam vardı: Kovalevskinin bu gün dilə gətirdikləri qəribə şəkildə hövsələsiz Buteninin dünən dediklərini və Kononenkonun çoxdankı mülahizələrini xatırladırdı. «Niyə hamı mənə özümün də gözəl anladığım şeyləri başa salmağa çalışır?!» - «keys»ini fənər dirəyinə çırpmaqdan özünü güclə saxlayan Şumilin qeyzlənirdi.

Bu cür əsəbi halda raykoma getmək olmaz. O, kinoafişanın önündə ayaq saxladı. Krasnoproletarski komsomolunun rəhbəri son illərdə əsasən müxtəlif tədbirlərdən sonra nümayiş etdirilən filmlərə baxırdı. «Bu xuliqanlarla məsələni aydınlaşdırım, toplantını və aktivin iclasını yola verim! – Afişanı maraqla oxuyan Şumilin arzulayırdı. – Kinoya gedəcəyəm! Bəlkə də Tanya ilə birlikdə, əgər o artıq məni unutmayıbsa… Yeri gəlmişkən, ona zəng etmək, ya da yanına getmək lazımdır…»

…Rayon komsomol komitəsi binasının iki girişi vardı – əsas və xidməti girişlər. Palıd ağacından qapısı olan və tərəflərində simmetrik lövhələr vurulmuş əsas girişdən keçib birbişa qəbul otağına düşmək olardı; xidməti giriş isə həyətdə yerləşirdi. Buradan keçib öz kabinetinə getmək üçün Şumilin bütün binanın ətrafına dolanmalı idi. Vaxtaşırı öz «mülk»ündə dolaşıb, aparatın işini yoxlamaq üçün o belə də edirdi. Elə bilməyin ki, birinci katib xırdaçı rəhbərlər kimi öz tabeçiliyində

olanları izləməklə məşğul idi! Yox, sadəcə o öz işini yaxşı bilir, adamlarını yaxşı tanıyırdı və ucundan-qulağından eşitdiyi söhbətlərə, kabinetlərdə toplaşan şəxslərin kimliyinə, stolların üzərindəki kağızlara görə kimin nə işlə məşğul olub-olmadığını asanca müəyyənləşdirə bilirdi. Aparat işinin əsas pillələri ilə irəliləyən adamı aldatmaq çətindir. Tutalım, kədərli təlimatçı ona şikayətlənir ki, gənc müəllimlərin tədbiri üçün zal kirayələmək mümkün olmadı. Təlimatçı, doğrudan da, keçilməz maneəylə rastlaşıb, yoxsa kifayət qədər səy gösərməyib - Şumilin bunu artıq onun səsinin intonasiyasından bilirdi. Birinci halda o, öz kömək əlini uzadırdı, ikinci halda isə araşdırırdı, görək təlimatçı doğrudan da, tutalım, avtotəsərrüfatın klubuna zəng edib, ya yox? «Zəng elədim, götürən olmadı…» Bu o demək idi ki, təlimatçı heç zəng etmək fikrində belə olmayıb. Bu halda birinci katib xidməti soraq kitabçasından telefon nömrəsini götürüb özü zəng eləyir, bircə dəqiqənin ərzində razılıq əldə edir, sonra isə klub direktorunun adına müvafiq məktub yazmağı tapşırırdı. Bu zaman qapının önündə dayanan təqsirkar and-aman eləyirdi ki, həqiqətən də zəng eləyib, amma düşə bilməyib, Şumilin isə öyüdverici səslə deyirdi: «Təlimatçı ilk nöbədə insanlarla, ikincisi də telefonlarla işləməyi bacarmalıdır…» Təsvir olunan situasiyaya bağlılığı olmasa da, üçüncü məqam da var: təkcə xahiş etməyi yox, təşəkkür etməyi də bacarmaq lazımdır. Komsomolçular – məzəli olğanlardır: məsələn, həmkarlar birliyinin pul-para xərcləməli olduqları hallarda onlar «sağ ol»la ötüşürlər. Bu, gənc müəllimlər üçün zal da ola bilər, məşhur telediktor, ekskursiyalar üçün avtobus (nə qədər qəribə də olsa, onun xərcini avtotəsərrüfatın özü çəkir) və ya pionerlər üçün yeni şeypurlar da. Ancaq bəzi işçilər «sağ ol» deməyi də unudurlar. Bəzən lap ağını çıxarırlar: bir dəfə bir xəstə veteranın ayağına düşüb, yalvar-yaxarla konfransa

gətirmiş və… ona söz verməyi unutmuşdular. Bu cür unutqanlığa görə Şumilin ciddi cəza tədbirləri görürdü.

İşlərə kölgə salan bəzi çatışmazlıqları nəzərə almasaq, raykom kollektivi normal fəaliyyət göstərirdi. Şumilin dörd il idi ki katib işləyirdi, onun üslubu ilə razılaşmayanlar sakitcə çıxıb getmişdilər və ya komsomolçuların təbirincə desək, işə düzəlmişdilər. Yerdə qalan əksəriyyət isə müdirə uyğunlaşmışdılar. Birinci katib yeni kadr seçiminə ehtiyatla yanaşırdı və adamları şəhər komitəsində işə götürəndən sonra yox, öncədən məyus olmağa üstünlük verirdi. «Nomenklatura ilə zarafat etmək olmaz!» - onun həyat prinsipi beləydi.

Bununla belə (Komsomol qərarnamələrində qüsurlar haqqında qeydlərə bu sözlərlə başlanır), onun iki bədbəxtliyi, iki başağrısı, iki dərdi vardı: təbliğat və təşviqat şöbəsinin müdiri Muxin və metodiki mərkəzin müdiri Mila Smirnova. Muxin hələ Şumilinin gəlişindən qabaq şöbə müdiri olmuşdu. Bu necə olmuşdu? Bu bütün həyatın boyu üzərində baş sındırmalı bir təbiət sirri idi. Hər dəfə tapşırıq alan Muxin «işçi qaydada həll edərik» deyir və haqlı çıxırdı: tapşırığı işçi qaydada ya üzüyola təlimatçı Valeri Xomiç, ya da, bu bir nəfərlik iş deyildisə, digər şöbələr yerinə yetirirdi. Xüsusilə qalmaqallı məqamlarda Muxin xəstələnir və möcüzəvi şəkildə xilas edilmiş tədbir keçirilib qurtardıqdan sonra işə çıxırdı. O, telefon əlaqəsini xoşlamırdı və həmişə «müəssisə»lərdə olurdu. Amma digərlərindən fərqli olaraq gedişini nəzarət jurnalına qeyd etməyi heç vaxt unutmurdu, ona görə də sudan quru çıxmağı bacarırdı. O heç vaxt demirdi ki: «Mən müəssisədə olmuşam», deyirdi: «Mən müəssisəyə getmişdim», - qoy lap yoxlasınlar. Yoxlasalar, uzağı deyəcəkdi ki, getməyinə getdim, amma gedib çıxmadım.

Muxini işə düzəltmək mümkün deyildi, çünki o öz gələcəyini eksport-importla bağlamışdı və Xarici Ticarət Akademiyasına qəbul olunmaq istəyirdi. Sovet mallarını zəifləyən xarici valyutaya satmaq – o hesab edirdi ki, əsl kişi işi budur! Yarıtmaz əməkdaşdan xilas olmağın bir yolu da onu vəzifədə yüksəltməkdir – bu sınaqdan keçirilmiş üsuldur. Krasnoproletarski komsomolunun haldan düşmüş rəhbəri tapdanmış yolla getdi. Əlbəttə, başqa qətiyyətli qərar da verə bilərdi. Amma təcrübəli aparat işçisi Şumilin yaxşı bilirdi: əlindən iş gələn hər kəsin içində istedadlı bir şikayətçi, müxtəlif instansiyalara məktublar yazan çalışqan bir mirzə yatır.

Məlum olduğu kimi, Xarici Ticarət Akademiyası Moskvada yerləşir, odur ki, komsomol rəhbəri Kovalevskidən kömək istədi. «Əmin deyiləm ki, - hər şeydən xəbəri olan Vladimir Sergeyeviç cavab verdi, - sizin bu Muxin imperialistlərlə düz-əməlli alver edə bilsin! Qəriblikdə, xaricdə işləmək başqa ölkələrdə böyük bəxtsizlik sayılır, bizdə isə xarici pasport cənnət qapısının açarları kimi bir şeydir… Təəccüblüdür!»

Nəhayət, bu ilin yayında zəmanətlərlə başdan-ayağa silahlanmış Muxin akademiyanın qapısını aralasa da, imta-hanları verə bilmədi. Bu zərbə imtahandan kəsiləndən çox Şumilini sarsıtdı.

Birinci katibin ikici bəlası hazırda qapısının üstünə «İnformasiya-metodika mərkəzi» yazılmış kabinetdə oturmuşdu. Mila Smirnova – müasir bal rəqslərinə könül vermiş boylubuxunlu, yaraşıqlı qız raykomda işə atasının iradəsi ilə düzəlmişdi. Onun atası termodinamika ETİ-nin direktoru idi və onun çap-çoxaltma bazası həmişə komsomolun işinə yarayırdı – axı saysız-hesabsız qətnamələri, tövsiyələri, planları və metodiki vəsaitləri bütün təşkilatlara yaymaq lazım gəlirdi, bu təşkilatların sayı isə iki yüz qırx yeddi idi!

Həyat təcrübəsi, məsul vəzifə və doktor dərəcəsi ilə seçilən uzaqgörən ata başa düşürdü ki, fiqurlu valsla məşğul olmaq pis deyil, amma qızının əmək kitabçasında raykomda işləməsi haqqında qeyd olsa, lap yaxşı olar. Mila Smirnova Şumilinin təkcə bəlası deyildi, həm də onun günahı idi, çünki TD ETİ-nin direktoruna rədd cavabı verə bilməmişdi.

Mila atasının etibarını doğrultmaq barədə düşünmürdü, atasının qızı olması yetərli idi, ona görə də işində özünü çox rahat hiss edirdi. Gənc yaşlarından gecəli-gündüzlü çalışan ata qızının firavan uşaqlığını, qayğısız gəncliyini, prestijli ali təhsil almasını təmin etmişdi. İrəlidə Milanı xoşbəxt yetkinlik çağı gözləyirdi. TD ETİ-nin çoxuşaqlı direktoru müxtəlif cinsli daha üç övladının irəliləyişini təmin edən güclü motora bənzəyirdi. Uşaqların isə heç ağlına da gəlmirdi ki, bu motor nə vaxtsa dayana bilər, onda yarıtmaz işə görə adamı tənbeh edə və ümumiyyətlə, işdən qova bilərlər. O zaman məlum olar ki, arxanda atanın güclü dəstəyini hiss etmədən insanlarla münasibət qurmaq elə də asan məsələ deyil. Məlum olar ki, beyin təkcə ataya növbəti xahişi ifadə etmək üçün deyilmiş. Şumilinin müşahidələri göstərirdi ki, bu cür övladlar valideynlərinin dəstəyindən məhrum olduqdan sonra həyatlarının qalan hissəsini haçansa atalarının Stokholmdan gətirdiyi şuba kimi yırtılınca geyməyə məcbur olurlar. Bir dəfə, şəhər kənarında keçirilən komsomol təlimləri zamanı yumşalan Nikolay Petroviç bütün bunları Milaya anlatmağa çalışdı. Cavabında qızın gözlərində təəccüblü-soyuq bir ifadə yarandı. Çexovun iflas etmiş xanımları özlərinin uzaqgörən işlər müdirlərinin məsləhətlərini dinləyərkən üzlərində belə ifadə yaranırmış.

Son vaxtlar Şumilinin qulağına çatmışdı ki, Smirnova özüylə işə «Panasonik» gətirir və burada sakitcə yeni rəqsləri məşq etməklə məşğul olur. Birinci katib qulaq verdi: qapının

arxasından boğuq musiqi və döşəməyə sürtülən xışıltılı-ritmik ayaq səsləri gəlirdi. «Onu cəhənnəm eləmək lazımdır!» - o, aşıb-daşan qəzəb hissini cilovlaya bilmədi. Ancaq başa düşürdü ki, belə bir addım atsa, raykom TD ETİ-nin çap-çoxaltma aparatından birdəfəlik məhrum olacaq.

…Təşkilati işlər şöbəsinə aid böyük otaqda, keçmiş rəqs zalında (Milanın canı cəhənnəmə!) çesnokovçular – Petya Konışev, Borya Qoldman, Vitya Sımbalyuk və Tamara Rahmatullina çalışırdılar. İşini ehtiyatlı tutan şöbə müdiri küncdə gələcək əməkdaş üçün stol qoydurmuşdu. Təşkilatlar çox, şöbə işi görüb çatdırmır, ştatdankənar əməkdaş məsələsi isə TD ETİ-yə və bal rəqslərinə dirənir.

Çesnokovun işçiləri pis çalışmırdılar. O, öyrətməyi də, məcbur etməyi də bacarırdı. Şumilin onun işindən, necə deyərlər, qeyri-ixtiyari həzz alırdı: telefonun dəstəyini çiyni ilə peşəkarcasına qulağına tutub, bir əli ilə sənədləri eşələyən, tüstülənən siqaret tutduğu digər əlilə əzbər bildiyi telefon nömrəsini yığan təlimatçılar ÜİLKGİ-yə qəbul üzrə planın yerinə yetirilmədiynə, hesabat-seçki iclasının başqa vaxta keçirildiyinə, üzvlük haqlarının, siyahıların, son yoxlamaların, hesabatların gecikdirildiyinə, büroda xarakteristikaların və işlərin düzgün tərtib edilmədiyinə, komsomolçuların tərəvəz bazasına seyrək gəldiyinə, rayon operativ dəstəsində drujinnik çatışmazlığına, gənclərin müşavirələrə qatılmadığına, qeydiyyatdan çıxmadan çıxıb-gedən adamlara və onlarla digər vacib məsələlərə görə yerli təşkilatları asıb-kəsirdilər.

Sözlər qırıq-qırıq, siqaret tüstüsünün layları kimi bir-birinin üstünə qalaqlanır və işləməli hündür tavanın altında əriyirdilər:

- Bu, bəhanə deyil…

- Bununçün telefon var…

- Bəs aktiv nə üçündür?

- Komitəni işləməyə məcbur et…

- Bunu Şumilinə izah edərsən…

- Son möhlət dünən bitdi…

- Siyahıları gətirdilər, bəs əmanət kassasının qəbzləri?

- Lika, sən bu günə söz vermişdin axı… Mən biletləri də almışam…

Bu zaman xəttin o başında (sonuncu ifadəni nəzərə almasaq) yerli təşkilatların katibləri vəd verir, mübahisə edir, özlərinə haqq qazandırır, dəridən-qabıqdan çıxaraq şikayətlənir, bəhanə uydurur, sinələrinə döyür, inad edir, razılaşırdılar. Onlar komsomol işlərindən savayı, öz əsas işləri ilə məşğul olmalı, bundan başqa ailənin qayğısını çəkməli, şəxsi həyatlarında səliqə-səhman yaratmalı, uşaqlarını böyütməli, ev işlərini görməli, təhsil almalı, öz mədəni səviyyələrini yüksəltməli, hətta vaxt tapıb dincəlməli idilər.

Raykomda maaş alan, sərbəst qrafik üzrə çalışan katiblərlə işləmək daha asan idi. Onlar böyük müəssisələrə rəhbərlik edirdilər, odur ki, onlarla böyük məsələlərin hesabını aparmaq mümkün idi, - boş yerə burada işləmirdilər ki. Baxmayaraq ki, Şumilin son vaxtlar müşahidə etmişdi: yüz iyirmi – yüz qırx manat maaş alan adamların çoxu əmindirlər ki, müftə işləyirlər.

Birinci katib təşkilati işlər şöbəsində çalışanların içərisində ən çox Petya Konışevdən razı idi. Petya arıq, pıtlaşıq saçları olan oğlandı, üz ifadəsi eləydi ki, elə bil yuxudan kal durub. O şeir yazır, onları arabir «Komsomolets» qəzetində çap etdirirdi. Komsomolda işləməyə başladığı ilk aylarda «Pambıq parça kombinatında işləyən gənclərin asudə vaxtının təşkili» haqqında arayışla hamının baş-beynini aparmışdı. Arayış adi dəftərxana cümlələri ilə dolub-daşırdı: «Komissiyanın işi

göstərdi ki… Müəssisədə təcrübəli rəhbər işçilərin də daxil olduğu dərnəklər yaradılmışdır və bu dərnəklər gənclərin filan faizini əhatə edir. Onlardan filan qədərini qadınlar, filan qədərini isə kişilər təşkil edir. ÜİLKGİ üzvləri filan sayda, təşkilati mənsubiyyəti olmayan gənclər filan saydadırlar… O cümlədən kombinatda və yataqxanada 3 biçmə və tikiş dərnəyi, 4 turist qrupu, 5 idman seksiyası və cəmisi bir ədəbi studiya fəaliyyət göstərir. Bu hədsiz dərəcədə azdır. Ədəbiyyata bu cür münasibət yolverilməzdir!!». Üçsaatlıq toplantından cana doymuş büro üzvləri uğunub getmişdilər. Ancaq Şumilin evdə bu hadisəni gülə-gülə danışanda Qalya burada əyləncəli heç nə görmədiyini dedi. Yəqin, bu yalnız aparatçıların başa düşdüyü professional yumor idi.

…Təhsil alan gənclər şöbəsində Komissarova təlimatçı Nataşa Potapenkonu, pioner kabinetinin müdiri Şildini və rayon pionerlər və məktəblilər evinin rejissoru Borşevskini öz otağına çağırmışdı. Komissarova şövqlə toplantını salamlama mövzusunda improvizələr edirdi:

- Yox… Elə yox. Dayanın! Mən görürəm!! Sol keçiddə şeypurçular, sağda təbilçalanlar dayanırlar, eyvanda «HƏMİŞƏ HAZIR!» hərfləri qaldırılır. Mərkəzdə qırmızı örpəklərdən məşəl düzəltmək olarmı?

- Prinsipcə olar, - rejissor cavab verdi.

- Əla, deməli, məşəl yanır və qiraət qrupu irəli çıxır. Mətnlə vəziyyət nə yerdədir?

- Mətn hazırdır, - Potapenko onu sakitləşdirdi.

- Yaxşı alınıb, - Şildina əlavə etdi. – Nəsr hissəsini özümüz yazmışıq, şeir isə inişilki hesabat konfransındakı pioner salamı mətninin əsasında yenidən işlənib.

- Bəs bunu başa düşməyəcəklər?

- Kimdir mətni dinləyən? – Nataşa təəccübləndi. – Hamı uşaqlara baxır.

- Ağıllı-fərasətli uşaqlar olsun. Yoxsa, keçən dəfə fonoqramda «Biz uşaqlar – oktyabryatlar…» səsləndiyi yerdə bir qızcığaz qorxusundan səhnədən qaçmışdı. Dəhşət!

Birinci katib gülümsünərək, dəhlizlə irəliləməyə başladı. Tələbə gənclər şöbəsində üç mudir toplaşmışdı: kabinetin sahibi Nadya Bıkovskaya, İvan Loktyukov və Oleq Çesnokov.

Şumilin Nadyanı hələ pedinstitutdan tanıyırdı, raykoma başçı keçəndən sonra onu öz yanına gətirmişdi. O, namizədlik minimumu imtahanını vermişdi və indi müəllimlik işinə keçmək istəyirdi, ancaq birinci onu buraxmırdı ki, buraxmırdı. İvan rayonda, xüsusən də oğlanların arasında çox tanınmış şəxs idi. Amma onu daha çox idman və müdafiə-kütləvi iş şöbəsinin müdiri kimi yox, sambo seksiyasının rəhbəri, əlinin kəsməsi ilə kərpic sındıran adam kimi tanıyırdılar. Bıkovskaya və Loktyukov, deyəsən, komsomol toyuna hazırlaşırdılar. Çesnoko da, yəqin ki, toyda şahid olacaqdı.

- Bu hansısa… - İdman müdiri rəhbəri qapıda görüncə şaşırdı.

- Böyük üçlük! – Birinci katib gülümsədi.

- Potsdam! - Oleq səsləndi. – Cinayətkarların taleyini müzakirə edirik.

- Hələ Postdama çox var, - qaşqabaqlı Loktyukov zarafatla dedi.

- Mansurov zəng eləməyib? – Şumilin ondan soruşdu.

- Zəng etməsinə ehtiyac yoxdur, mənim şöbəmdədir, operativ dəstəylə söhbət edir, deyəsən, səni gözləyir. Mən lazımam?

- Hələ ki yox. Oleq İvanoviç, aparatın iclasından öncə yanıma gələrsən.

- Oldu.

- Siz niyə toplantını müzakirə etmirsiniz? Baxın a, planlaşdırmada bütün məqamları ayrı-ayrılıqda yoxlayacağam.

Şumilin otaqdan çıxdı və heyif ki, söhbətin arxasını eşitmədi.

- Nəsə komandirimiz kefsizdir, - Çesnokov örtülməkdə olan qapıya baxdı. – Deyəsən, Kovalevski payını verib! Yaxşı olmadı, heç yaxşı olmadı… Heç zamanı deyildi…

- Nə olub ki, - Bıkovskaya soruşdu. – Nə baş verib?

- Xəbərin yoxdur? Siz işdə nəylə məşğul olursunuz! – Onu şəhər komitəsində Şpartkonun yerinə aparmaq istəyirlər.

- Bunu bilmirdim… Düz eləyirlər də! Əgər onlara Şumilin kimi birisi lazımdırsa…

- Kolya bu xuliqanlarla bağlı məsələyə aydınlıq gətirməyincə, heç yerdə lazım olmayacaq.

- Hansısa yaramazların hərəkətinə görə niyə o cavab verməlidir axı? Onlar, bəlkə də, heç bizim rayondan deyillər!

- Birincisi, məsul işçilər hər şeyə görə cavabdehdirlər, ikincisi də, bu xuliqanların kim olduğunu bilmək üçün əvvəlcə onları tapmaq lazımdır! – Çesnokov çoxbilmiş bir tərzdə izah etdi.

- Mən də elə onu deyirəm, - Loktyukov, nəhayət, yarıda kəsilmiş fikrinə qayıtdı. – Əgər bunlar təsadüfi adamlardırsa, məsələn, gəlmələrdirsə, onları tapmaq çox çətin olacaq. Məsələnin pis tərəfi budur.

- Sən özününkülərdən soruşmusan? – Nadya Loktyukovun seksiyasında məşğul olan uşaqları nəzərdə tuturdu.

- Onlar deyir ki, tanısaydılar özləri tutub gətirərdilər.

- Mənə hələ də çatmır… - Bıkovskaya barmağını gicgahına tutdu. – İnsan nə dərəcədə sərsəm olmalıdır ki, belə bir iş görsün!

- Nadenka, sən psixologiyanı öyrənmisən, - Oleq gülümsədi. – Belə bir anlayış var - rola girmək davranışı. Ola bilsin, raykoma soxulanlar hətta nümunəvi komsomolçudurlar. Sadəcə, cümə günü işdən sonra xuliqan roluna giriblər və bu rolu çox gözəl oynayıblar. Zarafat edirəm!

- Əcəb roldur! – idman şöbəsinin müdiri ağır əlini stola çırpdı. – Burada nəsə bir anlaşılmazlıq var…

- Əslində hər şey aydındır. Hər şey mümkündür: adam raykomda da işləyə bilər, hətta rəhbər vəzifə tuta bilər. Amma ayağını kandardan kənara qoyan kimi dəyişilər və başqa rola girər. Məgər belə hallar olmur?

- Dayan, - Nadya sözə başladı, - deməli, raykom – bir səhnədir, ailə – başqa bir səhnə, üçüncü…

- Hələ kiçik səhnəciklər də var! – Çesnokov onun sözünə qüvvət verdi.

- Deməli, həmişə rol oynanılır? Bəs insanın özü hanı? Axı insanda dəyişilməyən nəsə olmalıdır!..

- İnsanda dəyişilməyən onun özü üçün uydurduğu roldur. Cəmiyyətə isə sənin öz sosial rolunu necə ifa edib-etmədiyin maraqlıdır, sənin bu barədə düşündüklərin və hiss etdiklərin cəmiyyəti az maraqlandırır.

- Dayan… onda belə çıxır ki, həyatda fəal mövqe tutmaq, əqidəli olmaq – komsomoldan tələb olunan şeylər – bunların hamısı sadəcə rolu və ya ssenarini əzbərləmək deməkdir?! Elə isə biz hansı rolu oynayırıq?

- Şəxsən mən indi arsız, mənsəbpərəst rolunu oynayırdım, - Oleq cavab verdi. Bu söhbət artıq onu yormağa başlamışdı. – Hə, necədir?

- Çox yaxşı, həyatda olduğu kimi! – Loktyukov onu tərifləndi.

…İdman şöbəsinə doğru gedən Şumilin bu zaman təbliğat və təşviqat şöbəsinin yanında ayaq saxladı. Muxinin stolu həmişəki kimi boş idi. Xomiç «Mayak» nəşriyyatının toplantıda çıxış edəcək çapçısı ilə söhbət edirdi. Şumilin xəyalən çıxışçıların siyahısına göz gəzdirdi və yadına saldı ki, bu oğlanın adı Sergeydir, soyadı isə ya Lopuxin, ya da Polunindir.

- Çıxışa necə başlayacaqsan? – təlimatçı ondan söz çəkməyə çalışırdı.

Oğlan susub, əllərini yana açdı.

- Hamı kimi başlayarsan: «Yoldaşlar!» - Valera səlis xətlə qarşısındakı vərəqə yazdı. – Siz pambıq-parça kombinatının çağırışına səs vermisinizmi?

- Əlbəttə!

- Yazırıq: «…mən və mənim yoldaşlarım pambıq-parça kombinatının çağırışına səs verərək, öhdəlik götürmüşük ki…» Hansı öhdəliyi götürmüsünüz?

- Deməli, basma lövhələrin sayını saatda 11 mindən 11,5 minə çatdırmaq və kvartalda bir ton kağıza qənaət etmək… Biz ansambl təşkil etmək istəyərkən direktorun dediklərinə gəlincə…

- Dayan! Kəm-kəsir haqqında sonda danışarsan. Yazırıq: «…kvartalda bir ton. Bu gün biz toplantıda bəyan edə bilərik ki…» Toplantıda nə bəyan edə bilərik?

- Deməli, artıq biz 12 min basma lövhə hazırlayırıq, 1,5 ton kağıza qənaət etmişik… Bəs ansambl?

- Dayan-dayan! Yazırıq: «kvartalda iki ton (alqışlar)».

Birinci katibi görüncə ikisi də ayağa qalxdı: təlimatçı aparat işçisi kimi – könülsüz, çap işçisi isə əsgər sayağı – kəskin hərəkətlə. Yəqin, ordudan yenicə tərxis olunmuşdu.

- Çıxış üzərində işləyirik, Nikolay Petroviç, - Xomiç bildirdi.

- Görürəm, Valera. Sən otur, otur. Sergey, sən də əyləş! – Şumilin otuzuncu illər ənənəsinə uyğun tərzdə icazə verdi. O illərdə, məlum olduğu kimi, MK katibindən tutmuş ÜİLKGİ-nin sıravi üzvlərinə kimi hamı bir-birinə «sən» deyə müraciət edirdi.

- Direktor sizə nə dedi axı, dəstəkləmədi?

- Elədir ki var! – oğlan özündən çıxdı, - komsomolçular əlavə öhdəliklər götürəndə yaxşıdır, amma bir xahişimiz-filan olunca… Nikolay Petroviç, siz ona zəng etsəydiniz, pis olmazdı!

- Belə de! Yaxşı, zəng edərəm. Sənsə, Sergey, toplantıda mütləq bu barədə danışarsan, hər şeyi olduğu kimi danış! Təmtəraqlı sözlər onsuz da çox deyiləcək.

… Qeydiyyat şöbəsinin qapısı önündə həmişəki kimi növbə yaranmışdı. Burada qeydiyyata düşür, qeydiyyatdan çıxır, yaşın çoxluğu ilə bağlı komsomolu tərk edirdilər. Şöbədə çalışan qızlar minlərlə kartotekanın içindən sarımtıl karton vərəqi tezcə tapır, tarix qoyur və ştamp vururdular. Beləcə, rayon təşkilatından bir nəfər azalırdı. Amma elə bu an bir başqası öz sənədlərini təqdim edirdi və orta göstərici dərhal təmin olunurdu. Şumilin çoxdandır ki, «Komsomol bileti ilə vidalaşma» adlı ritual hazırlamağı planlaşdırırdı. Yoxsa bu nədir, gəncləri təntənəli surətdə komsomola qəbul edirik, iyirmi səkkiz yaşı olanlarla isə işgüzar şəraitdə, adi qaydada ayrılırıq. Komsomol həyatı ilə vidalaşan bu insanlar sanki öz biletlərini təhvil vermirlər, kitabxanadan götürdükləri kitabı qaytarırlar. «Xuliqanlarla bağlı tədbir görəndən sonra - Şumilin özünə söz verdi - Lyaşko ilə oturub bu barədə fikirləşərik».

Birinci katib müdafiə-idman işləri şöbəsində operativ dəstədən olan iki yekəpər oğlanla söhbət edən dünənki inspektoru gördü.

- Mən də elə sizi gözləyirdim, - şəraitə uyğunlaşmış kapitan sərbəst tonda dedi.

- Elə isə mənim otağıma keçək, - Şumilin onu öz yanına dəvət etdi və Mansurovu irəli buraxıb, Allaya dedi ki, təcili bir iş olmasa, onu telefonda heç kəslə calamasın.

O, kabinetdə öz stolunun arxasına keçdi. Stol o qədər böyük idi ki, lazım gəlsə, üstünə kiçik bir təyyarə qona bilərdi. Şumilin qonağa yer göstərib, vəziyyəti soruşdu.

Məlum oldu ki, heç bir yenilik yoxdur. Ancaq inspektor tezliklə müəyyən məsələlərə aydınlıq gələcəyinə əmin idi. Məsələn, o, spartakiada kubokunun hardasa üzə çıxacağını bildirdi.

- Necə bilirsiniz, Nikolay Petroviç, - inspektor sanki elə-belə soruşdu, - bu cinayətkarlar buraya hansısa bir ədalətsizliyin intiqamını almaq üçün girməyiblər ki?

- İntiqam? Raykomdan nəyin intiqamını almaq olar ki?

- Çox şey ola bilər! Məsələn, kimsə ciddi cəzalandırılıb və ya başqa bir şey.

- Məncə, yox… Sözün açığı, biz insanları ciddi cəzalandırmağı yadırğamışıq. Onları başa düşməyə çalışırıq.

- Hər halda, mümkünsə, mən son bir-iki ilə aid şəxsi işlərlə tanış olmaq istərdim.

- Necə istərsəniz. – Şumilin düyməni basıb, selektorla Lyaşkonu yanına çağırdı.

Bir dəqiqə sonra alçaqboylu, ciddi görkəmli, kartotekalarla işləməkdən yorğun düşmüş Olya kabinetə daxil oldu.

- Nə olub, niyə belə qəmlisən? – rəhbər şəfqətlə soruşdu.

- Belə də, Nikolay Petroviç, illik yoxlamanın nəticələrini paylamaq lazımdır, blanklar isə hələ də çap olunmayıb.

- Bəs, qeydiyyatdan çıxmayanlarla bağlı vəziyyət necədir?

- Məzunlar həmişəki kimi səhlənkardırlar! Siz məktəblilər şöbəsinə deyin, bu işlə məşğul olsunlar. Komissarovanı pioner salamından savayı heç nə düşündürmür, rəqəmlərə görə isə mən cavab verməli olacağam!

- Yaxşı, deyərəm. Sən son iki ilə aid şəxsi işləri topla, yoldaş Mansurova ver. Bu işlə elə indi məşğul ol.

- Sağ olun, - kapitan ayağa qalxdı və Lyaşkonun kabinetdən çıxmasını gözləyib, yenidən əyləşdi. – Bilirsiniz, Nikolay Petroviç, bu işlə məşğul olduqca, məndə belə bir əminlik yaranır ki, burada oğurluğa cəhd-filan olmayıb! Əgər onlar raykoma deyil, bir başqasının bağına girmiş olsaydılar, bunu yalnız dəcəllik kimi dəyərləndirmək olardı.

- Bilirsiniz… Mən dəcəlliyi başqa cür təsəvvür edirəm…

- Mən də elə onu demək istəyirəm ki, bu sıradan bir hadisə deyil.

- Elə isə şəxsi işlər nəyinizə lazımdır?

- Hər iki ehtimalı yoxlamaq lazımdır. Amma yəqin ki, bunlar sadəcə sərxoş xuliqanlar olublar, pəncərənin açıq qaldığını görüb, avaraçılıqdan içəriyə giriblər…

- Buradakı əşyaları da avaraçılıqdan sındırıb-töküblər?

- Avaraçılıqdan, Nikolay Petroviç, bundan da artığını etmək olar! İzah edirəm. Zəncirin həlqələri çox sadə düzülüb: avaraçılıq – içki – hadisə. Tutalım, oğlan işdən qayıdıb: iş günü qısaldılıb, onu hələ ki axşam məktəbinə göndərməyiblər, arvad-uşaq yox, ev işlərində kömək etmək onluq deyil, ayıq başla kinoya və ya rəqs meydançasına getmək istəmir. Hara getsin? Onda elə özü kimi burnufirtıqlı birisi ilə birgə yarım litr içir və atılıb-düşməyə başlayır. Çünki nə içməyi bacarır, nə də adam kimi dincəlməyi!

- Hə, asudə vaxt məsələsi… Siz bizim diskotekamızda olmusunuz?

- Əlbəttə, bəs siz özünüz orada tez-tez olursunuz?

- Arabir gedirəm… - Şumilin qeyri-müəyyən cavab verdi. – Maraqlı proqramımız var, biletləri komsomol komitəsi vasitəsilə paylayırıq, orada drujinaçılar daimi növbə çəkirlər…

Birinci katib əsəbiliklə hiss etdi ki, kapitanın önündə özünə haqq qazandırmağa çalışır.

- Çox gözəl, - Mansurov razılaşdı, - bəs xəbəriniz varmı ki, dediyiniz diskotekalar möhtəkirlər üçün ibtidai məktəb rolunu oynayır?

- Möhtəkirlər üçün? Bizim diskotekalar? Məndə belə məlumatlar yoxdur, - Şumilin soyuq cavab verdi.

- İzah edirəm: mən konkret olaraq sizin diskotekanı nəzərdə tutmuram. Başqa bir rayonda gənclərin toplaşdığı kafe var, bir vaxtlar orada bilet satışı ilə məşğul olan yeniyetmələr avaralanırdılar. Onlar az qala hərbiləşmiş, intizamlı təşkilat yaratmışdılar, vəzifə bölgüsü aparılmışdı, bir nəfərə tabeydilər. Başçılarının qəribə ləqəbi vardı: Oberst… Başa düşürsünüz?

- Başa düşürəm… O qrup barədə də məlumatım var. Bu işlərlə ciddi məşğul olmaq lazımdır!

- Biz öz tərəfimizdən məşğul oluruq, amma «Oberst» kimilərlə və onların komandaları ilə, yoldaş birinci katib, siz məşğul olmalısınız!

- Siz, yoldaş kapitan, komsomolda işlmək istəməzsiniz? Yeri gəlmişkən, bizə ikinci katib lazımdır.

- Rütbəm imkan vermir, - inspektor onu sancıb, ayağa qalxdı. – Nəsə bir yenilik olsa, sizə zəng vuraram. Mənim koordinatlarım sizdə var.

- Hə, özümdə qeyd eləmişəm, - Şumilin təqvimin vərəqini çevirib baxdı.

Mansurov çıxıb getdi. Şumilin tərləmiş əlləri ilə sifətini ovuşdurdu və yenidən Kononenkonu, onun intonasiyasını,

söhbətlərini xatırladı. İndi bu söhbətlər ona başqa cür - daha ağır, daha kəskin təsir bağışlayırdı.

- Heç fikir vermisənmi, - bir dəfə ikinci katib ona demişdi ki, cavanlar «komsomol» deyərkən özlərini deyil, yalnız bizi – aparat işçilərini, funksionerləri nəzərdə tuturlar? Bəzən mənə elə gəlir ki, əgər bizim aparatı ümumiyyətlə rayondan götürsəydilər, biz elə həmin qaydada fəaliyyət göstərər, raportlar yazar, fəxri fərmanlar alardıq…

- Özü də əsəbiləşib-eləmədən, üzvlük haqları-filan barədə fikirləşmədən… Sən ümumiləşdirmə aparmağı bacarırsan, Vitya! – birinci katib onun fikrini davam etdirdi.

- Ümumiləşdirmə aparmıram, mən konkret olaraq bizim rayondan danışıram!

«Kononenko belə buyururdu!» - Şumilin gülümsündü, stolun üstündəki kağız dəstini qabağına çəkdi və mətnlərə mexaniki göz gəzdirə-gəzdirə onları imzalamağa başladı. İmzada rəhbərin gücü-qüdrəti əks olunur, odur ki, belə adamlar öz imzasına ciddi məsuliyyət hissi ilə yanaşırlar ki, şübhəli qrafologiya elminin qanunlarına görə imza onu qoyanın əhval-ruhiyyəsindən asılı olaraq dəyişilməsin. Elə indiki kimi: ilk baxışda Şumilinin imzası əvvəlkilərdən heç nəylə seçilmirdi. Yalnız birinci katibin özü öz imzasında yeni çalarların yer aldığının fərqindəydi. Bəlkə də bu, çaşqınlıq və qarıxmadan irəli gəlirdi.

10

- Alloçka, - Şumilin içəriyə girən katibəsinə üz tutdu, - zəng vuranları mənimlə birləşdirə bilərsən. Al, qeydlər aparılmış səhifələri yenidən çap elə. Qeydlərimi oxuya bilirsən?

Buyuruğun birinci hissəsi atəşkəsin pozulması haqqında hərbi əmrə bənzədi – birinci katibin üzərinə şiddətli telefon zəngləri yağmağa başladı. O cavab verir, izah edir, özünü təmizə çıxarır, dəqiqləşdirmə aparır, zəmanət verir, məsləhətləşir, təbrik edir, nəyisə təxirə salır, kimisə tənbeh edir, kiminsə halına acıyır, diqqətlə dinləyir, həyatdan şikayətlənir, hər şeyi dərhal düzəldəcəyinə söz verir, kimlərdənsə xahiş edirdi ki, bir neçə gündən sonra onunla əlaqə saxlasınlar…

Mayakovski haçansa gülməli bir söz işlətmişdi: «razbaşmüd» - razılaşdırmanın idarə olunması üzrə baş müdir. Böyük şair iclasbaz müdirləri qamçılayır (dərslik müəllifləri bu feli çox xoşlayırlar), amma özü də şubhə etmirdi ki, idarə etmək və razılaşdırmalar aparmaq ağır, məsuliyyətli işdir. Ancaq bir şeyi unutmaq lazım deyil ki, idarə etmək lazım olduğu hallarda razılaşdırmalar aparmaq və razılaşdırma aparmaq əvəzinə idarə etmək olmaz. Şumilin bunları qarışdırmırdı!

…Şumilini ilk növbədə toplantının keçirilməsi ilə bağlı məsələlər narahat edirdi. Dünən alınan tədbirlərdən sonra elə də ciddi problemlər olmamalıydı. Bəzi problemləri əməkdaşlar yoluna qoydular, amma nəqliyyat və zalın kirayələnməsi məsələsini özü həll etməli oldu. O, kosmonavtı və məşhur aktyoru toplantıya gətirmək və hələ afişalara düşməyən filmi almaq üçün adətən bir kvartalda xərclədiyi enerji və inadkarlığını buraya sərf etməli oldu. Bundan əlavə, o, hazır məruzə mətnlərini oxudu, onlardan bəzilərini yararsız çıxardı, pioner salamı üstündə Komissarova ilə ağızlaşdı. Axırda qərara gəldilər ki, Petya Konışev köhnə şeiri yenidən işləsin. Ruhən lirik olduğunu iddia edən Petya isə əvvəlcə bundan boyun qaçırdı, lakin ölkə poeziyasından gətirilən bir çox əsaslı örnəklər onun müqavimətini sındırdı. Bundan sonra Şumilin həddi-büluğa çatmayanlar üzrə müfəttişliklə (onu burada yaxşı tanıyırdılar) əlaqə

saxlayıb, baş verənləri onlarla müzakirə etdi. Bundan başqa, pedinstitutun komsomol katibinə, raykom bürosunun üzvü Sergey Zayaşnikova zəng vurub xahiş etdi ki, yeniyetmələrlə məşğul olan tələbələri də xuliqanların axtarışına cəlb etsin. Şumilin telefonun dəstəyini yenicə yerinə qoymuşdu ki, «Komsomolets»in redaktor müavini, qırx yaşlı sırtıq jurnalist, görünür, artıq təqaüd yaşınacan gənclərin qəzetində ilişib-qalmış Liparski özünü onun yanına saldı. Telefon görüşmələri zamanı onlar həmişə yaxın dostlar kimi danışırdılar, baxmayaraq ki, aralarında nəinki dotsluq, heç isti münasibət belə yoxdu. Doğrudur, burada başqa bir məqam vardı: qəzetin redaksiyası Krasnoproletarski rayonunun ərazisində yerləşirdi və jurnalistlərin bütün kağız-kuğazı, o cümlədən də xarici səfərlər üçün xasiyyətnamələr Şumilinin əlindən keçirdi. Beləliklə, komsomol möhürünün gücü qüdrətli, rezin kimi dartıla bilən mətbuatın gücü ilə bərabərləşirdi – birinci katib bu mətbuat orqanında çıxan bəzi məqalələri vaxtaşırı müvafiq sənədlərə əlavə edirdi.

- Hər şey qaydasındadır, dostum! – Liparski ucadan səsləndi. – Sabahkı nömrəyə qoyduq. Birinci səhifəyə. Sən öz şöbə müdirinə de ki, xahişlərini son ana saxlamasın, mən axı fokusçu deyiləm!

- Nəyi qoydunuz? – yaddaşının künc-bucağını eşələyən birinci katib ehtiyatla soruşdu. – Bağışla, məzuniyyətdə idim, unutmuşam…

- Necə yəni nəyi? Dörd sütunluq fotonu!!! Sizin toplantıya rəşadətlə hazırlaşmağınız barədə.

- Aa! Hə-ə!» Çox sağ ol! - Şumilin ürəkdən təşəkkür etdi və gözlərini kabinetə vaxtında girmiş Çesnokova zillədi. – Bəs şəkli haçan çəkmisiniz? Mən olmadan?

- Keçən il, burada fotoreportaj edərkən. Xatırladın?

- Axı onda ikinci katib Kononenko idi.

- Dostum, bizə elm öyrətmə də! Uşaqlar Kononenkonun yerinə sənin indiki şöbə müdirin Çesnokovun şəklini yapışdırıblar. Fotogenikdir, şəkildə çox yaxşı düşür.

- Belə de! Sağ ol!

- Əvəzində səndən bir xahişim olacaq: bizim uşaqlardan birinə tezbazar xasiyyətnamə yazmaq lazımdır. Vaxtı ötürüb, başa düşürsən?

- Yazarıq.

- Sağ ol, dostum! Sabahkı nömrəmizi oxuyarsan!

Çesnokov səbirlə müdirin söhbəti bitirməsini gözləyirdi.

Şumilin dəstəyi yerinə qoydu və zəhmli baxışlarını şöbə müdirinə zilladi:

- Mənim adımdan daha hansı xahişlər eləmisən? Bəlkə, artıq mənim əvəzimə kağızları da imzalayasan?

- İkinci katib vəzifəsinə götürsən, imzalamalı olacağam, qəzetdə çıxan şəklin isə toplantıya ziyanı yoxdur, komandir. Əksinə, söz-söhbət azalacaq: axı qəzetdə çıxan şəkil bizdə şərəf lövhəsi kimi bir şeydir… Sən heç qəzetdə gözə kül üfürənlərin və israfçıların kollektiv şəkillərinin çap olunduğunu görmüsən?

- Görmüşəm. Ancaq onların gözə kül üfürən olduqları sonradan məlum olub.

- Hə də! Ümumiyyətlə, Nikolay Petroviç, sənin vəziyyətində olan adam üçün bu şəkil – tapıntıdır, sənsə «sağ ol» əvəzinə… Xətrimə dəyirsən!

- Sən hansı vəziyyətdən danışırsan?

- Öz uşaqlarının başını piyləmək lazım deyil də, raykomda söz-söhbət dolaşır ki, sən Şpartkonun yerinə keçirsən.

- Mən… Nədir, onların başqa işi-gücü yoxdur?!

- Sözdür, danışırlar da…

- Toplantını da beləcə, boş-boş sözlərlə yola verəcəksiniz! İndi isə məni diqqətlə dinlə: bir daha mənim adımdan nəsə eləsən, ərizəni yaza bilərsən. Başa düşdün? Beş dəqiqədən sonra planlama iclasıdır. Ssenari hazırdır?

- Xətrimə dəyirsən! Nikolay Petroviç, möhtəşəm bir ideya var. Təsəvvür elə, uşaq evindən gətirilən uşaqlar onlara göstərilən qayğıya görə rayon komsomoluna minnətdarlıq edirlər, biz isə onlara böyük qızıl açar bağışlayırıq.

- Nəyin açarını?

- Necə yəni?

- Soruşuram, nəyin açarını bağışlayırıq onlara?

- Uşaq evinin! Orada artıq hər şey hazırdır, xırda-para işlər görülməlidir, vəssalam. Bu simvolik açar olacaq.

- Bizdə olmayan qapıların simvolik açarları xirtdəyəcəndir, Oleq, bax burayacan! – Şumilin əlini boğazına tutdu. – Sən raykomda işləməməlisən, sənin işin təyyarədən döyüş səhnələri çəkmək olmalıdır.

- Məndə alınmaz, mən mühəndis ailəsindənəm…

- Eləmi? «İnsan-saatlar»a görə isə nəslən elmi-texniki inqilabçısan. Loktyukovla məsələni aydınlaşdırdın?

- Aydınlaşdırdım! Borclar bir həftə ərzində ödənəcək.

- Bəs sən özün tikintidə nə vaxt olmusan?

- Nikolay Petroviç, vaxtım var məgər? Pioner salamlamasından savayı toplantının bütün işləri mənim üzərimdədir! Həm də bu Loktyukovun mövqeyidir, o, günaşırı orada olur, hətta bəzən orada gecələyir.

- Yaxşı, aparatın iclasına hazırlaş, - Şumilin söhbətə yekun vurdu və sabah tikintiyə baş çəkməli olduğu barədə təqvimdə qeyd apardı.

Bu zaman Çesnokov yavaş addımlarla qapıya çatdı və çevrilib, ona xas olmayan utancaq səslə soruşdu:

- Mənim işlərim nə olacaq? Bir qərar verəcəklər, ya yox?

- Burada aydın olmayan nə var? – birinci katib istehzayla soruşdu. – Bütün raykom bu barədə danışır. Get, qulaq as.

Tək qalan Şumilin ssenarini gözdən keçirir, eyni zamanda yeni informasiyanı təhlil edirdi. Komsomolun şəhər komitəsi katibi Şpartkonun işdən çıxmaq istədiyini o, çoxdan bilirdi. Onun ehtimal olunan varisləri ilə bağlı hər dəfə yeni-yeni adlar çəkilirdi. Görünür, indi də növbə Krasnoproletarski komsomol komitəsinin rəhbərinə çatmışdı. Bu çoxdankı hiylədir: boşalmış və ya boşalacaq iş yerinə yuxarı instansiyaların təsdiq etməyəcəyi adamı götürmək istəyirlər və vakansiya ətrafında süni fırtına qoparırlar (kinoda aerodinamik boruların köməyi ilə yaradılan effekt). Uca səslə çoxsaylı namizədlər təklif olunur və qəbul edilmir – birinin diplomu uyğun gəlmir, digərinin ailəsində problem var, üçüncüsünün diplomu da, ailəsi də uyğundur, amma yaşı münasib deyil (çox cavan və ya da çox yaşlıdır), dördüncünün… Və sairə. Nəhayət, vəzifəli yoldaşlar buna dözmür və hirslənirlər: «Siz öz kadr məsələnizi həll edəcəksiniz, ya yox?!». Bax, bu zaman, həqiqətən də, işə götürmək istədikləri adam sıx meşəlikdə pusquya yatmış polk kimi zühur edir. Onun diplomu da uyğun deyil, ailəsi də yoxdur, yaşı da ötüb və s., amma səbrini itirmiş yuxarılar vəzifəyə məhz həmin adamı təyin edirlər. Görünür, Şumilinin namizədliyi də həmin aerodinamik tufanın əsintisi idi. Bəlkə də, yox… «Bütün raykom danışır…» Təəccüblü deyil! Əgər bəşəriyyəti «Biz kimik?», «Hardanıq?», «Hara gedirik?» kimi suallar düşündürürsə, aparat işçilərinin yalnız bir dərdi var: kim, haraya, nə üçün və necə gedir? Özü də burada əməkdaşların yerdəyişməsini təsnifləndirən, çox ciddi işlənilmiş, çevik və əlbəttə ki, qeyri-rəsmi dəyərləndirmə sistemi mövcud idi. Məsələn, rayon komitəsinin təlimatçısı vəzifəsində şəhər komitəsinin təlimat-

çısı vəzifəsinə keçmək uğur sayılırdı, raykomun şöbə müdirliyindən şəhər komitəsinin təlimatçısı vəzifəsinə keçmək isə uğursuzluq; şəhər komitəsinin təlimatçısı vəzifəsindən raykomun katibi vəzifəsinə keçmək – yaxşı hal idi, çünki bu müstəqil vəzifədir; amma raykom aparatının sıravi işçisi olub sonradan, tutalım, həmkarlar ittifaqına keçmək – pis vəzifə. Belə də olur: əcaib adamlardan birisi raykomun şöbə müdiri vəzifəsindən çıxıb zavodda katib vəzifəsinə keçir. «Düz eləyib! – mütəxəssis sizə izah edəcək. – O, bir-iki ildən sonra birinci katib olacaq!» Və belə də olur!

Aparatın yığışmasını gözləyən Şumilin Çesnokov haqqında düşünürdü. Adamın şöbə müdiri vəzifəsi üzərindən adlayıb, birbaşa ikinci katib keçməsi nadir hallarda mümkündür, deməli, hazırda Oleqin taleyi həll olunur. Əlbəttə, son söz rayon partiya komitəsinindir, ancaq axı ilk söz deyilən bir şey də var və onu Şumilin deməlidir. O isə bu sözü ifadə etməyə tələsmirdi.

Düzdür, Çesnokov – işgüzar, enerjili, sözünü tutan oğlandır, tarazlığı pozmamaq üçün bəzən özünü başısoyuq, səliqəsiz adam kimi göstərir. Hə, işin öhdəsindən gələ bilər, adamı pis vəziyyətdə qoymaz, ancaq ona görə yox ki, bu onun görməli olduğu işdir, ona görə ki, bu iş ona fayda gətirir. Çesnokov Muxin kimi başdansovdu iş görmür, zəhmət çəkir, ağlını, əsəblərini, vaxtını sərf edir və məsul, prestijli vəzifə, yaxşı əməkhaqqı, cəmiyyətdə mövqe qazanmağı hədəfləyir… komsomol Oleq üçün yaş həddi və tale məsələsi deyil, özözünə hərəkət edən həyat eskalatorunun (bu eskalatorun üstündə qaçmaqla daha sürətlə irəliləmək olar) pillələridir.

Çesnokov dünyada təkdirmi? Yox. O, başqalarından pisdirmi? Bəli, Kononenkodan pisdir, ancaq aparat uniforması (əyinə yaxşı oturan kostyum və zövqlu qalstuk) geyib, qəlbin-

də hər şeyə bir laqeydlik, gəl ki üzündə qayğılı ifadə var, işgüzar-iti addımlarla (yəni iş xatirinə qaça da bilərəm, amma qaydalar icazə vermir) dəhlizlərdə dolaşan digərlərindən pis deyil, bəlkə də, yaxşıdır…

Beləliklə, Oleqi ikinci katib vəzifəsinə götürmək – kobud dillə desək, səmimi mənsəbpərəstə yol açmaq deməkdir. Götürməsə, Allah bilir, onun yerinə kimi göndərəcəklər. Xarici ticarət sevdalısı Muxini göndərsələr, batdıq! Bəlkə, hər halda Buteninlə danışım? Ancaq o, işin çəmini tapana kimi bizimki bizə dəyəcək, aparat işinə musiqini öyrənirmiş kimi yavaş-yavaş alışmaq lazımdır. Yoxsa, bəziləri elə bilir ki, müdir stoluna əyləşən kimi artıq fortepianoda konsert verə bilər. Əslində isə adamın özünə gəlməsi illərlə vaxt aparır. Komsomol rayon komitəsi, əlbəttə, konservatoriya deyil, daha çox özfəaliyyət kollektividir, ancaq digər yandan öz yolunu zavod klublarından başlayan görkəmli sənətkarlar azdırmı! Aparat toplaşdı. Şumilin özlüyündə qeyd etdi ki, boş qalmış stellajlar artıq dolmağa başlayır: toplantı üçün bir neçə yaxşı tərtib olunmuş raport təqdim olundu, rəfə növbəti plastik raket yerləşdirildi. Şumilin toplantıya hazırlığı bütün bəndlər üzrə bir daha yoxladı. Bundan sonra toplantının plan-ssenarisi oxundu və ümumi səylə dəqiqəbədəqiqə korrektə olundu. Gözlənilmədən məlum oldu ki, rəyasət heyəti üçün gül və buterbrod alınması üçün pul ayrılmayıb. Birinci katib aparatın iclasından sonra Volovçuku öz yanına çağırdı. Maliyyə intizamının qeydinə qalan Volovçuk dərindən ah çəkdi. Sonra Şumilin çıxışçılarla necə işləmək lazım olduğu barədə təlimat verdi:

- Əsas odur ki, çıxışçılar iş barədə danışsınlar, onların nitqinin rabitəli olub-olmaması ikinci məsələdir! Hələlik məndə belə bir təəssürat var ki, elə bil, bütün çıxışlar, məlum lətifədə olduğu kimi, eyni çəlləkdən götürülüb…

Əməkdaşlar nahar fasiləsinə çıxarkən Şumilin soruşdu: – Bəs Muxin hanı?

- Bülletendədir, - ona xorla cavab verdilər.

Yeməkxanada bir qədər növbədə dayandıqdan sonra o, yemək boşqablarını siniyə düzdü, başıyla raykom işçilərinə salam verə-verə göz gəzdirib, boş yer axtarıb tapdı və stolların arasıyla oraya doğru getdi.

Son vaxtlar burada boşqabları sinidən götürmədən nahar edirdilər. Üzbəüz oturmuş iki makinaçı katibə qısqanclıq üstündə baş vermiş hansısa qətl hadisəsini müzakirə edirdilər. Söhbətə qulaq verən Şumilinin iştahı küsdü, ürəyi həyəcanla döyünməyə başladı, ancaq diqqətlə dinlədikdən sonra məlum oldu ki, onlar Qərbdə çəkilmiş yeni filmdən danışırlar.

Yeməkxana çox rahat idi, aparat işçiləri iş ab-havasını unutmasınlar deyə, burada kabinet sistemi tətbiq edilirdi: stollar bir-birindən dekorativ arakəsmələrlə ayrılmışdı. Divarlarda qastronomiya mövzusunda şəkillər asılmışdı. Yaxın və uzaq arakəsmələrin ardından tanış səslər gəlirdi. Bu səslərə fikir verməyən Şumilin birdən öz soyadını eşitdi.

- Birinci axmaq adam deyil! – Xomiçin gümrah səsi eşidildi. – O yalnız Yeni evə gedəcək.

- Onun yerinə olsaydım, Şpartkonun yerinə keçərdim, - Qoldman onunla razılaşmadı.

- Sən hələ onun yerində ol, sonra! – Raxmatullina istehzayla dedi. – Yadındadır, Bazlov da şəhər komitəsinə keçmişdi? Hanı indi o?

- Bazlov işin öhdəsindən gəlmədi, Şumilin isə bacarıqlı oğlandır, o, çox irəli gedəcək!

- Artıq heç yana getməyəcək, - Mila Smirnovanın nazik səsi gəldi. – Atam deyir ki, xuliqanların bu hərəkətindən sonra o, tezliklə öz aspiranturasına qayıtmalıdır…

- Boş şeydir! – Qoldman etiraz etdi. – Bəzən saxtakarlıqları üzə çıxmış adamları belə vəzifəsini aşağı salmadan, başqa işə keçirirlər. Əlbəttə, xoşagəlməz hadisədir, ancaq axı birincinin günahı nədir? O, ümumiyyətlə, məzuniyyətdə idi.

- Atam deyir ki, adamlar xəstə və ya məzuniyyətdə olduqda, onların başını daha asan yeyirlər.

- Sənin atan lap Yevgeni Şvarts kimi danışır!

- Niyə Şvarts kimi? Hansı Şvarts? Nəyə gülürsünüz?

- Elə-belə, - Raxmatullina dedi. – Bəsdir öldürülməmiş Şumilinin dərisini bölüşdürdük, məni ikinci katibin kim olacağı daha çox maraqlandırır.

- Necə yəni kim olacaq? Çesnokov! – Qoldman əminliklə dedi. – O, birincinin yanından çıxmır, səhər-axşam şəhər komitəsindədir, hər işini Yeni evlə məsləhətləşir. O olacaq!

- Çesnokov həddən artıq fəallıq göstərdi və ikinci olmayacaq! – Xomiç başqa şöbədə işlədiyi üçün daha sərbəst danışırdı. – Şəhər komitəsindən kimisə göndərəcəklər. Deyəsən, Folinskini!

- Niyə onu?! – Söhbət iştirakçıları xorla soruşdular.

- Onun familiyası sizə nəsə deyir, yoxsa əlavə izahata ehtiyac var?

- A-a-a!

Folinskini, həqiqətən də, Kononenkonun yerinə tövsiyə etmişdilər, ancaq Şumilin qəti surətdə imtina etmişdi. «Hər şeyi bilirlər, - qara qarağat kompotu içən Şumilin fikirləşdi. – Ailə məsələlərim haqqında da xəbər tutsalar, söz-söhbət baş alıb gedəcək, raykomda iş dayanacaq. Görəsən, onda bu balerinanın atası nə deyəcək? Şvartsla onun ağzını yaxşı yumdular…»

Şumilin çirkli boşqabları qabyuyanın yanına qoyub çıxışa doğru yönəldi. Yolunu qəsdən mübahisə edənlərin ya-

nından saldı, onlar söhbəti kəsib, yorğun, sədaqətli bıxışlarını birinciyə zillədilər.

«Ən xoşagəlməzi odur ki, - Nikolay Petroviç üz-gözünü turşutdu, - xuliqanlarla bağlı baş vermiş hadisə onlar üçün vəzifə irəliləyişinin qarşısında sadəcə maneədir. Bu hadisə niyə baş verib, günah kimdədir – deyəsən, bu məsələlər onları heç maraqlandırmır. Axı onlar hələ gəncdirlər, bu münasibət hardandır?.. Bəs sənin münasibətin hardandır: sən özün də ərizəni yazmadın, əksinə, düşünürsən ki, Şpartkonun yerinə keçməyə hazırsan! Belə-belə işlər. Arxa güzgünün olması azdır, daxildə də güzgü olmalıdır, yoldaş birinci katib!»

- Şəhər komitəsinə gedirik? – Aşot dəqiqləşdirmək istədi.

- Nə bildin?

- Mən bilmirəm. Mən hiss edirəm.

ÜİLKGİ şəhər komitəsinin birinci katibi yerində deyildi: o, yaradıcı gəncliyin nümayəndə heyəti ilə ADR-ə getmişdi. Şumilin təbliğat şöbəsinin müdiri Okolotkovun kabinetinə yollandı. Onu hələ qonşu raykomun katibi olduğu vaxtlardan tanıyırdı. İki il əvvəl onlar müşavirələrdə və səyyar təlimlərdə görüşür, çətin vəziyyətlərdə bir-birinə dayaq olurdular. Hətta bir-birinin ailəsində də olmuşdular. Toplantıda uğurlu çıxışından sonra onu şəhər komitəsinin katibi vəzifəsinə irəli çəkdilər. Artıq ailə dostluğu başqa səviyyədə davam edirdi, amma o öz sadəliyini qoruyub saxlamışdı və hər dəfə görüşəndə əlini Şumilinin əlinə şappıldadırdı. Amma artıq ağır-ağır, fikirli-dalğın danışmağı öyrənmişdi, az-az vədlər verirdi, daha çox kimlərləsə məsləhətləşmək lazım olduğunu deyirdi.

Şumilini görüncə o, stolun arxasından çıxıb onu salamladı. Dedi ki, məzuniyyətdə zənci kimi qaralıb və aktyor Belmondoya oxşayır, əlavə etdi ki, Krasnoproletarski komsomol-

çuları bir başqa aləmdirlər, orada baş vermiş hadisəyə görə təəssüf edir.

- Bilirsən, Kolya. – Okolotkov siqaretini sümürərək, fikirli-fikirli dedi, - əlbəttə, dəhşətli heç nə baş verməyib, amma müxtəlif söz-söhbətlər dolaşır, bu yaxşı hal deyil!

- Bəs birinci nə dedi?

- Birinci sənin xətrini istəyən adamdır, o dedi ki, bütün bunlar sadəcə xoşagəlməz anlaşılmazlıqdır. Sözün açığı… – Okolotkov yaxşı düşünülmüş səmimiyyətlə sözünə davam etdi, - Şpartko, demək olar, gedib. Onun yerinə iddia edən bir neçə namizəd var, amma ən real namizəd sənsən! Bizim aparatda olmusan, artıq dörd ildir ki, müstəqil fəaliyyət göstərirsən. Sənin rayonun yaxşıların sırasındadır. Bildiyim qədəri, birinci sənin lə danışmaq istəyir, o bu gün gecə qayıdacaq. Sənə bir dost məsləhəti: xuliqanlarla bağlı məsələni aydınlaşdır, amma bir az sakit ol. Özünütənqid pis şey deyil, ancaq day şivən qurmaq da lazım deyil. Yoxsa, belə baxıram, sən hər şeyi ürəyinə salmağa meyillisən. İkincisi də, toplantını yüksək səviyyədə keçirmək lazımdır! Bizim xahişimizi də yerinə yetirməyi unutma!

Söhbət ümumşəhər toplantısının iştirakçıları üçün basmanaxışlı bloknotların hazırlanmasından gedirdi.

- Artıq işləyirlər!

- Afərin! Bir şey olsa, dərhal zəng elə, məsləhətləşək.

Şumilin kabinetdən çıxdı, xroniki olaraq hamıya gülümsəyən katibəyə TD ETİ-nin gözəgəlimli bloknotunu hədiyyə etdi və şəhər komitəsinin kabinetlərini dolaşmağa başladı. Bunun mənasını belə ifadə etmək olardı: «Bu da mən! Mən hamınızı yadda saxlayıram və rayonda birinci olduğuma görə heç vaxt başımı itirmirəm. Rayon rayondur, şəhər isə şəhər!»

Şumilin şöbədən şöbəyə, kabinetdən kabinetə keçir, yenilikləri bölüşür, xəbərləri dinləyir, zarafatlaşır, eyni zamanda

hansısa məsələləri həll edir, kimdənsə dəstək istəyir, hansısa gərginliyə son qoyur, öz növbəsində şəhər komitəsinə kömək vədləri verirdi.

- Görün kim gəlib! – Onu növbəti qapının önündə salamlayırdılar.

- Bəs cangüdənlərin hanı? – Digər kabinetdə gülümsəyirdilər.

Pilləkənlə çıxışa doğru istiqamətlənən Şumilin burada həmin məşhur Şpartko ilə qarşılaşdı. Keçəlləşməkdə olan, gombul, komsomol işində vaxtından çox oturmuş Şpartko pilləkənlə ağır-ağır öz kabinetinə doğru qalxırdı. Şumilinin işigücü, ailəsi haqqında çoxlu suallar verməsindən (əvvəllər bunu etməzdi) bilinirdi ki, o, doğrudan da getməyə hazırlaşır.

Şumilinin vacib bir üstünlüyü vardı: rayona dörd il əvvəl getməsinə baxmayaraq, şəhər komitəsində onu özlərininki sayırdılar («bizim kadrdır!») və Krasnoproletarski komsomolunun rəhbəri də bu ikili statusundan bacarıqla faydalanırdı. Rayon komitəsinin birinci yerləri tutması, fəxri fərmanlar, keçici bayraqlar və digər fərqlənmə nişanları alması da müəyyən mənada bununla izah oluna bilərdi. Bundan başqa, komsomolun şəhər komitəsində Krasnoproletarski raykomundan çıxmış xeyli adam işləyirdi. Birinci katibin özü də, başqa rayon komitəsindən gəlsə də, vaxtilə həmin pedinstitutu bitirmişdi. Yerli həmrəyliyinin nə qədər böyük qüvvə olduğunu isə Şumilin hələ ordudan bilirdi.

O, fikirli-fikirli küçəyə çıxdı və maşını boş görüb, ətrafa boylandı: Aşot çiynini divara söykəyib, Okolotkovun qonşu binaya yollanan katibəsini «bişirirdi». Onun əlində telefon nömrəsi yazılmış kağız parçası vardı, bu məqam qızın sonrakı taleyi ilə bağlı heç bir şübhə yeri qoymurdu. Sürücü müdiri

görüncə, başı ilə işarə verdi. Bu işarəni belə də yozmaq olardı: «maşını işə sal, gedirik…»

11

Müdiri Mayonez zavodunun qapısı önünə gətirən Aşot sabahacan evə buraxıldı. Şumilin keçidin yapışqanlı qapısını aralayan kimi kəskin yağ iyi hiss etdi –bu zavodu bunsuz təsəvvür etmək mümkün deyil. Kandarda onu zavodun komsomol katibinin müavini, burada limitlə işləyən, astagəl hərəkətləri və rəvan kəndli nitqi ilə seçilən enlikürək Valya Nefedyeva qarşıladı. Bir neçə ildən sonra bu qız sərt, əsəbi, tələskən bir şəhərliyə çevriləcək. O, mağaza növbələrinin və ictimai nəqliyyatın od-alovundan, yaxşı subay kişilərin laqeydliyinin dondurucu buz sularından və zavod administrasiyasının hörmət-izzətini əks etdirən (Şərəf lövhəsindəki fotoşəkildən tutmuş, pəncərələri Dairəvi yola açılan birotaqlı mənziləcən) mis borulardan keçməli olacaq. Ancaq bu tezliklə baş verməyəcək, odur ki, Valya birinci katibin əlini ürkəkcəsinə, amma bərk-bərk sıxıdı və ürəksiz səslə: «Buyurun, gedək», - dedi.

Kiçik zavod klubunun çilçırağı hələ yeni il serpantininin izlərini saxlayırdı. Hər şey hazır idi: səhnəyə üzərində yaşıl örtük olan stol və köhnə, üzü üzlər görmüş tribuna qoyulmuşdu. Divarlardan müxtəlif sxemlər, diaqramlar və fotomontajlar asılmışdı… Akkardeonun futlyarına oxşayan səsgücləndiricidən Svetlovun bir vaxtlar populyar «Komsomol şərqisi» səslənirdi:

Dayan, sən komsomolçusan! Hə!
Gəlsənə, ayrılmayaq heç zaman!

Misli-bərabəri yoxdur dünyada
60-cılar komsomolunun, inan.

ÜİLKGİ komitəsinin katibi, arıq, seyrək saçlı Boris Nozdryakov, əlində hesabat məruzəsi, qaldırılan oturacaqları şappıldada-şappıdada sıraların arasında ora-bura vurnuxurdu. Komsomolçular yavaş-yavaş toplaşırdılar və o, onlardan gah birinə, gah da digərinə yaxınlaşaraq, yazılı kağızları onlara verir, qulaqlarına nəsə pıçıldayırdı. Başını mahnının ritminə uyğun yırğalayan təlimatçı, təşkilati işlər şöbəsinin aparıcı mütəxəssisi Simbalyuk olub-bitənləri fəlsəfi nəzərlərlə izləyirdi. Geyim-geciminə diqqət yetirən, dəblə geyinən (aparatdakı qaydalar çərçivəsində), sakit təbiətli Simbolyuk işinə elə soyuqqanlılıqla yanaşırdı ki, təcrübəsiz adam bunu biganəlik kimi başa düşə bilərdi. Ancaq müdiri görən kimi Simbolyuk ildırım sürəti ilə «xalqın arasına» daldı, özünəməxsus tərzdə söhbətləşən komsomolçulara qoşuldu. Nozdryakov isə müxtəlif ölçülü dişlərini ağardaraq, mühüm qonağı qarşılamağa yönəldi.

- Bayramınız mübarək! – birinci katibin qırışığı açıldı və o, Nozdryakovun həyəcandan tərləmiş əlini sıxdı.

Onlar kəlmə kəsməyə macal tapmamış, toplantıya dəvət olunanlar göründü. Bunlar zavodun baş mühəndisi Qolovko (direktor nazirliyə getmişdi), partiya komitəsinin katibi Leşutin və bütün rayonda öz zərbəçi əməyi ilə tanınmış Starikova idilər. Komsomol səmimiyyəti ilə, vəcdlə gülümsəyən Şumilin qonaqlarla salamlaşır, onlara komsomol barədə suallar verirdi.

- Belə də, - Leşutin bu suallardan birinə müəmmalı zarafatla cavab verdi və altdan-altdan komsomol katibini süzdü, - birtəhər yola gedirik…

Mayonez zavodu kiçik, rayonda o qədər də gözə çarpmayan bir müəssisə idi, birinci katibin buraya gəlməsi yerli rəhbərlik üçün gözlənilməz və əhəmiyyətli hadisəydi.

- Öncədən xəbərdarlıq etsəydiniz, direktor müşavirəyə getməzdi. Direktorumuz komsomolu çox sevir! – Hərəkətsiz, sakit üz ifadəsi olan Qolovko durmadan təkrarlayırdı.

Zal dolmağa başlayırdı. İlk sırada səhnəyə qalxmağa dəvət gözləyən rəyasət heyəti oturmuşdu.

- Diqqət! – Nozdryakov xırıltılı mikrofondan səsləndi. – Diqqət! Bizim komsomol təşkilatının qeydiyyatında altmış üç nəfərin adı var. Onlardan, - o, zalda adacıqlar kimi səpələnmiş adamlara göz gəzdirdi, - əlli dörd nəfər iştirak edir. Doqquz nəfər üzürlü səbəblərdən iştirak etmir. Nə kimi təkliflər olacaq?

- Toplantını başlayaq! – zaldan səslər gəldi.

- Təklif var ki, toplantını başlayaq. Səsə qoyuruq. Lehinə olanlar…

Əllər həvəssizcə qalxdı.

- Əleyhinə olanlar? Bitərəf qalanlar? Yoxdur! Toplantı iştirakçılarının nəzərinə çatdırıram ki, biz indi rəyasət heyəti seçməliyik. Nə kimi təkliflər olacaq? – Nozdryakov bunu deyib, gözlərini üçüncü sırada əyləşmiş yaraşıqlı qıza dikdi.

Qız dərhal yerindən sıçrayıb, əlindəki kağızı ucadan oxumağa başladı:

- Rəyasət heyətinə aşağıdakı tərkibi təklif edirəm: baş mühəndis yoldaş Leşutin, kommunist əməyi zərbəçisi, Qırmızı Əmək Bayrağı ordeni kavaleri Aleksandra İvanovna Starikova, raykom komsomolunun təlimatçısı yoldaş Simbalyuk, qaraj komsomol komitəsinin büro üzvü Saşa Yakovlev. Toplantının aparılması Valya Nefedyevaya həvalə olunsun…

- Yoldaşlar! – karıxmış Nozdryakov səhvini düzəltdi, - məmnuniyyətlə bildirmək istəyirəm ki, bugünkü toplantıda

komsomolun Krasnoproletarski rayon komitəsinin birinci katibi Nikolay Petroviç Şumilin də iştirak edir!

Seyrək alqış səsləri eşidildi. Yekdilliklə seçilmiş rəyasət heyəti səhnəyə qalxdı, stolun ətrafında nəzakətli qımıldanmalar oldu və nəhayət, çatışmayan stul zaldan gətirildikdən sonra hamı öz yerinə əyləşdi.

- Yoldaşlar, - «o» səsini xüsusi vurğuyla tələffüz edən Valya sözə başladı. – Gündəliyə aşağıdakı məsələləri daxil etmək təklif olunur: hesabat məruzəsi, müzakirədə çıxışlar, komsomol komitəsinin yeni tərkibinin seçilməsi, digər məsələlər…

- Reqlament!! – Nozdryakov vahiməli səslə pıçıldadı.

- Oy… Hə, hə… - Qorxuya düşən Nefedyeva şparqalkaya baxdı. – Yoldaşlar, biz toplantının reqlamentini müəyyənləşdirməliyik. Məruzəçi qırx dəqiqə vaxt istəyir (zalda narazı uğultu yaranır). Çıxışlar üçün on dəqiqə ayrılır. Toplantını iki saata yekunlaşdırmaq nəzərdə tutulur.

Reqlament təsdiqləndi və söz yenidən Nozdryakova verildi.

O, hissiz addımlarla tribunaya qalxdı, səhifələri qarşısına qoydu, stəkandan bir qurtum su içib, mikrofondan yapışdı. Rəyasət heyətində oturanlar onun ayaqlarının əsdiyini görürdülər.

- Yoladşlar! – O, sözə başladı, - komsomol mətin addımlarla irəliləyir…

Şumilin həmişəki qaydada hərəkətsiz oturmuşdu. O, bundan sonra baş verəcəkləri əzbər bilirdi, çünki yüzlərlə belə toplantılarda oturmuşdu, əvvəllər bu toplantıları onun özü hazırlayır, özü də aparırdı. Simbalyuk hərdənbir əyilib arxadan ona pıçıldayırdı ki, məruzədə düzəlişlər edib; məruzədən sonra ediləcək çıxışlar hazırdır; Nozdryakov bir qədər çətin adamdır, amma işləri apara bilir, rəhbərliklə, xüsusən də, baş mühəndislə yaxşı yola gedir. Doğrudur, Leşutinin ondan xoşu gəlmir…

Şumilin gözünün ucuyla yanında oturanlara baxırdı. Daş kimi oturan Qolovko indi böyük dövlət məsələləri haqqında düşüncələrə dalmış adama oxşayırdı. Partkom katibinin yorğun sifətində güclə sezilən ironiya həkk olunmuşdu: yəni, işim başımdan aşır, bu, mənə çox lazımdır? Çalsaçlı Starikova gəncləri şəfqətlə süzürdü. O, döşündəki ordenin tərsinə – gümüşü üzünə çevrildiyinin fərqində deyildi. Valya dodaqaltı öz-özünə nəsə pıçıldayır, özünün sədr vəzifəsini davam etdirməyə hazırlaşırdı.

Baş mühəndis və birinci katib arabir replikalarla bir-birinə müraciət edirdilər: «Yaxşı dedi!», «Pis uşaqlar deyillər…». Leşutin susurdu. Şumilin zala göz gəzdirdi: rəyasət heyətinin oturduğu yerdən yaxşı görünən ilk sırada deyilənləri dinləmək məcburiyyətində idilər. Gözlərindən bərk darıxdıqları hiss olurundu. Arxada oturanlar üçün daha asan idi: ritmik hərəkətlər edən çiyinlərə baxanda məlum olurdu ki, qızlardan bəziləri nəsə toxuyurlar. Qiyabi təhsil alanlar dəftərlərini dizlərinin üstünə qoyub çalışır, arabir başlarını qaldırıb diqqətlə məruzəçiyə baxırdılar. Bununla sanki məruzəçiyə diqqət kəsildiklərini nümayiş etdirir, ya da nəyisə xatırlamağa çalışırdılar. Uzunsaçlı oğlan qulaqcıqları saçlarının arasına yerləşdirib, cib maqnitafonunda səslənən musiqidən feyziyab olmuşdu. Başlarını heç qaldırmayan bir neçə nəfər isə bizim gəncliyn dünyada ən çox oxuyan gənclik olduğunu sübut edirdilər. Uzaq küncdə isə, deyəsən, şahmat oynayırdılar.

Məruzəçi Mayonez zavodu komsomolçularının uğurlarını uzun-uzadı sadaladıqdan sonra yüngül tənqidi tonda bəzi çatışmazlıqlar barədə danışmağa başladı. İnsaf naminə, o, çatışmazlıqları elə məharətlə seçmişdi ki, onlar uğurların davamı kimi görünürdülər. Nozdryakov təkidlə tövsiyə etdi ki, komsomol komitəsinin yeni seçiləcək tərkibi bu çatışmazlıqları

tezliklə aradan qaldırsın. Nəhayət, natiq sonuncu səhifəni çevirdi, çıxışının sonunda hamının bildiyi effekktli bir sitat səsləndirib, Şumilinə çimərlikdəki soyunub-geyinmə kabinəsini xatırladan tribunadan endi.

- Məruzçiyə sualı olan varmı? – Valya zaldan soruşdu.

Hamı bir nəfər kimi susurdu.

- Müzakirəyə keçək, - Nefedyeva qətiyyətsizcə davam etdi.

- Redaksiya komissiyası! – Nozdryakov ağlamsınmış səslə pıçıldadı.

- Oy… Hə, hə… Yoldaşlar, qərar layihəsinin hazırlanması üçün redaksiya komissiyasını seçməliyik. Nə kimi təkliflər var?

Zal susurdu.

- Osipov, sənin təklifin vardı axı! – Nozdryakov zalla kontakt qurmağa çalışdı.

- Hə, var idi, - yekəpər oğlan yerindən dik atılıb, ciblərini eşələməyə başladı. – Budur! Deməli, belə: Yakovlev – sədr, Poltorak və Salkuvadze – üzvlər…

- Səsə qoyuram! – Qalya dedi, - yekdilliklə. Komissiya öz işinə başlaya bilər.

Redkomissiyanın üzvləri sevincək yerlərindən qalxdılar, çoxdan yazılmış və hətta makinada çap olunmuş üçsəhifəlik mətni də götürüb, səhnə arxasındakı otağa keçdilər. Onlar burada rahatca mineral su içə-içə mətndəki əyər-əskiyi düzəldib, öz çıxışlarını gözləyə bilərdilər.

Yorucu, çüründü iyi verən müzakirələr başladı. Bir-birinin ardınca tribunaya qalxan yaraşıqlı oğlanlar və qızlar (yəqin, yaxşı işçilərdir) alayarımçıq bildikləri mətni söyləyərkən dilləri dolaşır, təkrar-təkrar eyni şeyləri söyləyirdilər. Hiss olunurdu ki, tənqid də, özünütənqid də, yeni təkliflər də - hər şey

əvvəlcədən danışılıb, razılaşdırılıb, ümumi məxrəcə gətirilib. Elektrik Kobankov lap gül vurdu: o, özfəaliyyət artistinin hazırlıqlı, cingiltili səsilə işlədiyi zavod, yoldaşları və rəhbərləri haqqında hissiyyatla söz açdı. Öz çıxışına patetik notla yekun vuran Kobankov məhrəm baxışlarla rayon rəhbərliyini süzdü: yəni, biz birinci il deyil ki bu işdəyik, Petroviç!

«Hə, toplantıları təşkil etməyi öyrənmişik, - Şumilin kədərlə düşündü, - salamat yer qoymamışıq. Hər yeri asfaltlamışıq, indi isə təəccüb qalmışıq ki, gənclər niyə təşəbbüskar deyillər?!» Krasnoproletarski komsomolunun rəhbəri bundan sonra nə olacağını bütün təffərrüatıyla bilirdi. Komsomolçulardan sonra Qolovko və Leşutin çıxış edəcəklər. Onlar gəncləri daha çalışqan olmağa səsləyəcək, bəzi tənbəlləri tənbeh edəcəklər. Parkomun katibi, ola bilsin, təşəbbüssüz komsomola və onun rəhbərinə ironik tərzdə yüngül iradlar bildirəcək. Bundan sonra birinci katib təntənəli nitq söyləyərək, Krasnoproletarskinin çoxminli komsomolunun və onun Mayonez zavodunu təmsil edən kiçik, amma layiqli dəstəsinin qarşısında duran böyük vəzifələrdən söz açacaq. Yəqin ki, onun aşağıdakı fikri müəyyən canlanma yaradacaq: madam ki, rayonda ilk hesabat-seçki toplantısını onlar keçirirlər, bütün digər göstəricilər üzrə də başqalarını qabaqlamalıdırlar! Daha sonra müzakirələrin dayandırılmasına səs verəcəklər və Yakovlev ciddi-cəhdlə qərar lahyihəsini oxuyacaq. Əvvəlcə əsas kimi götürüb səs verəcəklər, dərhal sonra bütövlüklə və zaldakılardan heç kim fikirləşməyəcək ki, bu ikili səsvermə nəyə lazımdır? Sonra tezliklə azad olacaqlarını düşünən komsomolçular çək-çevirə salmadan, yekdilliklə yeni komitənin – «komsomol projektoru»nun tərkibini seçəcəklər. Nefedyeva bildirəcək ki, gündəlikdəki bütün məsələlər müzakirə olunub qurtarıb. Toplantını yekunlaşdarmıq təklifi veriləcək. Tələm-

tələsik səs verən komsomolçular qapıya doğru axın edəcəklər, qapının önündə tıxac yaranacaq. Karıxmış unutqan Valya onların arxasınca nəsə elan edəcək. Yeni yaradılmış komitə toplanıb, bütün instansiyalarla razılaşdırılmış şəkildə Nozdryakovu yenidən katib seçəcək.

Zaldakı süstlük Şumilini qıcıqlandırmasaydı, bu elə belə də olacaqdı. O nədənsə Buteninin sözlərini xatırladı: «Bu xuliqanlar da hardasa oxuyur və ya işləyirlər. Ancaq axı orada da komsomol təşkilatı var…» Və əgər raykom binasına soxulan oğlanlar burada, Mayonez zavodunda işləyirlərsə, onlar komsomola necə hörmət qoya bilərlər? Bu cür toplantılardan ilhamlanası deyillər ki! Birinci katib diqqətlə toplantı iştirakçılarının sıralarına göz gəzdirdi, sanki onların üzünə baxıb, xuliqanları ayırd etmək istəyirdi. O artıq dəqiqləşdirmişdi: hər necə olsa da, o, burada təntənəli nitq söyləməyəcək!

Beşincı sırada oturan oğlan venaları çıxmış qollarını önündəki kreslonun üstündə çarpazlayaraq, qarasaçlı başını qolları üstə qoyub şirin yuxuya dalmışdı. Bu mənzərə Şumilininin səbrini daşırdı. O çevrilib Nozdryakovdan bu yatan gözəlin kim olduğunu soruşdu.

- Hanı? A-a… Bareyevdir, qablaşdırma sexinin sazlayıcı fəhləsi. Keçən il TPM-i bitirəndən sonra zavoda işləməyə gəlib… İndi oyadaram!

Çıxışçılar tribunada əvəzlənərkən, Nozdryakov ucadan, rişxəndlə dedi:

- Bareyev, evdə yatmaq lazımdır, toplantıda yox!

Sazlayıcı yerindən dik atıldı, qızarmış, yuxulu gözlərilə zala göz gəzdirdi, nəhayət, harada olduğunu kəsdirib, üzr istədi. Nozdryakov burada sakitləşməliydi, ancaq ifratçılıq qədim romalılar kimi onu da məhv elədi.

- Ayıbdır, Bareyev! – o, hiddətlə səsini ucaltdı. – Yoldaşların qarşısında, rayon komitəsi qarşısında ayıbdır!

- Bağışlayın, - oğlan hirslə təkrarladı.

- Yaxşı, otur yerinə. Sənlə sonra danışarıq!

- Sonra niyə? – Bareyev birdən-birə üzünü bozartdı. Birinci katib onun üzündə yaxşı mənada bir inadkarlıq ifadəsinin olduğunu gördü. – Mən utanıb-eləmirəm! Mən üç sutkadır ki, xətdə eşələnirəm. Amma üç gün dalbadal yatsaydım belə, sizin toplantıda məni yuxu tutacaqdı! Buna toplantı demək olmaz, bu boşboğazlıqdır sadəcə!

Zal mürgüdən ayıldı.

Qolovko onu narahat edən dövlət əhəmiyytli fikirləri unudub canlandı. Leşutin irəliyə doğru əyildi. Şumilin arxasında Simbalyukun necə donub qaldığını hiss etdi. Nozdryakovun dili dolaşdı.

- Hesabat məruzəsi, - sazlayıcı əsib-coşmağa başladı, - buna məruzə deyirsən? «Biz əl-ələ verərik! Biz etibarı doğruldarıq! Biz daha yüksəyə qaldırarıq!..» Niyə də qaldırmayaq? Söz adamı gücə salmır. Məruzədə hər şey gül-çiçək qoxuya bilər, amma həyatda belə deyil axı! Açıq danışaq: niyə bizdə hər gün bu qədər şüşə qırılır, xurd-xəşil olur? Səhlənkarlıqdan, başısoyuqluqdan! Fərsizlik o dərəcəyə çatıb ki, yağ ayaq altında sel kimi axır. Qızlar TPM-i bitirib gəlirlər, avadanlıqdan başları çıxmır, kiçik nasazlıq olan kimi çaş-baş qalırlar, iş saatlarla dayanır! Yaxşı, istehsalat barədə mühəndis daha yaxşı danışar. Bəs biz necə yaşayırıq?! Üzvlük haqqı vermək vaxtı gələndə yadımıza düşür ki, biz də komsomolçuyuq. Bəzilərini heç tutmaq olmur. Yadınızdadırmı, zavodun veteranları ilə görüş təşkil olunmuşdu. Pensiyaçılar öz həyatlarından, əvvəlki illərin komsomolundan danışırdılar. Dinləyirsən – paxıllığın tutur! Bəs indi? Bu gün hesabat-seçki günüdür, zalda isə iki cüt

bir tək adam oturub. O da ona görə ki, Nozdryakov bütün günü sexləri dolaşaraq səs salmışdı: raykomdan gələcəklər, raykomdan gələcəklər! Elə yaxşı oldu ki, gəldilər – qoy qulaq assınlar. Bizdə gənclərin yarısı zavodun hasarının o üzündəki yataqxanada yaşayır. Komitə yataqxanalarla məşğul olurmu? Məşğul olmur. Guya mənim də üzvü olduğum yataqxana şurası varmış, bunu yalnız bugünkü toplantıda eşitdim. İdmana üç min rubl ayrılmışdı, komitə sədri isə artıq neçə ildir ki, bu pula yeni il stolu açır. Bu da lazımdır, amma bunun idmana nə dəxli? Nəticədə necə alınır: uşaqlar yaşayış qeydiyyatına düşənə kimi işləyirlər, sonra isə – əlvida, kombinata keçirlər. Komsomolun göndərişi ilə gələnlər belə hələ düz-əməlli yerləşməmiş dabanlarına tüpürüb qaçırlar…

- Düz deyir! Yataqxananın damını təmir edin! – uzaq küncdəki oğlan yerindən sıçradı, oyunda vurduğu şahmat fiqurları dizləri üstündən yerə töküldü. – Mən də danışmaq istəyirəm!..

Başladı, nə başladı.

- Toplantını apar! – Hay-küyün içərisində rəngi qaçmış Nozdryakov Valyaya qışqırdı.

- Özün apar! – Valya ona qarşı bozardı.

- Bunlara nə oldu belə? – Qolovko hirslə üzünü partkomun katibinə tutdu.

- Komsomol! – Leşutin zarafatından qalmayıb gülümsündü.

12

Toplantı başa çatdı və hiddətli komsomolçular könülsüz dağılışdılar. Zalda yalnız zavodun rəhbərliyi, Şumilin və yeni seçilmiş komsomol komitəsi qalmışdılar. Namizədliyi bütün

instansiyalarda razılaşdırılmış Nozdryakov yoxa çıxmışdı, əvəzində bu cür nəticə alınacağını özü də gözləməyən bəlağətli sazlayıcı burada idi. O, təəccübdən donub qalmışdı, iş o yerə çatdı ki, uşaqlar katib vəzifəsinə məhz onun namizədliyini irəli sürdülər. Ancaq lider seçilmədi, çünki Qolovko bəyan etdi ki, onun namizədliyi əvvəlcə direktorla razılaşdırılmalıdır.

Vidalaşmaq zamanı gəldi və rəyasət heyətinin stolunun üstünü bəzəyən qərənfilləri birinci katibə hədiyyə etdilər. Lakin o, gülləri dərhal karıxmış Valya Nefedyevaya verdi.

Çıxışda Simbolyuk onu haqladı:

- Nikolay Petroviç! – o, təngnəfəs dedi. – Gülləri unutmusunuz! Dedilər sizə verim…

- Deməli, ikinci cəhddən… Bunları artıq mənə təqdim etmişdilər.

- Mən görmədim. Onda mən Nozdryakovu sakitləşdirirdim.

- Həyəcan keçirir?

- O başa düşmür!

- Bəs sən özün başa düşürsən?

- Əlbəttə. Bareyevi əvvəlcədən çıxışçıların siyahısına yazmaq lazım idi.

- Hə? Yaxud da, yuxudan ayıltmaq lazım deyildi.

Simbolyuk müdirin yumorunu qiymətləndirdiyini göstərmək üçün gülümsədi və maraqla soruşdu:

- Bəs katib kim olacaq? Kadr ehtiyatında Nefedyeva da var.

- Xalq Bareyevi istəyir.

- Qolovko heç vaxt razı olmaz!

- Çox gözəl, Vitya, həyatda hər şey Qolovkodan asılı deyil ki. Bareyev bu zavodun komsomolunu hərəkətə gətirə bilər!

Hiss edirəm ki, Leşutin də onun tərəfindədir! Baxmayaraq ki, planlaşdırılmamış əvəzləmə kiçik də olsa, fövqəladə haldır…

- Nikolay Petroviç, fövqəladə halların sayı çox olmadı?

- Sakit, rahat həyat üçün çoxdur, amma rahatlığı biz ancaq yuxuda görə bilərik! Elə deyil?

- Əlbəttə! – Rahatlığın nə olduğunu çox gözəl bilən təlimatçı razılaşdı.

Simbolyuku evə buraxdıqdan sonra raykoma qayıtmağın gec olduğunu kəsdirən birinci katib küçədə insanların arasına dalıb yavaş-yavaş irəliləyirdi. Qəlbinə həmişə məşğul insanların bekarçılıq zamanı keçirdikləri hissə bənzər bir narahatlıq və çaşqınlıq hissi hakim kəsilmişdi. «Deməli belə, madam ki elə bir işimiz yoxdur, - Şumilin qərara aldı, - onda sağlamlığımızın qeydinə qalarıq». Suda xilas olduqdan sonra qəlbini çulğamış bu anlaşılmaz malxulyadan qurtulmaq lazım idi.

Dayanacağın üstündən asılmış böyük kvadratşəkilli saatın siferblatının bir tərəfi 19.41, o biri üzü isə 19.58-i göstərirdi. «Görüş üçün çox rahat yerdir!» - Şumilin gülləri «diplomat»a qoyub, trolleybusa mindi. Keysini tutacaqla arxa şüşənin arasına yerləşdirdi və pəncərədən onun elektrik dilicanını ötüb-keçən maşınları seyr etməyə başladı. Küçədə yağış çisələyirdi. Maşınların şüşətəmizləyən «dalandarlar»ı qəribə yarımçevrələr çızırdılar.

Adətən insanlar xəstəxananın yolunu tutmağı və xəstəliklər haqqında çox danışmağı xoşlamırlar: bizim davamsız və kövrək materialdan olduğumuzu xatırlamaq kimin nəyinə lazımdır? Birinci katib də, xəstəxanaya gedərkən, tamam başqa şeylər haqqında düşünürdü.

… O, Tanya ilə yarım il əvvəl tanış olmuşdu. Bir dəfə günün günorta çağı Tanya onun qapısının zəngini basıb, qətiyyətlə içəri girdi, əynindəki ağ xalatı düzəldib, soruşdu: «Hanı

xəstə?» Xəstənin qarşısında dayandığını öyrənincə təəccüblə çiyinlərini çəkdi: yəni, belə yaraşıqlı və gümrahsınızsa, özünüz də qəbula gələ bilərdiniz.

- Uzanın. Əllərimi yuyub gəlirəm, - O buyurdu. – Vanna otağı haradadır?

Şumilin qoca Frida Semyonovnanın əvəzinə gəlmiş, ciddi qara gözlərini ona zilləmiş bu sarı saçlı gənc həkimi görüncə şaşırdı və əlilə mətbəxi göstərdi. Qonaq isə çiyinlərini çəkərək, vannaya sarı getdi, onsuz da indiki mənzillərdə azmaq mümkün deyil.

Xəstə divana uzandı, həkim isə katibin kitabxanasına maraqla göz gəzdirərək, soyuq stetoskopu onun bədəninə yapışdırdı, diqqətini cəmləyib dodaqlarını bir-birinə sıxdı və dinləməyə başladı ki, görək bu diqqətsiz, dalğın kişinin material-texniki bazasına nə olub? Kəskin respirator xəstəliyi diaqnozu qoyulduqdan sonra reseptlər yazılarkən, Şumilin diqqət verib gördü ki, nişan üzüyü qızın sol əlinin barmağına taxılıb. «Ya əvvəlcədən alıb (bəzən belə də olur), ya da ayrılıb!» - Şumilin fikirləşdi.

- Harada işləyirsiniz? – Xəstəlik kağızını dolduran həkim soruşdu.

- Krasnoproletarski komsomolunun rayon komitəsi.

- İşinizin adı? – O, yüngül ironiyayla soruşdu.

- Katib…

Şumilin ictimai fəaliyyətə başlayan vaxtlardan bilirdi ki, necə deyərlər, həyati vacib əhəmiyyətli peşə sahibləri, məsələn, tibb işçiləri komsomolda çalışanlara çox zaman yuxarıdan aşağı baxırlar: yəni ki yekə adamlarsınız, amma bu cür qeyriciddi işlərlə məşğul olursunuz! Bax, biz başqa məsələ: insanların həyatı bizim iynələrimizə bağlıdır!

Həkim yazıb qurtarınca ayağa durdu, cins şalvar və qara sviter üzərindən geydiyi xalatını yenə sahmana saldı və dərmanları qəbul etməyin qaydasını qısaca başa saldı. Məsləhət gördü ki, az gəzsin. Ancaq xəstə onu ötürmək üçün qapının önünədək gəldi və burada paltosunu geyməyə kömək edərkən soruşdu:

- Bağışlayın, bəs Frida Semyonovna hanı?

- Frida Semyonovna pensiyaya çıxdı. Artıq həkiminiz mənəm.

- Belə de! Adınızı bilmək olarmı?

- Adım Tatyana Andreyevna Xromovadır. Hələlik, sağalın…

Həkim çıxıb getdi, mənzildə bu gözəl, özünə arxayın qadının flüidləri qaldı. Şumilin köksünü ötürüb, kitab rəfinə göz gəzdirdi və həkimin buyuruğunu yerinə yetirərək yatağına uzanıb Axmatovanın «Axşam»ını oxumağa başladı.

Bir həftə sonra poliklinkaya çıxarış üçün yollanan Şumilinin qalstuk seçməsi o qədər uzun çəkdi ki, Qalya (onda onlar ailə həyatının son günlərini yaşayırdılar) «hm» eləyib dedi: əsl kişi qalstuksuz da qadınların xoşuna gəlir, ancaq madam ki, iş işdən keçib, onda bu sevgi macərasının əvəzi olaraq o, əvvəla, uşaq stolunun sınmış ayağını yerinə bərkitməli, ikincisi, vanna otağında qopmuş plitkanı yapışdırmalı, üçüncüsü də, fransız ətri almaq üçün kisəsinin ağzını açmalıdır. «Bu minimum proqramdır, maksimum proqram üzərində hələ fikirləşəcəyəm», - Qalya söz verdi. Fərasəti olmayan bir çoxları kimi Qalya da öncəgörmə qabiliyyətinə malik idi.

Ancaq qalstuk işə yaramadı.

Tatyana Andreyevna pasienti tanıdı, dostyana salamlaşdı, onu adi qaydada müayinə edib, kiçik cızma-qarayla fəal iş həyatına qaytardı. Əlində bülleten tutmuş Şumilin həkimin

kabinetindən çıxdı. İçində anlaşılmaz bir hiss vardı, sanki nəyisə yarımçıq qoymuşdu. Evə qayıdarkən tanışlığı davam etdirmək üçün o, hələ hiyləgər planlar qururdu, ancaq ertəsi gün işə başladıqdan sonra başı qarışdı və yeni sahə həkiminin obrazı beyninin təsadüfi xoş tanışlıqları idarə edən hissəsinə yerləşdi.

Bir dəfə – məzuniyyət ərəfəsində raykomun dəhlizlərində ənənəvi reyd keçirərkən, birinci katib adi bir söhbətin şahidi oldu. Təşkilati işlər şöbəsində tibb müəssisələrinə nəzarət edən Tamara Raxmatullina monoton əsəbiliklə izah edirdi:

- Siyahını qeydiyyat şöbəsində yoxlayın. Bizdəki cədvəldə 51 nəfərdir, kartotekada isə 49.

- Pulu az versəydik, siz deyən idi, amma axı biz artıq pul veririk, - alışmadığı vəziyyətə düşmüş qətiyyətli Tatyana Andreyevna Xromova özünə haqq qazandırmağa çalışırdı.

- Bəs mən nə deyirəm: yoxlayın! Əlavə pul vermək elə pulu az vermək qədər qanun pozuntusudur.

- Bağışlayın, bu işlərdən başım çıxmır, sadəcə məndən xahiş etmişdilər ki, bu cədvəli sizə verim.

- Bəs sizin katib hanı?

- O, indi xəstələri qəbul edir, sizsə baş həkimə zəng vurmuşdunuz ki, əgər cədvəli vaxtında gətirməsək…

- Zəng edəcəyəm də.

- Özünüz bilərsiniz! – Həkim hirsləndi və çevrilib gedərkən qapıda Şumilini gördü.

Qadın ona şikayətlənmək istədi, ancaq dili dolaşdı (həkimlər öz xəstələrinin adını nadir hallarda yadda saxlayırlar) və yalnız çiyinlərini çəkməklə kifayətləndi: özünüz görürsünüz də.

- Xoş gördük, Tatyana Andreyevna! – Şumilin sevindi. – Komsomolun tapşırığını yerinə yetirirsini?

- Çalışıram.

Tamara stolun üstündən cədvəli qamarlayıb götürdü və haqlı olduğunu sübuta yetirmək üçün qeydiyyat şöbəsinə yollandı.

- Gələn dəfə qoy üvlük haqlarını aidiyyatı adam gətirsin. Xahiş edirəm, bunu öz katibinizə çatdırasınız, - keçmiş xəstə yumşaq səslə xahiş etdi və əlavə olaraq soruşdu: - siz yaxınlıqda yaşayırsınız?

- Hə, Balakirevski döngəsində.

- Qonşuyuq ki! Evə gedirsinizsə, yol yoldaşı ola bilərik! – Şumilin təklif etdi və Aşotu evə buraxdığı üçün təəssüfləndi. – Mən çantamı götürməliyəm, istəyirsəniz siz də gəlin, iş şəraitimlə tanış olun.

O, böyük vəzifə və ondan böyük kabinet verilmiş insanlara xas qürur hissi ilə Tanyanı öz otağına apardı.

Sonra evə doğru gedərkən söhbət üçün ciddi mövzu çatışmazlığı hiss edən Şumilin yeni tanışının nəyə görə nişan üzüyünü sol əlinin barmağına taxdığı ilə maraqlandı, katolik deyil ki? Tanya bir müddət diqqətlə ayağı altındakı asfalta baxdı, sonra niyəsə gülümsündü və sakitcə izah etdi: iki il olar ki, ərindən ayrılıb. Daha sonra Şumilinin işi barədə danışmağa başladılar.

Şumilin onu evə kimi ötürdü və ayrılarkən dedi ki, bundan sonra xəstələnib-eləsə həkimlərə müraciət etməyəcək, qadın da öz növbəsində buna bənzər şeylər dedi və həkimsayağı onu adı və atasının adı ilə çağırdı. Nikolay Petroviç isə onun həm də komsomol olduğunu qeyd edərək, buyurdu ki, atasının adını çəkməsə də olar. Evə qayıtdıqdan sonra ciddi-ciddi bu tanışlığı davam etdirmək barədə düşünsə də, ertəsi gün yenə də raykomun işlərindən başı açılmadı, sonra isə məzuniyyətə yollandı.

Poliklinikanın dezinfeksiya olunmuş havasını ciyərlərinə çəkən Şumilin birdən-birə hiss etdi ki, bütün xoşagəlməz simptomlar yoxa çıxıb. «Doğma səhiyyəmizə eşq olsun!», - o, təəccüblənərək, qeydiyyat şöbəsində öz kartoçkasını sifariş verdi. Qəbul günü başa çatırdı, növbə-filan yox idi.

Birinci katib otağa boylandı: Tanya stolun üzərinə əyilmişdi, tez-tez əlilə tellərini düzəldərək, üstünə çoxlu içliklər yapışdırılmış qalın xəstəlik kağızını doldurmaqla məşğul idi. «Əsl tale kitabıdır!» - Şumilin kədərlə düşündü.

Tanya gözlərini qaldırıb, gülümsündü:

- Gəlin. Əcəb yanıb-qaralmısınız.

- Bircə kökəldiyimi deməyin. İndi kompliment demək istəyəndə deyirlər ki, arıqlamısan.

Qadın əlini üzünə dayayıb, xəstəsini başdan-ayağa süzdü:

- Günəşdə saçınızın rəngi soluxub… Sizi dinləyirəm.

Birdən-birə öz xəstəliyi barədə danışmağa utandı, ancaq artıq gec idi, odur ki, gülə-gülə danışdı ki, Qara dəniz sularını yarıb keçərkən qəzaya uğrayıb və bu cavan yaşında ölümdən güclə yaxa qurtarıb. Ancaq bu hadisədən sonra xoşagəlməz hislər onu qarabaqara izləyir. «Məni bu zülmdən qurtarın!» - o, sözünə yekun vurdu. Tanya onun şən əhval-ruhiyyəsini yersiz hesab elədi: onun sözlərinə görə, Şumilin suyun altında çox qaldığı üçün oksigen çatışmazılığı yaranıb, sonra isə bərk təşviş hissindən əsəb sarsıntısı keçirib. Amma, sözün açığı, qorxulu bir şey yoxdur.

- Deməli, yaşayacağam, amma heç vaxt oxuya bilməyəcəyəm! – Şumilin qəfildən Çesnokovun zarafatını xatırladı.

- Oxuya bilərsiniz, ancaq əsəbiləşmək olmaz. İşdə yorulub əldən düşməyin və xoşagəlməz məqamlar haqqında az

düşünün. Deyəsən, siz düz-əməlli dincəlməyi də bacarmırsınız! – Tanya köks ötürdü.

- Necə yəni? Necə dincəlmək lazımdır ki?

- Bu fərdi yanaşma tələb edir: kimiyə sakitlik lazımdır, kimiyə isə müsiqi, hay-küy…

- Musiqi?.. Yaxşı. Mən sizi diskotekaya dəvət edirəm – mənə dincəlməyi öyrədərsiniz!

- Diskotekada heç vaxt olmamışam, amma təəssüf ki, bu gün işlərim çoxdur.

- İşdə yorulub əldən düşmək olmaz.

- Demək ki, anladınız! Bəs sizə diskotekaya getmək olar?

- Əlbəttə, olar. Hətta zəruridir!

- Lap yaxşı. Onda mən anama zəng edim. Nəyə gülürsən – sadəcə ona deyəcəyəm ki, uşağı bağçadan götürsün… Bəlkə, başqa vaxta qalsın?

Ancaq artıq Şumilin keysdən əzilmiş qərənfilləri çıxırırdı.

13

Gənclərin toplaşdığı «Çeryomuxa» kafesinin yanında iki il əvvəl açılmış diskoteka yaxşı təmirli köhnə binanın birinci mərtəbəsində yerləşirdi. Mərtəbənin vitrini xatırladan pəncərələri bütün küçəni işıqlandırırdı. Diskoteka bütün Krasnoproletarski rayonunda Şumilinin həyata keçirdiyi ilk böyük aksiya idi. «Diskoteka istəyirik!», - komsomolçular hesabat-seçki konfransında tələb qoymuşdular. «Olacaq!», - təcrübəsiz birinci katib lovğalıqla vəd vermiş, sonra dəfələrlə peşiman olmuşdu.

Belə çıxırdı ki, sözdə hamı gənclərin asudə vaxtının yaxşı təşkil olunmasını istəyir, amma pul tap, yeri təmir elətdir, lazımi aparatları al, görüm bu işlərin öhdəsindən necə gələcəksən. Ən çətini o idi ki, raykomun təşəbbüsünün vacibliyini heç kəs danmırdı, ancaq iş irəliləmirdi, qəribə bir biganəlik maneəsinə ilişib qalmışdı. Elə bil yük maşını bataqlıqda çapalayır. Bütün rayon üzrə isə yalnız bir qoşqu maşını var, o da birinci katibdir.

Şumilin Kovalevskinin yaxasından əl çəkmir, şəhər komitəsindən çıxmırdı. Vilayət mərkəzində yerləşən kiçik zavoddan üzləmə üçün mərmər lövhələr almağa da özü getməli oldu. O, şənbə və bazar günləri iməciliklər təşkil etdi, yaxşı elektronika aldı, tanınmış dizaynerləri ictimai əsaslarla işə cəlb etdi, onun güzgülü tavanı əldə etməsi üçün hansı hoqqalardan çıxdığı barədə isə macəra romanı yazmaq olardı! Nəhayət, verdiyi vədin üstündən iki il keçdikdən sonra birinci katib adi dəftərxana qayçısı ilə diskotekanın lentini kəsdi, nitq icad elədi və axşam xəbərlərində özünə baxıb əmin oldu ki, insanlar öz zahiri görünüşləri ilə bağlı səhv etməyə meyillidirlər.

Açılışdan sonra bir neçə həftə ərzində hər dəfə «diskoteka» sözünü eşidəndə, Şumilin səksənirdi. Ancaq təbii fəlakət onu öz ağuşuna aldı: rayon komsomolu və pionerinin tarixi muzeyini genişləndirməyə başladılar. Diskotekanın gəncliyin nəfinə fəaliyyət göstərdiyini Şumilin həmişə yadda saxlayırdı: təbliğat şöbəsi tematik planların hazırlanmasında yaxından iştirak edirdi, biletlər komsomol komitəsinin köməyi ilə paylanırdı, diskotekada drujinaçılar növbə çəkirdilər. Bəzən raykom «Çeryomuxa»nı bir günlüyə icarəyə götürür, tutalım, hesabat-seçki konfransının uğurla başa çatmasını təntənəli şəkildə qeyd edirdi. Bu zaman stolun başına keçən birinci katib qazanılmış uğurların xülasəsini verir, perspektivləri müəyyənləşdirir,

rəşadətli rayon komsomolunun şərəfinə badə qaldırırdı. Sonra, yaxşı toplantılarda olduğu kimi, çıxışçılar bir-birini əvəzləyirdilər. Krasnoproletarski komsomolçuları ağıllı, ümumi işin qayğılarını əks etdirən tostlar söyləməsələr, yeyib-içə bilmirdilər. Axırda komsomolçuların təntənəli xoru sevimli «Könüllülər» nəğməsini öz rayon variantında ifa edirdi:

Komsomolçular, proletarlar –
Öz dostluğumuzla güclüyük biz…

Şumilin arabir burada nə yollasa hamının əvvəlcədən xəbər tutduğu yoxlamalar da aparırdı, ancaq inspektorla söhbətləşənə qədər onun ağlına da gəlmirdi ki, «Çeryomuxa»ya adi müştəri sifəti ilə də gəlib, öz əməyinin bəhrəsini dadmaq mümkündür: əvvəla, buna vaxt tapmırdı, ikincisi də, artıq yaşı o yaş deyildi ki, diskotekalara getsin.

..Diskotekanın qapısı önündə biletsiz adamlardan ibarət uzun növbə yaranmışdı, burada qırx nəfərə yaxın gənc vardı. Onlardan iyirmi nəfərin bu gün kafeyə düşmək şansı yox idi, ancaq onlar dost-tanışla birgə növbədə itələşməyi başqa yerdə olmaqdan üstün tuturdular. Gənclərin hərəsi bir görkəmdə idi, bəziləri məktəbli şalvarı ilə sviter geymişdilər. Qızlar isə özlərinə dəblə bəzək-düzək vermişdilər. Şumilin öz Lizkasını xatırladı və nə qədər xərcə düşəcəyini hesablayıb, köks ötürdü.

- İçəri necə keçəcəyik? – Tanya sadəlövhcəsinə soruşdu. – Biletiniz varmı?

- İşçi qaydada həll edərik! – O, özü də gözləmədən cavab verdi. – Çəkməçi həmişə çəkməsiz olur…

O, əlbəttə ki, biletsiz idi. Buraya gələrkən birinci katib öz xidməti vəsiqəsinə və drujinaçıların onu tanıyacağına ümid bəsləyirdi. Ancaq yanındakı xanımla birgə kütləni yara-yara irəli keçməyi özünə ar bilirdi. Axı sən birinci katibsən, şikəstfilan deyilsən, növbəsiz içəriyə keçmək haqqın yoxdur. Şu-

milin kənarda dayanıb götür-qoy etməyə başladı: zəng edib, içəridəki drujinaçılardan birini çölə çağırmaq olardı, ancaq telefon kitabçasını işdə qoymuşdu… Başqa şey fikirləşmək lazımdır… Bu zaman rəngi ağarmış cins kostyumda ora-bura vurnuxan bir oğlan onun yanında peyda oldu və salamsız-kəlamsız soruşdu:

- Bilet lazımdır?

- Lazımdır! – Tanya fikrə getmiş kavalerinə baxıb gülümsədi.

- Beş.

- İki biletə görə?

- Hərəsi.

- Belə şey olar? – Ayda yüz otuz rubl maaş alan terapevt-həkim etiraz səsini ucaltdı.

- Özünüz bilin, - bilet alverçisi çiyinlərini çəkib, muşketçi dabanları üstündə arxaya döndü.

- Bir dəqiqə, - Şumilin onu səslədi, portmanatını açıb oradan qəttəzə, hələ mətbəə boyası qoxuyan bir onluq çıxardı. – Ehtiyatlı ol, barmağını kəsməsin!

Oğlan «hm» eləyib pulu aldı və onlara iki bilet verdi; biletin üstündəki «bir rubl» yazısının yanında ÜİLKPİ Krasnoproletarski rayon komitsəinin aydın görünən möhürü vurulmuşdu.

- Belə getsə, çəkməçi şalvarsız da qala bilər! – Tanya fikirli-fikirli dedi.

Onlar biletlərini göstərib, yavaş-yavaş girişə doğru irəliləməyə başladılar, burada şüşə qapıya yapışmış cütlüyü kənarlaşdıraraq, qapının arxasındakı tanış olmayan (görünür, yeni gələnlərdəndir) növbətçiyə əl elədilər. Drujinaçı onların biletlərini diqqətlə gözdən keçirdi, hətta az qala qoxlayacaqdı – xəfiyyəyə bax! – və sanki elə-belə soruşdu:

- Hansı təşkilatdan almısınız?

- Təşkilatdan almamışıq, - birinci katib sakitcə cavab verdi. – Burada, girişin önündə birini beş manatdan aldıq…

- Nə? İndi gəlirəm! Burada gözləyin… - növbətçi boş qarderoba sarı götürüldü. Burada baryerə söykənmiş İvan Loktyukov və yəqin ki, Brusilov müdafiə xəttinin yarılmasında göstərdiyi şücaətlərdən danışan saqqallı, saçını köhnə tacirlər sayağı daramış qarderobçu söhbət edirdilər.

- Nikolay Petroviç? – müdafiə-idman şöbəsinin müdiri və rayon üzrə operativ dəstənin rəhbəri təəccübləndi. – Yoxlamaya gəlmisən? Məgər bu gün…

- Yox, dincəlməyə gəlmişəm. Bəs sən?

- Mən yoxlamadayam.

- Eləmi? Afərin. Deməli, Mansurov alverçilər barədə sənlə də danışıb.

- Danışıb.

- Elə isə, mənə bir onluq borclusan… Yox, səkkiz rubl. Maaşını alanda verərsən…

Könüllü bilet yayanın əlamətlərini öyrənən drujinaçılar bayıra tökülüşdülər və tezliklə əliboş qayıtdılar. Şumilin isə bu zaman Tanyanı zala apardı, burada musiqi guruldayır, işıqlar musiqinin ahənginə uyğun sayrışırdı. Ani işıq parıltıları qaranlıqda rəqs edən fiqurları üzə çıxarır, onların hərəkətləri fantastik dərəcədə kəskin təsir bağışlayırdı. Disk-jokey mikrofonda nəsə bağırır, atılıb-düşən kütlə sevinc nidaları ilə onun səsinə səs verirdi.

Rəqs zalının önündə bar yerləşirdi, barın qarşısında isə kiçik stollar qoyulmuşdu. Stulların üstünə gödəkçələr, çantalar, polietilen paketlər atılmışdı, belə ki, oturmağa yer qalmamışdı. Nəhayət, onlar divarın yanında boş stol gördülər: stolun ətrafındakı üç stuldan ikisinin üstündə heç nə yox idi. Oturduqdan

sonra Tanya əlindəki qərənfilləri boş salfet stəkanına yerləşdirmək istədi, ancaq nə fikirləşdisə, onları sadəcə divarın yanında yerə qoydu.

Musiqini dayandırdılar və stolların ətrafı dolmağa başladı. Ekranda gözqamaşdıran slaydlar nümayiş etdirməyə başladılar, buradan dünya estradasının superulduzları gülümsünür, disk-jokey isə musiqi kəhkəşanında yeni parlayan müğənnilər haqqında vəcdlə, ağızdolusu danışırdı. Yəqin ki, otuzuncu illərdə əliqabarlı, his-paslı oğlanlar növbə ərzində rekord həcmdə kömür çıxarmaları barədə bu cür şövqlə danışırmışlar.

Bir-birinin eyni olan velvet cins şalvar və şəkilli firma köynəyi geymiş bir cütlük yenicə yerlərinə əyləşmiş Tanya və Şumilinə yaxınlaşdı. Gözlərindən gülən sarışın saçlı qızın dərisi sanki günəşdə yanmışdı, lətif-çəhrayı rəngə çalırdı. Onun dostunun təşəxxüslü baxışları vardı, saçlarını, yəqin ki, ev şəraitində dəblə qırxdırmışdı, sifətində gəncliyin vulkanik şəhvətinin izləri həkk olunmuşdu. Rəqsdən sonra ikisinin də nəfəsi tıncıxmışdı, qoltuqlarının altında yaş ləkələr əmələ gəlmişdi.

- Bura bizim yerimizdir! – Qız incik səslə dedi.

- Yerlərin üçü də? – Tanya dəqiqləşdirmək istədi.

- Üçü də, - oğlan ötkəm səslə bildirdi. – Biz adam gözləyirik.

- Qulaq asın, uşaqlar, - Şumilin sakitcə dedi, - biz bir azdan gedəcəyik, çatışmayan stulu isə mən sizə gətirərəm. Danışdıq?

- Yaxşı, - qız asanlıqla razılaşdı.

Onun dostu isə narazılıqla susurdu. Amma bu zaman yenə də musiqi gürüldadı və onlar qaçaraq rəqs etməyə getdilər.

Şumilin bir stul da gətirib qoydu və bara üz tutdu. Onun tanımadığı barmen (əvvəlkini yoxladıqdan sonra işə düzəltmişdilər) otuz yaşlarında, iri sifətli, böyük «xameleon» gözlük

taxmışdı, boy-buxunundan bir qədər qəribə təyinat almış beynəlxalq münasibətlər institutu məzununa oxşayırdı. O, prey-skurantı müştəriyə uzatdı, müştəri assortimenti diqqətlə gözdən keçirib, müəyyən tərəddüdlərdən sonra «Salyut» kokteylini seçdikdə isə bildirdi ki, satışda yalnız «Şampan» var. Bundan sonra o, iyrənirmiş kimi üz-gözünü turşudub stəkanlarda nəyisə qarışdırdı və polietilen çubuqları ikrahla stəkanlara ataraq, pulun qalığını onların qarşısına fırlatdı.

Özünü tanıtmayan birinci katib, dörd stəkanı bir dəfəyə götürüb, öz stoluna apardı və onlardan ikisini rəqsdən qayıdan cütlüyün qarşısına itələdi.

- Sağ olun! – Tanyanın artıq Anya deyə çağırdığı qız sevindi.

Oğlanın adı isə Andrey idi.

Kokteylin dadına baxdılar: məlum oldu ki, su və limon turşusu barmenin sevimli inqrediyentləridir.

- Əvvələr sizi burada görməmişik. Siz kimsiniz? Biz pedaqoji institutdanıq, xarici dillər fakültəsindən, - Anya tanışlıq verdi.

- Mən həkiməm, Nikolay isə…

- Müəllim… Mən müəlliməm! – Konspirasiya olunmuş komsomol rəhbəri Tanyanın sözünü yarıda kəsdi.

- Bizim institutu bitirmisiniz? Hansı fakültəni? Haçan?

- Hə, bizimkini. Tarix fakültəsini. Siz onda hələ məktəbli olardınız.

- Pedaqogikadan sizə kim dərs deyirdi?

- Şurinov?

- Bizdə də Şurinovdur! Əla! Məktəbdə təyinatla işləyirsiniz?

- Təyinatla.

- O saat bildim ki, müəllimsiniz. Kostyumunuzdan və qalstukunuzdan bilinir!

- Belə de! Bəs institutunuzda diskoteka biletləri ilə bağlı vəziyyət necədir? – Şumilin yavaş-yavaş təhqiqata keçdi. – Növbədə dayanmaq lazım gəlmir?

- Bəzən olur! – Həm özünün, həm də oğlanın əvəzinə dil-dil ötən qız cavab verdi.

- Biz ilk dəfədir ki, gəlmişik, - Tanya öz kübar söhbətinə davam etdi, - bura xoşunuza gəlirmi?

- Yaxşıdır! – Anya dedi. – Bu raykomdan gələnlər olmasaydı, lap yaxşı olardı…

- Onlar neyləyirlər ki? – Öz xəlvəti təhqiqatını aparan birinci katib laqeyd səslə soruşdu.

- Əşşi, burunlarını hər şeyə soxurlar, bu günlərdə proqramı dəyişdirdilər. Deməzsənmi, proqramda filan qədər sovet musiqisi səslənməliymiş!

- Bunda pis nə var ki?

- Siz «Üç tankçı»nın havasına rəqs eləyə bilərsiniz? – Nəhayət, Andreyin də dili açıldı.

- Birincisi, mahnıların hamısı oynamaq üçün deyil, bəzi mahnılarla ölümə də yollanırlar, - Şumilin patetikayla dedi və incik tərzdə əlavə etdi: - yeri gəlmişkən, diskotekanı təşkil etmək üçün komsomol raykomu nə qədər əziyyət çəkib!

- Əziyyət çəkməyə ehtiyac yox idi, - oğlan hirslə dedi. – Tələb varsa, deməli, bunu ödəmək lazımdır. Qərbdə elədikləri kimi. Bu axı qazanc gətirir! Sən işə bax, raykom qəhrəmanlıq göstərib, diskoteka açıb! Ümumiyyətlə, komsomol artıq tükənib…

- Belə de! Necə yəni? – Birinci katib soruşdu. – Niyə elə fikirləşirsən?

- Əlbəttə, tükənib! – Anya oğlanın sözünə qüvvət verdi. – Təsəvvür edin ki, 14 yaşlılardan tutmuş 28 yaşacan hamı komsomoldadır. Andreylə mən, Tanyayla siz, girişdə itələşən səkkizinci sinif şagirdləri…

- Bunun nəyi xoşuna gəlmir?

- Gənclik maraqlara görə birləşməlidir, ucdantutma hamı eyni təşkilata doldurulmamalıdır. Bax, budur xoşuma gəlməyən.

- Məsələn, sən hansı təşkilatda olmaq istərdin? – Tanya söhbətə qoşuldu.

- Mən? Məsələn, Musiqi və Rəqs Birliyi – MRB təşkilatında! – Anya zarafatyana dedi.

- Bəs sonra? Ərə gedib, dünyaya uşaq gətirdikdən və işləməyə başladıqdan sonra artıq MRB sənlik olmayacaq. Onda AAB – Analar və Arvadlar birliyinə keçəcəksən, hə? Bəs, Allah eləməmiş, boşansan, yaxud ümumiyyətlə ərə getməsən neyləyəcəksən? TQB - Tənha Qadınlar Birliyinə üzv olacaqsan…

- Mən misalçün dedim! – qız incidi.

- Mən də misalçün deyirəm də.

- Bilirsiniz, - qaşqabaqlı Andrey söhbətə qoşuldu, - komsomol bizdən necə yaşamaq istədiyimizi soruşmur, bizi ancaq üzvlük haqqı vermək, toplantı və ya iməcilik keçirmək lazım gələndə yadına salır. Məsələn, niyə komsomolun öz kinoteatrları yoxdur? Bu kinoteatrlarda yalnız gənclər üçün filmlər nümayiş etdirmək olardı. Hə, niyə yoxdur?

- Sən sanki hansısa kənar xeyriyyə cəmiyyəti haqqında danışırsan? – Şumilin peşəkarcasına etiraz etdi. – Komsomol sən özünsən, həyatınla bağlı qərarları da sən özün verirsən. Bundan başqa, nə üçün sən yalnız əyləncə haqqında düşünürsən? Yeri gəlmişkən, komsomol təkcə toplantılar və iməciliklər

keçirməklə kifayətlənmir – bu iməciliklərdə yığılan pul uşaq xəstəxanalarına verilir. Bu diskotekanı da iməciliklərin köməyi ilə ərsəyə gətirmişik. Komsomol BAM-da çalışır, hələ…

- Siz məni BAM-la qorxutmayın! Qərbdə bizdən pis yollar çəkmirlər, amma heç kəs gəncliyin boynuna minnət qoymur!

- Sən elə hey «Qərb», «Qərb» deyirsən… Qərb müharibədə iyirmi milyon insan itirməyib, bu qədər dağıntılara məruz qalmayıb!

- Hə də, indi gənclər arasında işsizlikdən danışacaqsınız, elə isə orada gənclərə göstərilən maddi yardımdan da danışmağı unutmayın…

- Sən, heç olmasa, Qərbdə olmusan?

- Bəs siz olmusunuz?

- Mən olmuşam, - gənclərin nümayəndə heyəti ilə İspaniyada və AFR-də olmuş Nikolay Petroviç qətiyyətlə qeyd etdi. – Sənsə müxtəlif radiolardan eşitdiyini danışırsan.

- Mənim öz ağlım var.

- Amma ağılında yad fikirlər dolaşır. Məni diqqətlə dinlə, Andrey: insan yalnız öz rifahı barədə düşünürsə, başqalarının dərd-səri onu qayğılandırmırsa, o, həmişə mürəkkəb həyat yaşamalı olur. Səmimi cavab ver: bir insan kimi kim daha çox qəlbinə yatır – varlı, boynuyoğun oğru, yoxsa təmiz, vicdanlı, amma kasıb adam?

- Nə cavab verəcəyimi bilirsiniz.

- Bilirəm. Deməli, ümumi götürdükdə, özün özünü təkzib edirsən. Hər şeyi öz gözünlə görüb, əmin olmaq lazımdır, daha başqalarının boşboğaz söhbətlərinə aludə olmaq yox. Bax, belə.

Oğlanın qaşları çatıldı, o, əlindəki elastik plastmas çubuqla stəkanın dibindəki albalını deşməyə çalışırdı.

- Siz müəllim deyilsiniz, - Anya fikirli-fikirli dedi, - siz də raykomdansınız. Bizsə, dediyim kimi, pedaqoji institutda oxuyuruq, xarici dillər fakültəsində, kursu da deyim?

- Bunu özümüz aydınlaşdırarıq, - Şumilin qaş-qabağını tökdü. – Tatyana Andreevna, qeyd eləyin, sabah oraya barmaqlıqlı kareta və beş pulemyotlu motosikletçi göndərərsiniz.

- Oy, Tatyana Andreyevna, - Anya qadınlara xas qolaylıqla mövzunu dəyişdi. – Qərənfillériniz tamam soluxdu! Andryuşa, barmendən vaza istə, güllər hayıfdır.

- Mənə verməz…

Şumilin çoxmənalı tərzdə başını bulayıb bara tərəf getdi, burada bir şüşə şampan şərabı aldı və barmendən vaza istədi.

- Büllur vaza istəyirsən, yoxsa çex şüşəsindən olsa da, olar? – Barmen istehzayla dedi. – Şüşəni stəkanlara boşaldıb istifadə eləyin. Suyu tualetdən götürə bilərsiniz.

- Bir az nəzakətli ola bilməzsiniz?..

- Yeri, get, qoca kaftar! – «MDBMİ-nin məzunu» uca səslə onun arxasınca donquldandı.

- Alınmadı, - Şumilin yerinə oturub dedi. – Yaxşı, gəlin adama bir bokal içək, biz getməliyik, sizə demişdik axı, bir az oturub gedəcəyik.

- Nə danışırsınız! – Anyanın rəngi allandı. – Qalın, bir az da mübahisə eləyərik! Nə deyirsiniz?

- Bəsdir mübahisə etdik, - Andrey burnunun ucunda dedi.

Bu zaman barın piştaxtası önündə dramatik hadisələr cərəyan edirdi: Loktyukov təhdideci ədayla barmenə yaxınlaşdı (sanki indi qulağının dibindən bir yumruq ilişdirəcəkdi) və başıyla birinci katibə işarə edib, ona nəsə dedi. Kokteyl sehrbazının sifəti tutuldu, onun üzündə heysiyyətlə hesab mübarizə aparırdı. Tərəflər müxtəlif çəki kateqoriyasında olduq-

ları üçün barmen müəyyən tərəddüdlərdən sonra piştaxtanın altına əyilərək, orada nəyisə eşələməyə başladı. Bir azdan onun qıpqırmızı olmuş sifəti göründü. O, əlindəki qabı səliqəylə silib-təmizlədi və katibin stoluna yaxınlaşıb, yalançı iradla onun üzünə baxdı:

- Vaza yoxdur, düz sözümdür. Bəlkə bu işə yaradı?

Və üzərinə nikel çəkilmiş, par-par yanan şəhər spartakiadasının kubokunu stolun düz ortasına dikdi.

- Bunu hardan almısınız? – Karıxıb özünü itirmiş Nikolay Petroviç soruşdu.

Barmenin heysiyyəti məngənədən qurtulmaq üçün son dəfə cəhd etdi, ancaq xilas ola bilmədi və arxası yerə dəydi.

- Bir oğlan bunu pul əvəzinə vermişdi: əlli qəpiyə görə hay-küy qaldırası deyildik ki!

- Loktyukov! – Şumilinin səsi zalı başına götürdü.

Operativ dəstənin başçısı birinci katibin döyüldüyünü zənn edib, stulları ayaqlaya-ayaqlaya vestibüldən çıxdı və tanış gümüşü qabı görüncə yerində donub qaldı. Hər şeydən xəbərsiz olan Anya soluxmuş qərənfilləri kubokun içinə qoyurdu.

14

Yüngülcə rəqs edə-edə güzgüdə özünə təvəccöhlə baxan Şumilin çartıltılı elektrik ülgücü ilə üzünü qırxırdı. Özünü qalib kimi hiss etdiyin günlər az-az olur, bu da məhz həmin günlərdən biriydi: o, hətta yuxudan da xoş əhval-ruhiyyə ilə ayılmışdı. Çoxdandır ki, özünü belə yaxşı hiss etmirdi.

Dünənki gün başdan-başa pis detektivin xoşbəxt sonluğunu xatırladırdı: təcili özünü yetirən inspektor Mansurov barmeni və gününü buralarda keçirən, az qala diskotekada

gecələyən bir neçə gənci sorğu-sual etdi. Sonra raykom işçilərini əmin etdi ki, yerdə qalanlar texniki məsələdir və sabah səhər zəng vuracağını bildirdi. Vidalaşarkən o, birinci katibin əlini xüsusi hörmətlə sıxdı.

Şumilin Tanyanı evlərinə ötürürdü. Yolda bir neçə dəfə drujinaçılarla rastlaşdılar. Operativ dəstənin birinci katibi tanıyan bəzi üzvləri ona maraqla göz yetirirdilər. Turist gəzintisi zamanı müəllimin də şirin şeylərdən xoşlandığını və qurbağadan qorxduğunu görən uşaqların gözündə də bu ifadəni sezmək olar.

Sonra onlar kiminsə avtobus dayanacağından ot basmış həyətin dərinliyinə çəkdiyi alçaq, geniş bir skamyaya əyləşdilər. Şumilin raykomda baş vermiş hadisəni dönə-dönə Tanyaya danışır, kuboku məhz özünün tapdığına təəccübləndiyini gizlətmirdi.

- Anya güllərin qeydinə qalmasaydı, nə olacaqdı? Təsəvvür edirsiniz? Qızlara gül bağışlayın!

- Təsəvvür edirəm, - Tanya əlavə etdi, - Oradakı uşaqlardan xoşum gəldi, bəzi şeylərdə onlarla razılaşmasam da. Siz Andreyi yalnız mübahisədə məğlub etdiniz, onu inandıra bilmədiniz. Doğrudur, onun dediklərinin yarısı uşaq müştəbehliyindən başqa bir şey deyil; özünüzü onun yaşında təsəvvür edin.

- Başa düşürəm. Ancaq bir fərq var: mən on səkkiz yaşında olarkən, sadəlövhlük də olsa, xoşuma gəlməyən şeyləri dəyişdirməyə, düzəltməyə çalışırdım, daha oturub donquldanmırdım.

- Bəlkə, müəyyən şeylərdə onlar da haqlıdırlar? Bəlkə, onları dinləmək, anlamaq lazımdır? Bilirsiniz, bayağı bir şey deyəcəyəm. Həkimlər Hippokrat andı içirlər, çünki insanların

həyatı onlardan asılıdır. Ancaq axı insanlar təkcə həkimlərdən asılı deyillər…

- Hə? Təcili olaraq, komsomol işçisi andını qəbul etmək lazımdır! Birinci bənd belə olacaq: «Zərər yetirmə!» - Şumilin zarafatla söhbəti əvvəlki məcraya qaytarmaq istədi, amma tamamilə ciddi mətləblərdən söz açdı: - bax, siz deyirsiniz ki, nəyisə düz eləmirik, amma məgər sizdə – madam ki, tibbi paralellər xoşunuza gəlir – dərmanların siyahısına baxıb, onlardan agah olmaqla sağalmaq mümkündürmü? Andrey və Anya pis uşaqlar deyillər, ancaq onlar, bəlkə də, raykoma soxulanlardan da betərdirlər…

- Onları tapsalar, nə olacaq?

- Pis olacaq. Maddəni xatırlamıram – Mansurovdan soruşmaq lazımdır.

- Bu, Sizdən asılı olacaq?

- Məndən asılı olan nə vardısa, hamısını eləmişəm.

- Hamısını? sizin daha rəhmli adam olduğunuzu düşünürdüm.

- Neyləmək olar?..

- Yəqin ki, heç nə. Mən müşahidə etmişəm ki, həkimlər böyük vəzifəyə irəli çəkilərkən, bu, xəstələrin vəziyyətinə təsir edir. Hər şeyin bədəli var. Eşitmişəm, sizi şəhər komitəsinə dəvət edirlər…

- Qonaq çağırırlar. Hələ ki şəhər komitəsində mənə iş təklif etməyiblər. Öz karyerama görə isə – bu söz sizi çaşdırmır? – Mən özümlə haqq-hesab çəkirəm… Başa düşürsünüz, özümlə, başqa heç kəslə yox. Bax, belə!

Şumilin ayağa qalxıb, siqaret yandırdı və onlar sakitcə evə yollandılar. Tanya evin qapısının önündə dayanıb, diqqətlə və təəccüb dolu baxışlarla onu süzdü, sonra gülümsünərək, əl verdi.

Burada zəngləşib, görüşmək barədə danışdılar.

…Şumilin üzünü qırxıb qurtardı, kiçik yanğınsöndürəndən istifadə edirmiş kimi odekalon şırnağıyla xatirələrin odunu söndürdü, sonra güzgünün önündə dayanıb uzun-uzadı geyindi, müxtəlif qalstukları açıb-bağlamaqdan boynunu sürtdü, pəncərəyə baxdıqda isə gördü ki, sürücü nadir dəqiqliklə maşını öz yerində saxlayıb. Pillələri atıla-atıla, keysini yelləyə-yelləyə aşağıya enən birinci katibin küçədə gözləri qamaşdı, o dayanıb gözləri önündə sayrışan ləkələrin yox olmasını gözlədi.

- Gör, mən necə adamları gəzdirirəm! – «Volqa»nın qapısını müdirə açarkın Aşot hörmətlə başını yellədi. Maşın dəyişilmişdi, pərdələri çəhrayı rəngə çalan parıltılı-qara maşın idi.

- Öz maşınımız hanı? – Şumilin maşina əyləşib soruşdu.

- Sürət qutusu sıradan çıxıb. Qarajın müdiri bu qartalı verəndə az qala ağlayacaqdı… Qulaq as, sən onu tapdın?

- Kimi?

- Yaxşı, özünü bilməməzliyə vurma! O bokalı deyirəm də…

- A-a, kuboku! Hə, demək olar, təsadüfən…

- E-e, heç olmasa, özununkülərəsə hiylə gəlmə!

- Bilirsən, Aşot, - birinci katib dalğın idi, - ağıllı adamların ön güzgüsündən savayı, arxa güzgüsü də olur…

Onlar elə bərkdən gülüşdülər ki, yolayrıcındakı tənzimləyici uzun-uzadı «Volqa»nın nömrəsinə zilləndi.

Raykoma gələndən sonra Şumilin saat on birə iclas təyin etdi, möhürlü qara futlyarı Komissarovaya təhvil verdi və tələsik tikintiyə yollandı.

Prospekti bir göz qırpımında keçdilər, sonra bir qədər beton yolla gedib, nəhayət, dizə çıxan palçığın içiylə irəliləməli oldular. İnsanlar özlərinə mənzil tikməyə başlayanda ətraf həmişə belə palçıqlı olur. Aşot maşını üzərinə «Krasnoprole-

tarski rayonunun zərbəçi komsomol tikintisi» yazılmış plakatın yanında saxladı, qapını açıb yerə baxdı və maşından enmək fikrindən daşındı.

Maşından enən Şumilin adda-budda yerə düşüb qalmış tikinti materiallarının üstü ilə atıla-atıla vaqonlara doğru getdi. Vaqonların yanındakı şalbanların üstündə fəhlələr oturmuşdular. Onlar siqaret püfləyir, payızın solğun günəşində isinir və zibil daşıyan tikinti dəstəsinin üzvlərinə məsləhətlər verirdilər:

- Bir az cəld ol, xərəyi əlindən tez burax, yoxsa qolun çıxar!

Pəncərədən «Volqa»nı görən briqadir vaqondan bayıra çıxdı:

- Nikolay Petroviç! Məzuniyyətdən birbaşa buraya gəlmisiniz! Biz artıq suvaq çəkirik!..

- Bəs niyə yalnız bizimkilər işləyir?

- Raykinin dediyi kimi, məhlul yoxdur, oturub siqaret çəkirəm. Sizinkiləri isə gənclik entuziazmı hərəkətə gətirir!

- Eləmi? Elə isə trestə zəng edib öyrənmək lazımdır, görək işdə vaxt itkisi nəyə görə gənclərin entuziazmı ilə ört-basdır edilməlidir?.. Şənbə və bazar günləri bütün aktivi buraya tökəcəyəm. Gözləyin.

Şumilin, demək olar, tikilib-qurtarmış binanın soyuq, təzə sement qoxuyan dəhlizlərini dolaşdı, vaxtilə tikinti dəstəsində çalışdığı üçün müəyyən təcrübə toplamışdı, odur ki, köhnə qurd gözüylə baxıb, qapı yerlərindəki əyər-əskikləri özündə qeyd elədi. Bundan sonra tanış uşaqlarla söhbətləşdi. O artıq maşına yaxınlaşarkən gördü ki, briqadir əl-qolunu yelləyərək öz qvardiyasını şalbanların üstündən qaldırır. Şəhərə qayıdarkən yolda tikinti məhlulu aparan maşınları gördü, deməli, trestə zəng etməmək də olar. Yox, hər şey yaxşıdır, gün uğurlu keçmişdi!

Şumilin yol kənarındakı avtomat telefondan Tanyaya zəng etmək istədi, ancaq onun telefonu məşğul idi.

O, Aşotun müşayiəti ilə qəbul otağına girəndə Alloçka altdan-altdan komsomol rəhbərinin palçığa bulaşmış ayaqqabılarını sürücünün par-par yanan ştibletləri ilə müqayisə etdi və xəbər verdi ki, DİRİ-dən zəng vurublar.

Birinci katib cəld telefonun dəstəyinə əl atdı.

- Hər şey qaydasındadır, - Mansurov tələssız məruzə etdi, - birini artıq tutmuşuq.

- Eləmi?.. Kimdir? Bizim rayondandır?

- Məlumat verirəm: Semyonov Yuri Sergeyeviç. – Dəstəkdən kağız xışıltısı eşidildi. – 1967-ci ildə doğulub, rusdur, rayonumuzdakı 385 saylı məktəbin onuncu sinfində oxuyur, bizim rayonda yaşayır: Nijne-Trikotajnı döngəsi, ev 14, mənzil 127. Komsomol deyil. Sən demə, yeniyetmələr üzrə müfəttişlikdə onu yaxşı tanıyırlar. Normal ailədəndir – atası TD ETİ-də sürücü işləyir, anası uşaq evində tərbiyəçidir. Səhər-səhər evlərində olduq, o, sakitcə məktəbə getməyə hazırlaşırdı. Ancaq fəhmli oğlana oxşayır, bizi görəndə hər şeyi başa düşdü və heç təəccüblənmədi də…

- Bəs ikinci hanı?

- İkincini hələ tapmamışıq. Semyonov deyir ki, onunla mağazada portveyn alarkən tanış olub. Əvvəllər onu heç vaxt görməyib, sonra da görüşməyiblər, harada yaşadığını bilmir, adını da unudub. Yəqin ki, yalan danışır, hər şeyi öz üzərinə götürmək istəyir. Boynuna aldı ki, raykomun binasına girmək fikri ona məxsusdur. Əvvəlcə raykomun önündəki bağçada içmək istəyiblər, sonra Semyonov pəncərənin açıq olduğunu görüb, içəridə, necə deyərlər, komfort şəraitdə əylənməyi təklif edib! Bir sözlə, həlqələr mən dediyim kimi düzülüb: avaraçılıq – içki – xuliqanlıq…

- Bəs indi o haradadır?

- Dincəlir.

- Yoldaş… - Şumilin cəld təqvimin səhifəsini çevirib, müfəttişin adını tapdı, - Mixail Vladimiroviç, bir xahişimiz var: büro üzvləri Semyonovla danışmaq, ona öz münasibətlərini bildirmək istəyirlər. Hər halda, müəyyən nəticələr çıxarmaq lazım gələcək. Büro bu gün saat ikidə toplanır.

- Gətirərik. Ancaq bu söhbətin bir faydası olacağına inanmıram. Adi xuliqandır! Ondan soruşuram ki: «Raykomu niyə tarmar etmisiniz?» «Heç nə xatırlamıram – sərxoş idim», - deyir…

- Xahiş edirəm, onu saat iki üçün buraya gətirəsiniz. Özüm də onu görmək isərdim.

- Yaxşı. Ancaq onun tərbiyəsi ilə əvvəlcədən məşğul olmaq lazım idi.

İclas tez başa çatdı. Komsomolda tez-tez belə olur, dünən tamamilə iflasa uğramış kimi görünən iş, bir də baxırsan, bu gün qaydasına düşməyə başladı. Şənbə və bazar günləri bütün aparatın aktivlə birgə tikintidə çalışacağı xəbəri fərəh doğurmasa da, anlayışla qarşılandı.

İşlərin gedişindən məmnun qalan Şumilin öz kabinetinə qayıtdı, Tanyayla danışmağa hazırlaşırdı ki, hər şeydən məlumatı olan Okolotkov birbaşa telefon xəttilə ona zəng vurdu:

- Burada söz-söhbət dolaşır, deyilənə görə, Petrovka səni işə götürür.

- Hə, artıq oturub ərizə yazıram, - Şumilin bunu zarafat kimi qəbul etdi.

- Dayan! Birinci səhər-səhər hər şeydən xəbər tutunca, dil boğaza qoymurmuş: «Sən işə bax, gör necə adamlarımız var!». Yeri gəlmişkən, o xuliqanı sən özün görmüsən, yoxsa

Şerlok Holms kimi yalnız intellektual axtarışla məşğulsan, texniki işləri isə milisə həvalə edirsən?

- Hələ ki, görməmişəm, amma onu bu gün büroya gətirəcəklər, istəyirəm uşaqlar onunla söhbət eləsinlər – o axı bizim rayondandır.

- Belə-ə… Mən bu gün qida istehsalçılarının hesabat-seçki konfransında iştirak edəcəyəm, hardasa siz tərəflərdədir. Mütləq sizə də dəyərəm. Büronun iclasında iştirak edərəm, həm də sənlə söhbətləşərik. Birinci ilə nə danışacağın barədə. Burada televiziyadan sənin uşaq evinlə maraqlanırlar, rejissor sənə zəng etməlidir. Çəkilişdən qabaq saçını daramağı unutma. Yeri gəlmişkən, Qalyayla barışdın?

- Yox.

- Çox nahaq. Məni başa düşdün? Görüşənədək.

Şumilin nəfəsini dərib, Kovalevskiyə zəng vurdu.

- Artıq hər şeyi bilirəm, - Vladimir Sergeeviç cavab verdi. – Məzəniz olsun, qardaşlar, xuliqanları özünüz yetişdirir, özünüz də tutursunuz. O hansı məktəbdə oxuyur?

- 385 saylı məktəbdə.

- O pis məktəb deyil. Aydınlaşdırmaq lazımdır.

- Vladimir Sergeyeviç, istəyirəm büro üzvləri bu Semyonovla söhbət etsinlər, onu dinləsinlər. Bu gün onu milisdən buraya gətirəcəklər, şəhər komitəsinin katibi Okolotkov da burada olacaq. Saat ikidə başlayırıq.

- Mütləq məktəb direktorunu da dəvət edin! Mən də gəlməyə çalışacağam – sizin talançını görmək istəyirəm. Bəs ikinci hələ tapılmayıb?

- Hələ yox.

- Nikolay, sən orda bir az da səy göstər: deyirlər, səndə yaxşı alınır! Ümumiyyətlə, gələn həftə yanıma gələrsən,

«Kinoponarama»da deyildiyi kimi, sənin yaradıcılıq planların barədə danışarıq…

Şumilin dəstəyi qoyub, selektorun düyməsini basdı, Komissarovaya tapşırdı ki, 385 saylı məktəbin direktorunu büroya dəvət etsin.

- Yazıq İrina Semyonovna! – nazikürək Nadya direktorun halına acıdı, – rayonda ən yaxşı müvəffəqiyyət dərəcəsi onlardadır…

- Eybi yoxdur, - birinci katib sərt səslə dedi. – Bundan sonra nizam-intizamla da məşğul olarlar.

O yenidən Tanyanın nömrəsini yığmaq istəyirdi ki, Çesnokov əlində açıq tutduğu qəzetlə tələsik içəri soxuldu.

- Komandir! Şan-şöhrət öz caynaqları ilə qapını cırmaqlayır!

- Nə olub yenə? – Şumilin dəstəyi yerinə qoyub, stolun üstündəki qəzeti götürdü.

Qəzetin birinci səhifəsindəki böyük şəkildə Krasnoproletarski komsomolunun büro iclası təsvir olunmuşdu: retuşlanmış birinci katib əlindəki qələmi qılıncoynadanlar sayağı Buteninin sinəsinə tuşlamış, gözlərini ona dikmişdi. Yadındadır, burada üzvlük haqlarının yığılması haqqında danışırdılar. Büro üzvləri səylə söhbətə diqqət kəsildiklərini nümayiş etdirirdilər. Zaman və məkan haqqında bütün təsəvvürləri alt-üst edən Çesnokov sol tərəfdən özünü şəkilə pərçimləmişdi. Onun şəkli, doğrudan da, çox yaxşı düşürdü.

Şumilin köks ötürüb, Liparskiyə zəng elədi.

- Gördün? – Liparski lovğalıqla soruşdu.

- Gördüm. Sağ ol. Dedyin oğlanın məsələsini həll etdik. Yeri dgəlmişkən, sizə yeniyetmələrlə aparılan iş barədə maraqlı material lazım deyil?

- Maraqlı material həmişə lazımdır, ancaq elə material olsun ki, sonradan özümüzü yandırmayaq…

- Biz bu gün büroda bir yeniyetmə ilə söhbət edəcəyik…

- Həmin oğlanla?

- Həmin oğlanla.

- Əla işləmisən, dostum! Bunu baş redaktorla danışmaq lazımdır. Amma… bizə axı Şpartko nəzarət edir. Məni başa düşürsən? Hə? Müxbir gələcək. Öpürəm.

Şumilin söhbəti bitirib, Çesnokova baxdı – o nəyləsə Liparskiyə oxşayırdı, komsomolda deyildiyi kimi, məsələləri yoluna qoymağı bacarırdı. Öz ünvanına tərif gözləyən işlər müdiri başını aşağı salıb dayanmışdı.

«O düz deyir: hər şey yaxşı alındı», - deyə düşünən birinci katib soruşdu:

- Adamlar toplaşır? Bax ha, Okolotkov gələcək, Vladimir Sergeyeviç də söz verib…

- Kovalevski?! İşə bax! Dağ Məhəmmədin yanına gedir…

- Yaxşı, zarafatları sonraya saxla. Qoy kabinetləri səliqəyə salsınlar, heç kəs siqaret çəkməsin. Dəhlizə də əl gəzdirin. Qeydiyyat şöbəsinin qapısı ağzında növbə-filan olmasın!

- Oldu, komandir! Yetərsayla bağlı narahat olma: bu cür gündəliklə burada anşlaq olacaq! Son iki ildə ilk dəfə Olimpiya çempionu Kolupayevi görəcəksən. Ondan xahiş etmişəm ki, gələndə medalı boynundan assın. Zarafat edirəm. Krasnoproletarski univermağından zəng eləyiblər – boz fin kostyumları var, beşinci ölçüdə! Belə şey yüz ildə bir olur. Mən alıram. Səninçün də götürüm?

- Fikirləşərəm, - o, Çesnokova cavab verdi.

- Alıcı çox fikirləşsə, çılpaq qalar, qamarlamaq lazımdır, fikirləşmək yox! Həm də fikirləş-fikirləşmə, yüz səksən manat pul deyil!

- Yaxşı, axşam tərəfi gedib baxarıq, görək əynimizə olurmu…

- Bəlkə, siyahıya da yazılasan, hər gün gedib siyahını yoxlayasan, axırda isə bir sutka növbədə dayanasan? Eh, Nikolay Petroviç, sən öz hüquq və vəzifələrindən istifadə edə bilmirsən. Yoxsa, hələ istəmirsən? Zarafat eləyirəm.

Oleq çıxdı, Şumilin isə Mayonez zavoduna zəng etdi. Yeni katibin namizədliyi ilə bağlı Lişutini razı salmaq çətin olmadı.

- Qoy işləsin, - o razılaşdı. – Bareyev işin çəmini bilir, toplantıda gördük. Mən razıyam, amma Qolovko artıq direktorla anlaşıb.

- Doğrudan? Direktor yerindədirmi?

- Nazirliyə gedib. Onu orada tapa bilərsən.

- Eybi yoxdur, onunla danışaram.

- Danışın. O da yuxarı vəzifəyə gedir.

«Hamı hər şeyi bilir! Əsl parapsixologiyadır! – Pedaqoji institutun telefon nömrəsini yığan Şumilin təəccübləndi.

- Qulaq as, Sergey, - O, Zayaşnikovdan soruşdu, - xarici dillər fakültəsində katib kimdir?

- Medkovski. Nə olub ki?

- Bu il katibi əvəzləmək fikriniz varmı?

- Yox. Nədir ki?

- Qoy o, sabah saat dörddə yanıma gəlsin.

- Nəsə baş verib?

- Hələ ki yox. Sən bu fakültədəki işlərdən razısan?

- O qədər də yox. Nədir ki?

- Heç nə. Mən onunla danışmaq istəyirəm. Büroya gecikmə!

- Gecikmərəm. Bizim komitə hər şeydən xəbərdardır, təfərrüatları bilmək istəyirlər! Nikolay Petroviç, Sizə bir nəzakətsiz sual vermək olar?

- Sual mənim öz işimi dəyişməyimlə bağlıdırsa, bunu sən məndən də yaxşı bilirsən. Bax, belə!

Şumilin saatına baxıb, nahara yollandı, burada xidmətiaxtarış sahəsində qazandığı böyük uğur münasibətilə səmimi, istehzalı, kinayəli təbrikləri qəbul edərək, xeyli tər tökməli oldu. Hətta xörəkpaylayan qızlar da ona vəcdlə baxır, ən yaxşı tikələri seçib verirdilər.

O, düz saat ikinin yarısında raykoma qayıtdı və həyəcanlı Alloçkadan öyrəndi ki, Tındadan zəng ediblər.

- Kononenko idi?

- Hə, Viktor İvanoviç idi, – qız təsdiqlədi. – Soruşdu ki, işlər necədir?

- Nə cavab verdin?

- Dedim ki, qaydasındadır: Siz axı demişdiniz…

- Telofon nömrəsini qoydu?

- Yox, dedi ki, yenə zəng eləyəcək…

«İşlər necədir? İşlər necədir?!» - Kabinetə gələn Şumilin deyindi. – Buna iş demək olmaz, bütöv bir cinayət işidir!»

Onun ardınca Alloçka da kabinetə gəldi, qapını örtüb xəbər verdi ki, Nikolay Petroviçi telefonda bir qadın da arayırmış.

- O nəsə dedi? – Şumilin Tanya ilə danışa bilmədiyini xatırlayıb, narahat oldu.

- Yox, dedi ki, yenə zəng eləyəcək. Məncə, arvadınız idi! – Katibənin səs tonundan bəlli olurdu ki, o, rəhbərin həyatını bütün xırdalıqlarına qədər bilir. «Deməli, həqiqətən boşanmaq

istəyir, - raykomun binasına yan alan patrul maşınını seyr edən Şumilin fikirləşdi. – Qoy olsun. Amma yenə də, qəribədir…»

Qalyanın zəngi, doğrudan da, gözlənilməz idi, çünki onlar ayrıldıqdan sonra o, bir dəfə də olsun, ərinin xidməti telefonuna zəng etməmişdi….

Semyonovu Mansurov və tanış olmayan bir milis serjantı gətirdilər.

Oğlan kabinetin qapısı önündə dayanıb, ətrafa boylandı.

- Nədir, tanış gəlir? – Şumilin istehzalı təbəssümlə soruşdu. – Keç, bir az dərdləşək…

Semyonovu aerodrom-stolun arxasına əyləşdirdilər, müfəttişlə serjant isə divarın yanındakı stullara oturdular.

Şumilin onun köməyi ilə tutulmuş xuliqana baxır, nə deyəcəyini bilmirdi. Belə də məktəbli olar? Onun qarşısında nə üçünsə məktəbli forması geymiş iri cüssəli bir kişi oturmuşdu. Enlisifət, həyasızcasına laqeyd baxışlı birisi idi, güclə sezilən saqqal qoymuşdu, iri qırmızı əllərinin barmaqlarını dizlərinin arasında bir-birinə keçirmişdi. Köynəyinin yaxası sinəsinəcən açıq idi, sinəsinin sıx, qara tükləri görünürdü. Lənətə gəlmiş akselerat!

Ancaq onun hərəkətlərinə, oturuşuna baxanda məlum olurdu ki, oğlan sürətlə irilənən bədəninə hələ uyğunlaşmayıb. Bəzən adam yeni kostyum geyinəndə də belə hislər keçirir.

Onun sanki meydan oxuyan sakit tövrü də saxta idi.

Əvvəl-əvvəl onun abrını ətəyinə bükmək istəyən Şumilin bütün bunları sezmədi.

- Köynəyinin yaxasını düymələ, - o, sakitcə tələb etdi. – Sən rayon komsomol komitəsindəsən.

- Bu, onunçün arqument deyil, - Mansurov rişxəndlə gülümsədi.

Oğlan köynəyinin yaxasını düymələdi və belini dikəldib düz oturmağa çalışdı.

- Bura bax, Semyonov, - Şumilin qəzəbini gizlədə bilmirdi. – Törətdiyin cinayətə görə, bəli, bəli, cinayətə görə qanun qarşısında cavab verəcəksən, amma hələlik büro üzvləri, aparat işçiləri və öz əməlinlə əməyinə kölgə saldığın bütün Krasnoproletarski camaatı qarşısında cavab verməli olacaqsan. Sənin oxuduğun məktəbin direktorunu da dəvət etmişik. Semyonov, sən məktəbi də biabır etmisən! İndi isə de görüm – mən sadəcə sənin məntiqini anlamaq istəyirəm! – niyə məhz raykomun binasına soxulmusan? Yalnız ona görə ki, pəncərə açıq qalmışdı, yoxsa başqa bir səbəb var?

- Yoxdur.

- Deməli, belə! Demək, pəncərəni açıq görüb, içəriyə girmək istədin, hə?

- İstədim, - oğlan qaşqabaqlı cavab verdi.

- Belə maraqlıydısa, gündüz qapıdan da keçə bilərdin!

- Mən komsomolçu deyiləm.

- Bəs niyə, girmirsən? – istehzalı nəzakətlə soruşdu.

- Götürmədilər.

- Çox düz eləyiblər – yoxsa, hər gün raykoma soxulardın, bəlkə, mənim otağımdan da yan keçməzdin: mən bəzən gecə yarısına kimi burada oluram.

- Mən artıq Sizin otağınızda olmuşam.

- Nə danışırsan? Nə əcəb gəlmişdin, soruşa bilərəm?

- Şəxsi işimə görə.

«Demişdim axı, həyasızın biridir!», - müfəttiş səhər dediyi sözləri baxışları ilə yenidən təsdiqlədi.

- Nəsə görüşümüzü xatırlamıram. Bu nə vaxt olub? – Komsomol rəhbəri kinayəylə soruşdu.

Semyonov çiyinlərini çəkdi.

- Susmaqdan bir şey çıxmaz, yaxşısı budur yadıma sal, - Şumilin narahat olmağa başladı.

- Nə ehtiyac var? Onsuz da unudacaqsınız…

- Özünü ədəbli apar! – Mansurov səsini ucaltdı. – Sənə verilən suala cavab ver!

Ancaq inadkar oğlan kirimişcə pəncərədən qovaq ağacının budağını seyr etməyində idi. Hirsli kapitan barmaqları ilə dizlərini döyəcləyirdi. Serjant heyranlıqla divara bərkidilmiş mamont buynuzuna baxırdı. Bu buynuzu raykomun hamilik etdiyi qütbçülər bağışlamışdılar. Birinci katib isə səylə xatırlamağa çalışırdı.

İnsan yaddaşının iki xüsusiyyəti var: insan çox şeyi unuda bilər, amma bununla belə, o heç vaxt heç nəyi yaddan çıxarmır. İnsan istəsə hər şeyi, hər bir xırdalığı xatırlaya bilər: məsələn, inişil kupedə birgə cənuba getdiyi sərinişinin gözlərinin rəngini belə yadına sala bilər. Əlbəttə, əgər onun gözlərinə baxmışsa.

Şumilin də yadına saldı.

15

Həmişəki kimi o gün də büro iclası komsomola qəbulla başladı.

- Üç yüz səksən beşinci! – qapı arxasındakı təlimatçı çağırdı və bir qrup səkkizinci sinif şagirdi ürkək addımlarla iclas zalına girdi. Qızlar ağappaq ütülü ətəklər, oğlanlar isə axıracan düymələnmiş ağ köynəklər geymişdilər, onlardan biri atasının Roma qılıncı kimi enli və qısa qalstukunu taxmışdı.

«Əsl bir sentyabr ab-havasıdır, yalnız güllər çatışmır, - Şumilin fikirləşdi. – Afərin, İrina Semyonovna!». Yoxsa, son

vaxtlar dəb düşmüşdü, büro iclasına hərə bir paltarda gəlirdi. Şumilin rayon təhsil şöbəsində keçirilən direktorlar iclasında bu məsələni çox sərt qoymuşdu.

- Əyləşin, uşaqlar! – O vaxtkı üçüncü katib Şnurkova üzünə vacib ifadə vermişdi.

Məktəblilər ədəblə oturdular, 385 nömrəli məktəbin komsomol katibi Lenoçka Spiridonova ayaq üstə qaldı. Bu səliqəli onuncu sinif şagirdi gözəl bilirdi ki, ictimai işlər və kamal attestatı – birləşmiş qablardır. O, öz gəlincik səsilə ərizələri, anket məlumatlarını oxuyur və növbəti blankı birinci katibə ötürürdü. Birinci katib isə anketlərin düzgün doldurulub-doldurulmadığını yoxlayır, qəbul qərarını təsdiqləyən qeydlər aparırdı.

Bu zaman büro üzvləri komsomola qəbul olunanlarla söhbət aparırdılar.

- Nizamnaməni oxumusan? – Uzun stolun arxasında oturanlardan biri mehriban səslə soruşurdu.

- Bəli, - imtahan edilən cavab verirdi.

- Elə isə de görüm, demokratik mərkəzləşmə prinsipi nədir?

Bəzən cəsarətli, səlis, bəzən isə qırıq-qırıq cavablar verilirdi, uşaqlar bu zaman dərslərdə sınaqdan çıxarılmış üsullardan istifadə edir, cavabları pıçıltıyla bir-birinə deməyə çalışırdılar. Qətiyyətsiz cavab verən şagirdləri rahat buraxırdılar, mövzunu yaxşı öyrənmiş uşaqların isə, əlavə olaraq, müvəffəqiyyət dərəcəsi ilə maraqlanır, onlara komsomolun hüquq və vəzifələri barədə suallar verirdilər. Ancaq əsasən ilk qəbula gələnləri ciddi sorğu-sual edirdilər, yerdə qalanları yola verməyə çalışırdılar: axı qapının arxasında başqa məktəblərdən gələn uşaqlar da gözləyirdilər, üstəlik, gündəlikdə başqa məsələlər də vardı.

Qəbula gələnlərin sayı az olduqda, büro üzvlərinin hərəsi bir sual verməli olurdu, özü də bunlar hamının əzbər bildiyi suallar idi. İclas zalında iyirmi nəfər olduqda isə uşaqları iki-üç dəfə sorğuya çəkirdilər. Beləcə, komsomola namizədlərin köməyi ilə dünyadakı siyasi vəziyyətə, komsomolun tarixinə işıq tutulur, səkkizinci sinif şagirdlərinə gördükləri ictimai işlər, oxuduqları son kitab barədə suallar verilirdi. İdmandan başqa məşğuliyyəti olmayan gənclərə xilasedici suallar verilirdi: «Komsomolun hansı ordenləri var?» İşin maraqlı tərəfi odur ki, bu gənclər gözləri önündə divara vurulmuş faner maketlərə baxıb cavab vermək əvəzinə, gözlərini tavana zilləyir, «Komsomolskaya pravda» qəzetinin birinci səhifəsində təsviri verilmiş mükafatları xatırlamağa çalışırdılar.

Ən ümidsiz hallarda sanki hərbi sirr saxlyırmış kimi inadla susan şagirdə məsləhət görürdülər ki, gedib daha ciddi hazırlaşsın və növbəti dəfə gəlsin. Ancaq nadir hallarda belə edirdilər, çünki qəbulla bağlı rəqəmlər, necə deyərlər, raykomun işinin göstəricisi idi.

O gün şagirdlərlə söhbət aparılarkən Şumilin başını qaldırmadan anketləri saf-çürük edir, yarım saat əvvəl üzvlükləri təsdiqlənmiş komsomolçuların hazır biletlərini və şəxsi kartoçkalarını imzalayırdı. Qeydiyyat şöbəsi fasiləsiz işləyirdi. Növbəti komsomolçunun sənədlərini qaydaya salan Şumilin büro üzvlərindən birinə, məsələn, Qurkinaya buyururdu: «Svetlanoçka, zəhmət olmasa, təbrik et!» O da sakitcə zalı tərk edib, katiblərdən hansınınsa kabinetində yeni qəbul olunmuş komsomolçuların əlini sıxır, biletlərini təqdim edərək, geriyə dönürdü.

Həmin gün 385-ci məktəb canfəşanlıq göstərib, planda nəzərdə tutulduğundan çox şagird göndərmişdi, odur ki, Spiridontseva Semyonovu çağırıb, sonuncu anketi birinci katibə

verdiyi dəqiqələrdə artıq hərəyə üç sual vermiş, indi də ordenlərə keçmişdilər. Toplantılarda məruzəçi səhifələrin yerini səhv salarkən yaranan pauzaya bənzər fasilə əmələ gəldi.

Semyonov səksəkəylə yerindən qalxdı, həyəcanla barmaqlarını ovuşdurmağa başladı.

Sakitlikdən tələccüblənən Şumilin başını qaldırdı və dərhal vəziyyəti anlayıb, ağlına gələn ən sadə sualı verdi:

- Komsomola niyə girirsən?

- Mənmi? – oğlan soruşdu.

- Hə, sən! Sualı özümə vermirəm ki…

- Mən… Mən də hamı kimi də.

- Necə yəni, hamı kimi? Sən özün, niyə komsomola qəbul olunmaq istəyirsən?

Oğlan susdu.

- Necə oxuyursan? – Birinci katib onun donunu açmaq istədi.

- Üçüm yoxdur.

- Sənə ictimai işlər tapşırılır?

- Hə. Divar qəzeti.

- Səni kim məsləhət görüb?

- Yelena Aleksandrovna… Sinif rəhbərimiz.

- Görürsən, hər şey qaydasındadır, amma sən öz anketində yazdıqlarını da təkrarlaya bilmirsən! – Şumilin gülümsündü.

- Təkrarlaya bilərəm… Amma axı hamı belə yazıb! – Ondan hansısa xüsusi, tövbəkar cavab gözləndiyini zənn edən oğlan söhbətin əvvəlinə qayıtdı.

- Belə! Yenə – «hamı». Yəni hamı diktəylə yazıb?

- Y-yox, - Semyonov Spiridontsevanın heç nə ifadə etməyən, donuq sifətinə baxaraq dedi. – Yox, yox!

- Valideynlərin kimdir? – Şnurkova söhbətə müdaxilə etdi.

- Atam sürücüdür, anam uşaq bağçasında mürəbbiyə…

- Ziyalı ailəsidir! Bəs onlar səni müstəqil fikir yürütməyə öyrətməyiblər? «Hamı kimi» - cavab deyil. Başa düş, komsomol – sənin həyatında böyük hadisədir, bu öz ürəyinlə, ruhunla hiss etməli olduğun addımdır! Komsomolçu – nə rütbə, nə adsan, nə də gözəl qırmızı bilet demək deyil, bu həyat mövqeyidir! Məni başa düşdün?

- Başa düşdüm…

- Təxirə salmağı təklif edirəm. Qoy cavan oğlan öz addımını yaxşı-yaxşı ölçüb-biçsin, hazırlaşsın! – Üçüncü katib öz direktivini bəyan etdi, yəqin, fikirləşirdi ki, onsuz da bu gün komsomola çox adam qəbul ediblər.

- Dayanın! – Butenin onun sözünü kəsib, üzünü rəngi ağarmış oğlana tutdu. – Sən komsomolçu olmaq istəyirsən?

- İstəyirəm… - göz yaşlarını güclə saxlayan oğlan cavab verdi.

- Sən komsomolun III qurultayında Leninin söylədiyi nitqi oxumusan?..

- Oxumuşam! – Oğlan canlandı və əlavə sual gözləmədən nitqin məzmununu danışmağa başladı.

- Bəsdir… Yaxşı! – Butenin onu yarıda saxladı. – Normal oxuyur, ictimai fəallıq göstərir, sənədləri bilir… Bir sözlə, hesab edirəm ki, onu təsdiqləmək olar…

- Mən qəti əleyhinəyəm! – Şnurkova barışmaz tonda bildirdi. – Bu formalizmdir! Lenin Gənclər İttifaqının vəzifələri haqqında danışarkən, məhz əzbərçilikdən uzaq durmağı tövsiyə edirdi! Əgər adam komsomola nə üçün gəldiyini bilmirsə, yaxşı yaddaş əqidəni əvəz edə bilməz. Mən əleyhinəyəm!

Hamının nəzərləri Şumilinə dikildi.

O, stolun üstündən bir sancaq götürüb onu metal kirpini xatırladan, ucu uzunsov dəftərxana tikanları ilə örtülmüş maq-

nitə yaxınlaşdırdı. Sancaq onun əlindən sürüşüb, digərlərinin arasına sancıldı. İlk anlarda o, həmin sancağı digərlərindən ayıra bilirdi, amma sonra həmişəlik gözdən itirdi.

Şumilin fikirləşirdi ki, Semyonov həyəcandan donuxub. Baxmyaraq ki, o artıq komsomol sıralarına qəbul olunmuş yaşıdlarından pis hazırlaşmamışdı. Amma digər tərəfdən, komsomola nə üçün gəldiyini bilməyən adamı necə qəbul etmək olar? Bu, Şnurkova da bir tərəfdən… Aktivə Kononenkonu yox, onu göndərmək lazımdır. Üçüncü katiblə bəxti gətirməyib: bir şey olan kimi Yeni evə qaçır! Yaxşı, neynək, oğlanı bir aydan sonra qəbul edərik, qoy, bu ona dərs olsun: kişi özünü ələ almağı bacarmalıdır.

- Səsə qoyaq. Təxirə salmağın lehinə olanlar… - O öz əlini də qaldırdı.

Butenin əleyhinə səs verdi. Poluboyarinov bitərəf qaldı.

- Yura, biz sənin komsomola qəbul olunmağınla bağlı toplantının qərarını bu gün təsdiqləyə bilmərik, - birinci katib atayana izah etdi. – Ancaq sən məyus olma: biz həmişəlik imtina etmirik, bir aydan sonra səni büroda gözləyirik. Hələlik, gedə bilərsən…

Sanki sinif otağından qovulmuş Semyonov zalı tərk etdikdən sonra Şumilin ayağa qalxıb, uşaqları komsomola qəbul olunmaları münasibətilə təbrik etdi, işlərində, təhsildə uğurlar arzuladı və tövsiyə etdi ki, şanlı Krasnoproletarski rayonunda komsomolçu olduqlarını unutmasınlar. Sonra adi qaydada sənədlərin nə vaxt hazır olacağını bildirdi və Spiridontsevadan ayaq saxlamasını xahiş etdi.

- Bu necə hazırlıq aparmaqdır?! – O, hirslə başını aşağı dikmiş Lenoçkadan soruşdu. – Anketlər – mən bunu sonradan gördüm – sanki bir-birindən köçürülüb. Əgər başqaları da

komsomola nə üçün gəldiklərini bilmirlərsə, onda bütün komitənin işi bir qara qəpiyə dəyməz!

Fərasətli Spiridontseva çoxdan əxz etmişdi ki, itaətli susqunluq – rəhbərliklə çəkişmə zamanı ən əsaslı dəlildir.

Yorulub-usanmaq bilməyən Şnurkova yenə səsini ucaltdı:

- Təklif edirəm ki, qəbul məsələsinə formal yanaşdığı üçün 385-ci məktəbin komsomol komitəsinə ciddi xəbərdarlıq edilsin. İki aydan sonra alınmış tədbirlər barədə hesabat dinlənilsin… İrina Semyonovna ilə isə ayrıca danışacağam!

Uzun sürən qəbuldan sonra büronun qadın üzvləri və kişilərdən bəziləri fasilə verməyi xahiş etdilər. Adətən siqaret tüstülətmək üçün toplaşdıqları ikinci katibin kabinetinin yanından ötərkən Şumilin gördü ki, qaşqabaqlı Lenoçka Spiridontseva sifəti avazımış Semyonovu divara dirəyib, üzünə nəsə fısıldayır.

Tüstüdən göz-gözü görməyən otaqda bərkdən mübahisə edirdilər.

- Bu nə deməkdir?! – Butenin özündən çıxmışdı. – Sözün düzünü dedi deyə oğlanı komsomola götürmədik. Belə çıxır ki, biz özümüz konveyer üsulu ilə işləyirik, amma uşaqlardan fərdi münasibət tələb edirik?

- Mən ona belə sual vermədim, - Şnurkova sakitcə etiraz etdi.

- Mən sənə başqa şey barədə danışıram. İstənilən sualı vermək olar. Bir sözlə, biz oğlanı bir aydan sonra qəbul edəcəyik, amma onu yadında saxlayacaq ki, doğrunu söyləmək ziyanlıdır. Elədir?!

- Yadında saxlayacaq ki, çapovulçu olmaq lazım deyil! – Üçüncü katib son sözünü dedi və filtrinə kimi çəkilmiş siqareti külqabına basıb söndürdü.

- Əzbərçi sən özünsən! – Butenin qəzəbləndi. – Bu, oğlancığaz üçün faciədir, o sadəcə karıxmışdı…

- Komsomola nə üçün gəldiyini bilən adam karıxmaz. İdeya hazırlığı olmayan gəncləri komsomola qəbul etmək haqqını bizə heç kəs verməyib. Komsomola təsadüfi adamlar lazım deyil, sən özün də həmişə bunu deyirsən axı!

- A-a-a… Sənlə danışmaq mümkün deyil!

- Yaxşı ki, nəhayət, bunu başa düşdün…

O gün Şumilin evə tamamilə pəjmürdə halda gəldi, adi qaydada Qalya ilə mübahisə edib, ədalətsiz hərəkət etmiş adam kimi yatağına girdi. Sabahısı günü o, dünənki cəfəng hadisəni Kononenkoya danışdı. Hadisəni eşidən kimi kefi pozulan Kononenko Şnurkovanı da, birinci katibi də yamanladı.

- Başa düş, düz eləməmisiniz, - o təkrar edirdi. – Butenin tamamilə haqlıdır, biz bu oğlanın içinə gec açılan bomba yerləşdirmişik! Qoy mən məktəbə zəng vurum…

- Lazım deyil, Şnurkova artıq zəng vurub – direktora ürək dərmanı içirtməli olublar. Semyonovu bir aydan sonra qəbul edərik, hər şey yoluna düşər.

- Yaxşı, özün bax da…

Şumilin bu hadisəni uzun müddət unuda bilmədi, yalnız üç aydan sonra Spiridontseva görülən tədbirlər barədə məlumat verərkən, Semyonovu soruşdu, maraqlandı ki, onu niyə büroya gətirmirlər?

- Gəlmək istəmir! – Lenoçka incik səslə dedi. – Ümumiyyətlə, o, son vaxtlar dəyişilib, özünü pis aparır. Valideynlərini vaxtaşırı məktəbə çağırırlar…

- Komsomolda olmayan gənclərlə də işləmək lazımdır, - birinci katib qaşqabağını tökdü.

- Biz işləyirik!

- Belə işləyirsiniz?.. – Şumilinin sifəti sərtləşdi, ancaq elə bu vaxt ona şəhər komitəsindən zəng vurdular və o, rayon komsomolu və pionerinin genişlənən tarix muzeyi üçün hazırlanan stendlərə görə kiminləsə ağızlaşmağa başladı.

Sonra hər şey yaddan çıxdı. Lazımsız telefon nömrəsi və ya təsadüfi tanışının adı kimi. Üstündən iki il keçdi. Ancaq indi xatırlamağa başladı…

- Mixail Vladimiroviç! – Şumilin dedi. – Mən bu cavan oğlanla təkbətək danışmaq istərdim. Bağışlayın.

Müfəttiş çiyinlərini çəkib, gözlərilə serjanta işarə verdi və onlar çıxdılar.

- Deməli, şəxsi işinlə bağlı gəlmişdin? – Birinci katib qapı örtüldükdən sonra soruşdu.

- Gəlmişdim.

- Bəs niyə sonra gəlmədin? Küsmüşdün?

- Mənə hədiyyə lazım deyil, - birinci katibin onu xatırladığına təəccüblənən oğlan cavab verdi.

- Küsmüsən, incimisən! Amma öz həyatını korlamısan. Bax, belə! Hə, Yura, Yura, sən nə iş tutduğunun fərqində deyilsən!

Birinci katib bu yaxınlarda televizorda göstərilən filmdəki obraz kimi özünü müdrik və xeyirxah adam hiss etdi. Filmdə cərəyan edən hadisələrə görə Semyonov indi balaca uşaq kimi göz yaşlarına qərq olmalı idi.

Və o ağladı. Ancaq uşaq kimi burnunu çəkə-çəkə yox, kişi kimi, gözündən yaş çıxarmadan, dodağını dişləyərək, bədəni əsə-əsə.

- Sakit ol! – Şumilin ciddi səslə dedi və yenə də filmdəki kimi oğlana su süzdü. – Özünü qaydaya sal. İndi qayıdıram…

O, iclas zalına gəlib, onu səbirsizliklə gözləyən müfəttişin yanında əyləşdi.

- Ona nə qədər iş düşür?

- Nə bilim, buna məhkəmə qərar verəcək, - Mansurov təəccüblə cavab verdi.

- Təcrübəli adamsınız, təxmini deyin…

- Yüngülləşdirici hallar yoxdur. Onu əvvəlcə yeniyetmələr üçün kolona göndəcəklər, bəlkə də, böyüklərlə bir yerdə oturmalı olacaq. Siz ona zamin durmaq istəyirsiniz?

- Yox… Bilmirəm… Sağ olun. Onu apara bilərsiniz.

Şumilin kapitanın Semyonovu aparmasını gözlədi, öz otağına qayıdıb, nədənsə yenidən Tanyaya zəng vurmaq istədi, ancaq dəstəyi qulağına tutmuş vəziyyətdə fikrə getdi. Qərar vermək lazım idi.

…Tutalım… Bu böyük oğlanın həminki karıxmış uşaq olduğunu bilsələr, yaxud 385 saylı məktəbin şagirdi Semyonovla bağlı o çoxdankı hadisəni xatırlasalar (əlbəttə, bu Kovalevskinin və Okolotkovun yanında olsa, heç də yaxşı olmaz) belə, dəhşətli heç nə baş verməyəcək. İşləri Şnurkova qarışdırıb, büro isə onu dəstəkləyib. Odur ki, ən pis halda raykom məktəblə birgə nəzərdən qaçırılmış uşağa görə məsuliyyəti bölüşməli olacaq. Şəxsən birinci katibi uca səslə heç kəs ittiham etməyəcək! Heç kəs, bir nəfərdən başqa…

Alloçka qapıdan içəri boylandı:

- Nikolay Petroviç, büro üzvləri toplaşıblar.

- Qoy yerlərinə əyləşsinlər. İndi gəlirəm.

…Belə… Heç kəs, birinci katibin özündən savayı. Axı o, başqalarının taleyini öz karyera yüksəlişinə qurban verməyə öyrəşməyib. Deyəsən, bunu dünən Tanyaya da demişdi. Öyrəşməyib… Elə isə…

Buxar çəkici kimi enerjili Çesnokov yel kimi kabinetə soxuldu:

- Komandir! Kovalevski ilə Okolotkov…

- Gəliblər?! – Şumilin dəstəyi atıb, yerindən dik atıldı.

- Girişdədirlər, bir-birini irəli buraxmağa çalışırlar. Bu gün onlarla mənim məsələmi danışsan, hər şey həll olunacaq.

- Sən çox əl-ayağa düşürsən.

- Neyləyim, atam rəis-filan da deyil ki, o hökumət telefonuyla mənim işimi həll edərkən təvazökarlıqdan özümə yer tapmayam!

Çıxışa doğru tələsən Şumilin ona etiraz etmək istədi, ancaq bu vaxt birbaşa telefonun zəngi səsləndi və dərhal geri qayıtmalı oldu.

Qalya zəng vurmuşdu. O heç nə olmamış kimi, yumşaq, mehriban səslə Lizkanı qayınanasının evindən götürüb «evimizə» gətirməyi və axşam vaxt eləyib görüşüb-danışmağı xahiş edirdi…

Birinci katib hadisələrin belə şəkil alacağını gözləmirdi.

- Allo, niyə susursan? – arvadı həyəcanla soruşdu.

- Gözlə, - o cavab verib, dəstəyi ovcuyla örtdü: Kovalevski və Okolotkov hay-küylə içəri girdilər.

- Hə, qardaşlar, işdən başınız açılmır! – Vladimir Sergeyeviç gülümsədi. – Şəhər rəhbərliyini qarşılamağa da vaxt tapmırsınız.

- Eybi yoxdur, bu yaşla bağlı xəstəlikdir, keçib gedər! – Okolotkov da zarafata qoşuldu.

- Komandir! – Çesnokov yalvarışlı səslə pıçıldadı.

- Allo, Kolya, niyə susursan?! – Dəstəyi bərk-bərk sıxan Şumilin Qalyanın səsini ovcunda duyurdu.

O, gələnləri qarşılamaq üçün stolun arxasından çıxanda, birdən-birə ətrafında daşlaşmış və yana əyilmiş dalğaların olduğunu gördü. Başı üstündə buludsuz, zülmətə qərq olmuş səmanın fonunda al-qırmızı haşiyəli yaşıl günəş parlayırdı. Və o bir anlıq hiss etdi ki, artıq üzməyi bacarmır…

Tərcümə edən: Etimad Başkeçid

Vladimir Voynoviç

(böyüklər üçün nağıllar)

Axmaq Qalileyin nağılı

Biri vardı, biri yoxdu, hansısa bir səltənətdə, hansısa bir dövlətdə, Yer adlandığını ehtimal etdiyimiz bir planetdə, deyək ki, Qaliley adında ümidverici və olduqca ağıllı bir gənc yaşayırdı. Bu başdan deyim ki, bizim Qaliley nağıl qəhrəmanıdır və onun tərcümeyi-halı tarixi Qalileylə heç də üst-üstə düşmür. Hərçənd nədəsə bir uyğunluq görünür. Əfsanəvi Qaliley insanların nəfəs dərmədən işlədikləri bir dövlətdə yaşayırdı; onlar taxıl əkir, dəmir əridir, kömür çıxarır, mahnı oxuyur və mitinqlərdə çıxış edirdilər. Lakin o, mahnı oxumur, özünü işə vermir, mitinqlərdən yayınır, buna dövlət mənafeyindən baxanda, bir sözlə, tam cəfəng işlərlə məşğuldu. Cəfəng adlandırdığımız məşğuliyyət ondan ibarət idi ki, Qaliley ər-arvad öhdəliklərinə də məhəl qoymadan gecələri öz rəsədxanasında keçirir və göz qırpmadan teleskop deyilən bir boru vasitəsilə ulduzlara baxırdı. Özü də sadəcə gözlərini bərəldib baxmırdı: dünyanı təəccübləndirmək və onun köməyi olmadan digərlərinin ağlına gələ bilməyəcək şeylər barədə bir nəticə əldə etmək xəyalındaydı.

Axır ki bir nəticəyə gəldi də!

Və səhər tezdən arvadının yanına qaçdı. O isə indicə səhər yeməyindən qalxıb paltar yumağa başlamışdı.

- Dinlə məni, əzizim, - deyə alim evin astanasından qışqırdı: – Sən bilirsən mən nə qədər ağıllıyam? Bilirsən nə boyda kəşf eləmişəm? Yox, bilmirsən, hətta təsəvvür də edə bilməzsən! Mən elə bir kəşf eləmişəm ki, onu heç Ptolemey də bacarmazdı! Mən kəşf elədim ki, bizim bu Yer girdədir və fırlanır, özü də çox maraqlı fırlanır. Öz oxu ətrafında fırlanır və eyni zamanda Günəş ətrafında fırlanır!

Əlbəttə, Qaliley düşünürdü ki, bunu eşidib arvadı onun boynuna sarılacaq ki, sən mənim ağıllımmışsan, dahimmişsən, dahim, belə bir kəşf eləmisən! Deyəcək ki, mən sənin azca maaşına boş yerə qane olmamışam və gecələri tək-tənha keçirməmişəm. Amma bizim bu yazıq Qaliley bunların heç birini eşitmədi. Arvad onun boynuna atılmaq və bu cür sözlər demək əvəzinə, yaş alt tumanları kişinin yekə sifətinə çırpdı: "Sənin, guya ki, Yerin fırlanması və sair cəfəngiyyatla beynimi doldurmağin bəs edər? Axı mən bilirəm ki, sən orada gözlərini bərəldib ulduzlara yox, aspirantın Cülyettaya baxırsan".

Bax gör qadınlar necə olurlar. Onlarçün nə kəşf edirsən elə, yenə öz bildiklərini deyəcəklər. Əgər Qalileyin arvadı anlasaydı ki, o, həqiqətən də, böyük bir kəşf edib, ola bilsin ki, bunu ona deyəndən sonra o daha heç yerdə boş-boğazlıq eləməzdi. Burada isə onun kefi pozuldu və aydın məsələdir ki, trattoriyaya[1] yollandı. Necə deyərlər, orada içib bütün trattoriyaya car çəkdi ki, gör o necə ağıllıdır ki, Yerin girdə olduğunu və öz oxu ətrafında fırlandığını, bizim özümüzün də onun üzərində karuseldəki kimi fırlandığımızı və hansısa naməlum fəzaya uçduğumuzu kəşf edib. Trattoriyada isə hər cür adam var idi; kimisi Qalileyin sözlərini qulaqardına vurdu, kimisi

1 Qərbi Avropada restoran, meyxana.

məsxərəyə qoydu ki, bir bax gör insan burnunu haralara soxur ki, belə axmaq şeylər danışır. Təbii ki, orada da çərənçinin biri tapıldı və astronavtın sözünü əlində bayraq eləyib, o vaxtlar deyildiyi kimi, onu Müqəddəs İnkvizisiyaya satmış oldu. Aydın məsələdir ki, İnkvizisiyada belə bir ciddi siqnalı diqqətdən kənarda qoya bilməzdilər və buna görə də alimimiz şeyləri ilə birgə harasa və ordandan daha harasa gəlmək barədə çağırış vərəqi aldı. Yox-yox, yalan dedim, birinci dəfə şeylərsiz çağırdılar. Bizə məlum olan budur ki, İnkvizisiyada tarixi Qalileyə bəzi cəza alətlərini göstərdikdən sonra o deyib ki, Yer fırlanmır, oradan çıxandan sonra isə verdiyi ifadələri dəyişib və deyib ki, yox, fırlanır. Amma mən tarix yox, nağıl yazıram, mənim nağılımda hər şey bambaşqa cürdü. Mənim nağılımda bu cür işgəncə alətləri yoxdur. Lakin Baş İnkvizitor var, nəzakətli və müasir bir adam. Budur, astronavtımız bu adamın yanına təşrif buyurur, o da öz kabinetində onu qarşılayır, ağuşuna alır və əlini onun kürəyinə vurur:

- Salam, - deyir, - Qaliley Qalileyeviç, sizi görməyimə hədsiz dərəcədə şadam! Sağlamlığınız necədir, arvad-uşaq necə, hamısı yaxşıdırmı? Sizi görməyimə necə də şadam, kofe istəmirsiniz ki?

Ona kofe gətirdilər.

- Buyurun, qonaq olun, süd, qənd, pryanik götürün, - İnkvizitor deyir, - hə, Qaliley Qalileyeviç sizi tam mənasız bir işlə bağlı dəvət etmişəm, indi hər şeyi aydınlaşdırarıq və çıxıb gedərik – mən öz evimə, siz də öz evinizə.

- Axı məsələnin məğzi nədir? – Qaliley soruşur.

- Belə götürəndə, elə bir şey yoxdur, sadəcə bizim kontora zəhmətkeşlərdən siqnallar daxil olub ki, guya siz tam bizə yad olan, belə bir psevdoelmi və bütün münasibətlərdə zərərli nəzəriyyəni təbliğ edirsiniz ki, guya Yer girdədir, futbol topuna

bənzəyir və sanki hətta fırlanır da. Əlbəttə, mən buna zərrəcə də inanmıram, amma siqnallar gəlməkdə davam edir və biz də onlara reaksiya verməyə məcburuq.

- Axı burada inanıb-inanmayası bir şey yoxdur, - Qaliley ona cavab verir, - məsələ ondadır ki, Yer, doğrudan da, girdədir və doğrudan da fırlanır. Özü də, necə deyərlər, iki cür fırlanır: öz ətrafında və həm də Günəş ətrafında.

Beləcə maraqla izah etməyə başladı ki, gecə və gündüzün bir-birini əvəzləməsi necə baş verir və ilin fəsilləri də nə üçün dəyişir.

Yoldaş Baş İnkvizitor cənabsa beləcə onu nəzakətlə dinləyir və gülümsünür. Sonra isə:

- Qaliley Qalileyeviç, - deyə soruşur, - siz özünüzü çoxdanmı psixiatra göstərməmisiniz?

- Bagışlayın, anlamadım, - astronom deyir.

- Bir dinləyin görüm, necə ola bilər ki, o, girdə olsun və fırlansın. Bir özünüz düşünün, əgər o, girdə olsaydı və fırlansaydı, onda biz hamımız mütləq oradan yıxılar və kəlləmayallaq olub, allah bilir, haralara yuvarlanardıq.

Təbii ki, Qaliley ona maqnetizm və ümumdünya cazibəsi barədə nələrsə deməyə başladı, lakin İnkvizitor əlini yelləməklə kifayətləndi.

- Yaxşı, - dedi, - gedin, azca düşünün, məsələni arvadınızla ciddi müzakirə edin və sözgəlişi onunla məsləhətləşin. O, ağlı başında qadındır, Yerin fırlanıb-fırlanmamasını sizə izah edər.

Beləcə Qaliley evə, arvadının yanına getdi. O da bu vaxt lif süpürgə ilə döşəməni silirdi.

- Hə, necədi, yenə ulduzlara baxırdınmı, yenə kəşflər edirdinmi? – deyib, əlbəttə, lif süpürgəni düz başının ortasına çırpdı.

Qaliley incik düşdü. Və arvadına bildirdi ki, bu dəfə rəsədxanada yox, İnkvizisiyada olub, orada ona deyiblər ki, evə getsin və arvadı ilə məsləhətləşsin.

"İnkvizisiya" kəlməsini eşidəndə arvad ilk dəfə anladı ki, iş ciddidir, hətta ərinin aspirant qızın dalınca düşməsindən də ciddi. Elə bu məqamdan da ərinin kəşfi ilə ciddi maraqlandı. Və onu ətraflı sorğu-suala tutdu ki, belə bir cəfəng şey onun ağlına hardan gələ bilərdi. O, arvadına ətraflı izahat verməyə başladı.

- Hə, yaxşı, təsəvvür edək ki, sən elə düz deyirsən və həqiqətən də, Yer fırlanır. Axı bundan sənə nə fayda, hə? – arvadı dedi.

- Məsələ faydada deyil, - Qaliley ona izah etdi, - ondadır ki, bu, elmi həqiqətdir. Mənsə, bir alim kimi bu həqiqəti inkar edə bilmərəm.

Arvad baxdı ki, iş zarafatdan keçib. Dalaşmaq fikrindən vaz keçib onu dilə tutmağa başladı. Axı başağrısı gətirən kəşfləri eləməyin nə mənası var? Qoy o nə qədər istəyir fırlansın, sənsə sus dur, o öz oxu ətrafında fırlanmağa davam edəcək və nə qədər fırlansa da, kvadrat forması almayacaq.

Bu yerdə hirs Qalileyin beyninə vurdu, özünü məğrur tutub, prinsiplərinə və əqidəsinə sadiqliyi, alim vicdanı, gələcək nəsillər qarşısında cavabdehliyi barədə və bu ruhda digər ağzına gələn yüksək sözlər söyləməyə başladı.

Arvadı da öz növbəsində ona çox sözlər dedi. Elə də, belə də dilə tutdu. Hətta aspirant qızı da bağışlayacağına və aralarındakı eşq macəralarına göz yumacağına söz verdi. Həbs edilməklə hədələdi. Xahiş etdi ki, cavan arvadına yazığı gəlsin. Balaca balalarının canına and verdi. Qalileysə qoyun kimi ayaqlarını yerə dirəyib durmuşdu, heç güzəştə getmək istəmirdi.

Müəyyən bir vaxt keçdi. Yer öz oxu və Günəş ətrafında fırlanır, gecə gündüzü, qış yayı əvəz edir, zaman keçirdi. Ailədəki münasibətlərsə günü-gündən pisləşirdi. Əgər tək ailədəki olsaydı, nə dərd! Qaliley yavaş-yavaş hiss etməyə başladı ki, işdə rəhbərliyin ona münasibəti getdikcə pisləşir, pilləkəndə qonşular salam vermirlər, təsadüfən qarşı-qarşıya gələndə isə küçənin o tərəfinə keçirlər. Aspirant Cülyetta isə dissertasiyasının mövzusunu, həm də elmi rəhbərini dəyişdi. Başının üstünü qara buludlar alsa da, nəsə eləmək Qalileyin əlindən gəlmirdi.

Budur, Qalileyin şəxsi işini araşdırmaq məqsədilə onu Baş Astronomiya İdarəsinə dəvət edirlər. Qeyd etmək lazımdır ki, məsələnin araşdırılması üçün o vaxtkı elmin başbilənləri toplaşmışdılar. Qısa giriş sözü ilə Baş Astronom çıxış etdi: "Məsələ belədir, yoldaş cənablar, bir neçə müddətdir ki, bizim bu sağlam kollektivdə qeyri-sağlam hadisələr müşahidə edilməkdədir. Əməkdaşımız cənab Qaliley öz ətrafında ağlına gələn yalanlar yayır ki, bizim yaşadığımız və işlədiyimiz bu Yer fəzada ox ətrafında fırlanan hansısa şardan savayı bir şey deyil. Mən elm xadimlərimizdən xahiş edərdim ki, bu məsələyə münasibət bildirsinlər".

Budur, alimlər bir-birinin dalınca mikrofona yaxınlaşmağa başladılar. Sonradan protokolda qeyd olunduğu kimi, onlar ehtiras və prinsipiallıqla çıxış edərək, yolunu azmış həmkarlarının taleyi barədə həssaslıq və qayğıkeşlik nümayiş etdirdilər.

Çıxışçılardan biri Ptolomey təliminin əsas prinsiplərinin sarsılmazlığı barədə uzun-uzadı danışdı. Digər birisi beynəlxalq vəziyyəti işıqlandırıb bildirdi ki, bu, o qədər gərgindir ki, bizim sarsılmaz elmi prinsiplərimizdən geri çəkilməyimiz düşmən dəyirmanına su tökmək və müharibə təhlükəsini artırmaq kimi dəyərləndirilməlidir. Ümumi diskussiyada Cülyetta da iştirak etdi. O, iclasdakıların diqqətini gənclər arasında əxlaqın

çökməsinə səbəb olan ideoloji tərəddüdlər, pasifizm, alkoqolizm, narkomaniya, xaricə sitayiş kimi məsələlərə yönəltdi və bütün bunların sonda nikahdankənar cinsi əlaqələrə, ailənin dağılmasına və doğumun azalmasına gətirdiyini söylədi. Qalileyin nəzəriyyəsi kimi yetişməmiş nəzəriyyələrin ortaya çıxmasını Cülyetta belə bir vəziyyətin yaranmasına səbəb hesab edirdi.

- Əgər Yer girdədirsə, - Cülyetta dedi, - əgər o fırlanırsa, deməli, hər şeyə izn verilir, deməli, ayağımız altdakı möhkəm özüldən məhrum olmuşuq, deməli, içmək, siqaret çəkmək, öldürülmək, oğurluq etmək, öldürmək, zina etmək olar.

Daha bir alim xatırlatdı ki, dövlət həmən bu Qalileyi uşaq vaxtından böyüdüb, yedizdirib, geyindirib-keçindirib və oxutdurub. Lakin göz qabağındadır ki, onda heç bir minnətdarlıq duyğusu yoxdur, əksinə, şeytan tərəfindən azdırılan və xaricdəki həmfikirləri tərəfindən qızışdırılan Qaliley kollektivdən çox uzaq düşərək yoldaşlarının fikrinə qulaq asmır, təkəbbürlük və lovğalıq əlamətlərini biruzə verir və ümumiyyətlə, özünü ağıllı sayır.

Daha bir astronom Qalileylə bağlı fikrini olduqca qısa ifadə etdi.

- Alimlər icazə versəydilər, necə deyərlər, şəxsən mən belələrini güllələyərdim, - deyib alqış sədaları altında tribunadan endi.

Sonra yenə Baş Astronom çıxış etdi:

- Bax belə, - dedi, - şadam ki, bu cür canlı iclasımız baş tutdu. Çıxış edənlər həyəcan və maraqla danışırdılar, onlar hər vəchlə çalışırdılar ki, Qalileyə özünün səhvləri və yanlış fikirlərini dərk etməkdə kömək göstərsinlər. Vətəndaş Qaliley, tribunaya qalxın, qeyrətə gəlin, səhvlərinizi boynunuza alın və biz də yavaş-yavaş bütün olanları sizə bağışlayaq.

Qaliley tribunaya qalxdı, lakin özündə cəsarət tapa bilmədi. Əvvəlcə məsuliyyətdən qaçmaqdan ötrü o, nəsə nəm-nüm elədi ki, guya Yerin fırlanmağını düşmənçilik niyyətiylə deyil, elmə sadiqliyindən söyləyibmiş. Sonra isə tamam ağını çıxartdı, gülümsündü və dedi:

- Siz burada nə deyirsiniz deyin və nə istəyirsiniz edin, o, hər halda fırlanır!

Təbii ki, bundan sonra hamının səbr kasası daşdı. Astronomiya İdarəsininin ümumi iclasının qərarı ilə Qaliley işdən xaric olundu və yenə də Müqəddəs İnkvizisiya işə qarışdı. Yer o biri üzüylə Günəş tərəfə dönəndə, bu üzündə gecə düşdü; Qalileyin dalınca "qara qarğa" adlanan fayton gəldi və onu çox-çox uzaqlara apardı.

Budur, o, zindanda oturub. Yer əvvəlki qaydasında fırlanmaqdadır. Və onun səthində olan hər şey: çöllər, ağaclar, inəklər, zindanlar – bütün bunlar hamısı fırlanır. Gündə bir dəfə Yerin oxu, ildə bir dəfə isə Günəş ətrafında. Zindanla birgə fırlandıqca Qaliley tədricən qocaldı, bu müddət ərzində arvadı başqasına ərə getdi, uşaqları isə karyeralarını korlamamaq üçün soyadını dəyişdilər.

Qaliley isə oturmuşdu, düşünür və özüylə fəxr edirdi.

- Heç eybi yox, - öz-özünə deyirdi, - eybi yoxdur, qocaldım, eybi yox, arvad atdı, uşaqlar imtina etdilər, eybi yox, zindandayam. Əvəzində öz prinsiplərimə sadiq qaldım, Yersə necə fırlanırdısa, yenə də eləcə fırlanır, gec-tez hamı mənim ağıllı olduğumu etiraf edəcək.

Və bütün böyük alimlər kimi bizim Qaliley sonda düz çıxdı. Yerin və saat mexanizmlərinin usanmaq bilmədən fırlanması nəticəsində, nəhayət ki, həmən o xəyali zaman gəlib yetişdi və orada deyildiyi kimi, hökumətin müdrik, cəsarətli və vaxtında qəbul edilmiş qərarı ilə etiraf edildi ki, Yer girdədir,

öz oxu və Günəş ətrafında fırlanır. Bu qərarla əlaqədar bizim əfsanəvi astronom qocalığına görə əfv olundu və pensiyasız azadlığa buraxıldı.

Və budur, o, zindanın qapısından bayıra çıxdı, əşyalarını götürüb küçəylə getdi. Əlində təptəzə qlobus tutmuş bir oğlan uşağı ilə qarşılaşdı. Oğlan gedə-gedə qlobusu fırladır və mahnı oxuyur: "Sanki mavi şar kimi diyirlənir, fırlanır qlobus".

Qlobusu görən Qalileyi təəccüb bürüdü, oğlanı saxlayıb əlindəkinin nə olduğunu soruşdu. Oğlan həvəslə izah etdi ki, bu, qlobusdur, Yerin şar formasında maketi deyilən bir şeydir, beləcə, bax beləcə fırlanır.

- Aha! – deyə Qaliley bərk sevindi. – Deməli, girdədir və fırlanır? Cavan oğlan, sızə məlumdur bunu birinci olaraq kim deyib?

- Əlbəttə, məlumdur, - oğlan söylədi. – Hamı bilir ki, bunu ilk olaraq Qaliley deyib.

- Qaliley? – deyə həyəcanlanmış alim yenidən soruşdu. – Görünür, bu Qaliley ağıllı adam olub, hə?

- Qalileymi? Zarafatmı edirsiniz? Bizdə ona mahnı da qoşulub: bu dünyada Qaliley deyilən birisi vardı: münəccim və sarsaq.

- Bu nə axmaq mahnıdır! – astronom qışqırdı. – Əgər Qaliley ilk dəfə Yerin girdə olduğunu və fırlandığını deyibsə, onu necə sarsaq adlandırmaq olar?

- Elə ona görə də sarsaqdır, - deyə oğlan izah etdi. Birinci kim deyirsə, ağıllı o deyil. Ağıllı o kəsdir ki, vaxtında deyir.

Bunu deyən oğlan qlobusu fırlada-fırlada Qalileydən uzaqlaşdı. O isə oğlanın arxasınca baxdı və ağladı. Düşündü ki, həyatını boş-boşuna sərf edib. Çünki əvvəllər insanların bilmədikləri çox şeyi kəşf etsə də, çoxlarının uşaqlıqda dərk etdikləri şeyləri o yalnız həyatının sonunda anlamışdı.

Narazı adamın nağılı

Biri vardı, biri yoxdu, burda bir adam vardı və həmişə hər şeydən narazıydı. Qar yağır, xoşuna gəlmir – soyuqdur. Günəş parıldayır – narazıdır ki, istidir. Yağış tökür, hər yer onunçun yaşdır.

Bax beləcə vasvası adamdı. Təkcə hava söhbəti olsaydı, nə dərd. Yox, yox, həyatın digər cəhətləri də onun xoşuna gəlmirdi. Nəsə acıdır, nəsə turs, gah sərtdir, gah darısqal, arvaddan narazıdır, uşaqlardan narazı, hətta özündən də narazı. Əlbəttə, biz humanizm, anlama və səbr nümayiş etdirdik. Biz onu dəvət edir, onunla yaxşıca söhbətlər aparırdıq, ümid edirdik ki, o, hər şeyi anlayıb başa düşəcək. Biz ona deyirdik: "sənə eyib deyilmi?! Lap elə götürək ki, bizdə iqlim sən istədiyin kimi deyil, arvadın pintidir, oğlun ikiylə oxuyur, özününsə qara ciyərin xəstədir, amma sən bir ətrafa nəzər sal, gör nə qədər yaxşı işlər baş verir. Gör həyat necə təzə don geyir, nə gözəl zavodlar, elektrik stansiyaları və sair şeylər tikilir". Bütün bunlar barəsində onunla danışdıq, – zərrəcə faydası olmadı. Yenə hər şeydən narazıdır, verdiyimiz yoldaş məsləhətini də qulaqardına vurur, dikbaşlıq edir, kollektivə qarşı etimadsızlıq göstərir, düzəlmək niyyəti yoxdur. Daha sərt tədbirlərə əl atmaq lazım gəldi. Həbs etdilər, məhkəməsi oldu, ona güllələnmə kəsildi.

Əlbəttə, həbs və hökmlərlə bağlı biz vaxtiykən bir sıra ifratçılıqlara, əyinti və pozuntulara yol vermişik. Sonradan vicdan və cəsarətlə bunu boynumuza da almışıq. Və normalara qayıtmışıq. Bu barədə danışmaq yetər. Həm də bu narazını güllələmədik, vaxt çatmadı. Və hətta əksinə, normalara qayıdan dövrdə biz onun işinə yenidən baxdıq, cəhətləri ölçüb biç-

dik, avamlığını, axmaqlığını, siyası cəhəhdən kallığını nəzərə aldıq və humanist duyğulara əsaslanaraq, güllələnməni həbs düşərgəsi ilə əvəz etdik. Onu meşəqırılan yerə şalban mişarlamağa göndərdik.

Adama elə gəlirdi ki, bu insan sevinməli, minnətdarlıq duyğusu göstərib bizim humanist hərəkətimizi qiymətləndirməlidir. O isə yenə narazıdır. Deyir, havalar sərtdir, həbs müddəti böyükdür, şalbanlar yoğun, mişar küt, lehimlənmə isə nazikdir.

Biz yenə anlama, səbr, humanizm göstərdik. Havanı yaxşılaşdırmadıq, ancaq müddəti azaltdıq, şalban normasını aşağı saldıq, lehimlənməni də artırdıq. O isə elə hey narazıdır.

Normalara ikinci dönüş dövründə həbs düşərgəsi onunçün sürgünlə əvəzləndi. Meşə qırmaqdan taxta-şalban mişarlayan maşına keçirdilər. Adama elə gəlirdi ki, hər şey yaxşı oldu. Nə hasarlar vardı, nə mühafizəçilər, nə də itlər. İş yalnız ondan ibarət idi ki, taxta-şalban mişarlanan yerə dəyib axşamlar milisdə qeyd olunsun və axşam saat səkkizdən sonra heç yerə çıxmasın. Bundan ədalətli münasibət olarmı? Bəs o necə? Necə düşünürsünüz? Yenə narazıdır. İşə getmək istəmir, milisdə qeyd olunmaq çətindir, axşamlarsa evdə oturmaq heç xoşuna gəlmir. Bu cür şıltaqlıqlarına görə onu cəzalandırmaq gərək olduğu halda, biz, özümüzə məxsus insanpərvərlik duyğularından çıxış edib, normalara üçüncü qayıdış prosesində hətta son tədbirə əl atdıq – onu cəzadan tam azad etdik. Kefin harda istəyir, orda da yaşa (aydındır ki, paytaxt şəhərlər, vilayət mərkəzləri, böyük şəhərlər və qəhrəman şəhərlər istisna olunmaqla). İndi o, taxta-şalban materialları anbarında gözətçi işləyir, maaş alır, qazanxananın yanındakı yarızirzəmidə ona otaq veriblər, onda isə yenə heç bir minnətdarlıq hissi yoxdur, əksinə, hər şeydən narazıdır. Bax bu cür çətin, qılıqsız

adamdır. Onunçün nə qədər çalışırsan, çalış, nə qədər yarımaq istəyirsən, yarı – xeyri yoxdu, o, onsuz da narazıdır.

Biz hamıdan yaxşıyıq

Biri vardı, biri yoxdu, bizim yaşadığımız bir səltənət və bir dövlət vardı və biz hamıdan yaxşıydıq. Daha doğrusu, əvvəlcə biz də hamı kimiydik. Axşamlar yatır, səhərlər durur-duq, yazda əkir, payızda yığırdıq, qışı peç üstündə keçirir, uşaq əmələ gətirirdik.

Amma bir dəfə qərara gəldik ki, biz hamıdan yaxşıyıq. Çarı devirib, yerinə sədr qoyduq və bizdə çarlıq yerinə sədrlik oldu. Sədr bizi mitinqə topladı: "Yoldaşlar, - dedi, - bundan belə biz hamıdan yaxşıyıq. Kim lehinədir? Kim əleyhinə? Bitərəf qalan varmı?"

İlk öncə əleyhinə olanlar da tapıldı – aydındır ki, onları sürüyüb apardılar. Təmizləməyə. Sonra bitərəf qalanları apar-dılar. Yeni səsvermə təyin etdilər. Kim onun tərəfdarıdır ki, biz hamıdan yaxşıyıq? Hamımız əl çalmağa başladıq.

- İcazə verin, - sədr söylədi, – sizin bu alqışları əvvəlki alqışların bəyənilməsi kimi qəbul edək.

Onun bu sözlərinə gur alqışlarla cavab verdik.

- İcazə verin, bu gur alqışlarınızı sürəkli alqışların bə-yənilməsi kimi qəbul edək.

Bu yerdə biz, ümumiyyətlə, özümüzü ələ ala bilmədən gurultulu alqışlara qərq olduq.

- Sədrə eşq olsun, yaşasın sədr, hamıdan yaxşı olan bizlərə eşq olsun!

Qışqırır, ağlayır, əl çalırıq, ovcumuzun içini elə bir dəyənəyə döndərmişik ki, istəyirsən mismarı çəkici mıxla. Ancaq mismar vurmağa vaxt yoxdur, bəs iclaslarda nə vaxt oturasan, mitinqlərdə nə vaxt çıxış edəsən, nümayişlərdə nə vaxt əl yelləyəsən.

Burada öhdəliklərimiz barəsində bir neçə söz deməyə ehtiyac var. Əlbəttə, biz onsuz da hamıdan yaxşıydıq, amma yığışıb öz aramızda belə bir öhdəlik götürdük ki, daha da yaxşı olaq. Məsələn, biri deyir: "Öhdəlik götürürəm ki, daha altı faiz yaxşı olum". Alqışlar. Başqa birisi on dörd faiz daha yaxşı olmağa söz verir. Sürəkli alqışlar. Üçüncü deyir: "Mən iki yüz faiz daha yaxşı olmaq öhdəliyini üzərimə götürürəm". Əlbəttə, ona ən sürəkli alqışlar və "ən yaxşıların ən yaxşısı" adı ünvanlandı. Lakin ən yaxşıların yaxşısının yaxşısı yox, çünki bizdə həmişə ən yaxşıların yaxşısı sədrimiz idi.

Ancaq ətrafımızda başqa adamlar da yaşayır. Əvvəllər onlar da bizim kimiydilər, lakin biz hamıdan yaxşı olandan bəri, aydın məsələdir ki, onlar hamıdan pis oldular. Hə, doğrudan, elədir. Əvvəlki qaydada, darıxdırıcı həyat sürürlər. Axşam yatır, səhər dururlar, yazda əkir, payızda biçirlər, qışı peç üstündə keçirir, uşaq əmələ gətirirlər, boş vaxtlarında isə pryanik çeynəyirlər. Bir sözlə, əsl meşşanlıq. Bizsə şən yaşayırıq. İşə dəstəylə gedirik, mahnılar və bayraqlarla. Şüarlar deyirik: yerinə yetirəcəyik, artıqlamasıyla yerinə yetirəcəyik, hətta özümüzdən də yaxşı olacağıq. Planlarımızsa ciddidir, nəhəng planlarımız var. Kanallar qazacağıq, Yer kürəsinin ortasını deşib, kanat yolu vasitəsilə Ayla birləşəcəyik, Buzlu okeanı əridəcək, Antarktidada başdan-başa yulaf əkəcəyik. Bax onda artıq hamıdan o qədər yaxşı olacağıq ki, hətta özümüz belə qorxacağıq.

Daim yaxşılaşmağımıza filosoflarımız, yazıçılarımız, şairlərimiz və bəstəkarlarımız çox kömək edirdilər. Filosoflar hamıdan yaxşı olmanın qabaqcıl nəzəriyyəsini yaratdılar – hamıya gün kimi aydın və anlaşılan bir nəzəriyyə: "Biz hamıdan yaxşıyıq, ona görə ki, biz hamıdan yaxşıyıq!" Yazıçılar adi hər şeydən yaxşının ondan bir az hər şeydən yaxşıya necə qalib gəlməyi, sonra isə daha yaxşıya yol verməsi barədə çoxlu romanlar yazdılar. Şair və bəstəkarların bu mövzuda yazdıqları saysız-hesabsız mahnılar hamıdan yaxşı olmanın əlçatmaz zirvələrini fəth etməyimizə yol açdı. Zirvələri fəth etdik, amma hər halda bütün planları yerinə yetirə bilmədik. Yeri dəldik, ancaq axıradək deşmədik, kanat çəkdik, amma sonadək uzatmadıq, buzları əritdik, lakin sonadək bacarmadıq, Antarktida isə hələ də yulaf bitməyib. Ancaq çox töküb-qarışdırdıq. Bir az da necə gəldi tökərdik, gəl ki ac aman bilməz. Həmən o hamıdan pislər yoxdu – onlar yaxşıca qazandılar, oturub özləriyçün yağlı pryanik çeynəyirlər. Biz onlara qanadsız meşşanlar kimi nifrətlə baxırıq, amma biz də yemək istəyirik.

Sədr bizi topladı. "Biz, - söyləyir, - hərçənd hamıdan yaxşı olsaq da, yolumuzda biz az ləngidik. Daha yaxşı olmaq üçün biz hamıdan pis olanlara çatmalı və onları ötməliyik". Beləcə ötməyə başladıq. Hamıdan pis olanlar qışda hələ də peç üstündə qızınır, uşaq əmələ gətirirlər, bizsə mahnılar oxuyaoxuya əlimizdə bayraqlar tarlalara çıxmışıq. Onlar təbiətdən mərhəmət gözləyirlər – yaz nə zaman özü qonaq gələcək, gün qızdıracaq və yalnız bundan sonra səpinə gedəcəklər, bizsə gözləyəsi olmadıq, hər şeyi qara səpdik və hamıdan pis olanlara biryolluq çatdıq və onları ötdük. O pis olanlar payızda elə hey tarlalarda eşələnirlər, məhsul yığırlar, bizdəsə hər şey hazırdır və yığılası bir şey yoxdur. Yenə qış gəldi, bunlar yenə pryanik çeynəyirlər, bizsə ayı kimi pəncəmizi soruruq. Mə-

lumdur ki, pəncə dietik maddədir. Şəkəri yox, xolesterini yox, duzu yox, yağ yığıntısı yox. Belə bir qida beyni əla işlədir, elə hey bir fikri hasil edir: harda nə tapıb yeyəsən? Yeməyə bir şey tapılmadığından beyin daha yaxşı işləyir və onda belə bir fikir yaranmağa başlayır ki, ola bilsin, biz hamıdan pis olmaqda hamıdan yaxşıyıq. Və bu fikir artıq yayılır, bizim kütlələrin arasına yol tapır və kök salır. Biz o cəhətdən hamıdan yaxşıyıq ki, hamıdan pisik. Hərçənd mitinq və iclaslarda hələ də danışırıq ki, biz hamıdan yaxşıyıq, amma mitinq və iclaslar arası düşünürük ki, biz hamıdan pisik. Bəzən aramızda elə fitnəkarlara da rast gəlinir ki, onlar bizi aşağılamaq və təhqir etmək istəyir və ona işarə edirlər ki, biz hamıdan nə yaxşıyıq, nə pisik, biz hamı kimiyik. Biz müəyyən vaxt-vədəyədək onlara dözürük, ancaq çox dözmək niyyətində deyilik, onları yox edəcəyik. Ona görə ki, biz həmişə hamıdan yaxşı olmağa hazırıq, ən pis halda o fikrə gələrik ki, biz hamıdan pisik. Amma, baxın, hamı kimi olmağa biz razı deyilik, əsla yox.

Adamlar və donuzlar

Lap əvvəllər və hətta ondan da əvvəllər, artıq tam unudulmuş zamanlarda Yer üzündə insanlar və donuzlar yaşayırdı. Birlikdə yaşayır, ayrı-ayrılıqda qidalanırdılar. Donuzlar nə gəldi yeyirdilər, adamlar da onlar kimi ağına-bozuna baxmadan nə gəldi yeyirdilər və bütün bunlardan əlavə onlar həm də donuzları da yeyirdilər. Bu adi, əsrlərlə mövcud olmuş qayda nədənsə donuzların xoşuna gəlmirdi və kəsib onları donuz ətinə çevirəndə donuzlar zingildəyir və ağlayırdılar. Onlar ağrıyır,

qorxur və yaşamaq ehtirasıyla alışıb yanırdılar. Adamlarsa vəhşi idilər, təki onlar öz mədələrini ət, piy və içalatla doldursunlar, donuzların qışqırıq və göz yaşları onları heç narahat etmirdi. Ancaq insanlar arasında maarifçilik, müxtəlif humanist ideyalar və qabaqcıl nəzəriyyələr yayıldıqca onlarda vicdan əzabı baş qaldırdı və onlar öz kiçik qardaşlarını aşırmaq, elliklə onlara qarşı əsl genosid qurmaq vərdişlərindən usandılar.

Əvvəlcə bu barədə din təbliğatçıları danışmağa başladılar. Onlar söylədilər ki, tanrı bütün yaradılanlara həyat bəxş edib ki, onlar qaçsınlar, xortuldasınlar, mələsinlər, hürsünlər, movuldasınlar və çoxalsınlar. Allahın yaratdığı məxluqatı məhv eləmək hüququ bizə verilibmi?

Sonra diskussiyaya alimlər qoşuldular və göstərməyə başladılar ki, insan donuz kimi hər şey yeyəndir və hətta bundan da betərdir, ona görə ki, bəzən o, donuzun belə üz çevirdiyi şeyləri dadır. Hər şey yeyən heyvan olduğundan insan təbiətdə digər qida mənbələrinə də malikdir: otlar, köklər, meyvəköklülər, dənli bitkilər, meyvə və tərəvəzlər - onlarda, həmçinin süd məhsullarında kifayət qədər yağlar, minerallar, vitaminlər və zülal tərkibləri var. Ümumiyyətlə, vegeterian qidası ət məhsulları ilə müqayisədə həzmə, mədə divarlarına, mədəaltı vəziyə, qara ciyərə və beynə daha yaxşı təsir edir. Həm də ürək-damar xəstəliklərinin qarşısını alır. Yazıçılar, publisistlər, baş bilənlər və xalq səsini ucaltdı: ey sizlər, ikiayaqlı acgöz qarınqulu həşəratlar. Nə əcəb sizin qəlblərinizdə qüssə və mərhəmət duyğusu yoxdur, nə əcəb ürəyiniz kəsdiyiniz donuz balasının ümidsiz uşaq zarıltısını eşıdəndə partlamır? Əgər elədirsə, onda düşünün, belədə siz donuzlarla müqayisədə daha böyük donuz deyilsinizmi?

Çoxlarına belə sözləri eşitmək sərf eləmirdi; iştahları itir, donuz əti tikəsi boğazlarında qalırdı. Beləcə, insanlar əziyyət

çəkir, özlərini təmizə çıxarırdılar və təmizə çıxarmağı bacarmayıb qərara gəldilər ki, yaxşı, axı biz elə də qaniçən deyilik, yazıq donuzlarımıza, cavan qabanlarımıza və çoşqalarımıza rəhm edək, bitki və süd qidasına keçək.

Beləcə keçdilər. Hər cür qatıq, salat, tərəvəz supları, kompot və kisel yeməyə başladılar. Və hamısı da razı idi. Yaxud demək olar ki, hamısı. Hər halda bəzi ağzının dadını bilənlər də tapıldı və onlar arada heyifsilənib gözlərini axıdır və həyasızcasına boyunlarına alırdılar ki, hansısa ətəbənzər bir şeyin həsrətini çəkirlər. Əlbəttə, bitki və süd mənşəli qida yaxşıdır, həm də xolesterinə görə xeyirlidir, amma aradabir bifşteks və ya eskalop aşırmaq da könüllərindən keçirdi. Yaxud heç olmasa sosiska dadmaq. Bu cür arzular alimlərə gəlib çatdı, onlar düşünüb-daşındılar və belə bir fikrə gəldilər ki, ağzının dadını bilənlərə kömək etmək lazımdır. Həm də alimlər arasında da belə yeməklərin həsrətini çəkənlər vardı. Alimlər düşünüb daşındılar, baş sındırdılar, darı, soya, xam neft və çiyidli pambığın sintezindən əsl donuz ətindən heç də geri qalmayan süni donuz əti hazırlamağa başladılar. Ağızlarının Dadını Bilənlər Şurasının ekspertlərini gözü bağlı yedirtdilər; onlar ağızlarını ləzzətlə marçıldadır və barmaqlarını yalayırdılar. Onlardan soruşurdular: “Bu nədir?” Onlar da bir səslə: “Bu, Frankfurt sosiskasıdır, bu, Krakov kolbasasıdır, bu isə südəmər donuz balasıdır - smetana qoyulub...”, - deyirdilər.

Alimlərsə bir-birinə hiyləgərcəsinə baxır və bic-bic gülürdülər.

Sözün qısası, adamlar yeni məhsulları əsl ət məhsullarından da çox bəyəndilər və insanlar artıq referendum keçirməyə, donuzlar və digər heyvanların tələf olunmasının tam qarşısını alan və onların ətindən istifadəni yırtıcılığa bərabər tutan qanun qəbul etməyə hazır idilər. Əvvəlcə mətbuatda və televi-

ziyada ümumxalq müzakirəsi keçirdilər. Müxtəlif natiqlər çıxış etməyə, vegeteriantlığa kütləvi keçid ideyasını bəyənməyə başladılar, alimləri və onların hasil etdikləri məhsulları tərifləmdilər və bu məhsulların yaxşılaşdırılması istiqamətində arzularını bildirdilər. Ağızlarının Dadını Bilənlər Şurası təkidlə bildirirdi ki, süni yolla alınan ət məhsulları heç bir parametrinə görə təbii məhsullardan geri qalmır. Bu mənada ağızlarının dadını bilənlər bildirdilər ki, təkcə məhsulun keyfiyyəti barədə yox, həm də onun estetikası barədə düşünmək lazımdır.

Deyirlər ki, süni ət yaxşıdır, amma estetik planda elə də yaxşı deyil. Dedikləri məhz odur ki, bu ət təkcə dadı ilə yox, həm də görünüşü ilə əsl ətə oxşamalıdır. Mağazalarda əsl də olmasa, tam ona bənzər qol-qıç, bud, quyruq, dırnaq, həmçinin xaş üçün yumulmuş gözlü donuz başı asılsın. Hə, yaxşı, alimlər söyləyirlər, əgər təxəyyülünüz belə inkişaf edibsə və bu, sizə belə lazımsa, özümüzü gücə salıb bunu da edirik.

Quyruğu, dırnağı və hətta qol-qıçı dərhal düzüb-qoşdular, donuz başı düzəltməkdən ötrü isə əməlli-başlı tər tökmək lazım gəldi. Ona çəhrayi burun, incə qulaqlar, piy basmış gözlər düzətmək və hətta dişlər qoymaq. Təbiətin əlində bunları eləmək heç nədi, insanlarasa, həttə ən kəllələlilərinə belə, nəsə buna bənzər şeylər yaratmaq asan başa gəlmir. Buna nə qədər düşüncə, ürək, yuxusuz gecələr sərf eləmək lazımdır. Nə qədər düstur çıxartmağa, elmi eksperimentlər aparmağa lüzum var. Amma yenə də elm hər şeydən güclü oldu və sonda bir sıra elmi-tədqiqat institutunun və bütün akademiyanın səyi ilə Ağızlarının Dadını Bilənlər Şurasının arzusu yerinə yetirildi. Yeni məhsullar "Sağlam qida" sərgisinin bəzəyinə çevrildi. Aydın məsələdir ki, bütün eksponatlar arasında donuz başı ən böyük müvəffəqiyyət qazanmışdı. Onu görmək üçün alimlər ən uzaq ölkələrdən uçub gəlmişdilər, elə hey onun ətrafında

dolaşırdılar, başlarını yellədir, dillərini çaqqıldadır, hətta bəzən onu yalamağa belə cəhd edirdilər. Ağızlarının Dadını Bilənlər Şurası alimlərin işini bütövlükdə bəyəndilər və Şura üzvləri dedilər ki, əgər siz bu cür baş düzəldə bilisinizsə, yaxşı olmazmı onu bədənə bitişdirəsiniz ki, qəssab onu elə müştərinin yanında kəsib ayırsın. Alimlər bu arzunu da yerinə yetirdilər və Şuranın iclasına sanki canlıya bənzər bütov bir donuzu sürüyüb gətirdilər; daha doğrusu, elə bil indicə kəsilmiş, hətta cod tüklə örtülmüş bu donuzun oda verilən cəmdəyinin iyini ləzzətlə udauda onu lehimləmə lampası ilə ütməyə davam etdilər. Öz işi ilə qürrələnən alimlər təvazökarcasına kənarda durmuşdular.

- Bax belə, - Şura üzvləri söylədilər, - siz yaxşı işlədiniz. Sizə Ağızlarının Dadını Bilənlər Şurasının Qızıl medalını və dörd aylıq tam məvacibiniz həcmində pul mükafatını veririk.

Hətta Şura üzvlərindən kiminsə başından onları Nobel mükafatına təqdim etmək ideyası da keçdi, lakin digərləri dedilər ki, yox, bu, Nobel mükafatına uyğun gəlmir, Nobeli almaq üçün nəsə xüsusi bir şey lazımdır. Bax əgər sizin bu donuzlar canlı donuzlar kimi qaça bilsəydilər, lazımi qaydada otlamağı, xortuldamağı və çoxalmağı bacarsaydılar, hətta onları kəsəndə kibernetik səviyyədə zingildəsəydilər və süni olduqları üçün bu zaman nə ağrı, nə qorxu və bunlara bənzər heç bir hiss keçirməsəydilər – bu, başqa məsələ.

Alimlər buna da nail oldu. Dünyanın bütün donuz fermalarında süni donuzlar peyda oldular. Onlar qaçışır, xortuldayır, ot otlayır, gölməçələrdə çimir, çox uğurla çoxalır və kəsilmə prosesində zingildəyirdilər. Əməlli-başlı zingildəməsələr də, heç olmasa, ağızlarının dadını bilənlərin və bütün gözəlliklərə həssas estetlərin ruhunu oxşamaları lazımdır. Təzə donuzları istehsalata buraxdılar, xalqı onlarla yedizdirməyə başladılar. Xalq razı idi və referenduma hazırlaşırdı. Ancaq əhalinin geniş

təbəqələri və Ağızlarının Dadını Bilənlər Şurasının özündə belə şübhələr və skeptik səslər eşidildi.

- Bəli, - deyə skeptiklər danışmağa başladılar, - alimlərimiz olduqca yüksək, hətta ağlasığmaz zirvələr fəth ediblər. Donuzlar sanki canlı və son dərəcə dadlıdırlar, yaxşı qaçır, əla xortuldayırlar – kəsilən zaman çox şiddətlə zingildəyirlər, amma bu zingiltinin özündə də yenə nəsə çatışmadığını sezirik, məhz ağrı çatışmır, başa düşürsünüzmü, olmazın bir qussə, dəhşət çatışmır burada.

- Bəli, bəli, bəli, - digərləri də buna səs verdilər və yeri gəlmişkən, hətta bəzi alimlər də. İş ondadır ki, bu qorxu, bu dözülməz vahimə donuzun orqanizmində elə maddələr, əvəzolunmaz fermentlər və amin turşuları əmələ gətirir ki, hər halda bunlarsız süni donuzda nəsə kiçik bir şey çatışmır.

Sözün qısası, alimlər qarşısında yeni bir möhtəşəm vəzifə qoyuldu. Bu isə elmdə əsl çevriliş idi. Buna görə onlar dünyanın bütün nüfuzlu mükafatlarını, ola bilsin, hətta Nobeli də aldılar (hər halda bunu təsdiq eləməyi üzərimə götürmürəm).

Götürək ki, onlar əsl donuzdan zərrəcə fərqlənməyən süni donuz yaratdılar. O, donuza bənzəyir, donuz kimi xortuldayır, onu donuz ətinə çevirəndə də qorxudan əsir, əzab çəkir, zingildəyir və əməlli-başlı ağlayır. Ona görə insanlar qərara gəldilər ki, artıq indi onlar əsl donuzlarsız keçinə və süni donuzlarla qidalana bilərlər. Əsl donuzların nəzarətsiz artıb-çoxalmaması və əkinləri ayaqlamamaları üçün onların hamısını qırmağa qərar verdilər. Həm də ki yeməyə qərar verildi - ət boş-boşuna batası deyildi ki! İnsanlar bu qərara gələnədək süni donuzlarla əsl donuzlar bir-birinə qarışdılar, nəzarətsiz cütləşməyə və çoxalmağa başladılar və ümumiyyətlə, elə bir qarmaqarışıqlıq yarandı ki, əvvəlcə bunu anlamağa çalışanlar sonda buna baş qoşmadılar və birdəfəlik ümidlərini kəsdilər.

Və hər cür ət delikateslərindən dadıb, ətindən bu delikateslər hazırlananların qışqırığına məhəl qoymadan əvvəl necə yaşayırdılarsa, eləcə də yaşamağa davam etdilər.

Amma yeri gəlmişkən, bəziləri eşidir və bundan estetik zövq alırlar. Başqalarına isə bu, sərf etmir; məğrurcasına özünü insan adlandıran bu məxluq ölümqabağı dəhşətdə qovrulduqca və zingildədikcə onlar çox böyük həzz alırlar.

Tərcümə edən: Telman Vəlixanlı

Boris Yevseyev

Qəssab

(hekayə)

1

1919-cu ilin iyul ayının 27-də Nestor Maxno ataman Qriqoryevi hiylə işlədərək Sentovo kəndində keçirilən qiyamçıların qurultayına dəvət etmiş və orada şəxsən güllələmişdi.

Qriqoryevə ilk gülləni Maxnonun qərargah zabiti Alyoxa Çubenko atdı. Lakin həlledici atəşlər məhz Nestor İvanoviçi gözləyirdi.

Hər şey isə, əvvəl getman Skoropadskini, sonra isə mərkəzi Radanı, daha sonra Petlyuranı və sonda da Sovetləri dəstəkləyən keçmiş ştabs-kapitan Qriqoryevin gözlənilmədən Sovetlərə qarşı üsyan etməsindən sonra başladı. Yelisavetpoldakı talan və güllələmələrdən sonra Qriqoryev həmin il, yəni 1919-cü ilin mayında qısa bir zaman qəfil hücum edərək Mariupol, Xerson, Nikolayev, Aleksandriya, Znamenka, Xristinovka və bir neçə digər hərbi cəhətdən vacib sayılan məntəqələri ələ keçirdi.

Lakin may ayının axırlarında, qızğın döyüşlərdə Voroşilov və Parxomenkaya məğlub olan, bir tərəfdən də Denikin ordusunun avanqardı və Şkuronun süvari dəstələri ilə ağır dö-

yüşlər aparan Qriqoryev öz qoşununun qalıqları ilə Maxno ordusunun yerləşdiyi əraziyə daxil oldu.

Uzun çəkməyən danışıqlardan sonra qüvvələri birləşdirmək qərarı qəbul edilmişdi. Düzdür, Maxnonun komandirləri və hətta bəzi əqidəli anarxist-"nabatovçu" olan sıravi əsgərlər də keçmiş ştabs-kapitanla müttəfiqlikdən dərhal və kəskin şəkildə imtina etdilər. Onu çox şeydə günahlandırırdılar: açıq-aşkar banditizmdə, Denikinlə əlaqələrdə, gizli şəkildə Sovetlərə meyilli olmasında…

İyulun 27-də Aleksandriya yaxınlığındakı Sentovoda keçirilən komandirlərin toplantısında Qriqoryevin ünvanına sanki daş yağışıtək ittihamlar yağdı:

- Hə, de görüm, ştabs, necə oldu ki, ötən ay sən Pletyonı Taşlıka getmədin? General Şkuroya yazığın gəldi?

- Sən bir onun gözünün içinə bax, batko. O ki qərargahını xutorlarda gizlədirdi. Bu elə onun gözlərində də sanki donub qalıb…

Bu sözlərdən sonra Qriqoryev əlini tapançasına atdı, lakin Alyoxa Çubenko öz mauzerindən atəşi birinci açdı. Yaralanmış Qriqoryev özünü həyətə tərəf atdı və qaçaraq qışqırdı: "Ay batko! Ay Nestor!"

Maxno daha bir güllə ilə onu kürəyindən vurdu, amma Qriqoryev hələ də qaçırdı, nəhayət, o, həyətə çıxıb yerə yıxıldı. Elə orada da Maxno iki güllə ilə onun canını aldı.

Həmin həyətdə sökülmüş çəpərin yanında qızılsöyüdə söykənərək Maxno ordusunun mövqelərinə Qriqoryevlə birgə gəlmiş İqnat İvçin durmuşdu. O, artıq atəş səsinə öyrəşmişdi. Lakin arxadan açılan atəş və artıq kürəyi üstə sərələnib qalmış zavallı ataman Qriqoryevin ay işığında bozaran və toz-torpağa bulaşmış sifəti on beş yaşlı İqnata çox güclü təsir etdi.

Həmin axşam ayın batmasını meşədə gözləmiş İqnati İvçin və ya Qnaşka – Qriqoryevin dəstəsində onu elə adlandırırdılar, – qırmızılara qoşuldu.

Lakin qırmızıların yanında da belə o, rahatlıq tapa bilmirdi.

Qnaşka Vətəndaş müharibəsindən əvvəl rəngsazlıq edirdi, evlərin divarlarını ağardıb üzərinə sarı və göy gül şəkillərini çəkirdi. Özü uzunboy, ağbəniz, kəkili isə lap ağappaq idi. Lakin ağlı – uşaq ağlı idi. Ağıl ona heç gərək də deyildi! Ona yalnız ətrafının gözəl olması lazım idi. Amma bu gözəllikdən onu tez məhrum etdilər – işdən qovdular. Göy güllərin əvəzinə qurumuş öküz qanına, ya da albalı mürəbbəsindəki köpüyə bənzər çəhrayı rəngdə gül çəkdiyinə görə onu atdılar bayıra.

Qnaşka gözəlliyi sevirdi və amansız ölümün insan həyatını vaxtsız və həyasızcasına yarıda kəsməsini çətinliklə qəbul edə bilirdi…

Qırmızıların ordusunda ona tez yer tapdılar.

– Hələlik "sıfır" dəstəsində olacaqsan. Sonra isə fikirləşib bir qərara gələrik ki, görək sən kimsən: Maxno casusu, yoxsa yox, – bunu Qnaşkaya ilin bütün fəsillərində dəri kartuzu başından çıxarmayan və sanki sərxoşluqdan ürəyi bulanırmış təki günəş altında yanaraq rəngi solmuş gimnastyorkanın düymələrini axıracan bağlamayan komandir Sayenko demişdi.

– Dəstəmizin hamısı qoçaqdır. Sən də, görürəm, fərasətli oğlansan. Gedək, səni başqaları ilə də tanış edim.

Onlar Dnepr sahilində yerləşən kiçik şəhərciyin küçələri ilə gəzişirdilər, sakinlər isə - Sayenko uzaqdan görünər-görünməz - kimisi kölgəliyə çəkilir, kimi həyətlərində, kimi də yay mətbəxlərində gizlənirdi.

Elə Qnaşkanın oraya gəldiyi ilk gecə Sayenko şəxsən 38 nəfəri güllələdi. O, əvvəlcə Qnaşkanı heç bir şeyə məcbur et-

mək istəmədi, lakin yeni döyüşçünün tüfəngi necə istəmədən, könülsüz şəkildə qaldırdığına, lüləni necə yuxarı və bir qədər yana yönəltdiyinə, bütün sırada duranlardan fərqli olaraq necə həyəcanla və xırıltı ilə nəfəs aldığına diqqətlə fikir verirdi.

– Hamı ilə birgə – bunu hər kəs belə edə bilər. Ancaq sabah heç kimin arxasında gizlənə bilməyəcəksən: atəşi tək açmalı olacaqsan. Təkcə sən və onlar. Onlar və sən. Onda hansı yuvanın quşu olduğunu görərik.

– Mən bacarmıram, yoldaş Sayenko! Qanı görə bilmirəm. Yalvarıram, buraxın məni mühəndis dəstəsinə gedim!

– Bacarmırsan? Deməli, mən bacarıram, sən isə yox? Olsun elə, sabah axşam Katerininskaya küçəsinə gəl. Mən sənə əlac taparam.

Axşamçağı gün boyu davam edən dəhşətli istidən və bütün günü keçmiş "qriqoryevçi" ilə bağlı bir qərara gəlməkdən ötəri rəhbərliyi qapı-qapı gəzdikdən sonra Katerininskaya küçəsinin sərinliyi həm cana, həm də ruha bir rahatlıq gətirirdi.

Boyunlarını əymiş qızılsöyüdlər və qollu-budaqlı qaraqovaqlar öz iri kölgələrini uzaqlara salırdı.

Qnaşka günəş işığının kölgə ilə toqquşduğu yerlə yürüməyə çalışırdı. Bu onu elə bil bir qədər sakitləşdirirdi. "İstəsəm kölgə ilə gedərəm, istəsəm – günəşlə", – deyə o, belə düşünürdü və ürək bu cür fikirlərdən sonra sanki döyüntüsünü tənzimləyib möhkəm çırpıntıdan sonra dincəlməyə başlayırdı.

Sayenkonun dediyi evin həyətində daha bir ev tikilməkdə idi. Əyninə göy-qırmızı dama-dama yun parçadan paltar geyinmiş cavan bir xanım yalın ayaqlarla palçıq yoğururdu.

O, Qnaşkaya ani bir nəzər yetirib elə dərhal da piramida şəklində düzülmüş əldəqayırma gil kərpiclərin – yəni qəlibin arxasında gözdən itdi.

“İnsanlar Vətəndaş müharibəsində varlanırlar, bəli, necə də varlanırlar”, – Qnaşka onlara həsəd aparmadan, sanki düzgün və lazımlı bir şey haqqında düşünürdü.

Sayenko üzərində heç bir şey olmayan masa arxasında otaqda tək oturmuşdu. Qırmızı guşə boş idi və oranın yenicə ağardıldığı aydın görünürdü. İkonalar, yəqin ki, bir neçə gün bundan əvvəl buradan yığışdırılmışdır.

Masanın üzərində heç bir yemək və ya şirniyyat yox idi. Yalnız tən ortada üstü bəzəklə işlənmiş ağ parça ilə örtülü bir tərəfindən nə isə görünən qab dururdu.

– Hə, gəldin, – Sayenko hirsli tərzdə burnunu çəkərək dilləndi. – Mən artıq dalınca çapar göndərmək istəyirdim.

Qnaşka eləcə qapıda durub qalmışdı. O gözləyirdi ki, Sayenko ona əyləşməyi təklif edəcək, ya da çağırmağının səbəbini söyləyəcək.

Lakin Sayenko iri qırxılmış başını əlləri üzərinə qoyub kədərli halda fikrə getdi.

“İçkilidir yəqin…” – deyə Qnaşka fikirləşdi.

O yenidən yerində addım atıb, yavaşca öskürdü.

Sayenkodan bir səs çıxmadı.

Bunu görən Qnaşka yavaş-yavaş otaqda qapı əvəzi asılmış pərdəyə tərəf geriləməyə başladı.

– Dayan. Gəl bura. – Masa arxasında oturan hətta başını belə qaldırmadan Qnaşkanın cəsarətsiz hərəkətlərini hiss etmişdi; o, çiyini ilə üstü parça ilə örtülmüş qabı göstərərək dedi: “Sənin üçün hazırlamışam. Gör sənə nə deyirəm… Maxnoçu, bir de görüm adın nədir?”

– Adım Qnaşkadı… Maxnonun yanında da heç olmamışam. Batko Qriqoryevlə birgə gəlmişdim oraya. Sadəcə üç günlük!

– Qnaşka… Deməli, İqnati. Bəs atanın adı nədir?

– Severinoviç.

– Sən mənə qulaq as, Qnaşka. Qulaq as, İqnati Severionoviç. Mənim haqqımda çox şey danışırlar. Xüsusən də bu arvad… O, həyətdə olan… Görmüsən artıq onu, yəqin. Adı Varkadı. Gözəldir… Dili isə – sanki iti ülgücdü… Sözümün canı var. Odur ki, qulaq as gör nə deyirəm, əyər sənə kömək etməsək, əcəlin çatacaq. Ya mən özüm səni əmrlərimə tabe olmadığına görə o dünyalıq edəcəyəm, ya da bizim "sıfır" dəstəsindən biri axırına çıxacaq. Başı bəlalıyıq biz bu dəstədə, eşidirsən, axırımız yoxdur? Voroşilov məni və bütün dəstəmizi diri-diri basdıracağına söz verib. Bəs axı bizim günahımız nədir? Biz isə heç bir pis iş görməmişik… Sadəcə əclafları güllələmək lazımdır axı. Bax, əvvəlcə istəyirdik onları asaq. Ancaq indi təkcə ağqvardiyaçılar belə edirlər. Bizə isə olmaz. Bizə yaraşmaz axı…

Sayenko birdən bütün bədəni ilə Qnaşka tərəfə döndü.

– Çatdı sənə? Bir sözlə, hər şey inqilaba uyğun olmalıdır, başqa cür… əksinə yox. Sən otur, əyləş. Gör sənə nə hazırlamışam. İçsən – ürəyin daş kimi olacaq. Nə o tərəfə, nə bu tərəfə. Möhkəm olar, titrəməz! Biz isə möhkəm ürəyə sahib olmadan heç nə edə bilmərik. Anlayırsan sən? Bilirsən… Mən elə olurdu ki, gündə altmış nəfər güllələyirdim. Hərdən hətta yetmiş. Mən hələ təkcə şəxsən güllələdiklərimdən danışıram. Sonra ürəyim də bulanıb, başımı da daşa-divara vurmuşam. Əvvəl-əvvəl çox çətin olur buna dözmək. Ona görə də bessarabiyalı quzğunlar mənə bu cür işdən əvvəl bir stəkan qan içməyi öyrətdilər. Bir neçə günə bəs edir! Yox, sən elə düşünmə ki, biz qan içən xortdan, ya da qulyabanılar kimiyik! Onlar canlıların qanını içirlər. Biz isə – təkcə ölülərin. Biz elə özümüz də ölü kimiyik! Bütün bölük sanki ölüdür!

Sayenko qəflətən yerindən durub Qnaşkanı qolundan dartdı. Bu gözlənilməz hərəkətdən o elə dərhal taburetin üstünə oturdu.

– Parçanı qaldır, oradakını iç.

Qnaşka ehtiyatla dəsmalı qabın üstündən götürdü.

Birdən acı insan qanı iyi onun burnuna dəyib sanki bütün udlağını parçaladı.

Bu qoxu atışma vaxtı üzüqoylu otun üzərinə düşəndə hiss etdiyi və ataman Qriqoryev öldürüldükdən bir-iki saat sonra onun qanından əmələ gəlmiş, üstünə qum səpdikləri gölməçədən gələn qoxu ilə eyni idi.

– Buna baxın bir, hələ iyləyir də! – Sayenko Qnaşkanın burnunun deşiklərinin necə tərpəndiyini görüb, bu hərəkətdə öz ağır zəhmətinin nəticəsinə nifrət hiss edərək narazı-narazı tərzdə dilləndi. Sonra bir qədər kədərlənib əlavə etdi:

– Bundan təzəsi yox idi. Dünənkidir. Daha dəqiq olsaq – gecədən qalma. Bugünkü, təzə olsaydı, daha yaxşı olardı, hər halda… Amma təzəsini haradan tapaq? Bir əclafı belə bu gün bizə tərəf göndərməyiblər.

Stəkan qan ilə axıracan dolu idi. Və onun köhnə, dünənki olmasına baxmayaraq, Qnaşkaya elə gəlirdi ki, o tüstülənir.

– İç! Yoxsa güllələyərəm səni! – deyə Sayenko vəhşicəsinə bağırdı.

Elə həmin an dildən iti olan Varka balaca uşaq kimi qışqıra-qışqıra özünü həyətin bir küncündən o biri küncünə ayaqyalın atmağa başladı: “İlahi, bu nə bəladır düşmüşəm! Belə də iş olar!”

Cavan öküz kimi enlialın, gicgahlarında saçları qıvrımqıvrım olan Qnaşka gözlərini qıyaraq hər bir qurtumla duzlu sirkətək acı insan qanı dadına daha çox alışaraq stəkanı tam boşaltdı.

Gözlərini açmağa qorxurdu. Bəlkə, elə ona görə də Qnaşkaya elə gəlirdi ki, damarlarıyla sanki iti üzgəcli balıqlar üzür, mədəsində qarnı ağ qurbağalar beli üstə çevriliblər, başında kiçik, sürətli və son dərəcə əla nallanmış atlar çapır, qollarına qüvvət gəlir və artıq titrətmə və qorxu onları tərk edir. Ürək isə… Ürək isə bərkiyib sərtləşir. Qorxu və həyəcan onu tərk edir, xırda-xırda ağrılı döyünmə isə küləyin alıb apardığı quru toz tək səpələnib yoxa çıxırdı.

Döyüntülərdən sonra isə ürək sanki özü də yerindən çıxıb düşür. Elə bil ki qaçaraq hoppanır. Qumlar üstündə yuvarlanır, çaylar üzərində üzür. Və artıq ona nə güllə çatar, nə də ki onu balıqçı toru ilə tutmaq mümkün olar. Amma sonra özü yerinə geri qayıdır. Və sinədəki dəlik bitişir, sanki sərt saplarla tikilir. Və ürək sıxılıb daş tək bərkiyir: istəyirsən çəkiclə vur, istəyirsən qılıncla kəs-doğra!

Gecədən xeyli keçmiş lazım olan yerə dəyib Katerininskaya küçəsi ilə sakitcə qayıdarkən Sayenkonun evinin yanından keçəndə Qnaşka zəif cingilti eşitdi.

İnək yelinindən tökülən südün kasaya, ya da qalaylanmış vedrənin dibinə dəyməsinə bənzər səs gəlirdi. Maraq Qnaşkanı pəncərəyə tərəf apardı. Hələ pərdələri çəkməmiş o anladı ki, səs haradan gəlir. İnsan qanının zəif və acı iyi yenə onun burnuna dəydi. Varkanın solğun cəsədi çarpayıdan yerə sallanırdı. Boğazından isə dəmir kasaya qan axırdı. Cingilti daha da güclənirdi və qulaqlar, hətta baş özü sanki axan qanın zəif səsi ilə dolurdu. Qaranlıqda Varkanın ayaqları yanında kimsə sakitcə zarıldayaraq tərpənirdi, sürünürdü. Qnaşka kəmərinin altından naqanını çıxardıb tətiyi çəkdi.

Güllə açılmadı…

Yarım saat sonra, zastava yaxınlığında Sayenkonun köməkçisini güllələyib, Qnaşka qırmızı ordunun mövqelərini həmişəlik tərk etdi.

Lakin Dnepr çayı kənarındakı bu kiçik şəhərciyi tərk etməzdən əvvəl o, artıq vəfat etmiş anasının səsini eşitdi.

«Sakit ol, əsgərlər yoxdur, həm də axşamdır, – ananın səsi sanki nəğmə, ya da dua oxuyurmuş kimi gəlirdi. – Çıx get! Çay boyunca get, akasiya bitən, sıx kollar olan yerlə get. Axşamçağı sənə yolda dəyib-dolaşan olmaz. Həmin o ququ quşu kimi başınağacından qızılsöyüdə uçaraq, tullanaraq ötüb keçəcək səni mənim ömrün…»

Gah qumluqlarda bataraq, gah otluqla, gah da daşlıqla gedərək irəliləyirdi Qnaşka. Cənuba tərəf üz tutmuşdu. Bərkimiş ürəyi ona istənilən şeyi eləməyə imkan verirdi: qayıdıb uzunsaç səfeh Alyoxa Çubenkonu yaba üzərinə sancmaq, Sayenkonun özünü güllələmək, gündüzləri və axşamları yatan, gecələri tər-qan içində çalışan Sayenkonun dəstəsini süngüləmək…

Amma o, qayıtmaq istəmirdi. Qamışlıqlarla, quru meşəliklərlə, Dneprin lilli qolları boyu o, evinə-obasına gedirdi.

Sayenkonun verdiyi stəkan İqnata az qala üç ilə bəs eləmişdi. Sonra – üsyanlar, aclıq, qolçomaqların əmlaklarının müsadirə edilməsi, kolxozlar… Onun ürəyi tədricən zəifləyib qorxaqlaşırdı. Almanlarla İkinci Dünya müharibəsi ərəfəsində bu zəifləmiş ürəyi hiss etdilər: İqnata batko Qriqoryevlə əlaqələrini xatırladıb iyirmi beş il verdilər.

2

Bir dəfə atam demişdi:

– Bizim şəhərdə hələ də batko Maxnonun çaparı Pyotr Zaxaroviç Z. yaşayır. Bilirsən, o hərdən diyarşünaslıq muzeyinə belə gəlir.

Həmin bu qorxunc, yanmış sifətli, qeyri-təbii şəkildə tərsinə çevrilmiş kirpiksiz göz qapaqları, asfalt üzərində yavaş və əyri addımlar atan və qonşu Vorontsovskaya küçəsində qalan Z. soyadlı şəxsi mən əvvəllər də görmüşdüm. Onunla heç kim heç vaxt danışmırdı, uşaqlar və hətta yeniyetmələr belə ondan çəkinirdilər.

Bizim şəhər musiqi məktəbini bitirib Moskva institutuna qəbul olunduqdan sonra məni artıq tamamilə böyümüş hesab etdiyini göstərmək məqsədi ilə atam mənə dedi:

– İyirmi beş il dustaq olub – son günəcən çəkib cəzasını. Və heç nə olmamış kimi də qayıdıb gəlib evinə. Ən təəccüblüsü isə… – söz sanki atamın boğazında qaldı: o, bunu deməməli olduğunu anladı. – Ən maraqlısı o özü yox, onun dostudur. Bilirsən, mən onları bir dəfə bir yerdə görmüşdüm. Maxnonun çaparı həmin bu dostu ilə bizim teatra gəlmişdi. “Monmartr bənövşəsinə” baxırdılar. Sonra o küçədə “Karambolina, Karamboletta…” - deyə bağırmağa başladı. Amma öz aramızdı, düzgün, heç bir yanlışlığa yol vermədən bağırırdı, intonasiyanı düz tutmuşdu. Sözüm nədədir. Həmin bu dostu haqqında şayiələr gəzir ki, guya o, Sayenko ilə dostluq edib. Belə bir adam var imiş… Sadist mi deyim, nə mi… Qısası, Qırmızıların cənub cəbhəsinin yırtıcısı… – atam qaşqabağını tökərək davam etdi. – Hə, sözümün canı nədir? Sən demə, çaparın bu tanışı babamızla qonşuluqda yaşayır. Yadındadır, səkkiz yaşın

olanda babanın yaşadığı şəhərdən balaca bir xutora piyada gedirdik. Malaya Ardaşinka adlanırdı…

Təbii ki, bu, mənim yadımda idi. Lakin mən maxnoçunun dostu bu Malaya Ardaşinkada çətin ki yaşasın deyə düşündüm. Çox kiçik bir kənddir. O, yəqin ki, yaxınlıqda yerləşən kazak şəhərciyində qalırdı.

Yay sona çatırdı, Moskvaya qayıtmağın vaxtı artıq gəlib çatmışdı. Səs-küylü, gecə-gündüz sakitlik bilməyən əyalət şəhərinin küçələri ilə (xüsusən də keçmiş Vorontsovskaya – indiki Kommunarlar – küçəsi ilə) gəzişərkən, mən istər-istəməz həmin bu Z. haqqında düşünürdüm.

Z. özü isə küçədə az-az görünərdi.

Və nəhayət, günlərin biri – axşamçağı – o, evindən əlində bəyaz parçaya bükülmüş qab ilə çıxdı. Bunun boşqab olduğunu formasından bilmək olardı. Valehedici kəsmik iyi hiss olunurdu.

At çapmaqdan əyilmiş ayaqlarını əyri ata-ata həmişəki kimi addım-addım Z. aşağı, çay qırağındakı limana tərəfə enməyə başladı.

Mən onun ardınca getdim.

Saat altıda çıxmış kater aramla fınxıraraq Dnepr çayı ilə aşağı üzürdü. Mən içəridə, tryumda oturmuşdum və hərdən yuxarı qalxanda görürdüm ki, maxnoçu çapar göyərtədə durub. O, sudan çıxarılmış balıq tək acgözcəsinə insanın dodaqlarını və burnunu sanki sancan çay havasını udaraq, qəribə bir acgözlüklə al qırmızı qapaqlarla əhatələnmiş gözləri ilə diqqətlə qamışlıqlara baxırdı.

Kazak şəhərciyi limanının yaxınlığında mən onu itirdim.

Bir dəqiqəlik çayxanaya satıcının milisdən qorxaraq göy minalı çaydandan süzdüyü şərabdan dadmağa getdim. Elə həmin an çapar yox oldu.

O haraya gedə bilərdi axı? Avtobusla Malaya Ardaşinkaya kiməsə qonaq getdi?

“Aromatnaya”dan (çaydana doldurulmuş spirt qatılmış şərabı satıcılar belə adlandırırdılar) bir stəkan da içib, Z. Haqqında tamamilə unutdum.

Bu çapar və onun tanışı (mən onu elə də görə bilmədim) yalnız on üç – on dörd il sonra, atam da, çapar da artıq dünyalarını dəyişəndən sonra yadıma düşdülər.

3

Füsunkar payızın oğlan çağı idi. Sahələrdə yığılmamış pomidorlar qızarırdı, pomidorların və alaqların arasında sanki ovçularda güllə və qırmaların olmadığını hiss edib cəsarətlənmiş dovşanlar hoppanırdı.

Artıq 1990-cı ilə qədəm qoymuşduq. Bu il xalqın səsi ucalan və milli qürurun oyandığı il idi, gizli arzuların və ümidlərin yarandığı il idi, hədsiz lovğalıqlar və dəhşətli alçaqlıqlar ili idi.

Babamın evi artıq çoxdan satılmışdı və bu kiçik kazak şəhərciyində qohumlardan heç kəs qalmamışdı. Ona görə də avqust-sentyabr aylarında mən oraya tamamilə heç bir məqsədim olmadan gedirdim.

Günlərin birində limanda gəmidən düşüb və nə edəcəyimi bilməyərək, həm də əməlli bir məşğuliyyət tapmayaraq başladım sahil boyu gəzişməyə. Sonra tələsmədən avtobus dayanacağına getdim.

Bir qadın o birisinin qulağına deyirdi:

– Eşitmisən? Xəbərin var bizim Malaya Ardaşinkada nələr baş verir? Oy, Qalyuşa, bilmirəm sənə necə danışım!

– İndi avtobus gəlir də… orada danışarsan.

Avtobus gəlib dayanacaqda durdu. Həmin qadınlarla bir yerdə mən də avtobusa mindim. İçəridə adam əlindən tərpənmək olmurdu. Darısqallıq idi və artıq bu avtobusa minməyimə peşman olmuşdum ki, bu zaman həmin qadınların qızğın pıçıltısı yenə eşidildi:

– Ardaşinkada milis quldur dəstəsilə oturub durur! Zəmanəyə bax! Camaatın isə heç vecinə də deyil! Lap dünya belə dağılsa da. Yuxarılara da yazmışıq və sair və ilaxır… Heç bir faydası yoxdur. Rayon hakimiyyəti öz işləri ilə məşğuldur. Vilayətdəkilərinə isə səsimiz çatmır…

Bir neçə kilometr uzanan o kazak şəhərciyini hələ də tərk etməmişdik. Mən avtobusdan düşməyə qəti qərar verdim. Düşüb liman tərəfə getmək, lap elə çayxanaya getmək…

Bu anda kimsə məni yavaşca kürəyimdən itələdi. Mən arxaya döndüm.

Üzünü iyirmi ildir ki görmədiyim və şəhərcikdən hansısa bir xutora köçmüş babamın keçmiş qonşusu və bəzilərinin dediyinə görə, uzaq qohumu olan Yuxim sevinclə durub düz burnuma baxırdı.

Diqqətlə baxandan sonra anladım ki, Yuxim çəpgöz idi, ona görə də elə təsəvvür yaranırdı ki, o, adamın gözlərinə yox, burnuna baxır. Bunu nəzərə almasaq, Yuximin zahirindən onun sağlam insan olduğu bəlli olurdu. Hətta, bir zamanlar adətən çay gəmilərinin şkiperlərinin və limanda çalışan matrosların geyindikləri rəngi solmuş gödəkcədə və formasını itirmiş kətan şalvarda belə o, əla görünürdü.

– Arvadım cavandır, – Yuxim mənim baxışımı anlayaraq dedi. – Ona görə də halım yaxşıdır. Gəl gedək bizə, qonağım olarsan. Təzə şərab içərik. Deyirlər, sən indi Moskvada yaşayırsan. Oralardakı vəziyyətdən danışarsan. Televizorumuz çox

pis göstərir. Buralar da ki, çöllük-biyabanlıqdır… Sabah isə – qayıdarsan. Necədir?

Yuximin evi, ya da özü dediyi kimi – daxması, kiçik iki küçədən ibarət xutorun tam ortasında yerləşirdi.

– Bizi buraya Stolıpin salıb, – Yuxim çoxdankı və sanki gizli bir məsələ ilə bağlı etiraf edirmiş kimi sevinclə dedi. – Elə o vaxtdan burada yaşayırıq. Dünyadan heç xəbərimiz yoxdur. Gedək çardağa. Arvad da indicə qayıdacaq, yeyib-içərik.

Yuximin həyat yoldaşı çox gözəl idi. Daha dəqiq desək, nə vaxtsa çox gözəl olmuşdur. Lakin indi də belə, yaşı qırxdan çox olmasına baxmayaraq, cazibədar idi. Hündürboy, şux qamətli, lazım olan qədər ətli-canlı, addım atarkən bəzi başqa qadınlarda olduğu kimi qarnının üstündəki piylər silkələnməyən. Əynində dəbli dar ətək və altından heç bir kofta olmayan düyməli boz jaket var idi. Vasilina dodaqlarının uclarını qaldıraraq, sevincli və eyni zamanda bir qədər kədərli baxışlarla baxırdı. Bu zaman qarabəniz uzunsov sifətindəki iti yunan burnu nəzərə çarpan dərəcədə ağarırdı.

Vasilina Yuryevnada dəbsiz bir şey vardısa, bu da 50-ci illərin dəbinə uyğun tac şəklində hörülmüş tünd-şabalıdı saçlar idi. Mənim barəmdə Vasilina ömründə eşitməmişdi və o, ümumiyyətlə, Yuximin qohumlarını sevmirdi.

– Elə onlardan qaçıb gəlmişik buraya, – Vasilina masaya pomidor, xiyar və soyuq vareniklər yığaraq ciddi-ciddi dedi. – Sənin o xəsis və acgöz qohumlarının əlindən qaçmışıq.

– Bəsdir, Vasilina. O, ümumiyyətlə, Moskvadandır… Və sən düşündüyün o adamların qohumu deyil. İvan Yepifanoviçin nəvəsidir…

– Moskva? Hə, Moskva ola bilər bir işimizə yarasın, – Vasilina bunu deyəndə səsində kazak kəndlərindən get-gedə

uzaqlaşan Paytaxta bəslənən ümiddən daha çox istehzalı qərəz hiss olunurdu.

– Yaxşı, gedim həlim gətirim.

Vasilina çıxıb gedəndən sonra Yuxim baba qulağının arxasını qaşıyıb ağcaqanadları sifətindən hirslə qovaraq bir az da utancaq tərzdə dedi:

– O düz deyir. Mən səni görən kimi fikirləşdim ki, köməyin dəyə bilər! Bizdə burada quldur dəstəsi peyda olub. Əsl quldur dəstəsidir! Vətəndaş müharibəsi zamanı olduğu kimi. Hakimiyyət dəyişikliyini hiss ediblər. Ona görə də xutorlarda özbaşınalıq eləməyə başlayıblar, Tanrı bizi qorusun. Ən qorxulusu isə odur ki, həyasızcasına istədiklərini eləyirlər. Birini dükan qarət etdiyinə görə tutdular – o isə hamının üzünə durub dedi: “Onsuz da məni sabah buraxacaqlar, sizin başınıza isə oyun açacaqlar!”

Elə də oldu! Buraxdılar onu. Rayon milisi də, vilayət milisi də onlarla əlbirdir. Vilayətdən bir mayor gəlmişdi. Qonşunun evində cecə arağı içib öyünürdü. “Kolxozların sonu çatıb, – deyirdi, – yenidən torpaq bölgüsü aparacağıq. Yeni mülkiyyətçi gələcək. Xutorunuz da keçəcək onun əlinə. Sizi, səfehləri, isə Xantı-Mansiysk muxtar vilayətinə icbari əməyə göndərəcəklər!”

Mən nə isə anlaşılmaz bir şey mızıldadım.

– Bacıoğlu, sən bu məktubu götür. Moskvada baş milis rəhbərliyinə çatdır. Biz kolxozda heç vaxt olmamışıq, onun haqda heç eşitmək belə istəməmişik, lakin bu quldurları buradan qovmaq lazımdı. Hə, de görüm, çatdırarsanmı?

– Niyə də yox? – Mən quldur dəstəsinə bir o qədər də inanmırdım, satqın milis məsələsinə də.

Yuximin daxması üzərində ay yalnız qumlaqda yer altından təzə çıxarılmış və ona görə də saxta olmayan, öz əsl tünd

qızılabənzər sehrli işığını saçmağa başlamışdı. Artıq ilk ulduzu doğulmuş sonsuz səma, elə bil ki, qumlar üzərində azacıq yellənirdi. Təzə, hələ yetişməmiş şərab dil və dodaqları qıcıqlandırdı. Haradasa kazak arxı (Dneprdən hələ XVIII əsrdə balıq ovu və hərbi əyləncələr üçün yoxsul kazaklar tərəfindən qazılmış arx) üzərində axşam quşları ötüşürdü. Həyat burada sanki əsl cənnət idi. Seyrək akasiyalardan və uzaqdakı şam ağaclarından gələn bu qumluğun sərinliyi bu hissi daha da gücləndirirdi…

– Vasilina! Bir bura gəl görüm.

Vasilinadan səs çıxmadı.

– İndi məktubu gətirdərəm bura! Yoxsa içib unudarıq. Vasilina! Harada qaldı bu?

Yuxim baba masa arxasından qalxdı və o dəqiqə onun üzündə bir çaşqınlıq və pərtlik əks olundu. Tezliklə bu ifadələr kin və hiddətə çevrildilər.

– Qancıq yenə Qnaşkagilə qaçıb gedib! Yenə! Getdik mənimlə. Çıxardarıq indi onu oradan.

– Bu Qnaşka kimdir ki axı? – özüm heç bilmədən bunu niyə soruşdum.

– Qnaşka? – Yuxim baba hirsindən hətta dayandı. – Var burada bir qəssab. Yaşı səksəni keçib, özü isə hələ də qadınlardan əl çəkmir. Deyilənlərə görə, birinin hətta başını kəsib. Ancaq sübut edə bilmədilər. Bir on beş il bundan əvvəl… Yaxşı, bir görək hələ bu qancıq o maxnoçunun evindədirsə!

Bu sözləri eşidəndə artıq mən dayandım.

– Deməli Qnaşka maxnoçudur?

– Əlbəttə! Bəs mən sənə nə deyirəm! İyirmi beş il yatıb qayıdıb, o vaxtdan yalquzaq kimi tək yaşayır. Təkcə arı saxlayıb bal toplayır, bir də ki, üzüm yetişdirir. Bir də şey… Ağac köklərindən nə isə kəsir-oyur. Fiqurlar düzəldir. Qəşəng

fiqurlardır, amma adamı qorxuya salır. Gecə görsən – dəhşət bürüyər. Özü isə güclü və kötük tək möhkəmdir, bunu inkar edə bilmərəm. Hələ də mal-qaranı sallaqxanaya aparmağa onu çağırırlar.

Sallaqxana burada, yaxınlıqdadır. O isə hər dəfə heyvan kəsilməmişdən qabaq məzə üçün öz əlləri ilə onu öldürür. Buynuzların arasından yumruğu ilə necə vururs, buğa sərələnir yerə. Qnaşka isə çəkməsinin boğazından bıçağı çıxarıb, yazığın boğazını necə üzürsə, qəssablara ondan sonra bir iş qalmır artıq. O isə, alçaq, əyilib barmağını kəsilmiş yerə salaraq boynu elə səlis kəsir ki, yara nazik olur və bu zaman o, əyilərək, qanı iyləyir. Bu dəmdə lap əsmə tutur onu. Görünür, öküz qanı dadmaq istəyir. Amma içmir nədənsə… Gəl, bir az cəld ol!

Yuxim baba ayaqyalın incə, külə dönmüş payız tozu üzəri ilə doqqaza tərəf tələsərək məni də özü ilə güclə dartırdı.

Doqqaza çatanda mən onu dayandırıb soruşdum ki, kəndə Nestor Maxnonun keçmiş çaparı və bəzilərinin dediyinə görə hətta adyutantı olmuş, Z. soyadlı şəxs gəlməyib ki?

Yuximin bunu təsdiq etməsinə baxmayaraq, bütün fikri-zikri artıq Qnaşkanın komasında idi.

– Yaxşı, bir dayan, əyər bu qancıq oradadırsa..!

Qumluqda boğuq atəş səsləri eşidildi. Sonra ikinci, üçüncü.

– Banda! Banda… – Yuxim baba qorxusundan hətta yerə çökdü belə. Sonra təşviş içində ora-bura qaçmağa başladı.

Lakin sevgi qorxuya qalib gəldi və heç bir dəqiqə keçməmiş o, evdən ustalıqla işlənmiş, qundağı naxışla bəzədilmiş qədimi tüfənglə qayıtdı. Ay və ulduzların işığında tüfəngdəki naxışlar gözə çarpırdı. Bu naxışlar sanki öz gizli, tüfəngin təyinatından, yəni, vurub-öldürməkdən ayrı bir həyatlarını yaşayırdılar…

– Gəl dalımca, gəl, indi biz bu Qnaşkaya baxarıq!

Elə ayaqları yarıbükülü halda, əyilə-əyilə Yuxim özünü uzun qumlu küçənin atəş səsləri gələn səmtin əks tərəfində yerləşən qurtaracağına atdı.

Küçənin sonunda kiçik bir döngə, dalan var idi.

Çox da hündür olmayan, üstü şiferlə örtülü evin həyətində işıq yanırdı. Ağacın altında skamyada Pan əyləşmişdi. Dik alınlı, gicgahlarındakı ağ saçları qıvrım-qıvrım, keçəl və nəhəng! Nə zamanlarsa məharətli sənətkarın onu məşhur rəsm əsərində incəliklə təsvir etdiyi kimi.

Panın qabağındakı masa üzərində bir litr yarımlıq qrafin dururdu, o özü isə arı şanlarından köynəyinə damcılayan balı sovururdu. Nə atəş səsləri, nə də ki həyatda baş verən digər hadisələr onu, görünür, maraqlandırmırdı.

Yuxim baba qətiyyətsiz dayanıb tüfəngi aşağı, qundağı üstə yalın ayağına söykədi. Mən onu artıq arxadan itələmək istəyirdim ki, yəni "keçək içəri!" (Panın qəhvəyi, sanki akasiya ağacının qabığı ilə örtülmüş sifətinə yaxından baxmaq, onun çox güman ki, güclü və qalın olan səsini eşitmək mənə çox maraqlı idi.)

Lakin elə bu zaman döngə arxasında yerləşən əsas küçədən narahat öskürək səsi gəldi, Yuxim baba arxaya dönüb harasa tələsən Vasilinanı gördü və biz ikimiz də dərhal ora atıldıq.

– Haradaydın sən belə?

– Sən atanın tüfəngini niyə götürmüsən? O, heç atəş də açmır axı.

– Mənim əlimdədirsə – açar. Məndə toyuq belə xoruz tək banlayar! Bir də soruşuram – haradan gəlirsən?

– Sakit ol. – Vasilina bir anda ciddiləşdi. – Gəlin tez evə qayıdaq! İdarədə idim, milis çağırdım. Dedilər ki gələcəklər.

– Dəqiq? – Yuxim baba şübhə içində ağ qaşlarını qaldırdı.

– Bundan dəqiqi heç ola da bilməz. Rayona yeni leytenant göndəriblər. Artıq yoldadır. Bu quldurların əlindən təngə gəlmişik! Hiss edirəm ki, o, hər şeyi nizam-intizama salacaq. Özü də cavandır! Hə, nə oldu? Belə olar e! – Vasilina sakitcə gülərək Yuximin yalın ayağını tapdalayıb dedi:

– Eh, Yuşka! Çoxdan səni cavan birisinə dəyişərdim, lakin Tanrıya acıq gedər.

Vasilina yavaşca Yuximin saçlarına sığal çəkdi.

Mən çevrilib Qnaşkanın evinə baxmağa başladım.

Həyət və çardağı xutorun əsas küçəsindən yaxşı görmək olmurdu. Darvaza və doqqazın qabağı isə aydın görünürdü. Darvaza iki möhkəm sütun üstündə bərkidilmişdi.

Sütunların birinə uzun damdabaca saqqalı hörülmüşdü, saqqaldan yuxarıdakı hiyləgər kök sifətdə sanki elektrik qığılcımları oynayırdı. İkinci sütuna isə bel hissəsindən bir qədər əyilmiş iki supərisi sarılmışdı. Supəriləri bir-birinə şəhvət dolu təbəssümlə baxaraq quyruqlarını dolaşdırmışdılar.

– Gözəl oyur, – Vasilina nəzərimi Qnaşkanın darvazasından çəkə bilmədiyimi görüb dedi. – Yaxşı kəsib-oyur, gümrah və şən. Onun oymaçılığı ətrafa sanki canlılıq qatır.

– Bir sözlə – qəssabdı! – Yuxim baba bu sözdən sonra hətta yavaşca diksindi. – Əvvəl ağac kəsib-oyur, sonra isə insanları!

Doğulmuşam qoçu kimi,
Yaşayıram qəssab tək,
Anam doğanda da məni
Tuturdum naqanı bərk! –

Bu elə onun haqqındadır!

– Eh, Yuşka, –deyə Vasilina təəssüflə dilləndi. – Qocalıb getdin, amma bu həyatda heç nə anlamadın. Rus kişisi kimisə kəsib-doğrasa belə, bunu məharətlə edəcək. Və səbəbsiz də bunu etməz. O, əgər əsl rus kişisidirsə qətlə yetirmədə də sənətkardır, adam kəsib-öldürməkdə də mahir ustaddır! Sənin kimi ət kombinatında olan bir qəssab deyil!

– Rus, rus, – Yuxim baba mısmırığını salladı. – Mən özüm rus deyiləm guya.

– Russan, amma başqa cür. Nə səksənirsən? Bura sənin üçün Polşa Seymi deyil. Qara dəniz sahilində yerləşən Rus torpağıdır!

– Eşitməmisən? Rus dilində çox danışanları bu gün-sabah bıçaqlayıb canlarını alacaqlar! Ona görə də bu mövzuda çox çərənləmə.

– Ay, səni, axmaq, bax, səni sevməyimin səbəblərindən biri də belə avam olmağındır! Kim ixtiyar verər ki, bu bande-raçılar rusları da, yəhudiləri də, krımçaqları da öldürsünlər? Haydı, qayıdın evə! – Vasilina hirslənərək qışqırdı və qoluma girrdi. Bu zaman, o, ombası ilə mənə elə yapışdı ki, hərarətim qalxdı.

“Təkcə elə bu çatmırdı” - deyə fikirləşdim.

– Milis gəlib hər şeyi yerinə qoyar, – deyə o, bir qədər mülayimləşərək dedi.

Üç stəkan şərabdan sonra mən tezliklə dərin yuxuya dal-dım.

Vasilina çiynimdən məni yavaşca silkələyəndə isə oyan-dım. Pəncərələrdən yenicə açılan səhərin günəş şüaları düşür-dü.

“Həə, başlandı”, - deyə düşünüb gözlərimi bir az da möhkəm yumdum.

– Qonaq, dur, – deyə, Vasilina pıçıldadı. Səsindən ağladığı hiss olunurdu. – Dur! Milisi öldürüblər, motosikleti də itib. Xutorun ətrafında bütün gecə atışma səsləri gəlirdi…

4

Yuxim baba çiynində qədimi tüfəng xutorun əsas küçəsi ilə qürurla addımlayırdı. Əvvəlcə o, mənə fikir vermək istəmirdi. Sonra özünə gəlib yaxınlaşdı və dodaqları ilə az qala qulağıma girərək narahat tərzdə pıçıldadı:

– Məktubu itirməmişssən ki?

Mən əlimlə cibimi yoxladım.

– Bax ha, itirmə!

Kimi aram qaçışla, kimi yaşlılara xas kiçik addımlarla, bir sözlə, camaat Qnaşkanın evinin ətrafına yığışırdı.

– Ay qəssab! Ay lənətə gəlmiş qəssab! – Yuxim baba sakitləşmək bilmirdi. – Gör nə eləyib, gör nə oyun çıxarıb…

Koftasının üstündən çiyinlərinə bənövşəyi yaylıq örtmüş qadın naxışlı darvazaya daha yaxın durmuşdu. İçəri girməkdən qorxurdu. Düzdür, hətta doqqazdan belə hər şey açıq-aydın görünürdü: masa arxasında skamyada üzü qapıya tərəf milis leytenantı yarı-uzanmış vəziyyətdə qalmışdı. Poqonunun biri sökülmüşdü, sağ gözündən bir az yuxarıda isə kiçik dəlik qaralırdı.

Biz Yuximlə birgə ehtiyatla ora yaxınlaşdıq.

– Heç nəyə əl vurma! – deyə Yuxim baba tüfənginin lüləsini ayaqlarıma tərəf yönəldib qışqırdı. – Mən özüm burada milis gələnə qədər keşik çəkərəm.

Mən leytenantın cəsədinə diqqətlə baxdım.

Nazik, altında artıq qurumuş qan damcıları olan kəsik boğaz boyu bir qulaqdan o birinəcən uzanırdı!

Mən nəzərimi masaya yönəltdim. Orada nə arı şanları, nə də ki bir litr yarımlıq şüşə var idi. Yalnız sona qədər içilməmiş bir stəkan şərab dururdu. Ağırlaşmış ayaqlarımı güclə tərpədərək mən masaya yaxınlaşdım, əyildim və masa üzərindəki qoxunu burnuma çəkdim.

Qan… Stəkandakı qan idi!

"İç! – kimsə içərimdə həm şərab, həm də qanın qarışaraq sanki lıqqıldamasına bənzər bir səslə çığırdı. Bu səs ya qırmızı ordunun vəhşisi Sayenkonun, ya da ki ataman Qriqoryevin səsi idi. – İç, əclaf!"

Sanki huşsuz bir vəziyyətdə əlimi stəkana uzatdım.

– Çıx get buradan! Yoxsa öldürərəm! – Yuxim baba cin atına minmiş kimi qışqırdı. Mən əlimlə diqqətsiz hərəkət edib stəkanı bu xutorda tamamilə lazımsız olan şəhər yay pencəyinin qolu ilə masanın üzərinə saldım.

Stəkan düşüb boğuq səs çıxardı və yuvarlandı. Qan tökülüb armud ağacından düzəldilmiş masanın üzərinə yavaşca hopmağa başladı.

Mən həyəti tələsik tərk etdim.

Yolüstü Vasilinaya rast gəldim.

– Qonaq, sən buradan get. Bura sənin üçün Moskva deyil! Milisin əlinə düşsən – vay halına. Əvvəl sən şahidsən, sonra şübhəli şəxs, sonra da...və sair və ilaxır. Get və bizdən incimə… İndi hərbçilər gələcək. Yolu bir neçə saatlıq bağlayacaqlar. Ən maraqlısı odur ki, motosiklet itib. Onunla bir yerdə Qnaşka da yoxa çıxıb! O belə bir şey edə bilərmi? Oh, inanmağım gəlmir! Onun bu quldur dəstəsini görməyə gözü yox idi. Onları böcək adlandırırdı.

– O özü də quldur idi axı…

– Eh, o, haçansa çoxdan olan işdir. Bəzilərin dediyinə görə, qan içirdi – bunu o, ürəyi daş kimi möhkəm olsun deyə edirdi. Daş ürəklə, bacıoğlu, bu həyatda dəfələrlə daha asandı… Və o heç quldur da deyildi! O, əqidəcə anarxist idi. Yəni ki, hakimiyyətsizlik tərəfdarı idi. Düz də eləyirdi: hakimiyyət olan yerdə xəta-bəla da olar. Get, ay qonaq, qayıt Moskvaya, qoy bir öpüm səni, düşünmürəm ki bir də nə vaxtsa görüşək…

Kəndi avtobusla tərk etdim. Yolüstü, kazak limanının lap yaxınlığında "Ural" markalı milis motosikletini və ətrafında toplaşmış adamları gördüm.

Onlardan biri zabit formasında idi, lakin milis yox, hərbi zabit idi bu.

Günün qızmar çağı idi, göydən ağ dərili quzulara bənzər yüngül buludların arxasından günəş öz işığını yerə saçırdı.

5

İki həftə Qnaşka çöllü-biyabanlıqda gizləndi.

Qumlar üzərindəki küləklərin qurutduğu ruhlartək solğun xatirələr yaddaşında sayrışırdı. Çoxdan onu bezdirmiş həyat içilmiş qandan sonra damarlarında sanki yeni bir güc və qüvvə ilə axmağa başlamışdı. Son zamanlar qadınlarla işi yox idi, yazığı gəlirdi onlara. Mal-qara ona kifayət edirdi: məxməri zəriflik, ipək, quyruğundan qulaqlarınacan səksənən uzun heyvan bədəninin verdiyi həyəcan … Bəlkə də son iyirmi ildə Vasilinanı sevdiyinə görə başqa qadınlara meyli yox idi onun.

O, iki qum təpəsi arasında, qamışdan məharətlə düzəldilmiş komanın yanında oturub, ağac kökü oyurdu. Bu söyüd

ağacının kökü idi və yetərincə bərk idi. Lakin Qnaşka onu elə hey kəsirdi.

"Canlı bir varlıq kəsirəm sanki, – Qnaşka tilsimləyirmiş kimi təkrar edirdi. – Səpib, əkib, becərirəm. Kəsib, oyub, dirildirəm… Nə qədər çox kəsib-oysam – həyat onun canına daha da şirin görünəcək… Qan isə… Qan ağacdan da axır: göy, yaşıl! Ağac qanı içdin – bəs edər, başqa bir qan daha lazım da deyil. Görünür, adam əvəzinə ağaclar keçib mənim ixtiyarıma. Ağac kəsəcəyəm indi!"

19-cu ilin Vətəndaş müharibəsi haqqında xatirələr, Anarxiya və Qara dəniz sahilindəki Rusiyası, onların sonsuz qovuşmaları və ayrılmaları, sonra isə indiki həyat haqda fikirlər qəribə şəkildə bir-birinə qarışıb gah canüzücü ürəkbulanma, gah da təbəssüm doğururdu.

Belə ki, gözəl Vasilinanı qucaqlayan qısaayaq Nestor Maxno təsəvvürünə gəlirdi onun. Sonra isə ağbəniz Varkanı artıq burada Ardaşinkadakı daxmanın arxasına aparan qırmızı vəhşi Sayenko gəldi onun xəyalına. Böcəklərlə qaynayan, anarxiyaya, gözəl bir röyaya görə yox, pul və şəxsi mənfəətlərinə görə hamını vurub-öldürən və doğrayan alçaq quldurların zülm etdiyi indiki xutor da canlandı dumanlı beynində.

Sonra isə xəyallarına yenə Vasilina gəldi. Vasilinanın onu rədd etməsi, ağac ovan əllərinə necə həsrətlə baxması, və yaxınlaşıb dodaqlarından tez öpərək kədərlə deməsi:

– Hələlik bu qədər. Yuxim dünyasını dəyişər – qalanı sonra…

Qnaşka qumlaqda bardaş qurub oturmuşdu. Güclü payız günəşi onun alnını amansızcasına yandırırdı. Torpağın titrəməsi onun bədənindən keçib əllərinə və boğazınacan çatırdı. Artan gücü və içilmiş qandan sonra nə insan, nə də şeytan

tərəfindən eşidilməsindən qorxmayan Qnaşka, ucadan danışmağa başladı. Qum isə ona sakit pıçıltı ilə cavab verirdi.

"Niyə Nestor İvanıçı indiyənə kimi hamı yaxşı insan kimi xatırlayır? Batko Qriqoryevi isə – əksinə? Ona görə ki, Qnat Severinoviç, xalq anarxiyada olan ədaləti sevir. Rəhbərlikdən uzaqda olmasını sevir. Yəni ki, bu yüzilliklər ərzində hamının zəhləsini tökmüş istənilən hakimiyyətə qarşı adamlar qalxmağa hazırdırlar. Hakimiyyət – nə məfhumdur ki belə? Nə olan şeydir və əsl hakimiyyət necə bilməlidir? Əsl hakimiyyət – istənilən hakimiyyətdən imtina deməkdir. Ona görə də çox böyük və müqəddəs bir işdir bu. Misal üçün, son yüz il ərzində müqəddəs nə qalıb ki? Nikolayın dövründə də olmayıb müqəddəs bir şey. O ki qaldı Lenin-Xruşyov-Andropovun dövründə. İndikilərin hakimiyyətində isə ümumiyyətlə müqəddəslik anlayışı alçaldılmış haldadır və heç it dəftərində belə yoxdur…

Təkcə bir müqəddəs hakimiyyət var idi, Qara dəniz Rusiyası dövründəki Tanrının verdiyi hakimiyyət. Lakin az oldu o Rusiyanın ömrü. İndi isə… İndiki məmurlar hökumət qurmaq əvəzinə boşboğazlıq edirlər. Abırsız-həyasız arvadlar isə həmin o kişi qırıqlarıtək hakimiyyəti əzib-tapdalayırlar. Bu cür məmurlar və arvadlar istənilən hakimiyyəti satarlar. Hakimiyyəti Vasilina kimi ora-bura gəzməyən, yalanı olmayan, varlarını-yoxlarını hər şeyə satmayan qadınlara vermək əvəzinə…"

Vasilinanı yada salıb Qnaşka ayağa durdu və hirsli-hirsli əlindəki ağac parçasını bir qırağa atdı. Onu tər basmışdı, əynindəki ağ köynəyi bir neçə gün ərzində fosfor və duzdan qaralmışdı. Nə istini, nə də təri hiss etməyərək o, komaya girdi, tayadan dartıb saman çıxarırmış kimi oradan qoşalüləni götürdü, komanı yumruğu ilə vuraraq yerə saldı, və qəfil ağlına gəlmiş fikirdən gülümsəyərək xutora tərəf yollandı.

O, xutor boyu getdikcə, camaat ondan vaxtı ilə Dnepr sahilindəki şəhərciyin sakinləri qırmızı komandir Sayenkodan gizləndikləri kimi gizlənirdilər. O, irəli addımlayırdı və həyat ona asan, həm də rahat gəlirdi. Asan ona görə gəlirdi ki, çünki hakimiyyətin müqəddəsliyi və müqəddəs hakimiyyətsizlik haqqında heç düşünməyən və içib alverçiliklə məşğul olan cinayətkar dəstənin haradan gəldiyini və haraya getdiyini birdən anlamışdı.

"Bax, həmin bu Kənd Radasında yığışıblar onlar hamısı! Məhz orada!.. Necə deyərlər, oğurlamaq – günahdır, amma güc gələn də tamahdır!"

Qnaşka xutordakı ən yaxşı daş tikiliyə daxil olub kök, piy basmış milis mayorunun Radanın cavan sədrini necə qadın tək mehribanlıqla qucaqladığını görəndə, atəş açıb bir güllə ilə ikisini də yerə yıxdı. İkinci güllə ilə isə içəri otaqdan əlində "kalaşnikovla" qaçaraq çıxmış tanımadığı bir nəfəri öldürdü.

Sonra tüfəngi yerə atıb cibindən qatlama bıçağını çıxardı. Hələ nəfəsi gələn cavan sədrə yaxınlaşaraq boğazını kəsib qanını içmək istədi, lakin son anda fikrindən vaz keçdi.

Gözləri önündə hər şey su kimi aydın idi. Ürəkbulanması isə tamamilə keçmişdi.

"Daha qan bəsdir. Doydum artıq. Həm də bu satqının qanından bir xeyir gəlməz…" – belə qərara gələrək, Qnaşka daş tikilini tərk etdi.

Qapıda o Vasilinaya rast gəldi. Vasılına Qnaşkanı hələ küçənin əks tərəfindən görmüşdü və indi qorxusundan onun paltarının cırılmış qolundan yapışıb yerə oturmağa başladı.

– Vaxtı gələndə çağırarsan. – Get-gedə solub-ağaran Vasilinanı ehtiyatla kənara çəkərək Qnaşka dedi, – Mən qışı burada, yaxınlıqdakı bataqlıqda keçirərəm.

– Qnaşka, səni öldürərlər axı, – qırx yaşında da həyata coşqunluq və sevgi ilə baxan bu qadın Qnaşkaya pıçıltı ilə dedi.

– Öldürərlər? Bu mümkün deyil! Mən ölməzəm axı. Mən qaniçənsiz bu həyatda həqiqəti kim qoruyacaq…

Tələsmədən, beli tünd nöqtəli sarı-gümüşü suilanı kimi, Qnaşka xutordan sakitcə qamışlıqlara tərəf keçib getdi.

6

"… heç bilmirəm burada baş verənləri sənə necə izah edim", – Yuxim baba adi poçtla göndərilmiş və Moskvaya bir ay yarıma çatmış mənə ünvanladığı məktubunda yazırdı. – "Lap gizli müharibədir sanki. Müharibə və qatma-qarışıqlıq. Amma əsas məsələ müharibədə deyil. Müharibələr həmişə olub. Əsas məsələ müharibəni kimin və necə aparmasındadır. Kəndimizin işləri isə… Mərhum Vasilina düz deyirmiş. Rus kişisi adam öldürməkdə də məharətlidir, bunu çox gözəl edir. Bu sözlər elə bil Qnaşka, İqnat Severinoviç haqqında deyilib. O, təkbaşına bütün dəstənin axırına çıxdı. Sonra onun işinə baxdılar, etdikləri əməllər özünümüdafiə hesab olundu. Milis qanı içdiyi isə (hələ sən burada olanda) – düzdür. Ancaq sən Qnaşkanın həyətindəki skamyada gördüyün milis artıq ölü imiş! Quldurlar onu öldürüb Qnaşkanın həyətinə atıbmışlar ki, deməli, hamı qəssabdan şübhələnsin. Qnaşka da qanı içdi, canı bərkidi. Üç gündən sonra isə Radada yığışmış quldurların hamısını o dünyalıq elədi.

Özü isə yoxa çıxdı. Deyilənlərə görə, Sibirə üz tutdu. Canı da ki – oho-ho! Təkcə bir dəfə qan içməyib ki. Deyirlər, ömrü boyu içdiyi qandan ölümsüz olub. Nestor Maxno və ya

Nikolay Romanov kimi. Deyirlər indi də gəzişir Qnaşka özü üçün İrtış boyu! Bəzilərinin dediyinə görə, Tobolskda görüblər onu. Kilsənin girişi önündə əynindəki köynəyinin yaxası da açıq, durub hey eyni şeyi təkrarlayıb deyirmiş: "Oğurlamaq – günahdır, amma güc gələn də tamahdır"… O, bizə burada lazımdı! Çünki gəlmələrin burada çıxardığı hoqqaları heç düşmənینə də arzulamazsan", – bu dərdlərdən məyus olmuş Yuxim məktubunda belə yazırdı.

"Qnaşkanın oyduğu fiqurları isə darvazasından söküb götürdüm. Evimdə saxlayıram. Mərhum Vasilinasız canım çox sıxılır. Hayıf ki onun sözlərinə o vaxt inanmırdım. İndi, ölən-dən sonra, artıq inanmağa başlamışam… Bacıoğlu, gəl bizə. Uzaq qohum olsan da belə, amma yenə də gəl. Çölün, ka-zakların əsl nəfəsini daha duymaq olmur burada. Camaatın çoxu Karpatıdan gəlir bura: kobud, simic…"

Kədər və məyusluqla məktubu özümdən kənara çəkdim.

Düşündüm ki, bir daha bu Novorossiysk düzlərini, Alyoşkovo qumlarını, cənub-rus və Ukrayna, həmçinin Orlov-skaya stanitsasının kazaklarının və Voronej molokanlarının təri və qanı ilə suvarılmış çöllərini görməyəcəyəm. Yuximin yaz-dığına görə, başqa yerdən gələnlərə kirayə verilmiş qəssabın daxmasını da artıq görə bilməyəcəyəm. Nə də ki, quyruqlarını, ya yasaq sevgi, ya da sonsuz ilahi bir nəğmə yaratmaq üçün bir-birinə dolaşdırmış su pərilərini.

Tale məni o yerlərə gətirsə belə, çətin ki Malaya Ar-daşinkaya gedim: həm bir qorxu var içində, həm məyusluq, həm də ki, qan iyi adamın ürəyini bulandırar.

7

Gözlərimi yumdum.

Xəyalımda dumanlı, yarımşəffaf, sanki əsrlərin və zamanın hüdudları görünməyən, qumlarla örtülüb unudulan rus cənubu canlandı. O, iri, kiminsə tərəfindən yarısınacan içilmiş insan qanı ilə dolu bir stəkan kimi tüstülənib cingildəyirdi.

Tərcümə edən: Kamran Hacıyev

Lyudmila Ulitskaya

Yaşamaq sənəti

(povest)

1

Bu lənətə gəlmiş qabaqlar bir neçə gün beynindən çıxmadı. Nəhayət ki, solğun, parıltılı, hamar beş dənəsini ala bildi… Axşamdan xeyli keçmiş qızartdı, səhər tezdən tələsik sous hazırladı və Qrişkadan ərzaq məhsullarını Lilyaya çatdırmağı xahiş etdi. Qabaqdan əlavə çuğundur salatı və kəsmik yaxması da əmələ gəldi. Lilkanın dişləri, demək olar, yox idi. Ağlı da çox deyildi. Gözəlliyi də. Əslində o, təkcə iri və sıyıq kimi bədəndən və sakit xeyirxahlıqdan ibarət idi… Onun xeyirxahlığı xəstəliyindən sonra sakitləşmişdi, nə qədər ki, Lilka sağlam idi, onun xeyirxahlığı da hay-küylü, haray-qışqırıqlı, ötkəm idi və bir qədər də üzlülüyünə salaraq, özündən faydalanmağı təklif edirdi. Və kim istədi, istifadə də edirdilər.. Gülməli idi: Lilyanın qızlıq soyadı Aptekman idi, peşəsi isə – əczaçı. Köhnə dildə – provizor. Düz otuz il o, birinci pəncərədə oturdu, fərq qoymadan hamıya gülümsündü və hamıya istədiyini verməyə, hamı üçün axtarmağa, tapmağa çalışdı… Sonra onu qəfil insult yaxaladı, və artıq üç il idi, xaricdə düzəldilmiş və rahat qoltuqaltısı olan əsaya söykənərək, axsaya-axsaya, geri qalan sol ayağını dalınca sürüyə-sürüyə evdə

gəzişməyə başlamışdı. Sol əli də indi daha çox görüntü üçün idi – iş görə bilmirdi…

Lilya Aptekmandan Jenyanın lap uşaqlıqdan zəhləsi gedirdi. Onlar həyatları boyu üç dəfə adını dəyişmiş köhnə küçədə, bir həyətdə yaşayırdılar. Valideynləri tanış idilər. Hətta deyirdilər ki, Jenyanın səksən yaşlı babası Lilkanın altmış beş yaşında cavan qarı olan nənəsinə elçi də düşübmüş. Jenya buna bir o qədər də inanmırdı: onun ləyaqətli həkim-otolarinqoloq, Şubertin və Şumanın həvəskarı, Siseronun nitqlərini latın dilində oxuyan ziyalı babası Lilyanın nənəsində, həmişə gülümsəyən bu bığlı, Ukrayna kəndlərinin rəvan nitqinə malik bu ipək dolabda nə tapa bilərdi? O vaxtlar Lilyanın hay-küylü tərbiyəsizliyi, heç bir əndazəyə sığmayan qarınqululuğu və hər yerə burnunu soxmaq həvəsi Jenyanı özündən çıxarardı. Lilya isə həmişə Jenyayla dostluq etmək istəmişdi – lakin Jenya onu özünə yaxın belə buraxmırdı.

Hərəsi bir tərəfə getdilər, uzun illərə ayrıldılar və biri o birini ümumiyyətlə xatırlamadı. Bəlkə də, heç ölənə qədər də xatırlamazdılar, əgər Jenya təxminən on il bundan əvvəl ölməkdə olan anası üçün nadir və az tapılan dərman axtarışında bütün Moskvanı ələk-vələk etməsəydi, uzaq rəfiqələrindən biri də ona aptekdə işləyən başqa bir uzaq rəfiqəsi vasitəsi ilə həmin dərmanı tapmağı boyun olmasaydı. Heç onda da Jenyanın ağlına belə gəlməzdi ki, həmin aptekçi qadın Lilya Aptekman ola bilər. Amma müəyyən bir vaxta qədər gizli qalan aptekçi qadın gözlənilmədən zəng etdi, dozanı dəqiqləşdirdi, kimdənsə xahiş etdi, harasa sifariş verdi, əvvəl nə üçünsə alınmırdı, lakin birinci zəngdən iki həftə sonra özü zəng etdi və sevincək səslə tapdığını dedi… O vaxt Jenyanın anasına nə isə başqa, daha ağır bir preparat vurmağa başlamışdılar və onun vəziyyəti lap pis idi – Jenya günlərlə xəstəxanada otururdu. Və tanıma-

dığı aptekçi özü dərmanı götürüb gəldi – dedi ki, yolunun üstüdür, cəmi iki dayanacaq o yanda yaşayır...

Jenya tanımadığı qəşəng eynəkli tosqun xalaya qapını açdı, o da dərhal həyəcanlı səslə oxşamağa başladı:

- Jeneçka! Mənə birinci dəfədən səs tanış gəlmişdi axı! Mənim əzizim! Deməli, belə çıxır ki, mən bu vinkristini Tanya xala üçün tapırdım! İlahi! Jeneçka! Sən heç bircə damcı da olsa dəyişməmisən! Bəs belin! Gör belin necədir! Məni tanıya bilmirsən? Yəni mən elə dəyişmişəm? Mən Lilya Aptekmanam, on səkkizinci mənzildən…

Jenya heyrət dolu çaşqınlıqla eynək altındakı gözlərini bolluca rəngləmiş bu gombul qadına baxır, onun kiməsə… nəyəsə... oxşadığını tapmağa çalışırdı… Bu kök arvad sevinclə danışmağına davam edərək, cüt olmayan əlcəklərini çıxardı, iki çantasını döşəməyə qoydu, üçüncüdən isə içində dərmanlar olan karton qutuları çıxarmağa, üzərilərindəki yazılara baxmağa başladı…

- Lilya Aptekman! Gör neçə il keçib? – Jenya süstlüklə cavab verdi.

Və hər şeyi-hər şeyi xatırladı - gah piroq, gah vatruşka çeynəyən gombul qızcığazı və onun qəşəng bacısını, atasını, cüssəli, qırmızısifət təsərrüfat işçisini. Onu xidməti maşın gəzdirirdi, sonra isə bir dəfə uzun müddətə, düz beş illiyə apardı… Və hətta Lilyanın azadlığa çıxmış atasının yorğun və bədbin qoca kişi kimi qayıtmağını da xatırladı. Sonra isə o başqa dominoçularla birgə həyətdəki skamyada oturar və onlarla araq içərdi. Xatirəsində təsadüfi bir mənzərə də canlandı: artıq tamam böyümüş, iri döşlü qıza çevrilmiş Lilya sərxoş atasını evə aparır və aca-acı ağlayır… Və başqa heç nə xatırlamırdı, çünki Aptekmanlar harasa köçdülər...

- Soyunsana, Lileçka, niyə qapıda durmusan? – və Jenya şişkin çantaları döşəmədən qaldırıb, taburetin üstünə qoydu, Lilyanın əynindən sürtülmüş, sinə daşı kimi ağır qıllı paltonu çıxarmağa bağladı. Lilya isə oxşamağına davam edirdi:

- Keçərəm, əlbəttə, keçərəm. Mən təsadüfən qeyri-adi dərəcədə boşam – adətən, mən dəli kimi evə qaçıram, indi isə tətildir, qızlarımı Teatr Cəmiyyətinin qış düşərgəsinə göndərmişəm, Fridmanım isə ezamiyyətdədir... Ah, nə yaxşı ki, Jeneçka, səni tapdım! İndi mənə hər şeyi - hər şeyi danışarsan. Sən, axı, həmişə elə qeyri-adi olmusan ki! Sən həmişə ən ağıllı olmusan, mən isə əsl gicbəsərin biri… inciyirdim ki, mənimlə dostluq etmək istəmirsən. Əslində sən mənim ən yaxın rəfiqəm idin: çox-çox illər, elə bütün uşaqlığım boyu, hesab et, yatmazdan əvvəl sənlə danışırdım. İndi deyə bilərəm – sənə etiraflarımı edirdim.

Lilya tez-tez, ucadan və ifadəylə – üçüncü sinifdə oxuyan qızcığaz əzbərdən şeir deyirmiş kimi – danışırdı.

- Yemək istəyirsən? Bəlkə, çay qoyum? - Jenya yorğunluqla soruşdu. Saat on birə işləyirdi, işlərinin isə sonu görünmürdü.

- Yox, yemək yeməyəcəyəm… Bəlkə də azca… Çay isə içərəm, əlbəttə…

Və Jenya məhkum olunmuşlar kimi mətbəxə keçdi, Lilya da kişi ev başmaqlarını bərkdən şappılda-şappıldada onun dalınca düşdü.

- Yox, sən bir düşün, gör bir necə olmalıymış. Mən mərkəzi aptekə də zəng etdim, Kreml aptekinə də, bütün əlaqələrimi işə saldım, hamıya deyirəm – qohumum üçün lazımdır. Əslində elə də oldu – sən mənim üçün qohum kimisən. Tanya xalaya necə də yazığım gəlir! Bilirsən, bu kimya ki var, olduqca səmərəlidir, amma özlüyündə çox yaman şeydir.

Jenya başı ilə təsdiqlədi. O artıq bilirdi ki, anası xərçəngdən ölmür, kimya bəd xassəli hüceyrələri yeyirdi və şiş də sanki çəkilirdi, amma həyat onlardan da tez axıb gedirdi…

- Mən elə hey sizin pəncərəyə baxırdım: sən pianino arxasında oturmusan, çalırsan, pianinonun üstünə isə şamdanlar qoyulub. Bir də şəkil asılıb – meşə mənzərəsi, qəşəng bir şəkil, qızıl çərçivədə… Mən sənin ulu babanı da xatırlayıram, qara şlyapada gəzərdi, cibləri də nanəli konfetlə dolu... Olurdu ki, çəkməçi emalatxanasına gedərdi, tor çantası da ki köhnə ayaqqabı ilə dolu, həyətin ortasında dayanardı, konfetləri uşaqlara paylayardı...

Jenyaya sanki od basdılar: bu xatirələr yalnız onun özünə məxsus idi, yalnız ona, indi artıq, demək olar, tamam köçmüş anasından savayı dünyada heç kəs yay gününün bu mənzərəsini xatırlaya bilməzdi: projektorlarla işıqlandırıldmış həyətin ortasında onun səkkiz yüz altmış birinci ildə, təhkimçilik hüququnun ləğv olunduğu ildə doğulmuş və doqquz yüz əlli altıncı ildə vəfat etmiş ulu babası durmuşdu... qara şlyapada, ağ, altından boz-mavi qalstukun qalın düyünü görünən vurulmuş saqqallı ulu babası… İçində köhnə ayaqqabı olan tor çanta da, cibindəki konfetlər də - hər şey həqiqət idi, lakin şəxsi, Jenyanın həqiqəti idi. Budur, indi məlum olur ki, dünyada həmin o həyatın, Yeni Arbatın arsız asfaltının basıb əzdiyi həyatın təkcə onun yuxusuna girmədiyini tədiqləyəcək, ona şahidlik edə biləcək daha bir insan var…

- Lileçka, doğrudan yadındadır?

- Əlbəttə, hər şeyi son qəpiyinə kimi xatırlayıram… Sizin ev qulluqçunuz Nastyanı da, pişiyiniz Murkanı da, yemək otağındakı üstünə şal sərilmiş divanı da… və nənəniz – necə bir qadın idi, Ada Maksimilianovna, «toyuq pəncəsi» dama-dama kostyumda gəzərdi… əsil əcnəbi idi…

Lilya burnunu çəkdi.

- Polyak idi, - Genya pıçıldadı, - bəli, dama-dama kostyum da…

Bu an Lilya eynəyini çıxartdı, tünd kişi cib dəsmalı ilə gözlərinin axmış tuşunu silməyə başladı. O, bunu bacarıqla edirdi, barmaqları ilə bir-birinə yapışmış kirpiklərini məharətlə düzəldirdi. Sonra kosmetika qabını, onun da içindən yerli məhsul olan qaba tuş qutusunu, göz üçün yağlı karandaşı və yumru əl çantası güzgüsünü çıxartdı, dodağını dişləyərək, yay-ğınlanmaqda olan gözəlliyini boyamağa başladı… İşini başa vurdu, kasıb qadın təsərrüfatını çantasına dürtdü və sakitcə, ümumi ölçülərinə görə kiçicik əllərini məktəblisayağı bükərək, hekayətinə başladı…

- Mən çox xoşbəxt qadınam, Jen, ərim yaxşıdır, qızlarım da ki, gözəl.

Deyim forması məzmuna heç cür uyğun gəlmirdi – intonasiya çox qəmgin idi. Lilya ah çəkib əlavə etdi:

- Hər şeydən çox böyük oğlumun anası kimi xoşbəxt idim. O, on yaşında öldü.

Burada Jenya ikinci dəfə diksindi.

- O… O, mələk idi. Belə insanlar olmur. İşdən gəldim, o isə divanda uzanıb – ölmüş halda. Onun anevrizması vardı və heç kəs də bilmirdi, - Lilya izah etməyə başladı. - Sap-sağlam oğlan idi, heç bir dərdi yox idi, heç vaxt da xəstələnmirdi, bax beləcə – məktəbdən gəldi və öldü. Qızlar olmasaydı, özümü asardım. Onda qızcığazlar cəmi yaş yarımlıq idilər…

Jenyada qaranlıq bir şübhə yarandı – ölmüş uşaqlar barədə hekayəti o bir dəfə artıq eşitmişdi…

- Onlar necə… hər şey qaydasındadır?

- Şükür olsun Tanrıya! Deyirəm də sənə, çox gözəl qız-lar olublar.

O, eynəyini taxdı, tünd rənglənmiş gözləri ilə Jenyaya baxdı, yenidən çantasında qurdalandı və fotoatelyedə çəkilmiş fotoşəkli ona göstərdi: iki uzunsaç, ərköyündodaq qızcığaz qüsursuz boyunlarını bir-birinə tərəf uzadaraq oturmuşdular…

- Mən sənə başqa şeydən danışmaq istəyirəm, Jeneçka. Mən Tanrının köməyi ilə sağ qaldım.

Seryojenka isə məni İlahinin yanına gətirdi. Onun ölümündən yarım il sonra mən xaç suyuna girdim. Qohumlarım – atam artıq yox idi, - anam, xalalarımın hamısı, bacılarım məni danışdırmadılar. Lakin sonra hər şey yoluna düşdü. Və mən rahat oldum. Yəni pis olmağına pisdir, amma İlahinin kömyilə Seryoja mənimlə qaldı və mən onun varlığını lap çox hiss edirəm. Və bilirəm ki, bizim hamımıza, xristianlara, vəd edilib ki, bu həyatda olmasa da, o biri həyatda o, məni mələk qiyafəsində qarşılayacaq… Tək bircə şeylə bacara bilmirdim – elə hey ağlayırdım.Yemək bişirirəm, ya da pəncərədə otururam, insanlarla danışıram, ya da sadəcə trolleybusda gedirəm, heç özüm də bilmirdim ki, göz yaşlarım axır. İnsanlar isə görürlər. Fikirləşdim, fikirləşdim, gözlərimi rəngləməyə başladım. Tuş, axı, yandırır, yaş axmağa başlayan kimi, dərhal xəbər tuturam. On iki il keçib, göz yaşı isə hələ də axır… Mən artıq rəng çəkməyə öyrəşmişəm, səhər duran kimi, birinci növbədə…

Jenya yenə təsirləndi, burnu gicişməyə başladı.

Lilyanın həlim gözləri küçə fahişəsinin gözləri kimi rənglənmişdi, sifəti isə elə nurlu idi ki, sanki onun özü ölmüş Seryojasına mənsub olmalı mələk qiyafəsində idi…

Lilya elə hey danışır, danışırdı, saata baxanda isə – gecə saat birə az qalmışdı.

Ah, mən necə də çərənçiyəm! – Lilya kədərləndi, - lap zəhləni tökdüm! Amma, Jeneçka, necə də yaxşı danışdıq! Trolleybus, yəqin artıq işləmir.

Jenya qalmağı təklif etdi. Lilya asanlıqla razılaşdı. Ləzzətlə çeynəyərək və ağzı ilə havanı sora-sora kəsmikli zapekankanın qalıqlarını yedi. Üstündən çay da içdi. Saat ikidə isə, Jenya aralıq otaqdakı taxtın üstündə ona yer salarkən, Lilya artıq yanğın maşını rəngindəki qalın koftasını soyuna-soyuna Jenyaya dedi:

– Jeneçka, Tanya xala xristianlığı qəbul edib?

- Nənəmlə babam lüteran idilər. Anam isə – bilmirəm.

- Necə yəni? –Lilya təəccübləndi.

- Bizim qocalar inqilabdan əvvəl evlənmişdilər və hər ikisi də lüteranlığı qəbul etmişdi. Babam yəhudi ailəsindən olub, nənəm isə katolik idi və başqa cür onlar evlənə bilməzdilər… Anam dinə inanan deyildi. Sonrasını mən bilmirəm, xaç suyuna çəkilib, yoxsa çəkilməyib. Əgər çəkilibsə, deməli, o da lüterandır...

- Sən nə danışırsan? – Lilya heyrətləndi. – İşə bax, lüteran… Amma bunun fərqi yoxdur, lüteranlar da, axı, xristiandırlar. … Gəlsən, Tanya xalanın yanına keşiş gətirim.

Jenya yorğanın altında özünə rahatlıqla yer etmiş Lilyanın təpəyə bənzər bədəninə, rəngdən yuyulub təmizlənmiş, qırış və xalları olan yaşlanmış sifətinə baxırdı – onun minnətdar gülüşünün yarısı əzilmiş yastıqda batırdı. “O necə də yaxşı qadındır”, - Jenya düşündü.

Lilya yastıqdan başını qaldırdı, Jenyanın əlindən tutdu:

- Keşişi gətirmək isə lazımdır, Jeneçka. Mütləq lazımdır. Sonra özünə bağışlamayacaqsan…

- Bəli, bəli, çox yaxşı qadındır, - Jenya düşündü. – Uşaqlıqda da yaxşı idi, amma tamamilə fərasətsiz. İndi isə onun səfeh enerjisi öz axarını tapıb. Təəccüblüdür ki, xristian axarını…

Tatyana Eduardovna həmin gecə öldü və nə dərmana, nə də keşişə ehtiyac qaldı.

Dəfn zamanı Lilya kirpiklərindən axan tuşu qurudaraq, acı-acı ağladı. Gecikməyinə heyfslənirdi, heyfslənirdi ki, Tatyana Eduardovnanın yanına keşiş gətirə bilmədi, özü də vidalaşa bilmədi. Jenya isə ağlaya bilmirdi. Öz soyuq əlini anasının ondan da soyuq alnına qoyub, beynində ömrü boyu anası üçün eləmədiklərinin uzun siyahısını tuturdu… O, işlərin siyahılarını tutmaqda mahir idi…

Lilya Jenyanın evinə yapışdı. Jenya onu özünə rəfiqə seçməmişdi: Lilya öz insanlıq təyinatına görə qohum idi. Hamıya qohum. Və Jenya təslim oldu. Lilyanın mənəvi və tibbi qayğılarını, onun əldəqayırma nicatverici xristianlıq təbliğatını dəf edərkən qıcıqlanırdı, bəzən onu acılayırdı, lakin Lilyanın yorulmadan hamıya və dərhal kömək etməyə hazır olmağından da təsirlənməyə bilmirdi. O, Lilyanın qəribə həyatına daha dərindən nüfuz edirdi: bu xidmət adamı idi – himayədarlıq edir, silib-süpürür və dayəlik edirdi, özü də təkcə şişman əri və yelbeyin qızları üçün yox. Eyni fədakarlıqla rəfiqələrinə, dostlarına və dərman nüsxələrini birinci pəncərəyə dürtən alıcılarına da sadəcə belə xidmət edirdi, çanta ilə tanıdığı və tanımadığı adamlara dərman daşıyırdı, yaxşılıq etdiyi insanlar bəzən ona şokolad qutusu və ya ətir vermək istəyəndə, sifəti inciklik və hikkə rəngi alırdı… Çətinliklə dolanırdı, əldən düşmüş, qaçmaqdan heysizləşmiş, gözlərində öz-özünə axan yaşlardan əriyən yandırıcı tuş birtəhər yaşayırdı... Və neçə illər uzunu beləcə qaçmışdı: kiməsə nəsə aparmışdı, hansısa qoca qarılara baş çəkmişdi, həmişə hər yerə gecikmişdi – hətta dəyanətli Jenyanı da sövq etməyə çalışdığı bazar günləri kilsə ibadətlərinə də…

Sonra isə onu insult vurdu. Və hər şey dərhal dağıldı: ezamiyyətə gedən əri hansısa bir cavan xanıma uydu və geri qayıtmadı… bu hadisədən sarsılmış qızları heç cür başa düşə bilmirdilər ki, həyat niyə onlarla bu cur pis rəftar edib. İndi anaları səhərlər şirə çəkmir, paltarlarını yumur, ütüləmir, evə ərzaq gətirmir, yemək bişirmir və ümumiyyətlə, heç nə etmirdi, əksinə, öyrəşmədikləri şeyləri onlardan gözləyirdi. Onlar bütün bu çirkli işləri görməkdən boyun qaçırır, hər şeyi birbirinin üstünə atır və daim dalaşırdılar.

Lilyanın bərpa olunması üzün çəkdi. O, qəhrəmancasına yaşayırdı – saatlarla iflic olmuş sol əlini ovuşdurur, dartır, hansısa ağlagəlməz çin hərəkətləri edir, süstləşmiş bədənini heydən düşənə kimi tüklü şotka ilə sürtür, əlləri və ayaqları ilə kürəcikləri diyirlədirdi və tədricən ayağa durdu, yenidən yeriməyi, geyinməyi öyrəndi, tək əllə bir təhər özünü yola verməyə başladı.

Əvvəllər Lilyanın evindən uzaq olmağa çalışan Jenya indi tez-tez ona baş çəkirdi – gah sadə bir yemək gətirir, gah da bir az pul verirdi. Təəccüblü də olsa, Jenya gördü ki, çox insanlar, ilk növbədə isə onun kilsə əhatəsindən olanlar, daim Lilyanın yanına gəlir, onunla oturur, onu gəzməyə çıxarır, təsərrüfat işlərində ona kömək edirlər… Qızlarına bel bağlamağın mənası yox idi - onlar, «Əldən-ələ» qəzetində olduğu kimi, çoxlu və müxtəlif təkliflərlə dolu gənclik həyatına ehtirasla atılmışdılar. Bəzən, həvəslənərək, təsərrüfat qəhrəmanlıqları da edirdilər: mənzili yığışdırır, yemək bişirir və hər dəfə də tərifmi, ordenmi gözləyirldilər… Lilya hər dəfə təşəkkür edir, sakitcə sevinir və Jenyaya xəbər verirdi:

- İroçka ətsiz borş bişirmişdi! Elə dadlı idi ki!

- Nə danışırsan? Doğrudan bişirmişdi? – Jenya qeyzlənirdi.

Lilya isə mülayimcə gülümsəyir, özünə haqq qazandırırdı:

- Jeneçka, hirslənmə, mən özüm günahkaram, axı. Seryojanın ölümündən sonra da ki lap sərsəmləmişdim. Onları sərsəmcəsinə də ərköyün etmişəm… İndi onlardan nə istəmək olar?

İndi Lilya sakit səslə, asta-asta danışırdı. Onun əvvəlki enerjisi indi özünü ayaqyoluna çatdırmağına, bir əli ilə şalvarını çəkməyinə, birtəhər yuyunmağına, dişlərini təmizləməyinə çatırdı. Bir əllə tübikdən diş pastasını sıxıb çıxarmağa da öyrəşmək lazım gəlirdi. Jenyanın elə yazığı gəlirdi ki, hətta az qalırdı ağlasın, Lilya isə əyritəhər gülüşü ilə gülümsünərək, izah edirdi:

- Mən ora-bura çox qaçmışam, Jeneçka. Budur, Tanrı mənə oturmağı və öz əməllərim üzərində düşünməyi tapşırıb. Mən də indi düşünürəm.

Və o, sakitdən də sakit idi, həm qoca, həm saçları bəyazlaşmış və daha gözlərini də rəngləmirdi - məharətini itirmişdi, - solğun gözlərindən hərdən yaş da axırdı, amma bunun heç bir əhəmiyyəti yox idi… Gedəndə Jenya güzgüdə özünə baxırdı – yaxşı qalmışdı, qırx beşdən artıq yaş vermirdilər – pilləkənlə də üzü aşağı qaçırdı, lifti gözləməyə vaxtı olmurdu, işləri başından aşırdı – uzun bir siyahı…

2

Kitabça qeydlər üçün deyildi, işgüzar idi – qara, heç bir bər-bəzəyi olmayan, formatı da yetərincə iri idi, A4-ə azca çatmırdı. Kim ki bunu başa düşmür, ona heç izah etməyə də dəyməz. Kitabçada sütunların sayı üç idi –«N» literi ilə – nəşriyyat işləri, «E» ilə - ev işləri, «S» ilə – sair işlər.

Birinci sütunla bağlı hər şey nisbətən qaydasında idi – yarım il idi ki, Jenyanın Seryoja adında bir cavan, Qrişadan da cavan, köməkçisi vardı. Ona yaxşı da məvacib verirdi, bilirdi ki, əbəs yerə vermir. Seryoja tədricən bütün mətbəə və qismən də distribüter işlərini öz üzərinə götürdü. Nəfəsini dərə bildi...

«E» hissəsi üzrə işlər daha pis idi: köhnə maşın bütün son həftə ərzində tez-tez xarab olurdu və bilinirdi ki, onu ya mexanikin yanına göndərmək lazımdır, ya da ki, ümumiyyətlə, satmaq… Paltaryuyan maşın təmiz sınmışdı, usta çağırmaq və bütöv bir gün itirmək lazım gəlirdi. Bəlkə də təzəsini almaq, bunu isə zibilliyə göndərmək daha asan idi. Siyahıda daha bir neçə çətin bənd vardı. Jenya düşündü, düşündü və qərara gəldi ki, bütün ömrü boyu onsuz keçindiyi bir işi görmək – qulluqçu tutmaq lazımdır. Və ikinci sütuna bir maddə də əlavə etdi: «QT». O zaman «E»-dəki işlərin böyük bir hissəsini «QT»yə atar, «S» bölməsinin 18 maddəsini yerinə yetirmək olardı. Orada, «S»də köhnədənqalma və görülməsi heç də vacib olmayan işlər yazılmışdı: kimə nə boyun oldu və etmədi və ya etməyə hazırlaşırdı, lakin çatdıra bilmədi və ya boyun olmamışdı, amma özünə borc sayırdı… İki qoca qarı atılmışdı və köhnə dostunun atasına, doxsan yaşındakı opera müğənnisinə masa aparmalı, Mariya Nikolayevna üçün otlar da bir həftə idi atılıb qalmışdı, anasının ölümünün də ildönümü gəlirdi, qəbiristanlığa getməli idi və Katya üçün nadir tapılan həkim-vertebronevroloq tapmalı, Soneçkanın nəvəsi üçün hədiyyə almalı və göndərməli ki, vaxtında gedib çatsın, Saşka da xahiş etmişdi … Qrişkaya isə lazımdır… və Kirillə bağa getmək üçün gün seçməli idi, bütün günü səhərdən axşama kimi, çünki əri qocaldıqca küsəyən olmuşdu və çoxdan küsməyə hazırlaşmışdı ki, arvadı onunla bağa getmir, o da məcbur olur

elektrik qatarı ilə sürünsün, sonra da belində çanta qaranlıqda şəhərə qayıtsın…

Jenya fikrə getdi, diyircəkli qələmin qapağını dişlədi və rəfiqəsi Allanın nömrəsini yığdı. Alla Qafqaz qaçqınları ilə işləyirdi. Jenyanı çoxdan dilə tuturdu ki, onlardan birini qulluqçu tutsun…

Alla sevindi və günü sabahı istərsə onunu göndərməyi vəd etdi…

Və dərhal da artıq on il Rusiyada sərgərdan olan və özünə yer tapa bilməyən bakılı biçarə barədə danışmağa başladı, çünki onun özü erməni, mərhum əri isə azərbaycanlı idi, soyadı da Hüseynovadır, indi də ermənilər soyadına görə, azərbaycanlılar isə milliyyətinə görə ona heç bir kömək etmirlər… Jenyaya isə çoxdan məlum idi ki, xeyriyyəçiliklə müstəsna olaraq qəribəlikləri olan adamlar məşğul olurlar, belə olmayanlar isə normal təşkilatlarda işləyirlər və buna görə də əvvəl biri, sonra başqası və üçüncüsü haqqında uzun hekayətlərə bir təhər dözdü…

İyirmi dəqiqəlik söhbətin sonunda, - dəstəyi qulağına sıxaraq, Jenya axşam qablarını yuyub qurtardı, - Alla elə ecazkar çeçen qadını göndərməyi boyun oldu ki, həmin qadın həm evi yığışdıracaq, həm ərzaq alacaqdı, özü də elə dadlı bişirir ki, heç Jenya yuxusunda da görməyib… Cəlbedici səslənirdi. Dəstəyi təzəcə qoymuşdu ki, zənc gəldi. Jenya gözucu saata baxdı – on ikiyə iyirmi beş dəqiqə qalırdı.

- Şalom! – dəstək sevincək və enerjili bir səslə salamladı. – Bu, Havadır!

Hava təxminən üç il əvvəl yəhudiliyi qəbul etmiş və onu dinləməyə razı olan istənilən əhatədə yeganə doğru təlim kimi Toranı qızğınlıqla təbliğ edən sabiq Qalina İvanova idi. Əvvəllər o Jenyaya bu dinə keçməklə bağlı böyük ümidlər

bəsləyirdi, lakin ateizm və dinsizliyin daş divarı ilə üzləşdi və onun təzə pərvəriş tapan yəhudi şövqünün qaynar dalğası bu divara dəyib parça-parça oldu.

"- Beş dəqiqə", - Jenya özünə reqlament qoydu.

- Necəsən? – Hava soruşdu. Rusların «necəsən?»i, məlum olduğu kimi, ingilislərinkindən onunla fərqlənir ki, ətraflı cavabın verilməsini nəzərdə tutur. Lakin Jenya ingilisayağı cavab verdi:

- Yaxşı. Bəs sən?

- Oy, - Hava köks ötürdü. – Mənə kömək etməzsən?

- Ola bilər. Bəs fəlakət nə boydadır? – Jenya hərdənbir ona geri qaytarılmayan borc verirdi, indi də sevindi ki, söhbət praktik müstəviyə keçdi. Qalya Ulu Tanrıya iman gətirən gündən özünü tamamilə ibadətə həsr etdi. Həm də ki, əlliyə az qalmış ivriti öyrənmək də asan iş deyildi. Və pulla bağlı vəziyyət pisləşsə də, mənəvi inkişaf tam sürətlə getdi. Jenya köməkdən imtina etmirdi – onların münasibətlərinin tarixçəsi belə idi – lakin «Sənə nə üçün lazımdır?» sualını da həmişə verirdi…

Bu dəfə də verdi. Və ətraflı cavab aldı. Havaya Əhdi-Ətiq haqqında iki kitab almaq üçün otuz iki dollar lazım idi.

Jenya dodaqaltı mızıldandı: "hm-hm…"

- Sənə, Qalya, otuz iki dollar verə bilərəm. Amma məsələ bundadır ki, sən onları necə götürəcəksən. Mən kitab yarmarkasına gedirəm, getməyimə də bir həftə qalır və mən çox məşğulam. Ya səhər doqquza kimi evə gəl, ya da bir təhər məni tut. Telefonlarım səndə var?

Söhbət, deyəsən, din sahəsindən yan keçərək, uğurla başa çatırdı. Amma Jenya vaxtından əvvəl sevinirdi.

- Jenya, - həmsöhbəti ciddiyyətlə dedi, - mən səndən çox xahiş etmişəm, mənə Qalya demə. Mən Havayam. Bilirsən,

sən, axı, başa düşməlisən, adın mistik mənası var. Hər dəfə daşımadığım adla məni çağıranda, sən məni artıq imtina etdiyim keçmişimə qaytarırsan. Hava adı bizim ulu anamızın adıdır, ilk qadının və bu adın kökü «haim» sözü ilə bağlıdır ki, bu da həyat deməkdir…

- Yaxşı, Hava, başa düşdüm. Bağışla, səni uzun illər boyu başqa adla çağırmağa vərdiş etmişəm…

Onlar eyni bir adamda ərdə olmuşdular – əvvəl Jenya, sonra da Qalya İvanova. Onların oğlanları qanbir qardaş idilər, eyni bir soyadı daşıyırdılar, elə zahirən də bir-birinə oxşayırdılar. Əvvəlcə Jenya ərindən ayrıldı, Qalya isə beş il sonra onu dəfn etdi. Və o vaxt tabutun başında yan-yana durmuşdular, hər ikisi qara libasda: hər şeydə günahkar olan Jenya və heç bir günahı olmayan Qalya. Və iki oğlan uşağı – doqquz və üç yaşlarında… O vaxt Qalya hələ Hava deyildi, Orta Rusiya yüksəkliyindən, təpəli və çaylı yerlərdən olan, boynundan ucu xaçlı gümüş zəncir asılmış adi, pravoslav, uşaqlığını keçirdiyi geniş yerlər kimi sakit, qurbağa qılafı peçdə yanandan sonrakı Şahzadə qız kimi qəşəng bir qız idi…

Mərhum əri miras kimi Qalyaya üç yaşlı olan uşağı və xəstə qaynana saxladı. Və Jenyanı - ona kömək etməsi üçün. İki onillikdən artıq Jenya bu qəribə məxluqu – biri o birisindən mənasıız döngələri olan bu gözəlçənin həyatında onu sevə-sevə, ona nifrət edə-edə, mövcud olmuşdu. Kostyanın qısa həyatının sonuncu ilində Qalya onu hansısa bir ara həkimliyi edən şarlatanın üsulu ilə xilas edirdi, ona nə antibiotik, nə ağrıkəsici vermirdi, yalnız otlar və torpaq – təkcə bu başıbəlalı ecazkara məlum olan müqəddəs yerlərdən götürülmüş torpağın tozundan düzəldilmiş dərmanlar içirdərək. Kostyanın ölümündən bir az əvvəl Qalya bir başqasına – tibet otları ilə

müalicə edən ara həkiminə inandı, əslində isə o tibetli yox, bic Amur kazakı imiş. Sonra isə Qalya yoqlara pənah gətirdi.

Növbəti macəralarından hər birinə oğlunu da cəlb edirdi, illər keçdikcə oğlu müqaviməti gücləndirirdi, sonda isə anasının ruhani axtarışlarından ümumiyyətlə imtina etdi. Hər halda, yoqadan sonra anasının dalınca getmədi. Qalya isə hansısa daha nadir bir Şərq praktikalarına girişdi.

Bütün işlərinldə Qalya əvvəlcə uğurla irəli gedir və yüksəlir, sonra isə gözlənilmədən başqa bir həqiqi təlimin adepti aşkarlanırdı və o, krişnaitlərdən ayrılaraq, buddistlərə qoşulur, gah əllincilərin, gah da sayentoloqların qonağı olurdu, axırda isə yəhudilərin yanına gəlib çıxdı. Bu komik vəziyyət qənaət xatirinə bütün sonrakı onilliyi ehtiva edən divar təqvimi sayəsində aşkarlandı. Təqvim böyük formatlı idi, çox yaxşı, qalın kağızda çap olunmuşdu və Fələstin mənzərələrini əks etdirirdi. Bu təqvimi Qalya yəhudilərə payızda, məsələn, sentyabrın müəyyən bir günündə deyil, hər il başqa vaxtlarda qeyd olunan Yeni il hədiyyəsi kimi gətirmişdi… Sinay, Ölü dəniz, Qaliley, son vaxtlar yenidən becərilmiş bağların mənzərələri çox gözəl idi və Jenya da bu təqvimi sonradan qəbul etdiyi xristianlığına baxmayaraq, yəhudi olaraq qalan – əgər kimsə yadından çıxararsa - həm Bakirə Məryəmin, həm İsa Məsihin özünün, hətta vəftizçi İohannın və bir nəfər kimi bütün həvarilərin əsl yəhudi olduqlarını qürurla vurğulayan Lileçkaya bağışladı. İmanının onu gətirib çıxardığı pravoslav kilsəsi hüdudlarında bunu xatırlatmaq siyasi nəvazişsizlik kimi səslənirdi və bəzilərini hətta çox məyus da edirdi…

Bununla belə, Lilya ilə bağlı məsələ aydın idi. Qalyanın dini axtarışlarının sonuncu dolanbacına isə Jenya, təəccüblənməyə çoxdan nə yeri, nə də vaxtı qalmasına baxmayaraq, yenə də təəccübləndi. Başa düşmək olmurdu ki, Malaya

Pokrovka kəndindən olan bu gözəlçə yəhudilərin nəyinə lazım ola bilər? Dini təmənnasızlığa Jenya inanmırdı. İlk olaraq Jenya ehtimal etdi ki, Qalyanı hansısa saqqallı dul yəhudi yoldan çıxarıb və o hey gözləyirdi ki, Qalya indicə sirrini açacaq, növbəti dəfə ərə getməyə hazırlaşdığını deyəcək (bu cəhətdən o çox sadə adam idi – nə isə oldu – dərhal ərə) və Jenya da artıq götür-qoy edirdi – bu dəfəki neçənci uğursuz ərəgetmə olacaq – beşinci, yoxsa altıncı. Amma buna bənzər heç nə baş vermirdi. Qalya uzun müddət hansısa dərslərə gedir, Tora oxuyurdu, yenə də müstəqil yox, hansısa seminarlarda, nəhayətdə, növbəti dəfə Jenyadan borc pul almağa gələndə, yeməkdən imtina etdi, çünki Jenya koşer deyil, Qalyanın özü isə artıq Qalya deyil, Hava olmuşdu. Lakin həmin gün Jenya elə yorulmuşdu ki, özünü saxlaya bilməyib hikkə ilə soruşdu:

- Bir mənə de, Hava, bəs məndən, koşer olmayandan, pul almaq olarmı?

O, hikkəliliyinə görə dərhal peşman oldu, Qalya isə antik, bircə dənə də qırışı olmayan alnını qırışdırdı, fikirləşdi, təzəcə pulqabına qoyduğu pulları çıxarıb stolun üstünə qoydu və tükürpərdici bir sakitliklə ciddi şəkildə dedi:

- Mən bilmirəm. Gərək müəllimimdən soruşam.

Sonra Jenya onu uzun-uzadı dilə tutmalı oldu ki, pulu götürsün. Bilirdi ki, onun yaşamağa pulu bəs etmir.

Oğlanları Jenyaya xeyirxahlıqla gülürdülər, xüsusilə də böyüyü – Saşka, əri hərdən bir bəsirətli iradlarını bildirirdi, Jenyanı gah Timurun özünümaliyyələşdirən komandası, gah da Moskva və yaxın Moskva ətrafının Tereza anası adlandırır, kefi olmayanda isə acılayırdı ki, Jenyanın bəşəriyyətə köməyi ağıllı və gözəl insanların ağılsız və eybəcərlərdən üstünlüyündən doğur…

Və onda Jenya gözlənilmədər qızışdı:

- Bəli! Məhz elə! Bəs nə deyirsən, sizlərlə, bütün ağılsız eybəcərlərlə, mən nə etməliyəm? Sizə tüpürməliyəmmi?

Burda isə artıq Kirilin özünün inciməli vaxt gəlib çatırdı. Beləcə dolanırdılar…

3

Yola çıxmağından əvvəlki gün telefon zəngi ilə başladı. Qafqazlı səsi, axarlı və ləng, Jenyanı soruşdu.

- Bu mənəm, Violetta, mən bu gün sizə evi yığışdırmağa gəlirəm.

Jenya fikirlərini cəmləmək üçün yuxulu-yuxulu öskürdü. Demək istədi ki, bu gün ona sərfəli deyil, çünki sabah yola çıxır, on gündən sonra gələcək, onda da vədələşərlər… Sonra isə fikirləşdi: qoy gəlsin! Qoy bu Violetta həftədə iki dəfə gəlsin, yır-yığış eləsin, xörək bişirsin, kişilərin nazıyla oynasın… Hər dəfə işləri ilə bağlı bir yerə gedəndə, Jenya ailəsi və evi qarşısında incə bir günah hissi keçirirdi…

- Yaxşı, gəlin.

- Mən tezliklə gələcəyəm, bir üç saata, hələ uşaqları da yerbəyer etməliyəm…

Jenya saata baxdı – səkkizə iyirmi beş dəqiqə qalırdı. Bileti Lüfthanzadan saat dörddə götürməli idi, o vaxta kimi isə bir-iki murdarçılıqdan - Avqi tövləsindən qurtulmaq lazımdı. Kimyəvi təmizləmə, poçt və evlər idarəsi düz saat on birə kimi çəkdi. On bir tamamda isə qapının zəngi çalındı. Jenya açdı: onun qarşısında balaca xrizantem buketi durmuşdu, arxada isə əynində aplikasiyalarla bəzədilmiş palto olan, çəhrayı, parıldayan, ağır loreks şallı şişman qadın gülümsünürdü. Onun sağ tərəfində təxminən on yaşında qızcığaz, sol tərəfində isə məktəb yaşlı oğlan uşağı durmuşdu. Oğlanın əlində ölçülərinə

görə doğruçu maşına yaxın yük maşını vardı, qıcığaz isə əlində yarıaçıq qapıcıqdan iri pişik başı boylanmış xüsusi zənbil tutmuşdu…

- Böyükləri məktəbdədir, kiçiyi isə yanımdan aralı qoymuram. Elviroçka öskürür, hələ məktəbə getmir. Onsuz da hamıdan yaxşı oxuyur.

Jenya sarı xardal rəngli gülləri qəbul edib yeni yaranmış vəziyyəti dərk edənə kimi, Violetta özü soyundu, Əhmədciyin əynindəki dəri gödəkçəni dartıb çıxartdı, ayaqqabılarını səliqə ilə soyundu və balacadan böyüyə burunları bir xətt üzrə olmaqla sıraladı. Hamının ayaqlarına toxunma yarışəpik geyindirdi və onların hamısı yeməkxanaya yürüyərək, masa arxasında oturdu. Pişik boz sifətinə ciddi ifadə verərək, qızcığazın dizləri üstündə oturmuşdu.

Sonradan məlum oldu ki, Violettanun hər tikəsi bir qızıl imiş. Onun on səkkiz yaşında böyük qızı Qroznının bombalanması zamanı yanğında həlak olmuşdu. Əhmədcik yük maşını ilə birgə xəstəxanadan çıxmışdı – dəhlizlə keçdikləri vaxt ailəni atəşə tutmuşdular, uşaq əlindən, atası isə ayağından yaralanmışdı... partlayış zamanı pişik kar olmuşdu, o vaxtdan da Elviroçka onu qucağında gəzdirirdi… Yaxşı qızcığazdır, əlilə yazığı gəlir…

Violetta çantanın bağını açdı, içindən bir paket çıxartdı və stolun üstünə kağız və fotoşəkil düzməyə başladı.

- Bu, mənim diplomumdur, demək olar, fərqlənmə ilə. İş yerimdən xasiyyətnamədir. Bu, mənim atamdır, foto o biri müharibədən sonra çəkilib, hələ cavandır. Bu da ki, pasport. Bunlar da Əhmədciyin, Elviroçkanın, İsgəndərin və Rüstəmciyin doğum haqqında şəhadətnamələri. Bu, bizim toy şəklimizdir. Ərim baş mühəndis idi. Artıq o zavod yoxdur. Bu, böyük qardaşımdır, ailəsi ilə. Onun iki qızı və üç oğlu var. Bu

müharibədən əvvəlki son fotoşəkildir, böyük qızım burda indiki Elvira kimi on yaş yarımlıq idi… Bunlar da bizim respublika qəzetindən kəsilmiş parçalardır: ərimin əlli yaşı tamam olanda, birinci müharibədən əvvəl, onu «Şərəf nişanı» ilə təltif etdilər…

Stolun üstü tamamilə kağız və fotolarla örtülmüşdü, Jenyanın da ürəyi narkozdan sonrakı diş kimi zoqquldayırdı.

- Alla Aleksandrovna mənə dedi ki, onun rəfiqəsisiniz, mən də çox sevindim. O, bizə, doğma adamlarına etdiyi kimi, çox kömək edir. Mən pilləkəndən yıxılmışdım, beynim silkələnmişdi, o, məni xəstəxanaya düzəltdi, həkimlər də çox yaxşı idilər. Başım isə indiyə kimi gicəllənir…

Jenya fotoşəkilləri – həyatın parçalarını, daha heç vaxt köhnə şəklində yığılmayacaq sınıq pazzlı – bir-bir nəzərdən keçirirdi…

- Violetta, axı, əgər sizdə beyin silkələnməsi olubsa, onda mən sizin döşəmələri yumağa getməliyəm, siz mənim yox…

Violetta zarafata güldü – qızıl dişləri parıldadı.

- Alla Aleksandrovna da deyir ki, mənim ev yığışdırmağım hələ tezdir. Amma mən əvvəl «Nyam-nyam»da işləyirdim, pirojki satırdım. Onları heç vaxt almayın, saxtadır. Və mənim yerimi Bakıdan gəlmiş bir tatar arvadı tutdu. İndi daha ordan getməyəcək. İsti dükandır, qabaqdan isə qış gəlir. Bizimkilər daha çox bazarda işləyirlər: qadınlar alver edirlər, kişilər də yük daşıyırlar, kimin bəxti gətirərsə, sürücülük edir. Mənim bir qardaşım Rostovdadır, ikincisi Türkiyəyə getdi. Bacım Qroznıda qaldı, valideynlərimizlə, orda-burda olduğundan da pisdir. Baxmayaraq ki, evlərindədirlər… Mən bilmirdim ki, həyat belə dönəcək, mən axı təhlükəsizlik texnikası üzrə mühəndisəm, idarədə işləyirdim… Yığışdırmağına isə yaxşı

yığışdırıram – evim həmişə parıldayardı, tər-təmiz, qəşəng, və hər şeyimiz də vardı – Rozenlev, Madonna, on səkkiz xalçamız vardı, hətta Rus gözəli də ... Necə də yaşayırdıq! İndi isə hamımız bir otaqdayıq, o da Alla Alenksandrovna sağ olsun, bizim üçün qaçqın komitəsi kirələyir… O, Aslanı da oğlunun ofisinə gözətçi düzəltdi… Axsayır, yük daşımağa gedə bilməz. Yaşı da artıq altmışı keçib.

O elə hey danışır, danışırdı. Uşaqlar masa arxasında sakitcə, yapışdırılmış kimi oturmuşdular. Əhmədcik təzə yük maşınını sinəsinə sıxmışdı. Elviroçka intizamlı şəkildə yatmış pişiyi dizi üstündə saxlamışdı.

Jenya beynində elədən belə fırlayırdı, belədən də belə. Böyük ailədir. Violettaya nə qədər haqq ödəsə də, bu dəstəni yedizdirə bilməz. Bəlkə, onu nəşriyyata xadimə götürsün –iki mindən artıq heç cür… Bəlkə, kiminsə bağına düzəltsin? Bu boyda böyük ailəni heç kəs götürməyəcək…

- Deməli belə, - Jenya dedi. Və həmin an telefon zəng çaldı.

Hava Jenyanı evdə tuta bildiyi üçün sevindi: - Bütün həftəni sənə zəng edirəm, sən isə yoxsan ki, yoxsan. Yanına gəlirəm! Elə indicə!

- Gəl! Və elə indicə!

- Deməli belə, - o, təkrar etdi.

Və telefon yenə zəng çaldı. Bu dəfə Lileçka idi. Onlar öz aralarında tanış deyildilər, amma həmişə necə olurdusa paralel düşürdülər.

- Jeneçka, - Lilya təhkiyəsinə başladı, - mən sənə bir daha təşəkkür etmək istəyirəm. Soyuducunu açıram, sadəcə canıma isti gəlir: sənin bankaların düzülüb və hamısı da mənim dişsizliyim üçün çox dadlı şeylər. Sən mənim üçün anam kimisən.

- Yaxşısı budur, nənəm kimi de, – Jenya donquldandı.

Lilya zəifliklə, yarıgücünə, gülümsündü.

- Yaxşı. Nənəm bişirməyinə hər şeyi anamdan daha dadlı bişirərdi. Mən sənə təşəkkür etmək istəyirəm və … yola sənə mühafiz mələk… - mələk haqqında tərəddüdlə danışdı, Jenyanın antiklerikal istehzalarından xəbərdar idi. Lakin Jenya dözdü və Lilya əsl pravoslavsayağı qurtardı: "Sənin üçün suda üzənlər və səyahətdə olanlar üçün edilən dualardan edəcəyəm".

- Elə. Onda mən çimərlik geyimi də götürərəm… Sonra sənə zəng edərəm… - və dəstəyi qoydu. – Deməli belə, Violetta, mən sabah on günlüyə gedirəm, hesab edəcəyik ki, siz artıq işdəsiniz. Amma mən qayıdandan sonra başlayarsınız. Hələləik isə, - Jenya qənddanın, onun da yanında içində çoxlu kağız, o cümlədən də pul kağızları olan suxarı qabının durduğu rəfi axtarmağa başladı – avans kimi götürün.

Solğun-yaşılı rəngli kağız qara-ağ və qəzet-boz rəngində kağızların yanına qoyuldu…

- Şükür olsun Allaha! – Violetta bükülü qırmızı əllərini azca yuxarı qaldırdı, - insanların hər cürəsi olur. Bizim üçünsə Allah gör necə insanlar göndərir! Əvəzində işləyərəm…

Sonra onlar toxunmuş yarışəpiklərini çıxartdılar, çəkmələrini geyindilər, pişik itaətkarlıqla zənbilə girdi və Jenya bütün bədənində diş ağısı hiss etdi…

Çamadanı hələ dünən antresoldan düşürtmüşdü. Tumanları və başqa xırım-xırdası qalaq kimi yığılmışdı, qayçı-fırçasıyla birgə kosmetika qabı, daha birisi, köhnəsi, dərmanlarla… Hava otuz iki dollarının dalynca gəlib çıxmaq bilmirdi və Jenya ikibaşlı vəziyyətə düşmüşdü: eyni zamanda həm öz sosial fəlakətini ləyaqətlə yaşayan əlləri qırmızı çeçen qadınına rəhmlə dolu idi, həm də insanlarla istənilən ünsiyyətə

onların axmaqlılarına və qeyri-dəqiqliklərinə tab gətirmək zərurətinin də daxil olması ilə bağlı artıq tarazlanmış fikir də onu içəridən dalayırdı… Eləcə də, demək olar, hər bir insanda dərindən həkk olmuş daha yaxşı və ya daha pis gizlədilmiş sərsəmlik…

Əgər birdəfəlik deyə bilmirsənsə ki, «hamınız cəhənnəm olun», onda otur və bu tənbəl yambızın bura kimi nə vaxta sürünəcəyini gözlə, - deyə Jenya özünə toxtaqlıq verirdi. Artıq saat üç olurdu, bilet dalınca getmək lazım idi, sonra da nəşriyyata, ondan da sonra Berlində yaşayan köhnə rəfiqəsi üçün hədiyyə götürməli… daha sonra, axşama yaxın kimsə Frankfurta məktub və ya da ki nə isə sənəd gətirməli idi.

Hava, nəhayət ki, gəlib çıxanda səbrini itirmiş Jenya gödəkçəsi əynində qapının ağzında durmuşdu. O, əlini artıq hazırlanmış pulların olduğu cibinə saldı – yorğun əsəbilikdən sonra deməyə sözü qalmamışdı.

Hava artıq qapıda durmuşdu – qara uzun paltoda, kiçik başında da bir cür qara çalma, və bütün bu qaralar ona yaraşırdı. Qocalmaq bilməyən qar kimi ağappaq gözələ.

- Sən, yava insan, ilahəsən, bir sözlə! – Jenya, zərfi Havaya uzadaraq, hirs və heyranlıqla dedi. – Bir saatdan çoxdur səni gözləyirəm, tələsdiyimdən əllərim əsir…

Hava səliqəylə zərfi çantasına qoydu və indi də tələsmədən qara-aynalı düymələrini açırdı, onun gözləri də həmin o ayna parıltısı ilə parıldayırdı, amma parlaq-mavi rəngdə.

- Sağ ol ki, gözlədin. Bəs niyə hərzə danışırsan, Jeneçka? Yaxşı, mən sənin xeyirxah ürəyindən xəbərdaram, başqaları düşünə bilərlər ki…

- Bura bax, sən niyə soyunursan, görmürsən artıq evdən çıxıram? Mən gecikirəm…

- Bircə dəqiqəliyə tualetə gedirəm, - Hava izah etdi və şəstlə mənzilin dərinliklərinə tərəf yeridi. Qara paltonun altında qara don vardı, corabları da qara idi.

Sonra o dodaqlarını tərpədə-tərpədə ayaqyolundan çıxdı.

- Yox, Hava sanki özü-özüylə danışırdı, - yox, mən bunu sənə deməyə bilmərəm. Bu doğrudan da çox vacibdir. Bir dəqiqəliyə otur.

Jenya heyrətdən sadəcə quruyub qaldı.

- Qalya, sən təsadüfən gicləməmisən? Mən sənə deyirəm – gecikirəm…

- Başa düşürsən, Jeneçka, bu gün böyük bayramdır, İom-Kippur. Başa düşürsən? Tövbə Günü. Böyük pəhriz kimi bir şeydir, amma bir gündə cəmlənmiş. Bu gün nə yemir, nə də içmirlər. Ancaq ibadət edirlər. Bu Tanrının günüdür. Rahatlıq Günü.

Jenya sağ çəkməsinin qaytanını bağlayırdı. Qaytan dəmir qarmağın altına pis keçirdi.

- Hə, rahatlıq… - Jenya mexaniki olaraq təkrarladı. – Sən geyin, Hava, onsuz da məni bir saat ləngitmisən.

Hava asılqandan öz dəbdəbəli paltosunu götürdü və donub qaldı:

- Jeneçka! Sənin yaşadığın bu vurnuxmada yaşamaq olmaz. Ümumiyyətlə olmaz, xüsusilə də - bu gün.

Jenya qaytanı bərk çəkdi, qaytan qırıldı. Dəri lentin qırığını hirslə kənara tulladı. Çəkməsini çıxardı, ayağını mokasinin içinə dürtdü. Dikəldi – gözlərinə qaranlıq çökdü: vəziyyətini birdən dəyişdiyindənmi, ya da birdən alışmış hirsindən.

Hava paltosunu çiyinlərinə atdı, güzgüyə baxdı – sifətində heç bir tələskənlik yox idi, yalnız sakitlik və rahatlıq.

Jenya qapını bağlayırdı. Hava lifti çağırdı. O, Jenyanın yanında durur, heç kəsin bilmədiyi bir şeyi bilən insanlar kimi

müəmmalı bir gülüşlə gülümsəyirdi. Gəlib çatmış lift şaqqıldadı. Hava içəri keçdi. Jenya ayaqqabılarının dəri altlıqlarını bərkdən taqqıldadaraq, pilləkənlə aşağı qaçdı.

Jenya poçt qutusundan iri, qutuyə əyri salınmış və bir ucu cırılmış zərfi çıxarana kimi, Hava sakitcə yarım mərtəbə düşdü. Onlar küçə qapısından eyni vaxtda çıxdılar.

- Sağ ol! – Jenya gedə-gedə dedi.

- Sən metroya getmirsən?

- Yox, maşınım o yandadır… - Jenya qeyri-müəyyənliklə əlini tərpətdi. Maşın, doğrudan da döngədə durmuşdu, Jenya da qorxurdu ki, Hava da ona ilişər, və yarım saat da maşında onun moizəsini dinləməli olacaq. Doğrudan da, Hava yerişini sürətləndirərək, Jenyanın dalıyca metrodan əks tərəfə gedirdi.

- Jeneçka, görürəm, tələsirsən. Amma sənə deyəcəyim şey çox vacibdir: Talmud deyir ki, ora-bura qaçmaqdan yaxşı bir şey çıxmır…

- Bu, şübhəsizdir, - Jenya başını tərpətdi. – Amma indi mən başqa tərəfə getməliyəm.

O, maşına oturub qapını çırpdı.

Hava qapını azca araladı və diqqətlə, mənalı-mənalı dedi:

- Talmud deyir ki, İlahiyə xidmət etmək lazımdır, insanlara yox!

Açarı burdu, maşın dərhal işə düşdü. – Mənim qaranquşum! – deyə Jenya Havanı maşından çıxan işlənmiş qaza tutub, yerindən götürüldü.

Hava qəşəng və kədərli təbəssümlə onun dalınca baxırdı.

4

Axşam düşər-düşməz Jenya ləzzətdə yerinə yetirilmiş bəndlərin üstündan xətt çəkirdi. Nəhayət ki, hər şeyi çatdırıb edə bilmişdi. Daha xoş olanı o idi ki, berlinli rəfiqəsi üçün aldığı hədiyyə yaxşı çıxmışdı: onun birtəhər vaxt tapıb yanına gedə bildiyi gənc dərzi qadın, arabada oturan əlil, əllə rəngbərəng tikələrdən çox qəşəng bir gödəkçə tikmişdi və hər ikisi də razı qalmışdı – həm Jenya, həm də yetərincə yaxşı pul almış dərzi. Hançsısa vacib olmayan analizlər qalırdı ki, onları da Jenya qayıdandan sonra verə bilərdi… Çamadan yığılıb və ailəvi şam yeməyi də artıq arxada qalıb – Kiril televizorun qarşısında oturub kiminsə dissertasiyasını oxuyur və arabir diktorunmu, dissertantınmı ünvanına donquldanırdı. Qrişka kompyuterin qarşısında oturmuşdu.

Boşluq sevməyən təbiət Jenyanı pilətəyə tərəf yönəltdi. Ərzaq alınmış olsa da, kişilər yemək hazırlamağı xoşlamırdılar, Jenya da xörək bişirməyə başladı.

- Buzxanaya qoyaram, - qərara gəldi.

Bu dəfə hər şey əla təşkil olunmuşdu: bütün mətbəə yükü yığılıb və qablaşdırılıb, bütün sənədlər tərtib olunub. Köməkçisi – əla oğlandır! – qutunu düz Şeremetyevaya, təyyarənin yanına gətirəcək.

Yemək hələ isti idi və onu buzxanaya qoymaq tez olardı.

Yəqin, çatdırıb vanna da qəbul edə bilərəm… O, suyu açdı və qalın şırnaq minalanmış dibə dəydi. Qrişa internetdən ayrıldı və dərhal da telefon zəng çaldı.

Bu andıra qalmış şnuru düzəltmək lazımdır, - Jenyanın yadına düşdü. Zəng edən Lilya idi. O hıçqırırdı.

- Lileçka! Nə olub? – Jenya həyəcanlandı. Əvvəlki vaxtlarda Lilya ucadan şaqqanaq çəkə və acı-acı ağlaya bilərdi – xəstəliyindən sonra o ancaq sakitcə gülümsəyirdi.

- Olar, sənə şikayətlənim? Amma mən şikayət edəcəyəm, sən də dərhal unudacaqsan, çünki, özüm da başa düşürəm, axmaqlıqdır, amma adama çox ağır gəlir…

Jenya orada nə baş verdiyini bilmirdi, amma kim onun xətrinə dəyə bilər – sual yaranmırdı…

- Hə, neyləyiblər onlar yenə?

Lilya fısıldayır, burnunu çəkirdi.

- Yeyiblər… Təsəvvür edirsən, soyuducunu açıram, sənin bankaların – biri də yoxdur. İri bir qarpız soxublar, yarı bölünmüş. Mən onların otağına gedirəm, onlarınsa qonaqları var. Cavan oğlanlar, İroçkanınkı, o murdar və Marişkanın indiki oğlanı, proqramçı… İrka çıxıb soruşdu ki, sənə nə lazımdır, mən də deyirəm, mənim qabaqlarım hanı, o isə deyir – qonaqlar yedilər. Mən isə deyirəm, bu qonaqlar nə əcəb gəliblər, o isə deyir – bayramdır… Mən təəccübləndim, soruşuram, nə bayramıdır bu, o isə gülür… ikrahdoğurucu tərzdə gülür.. Məni otağa gətirir, barmağını sənin təqviminə dirəyir və deyir: görürsən, bayramdır? İom-Kippur! Heç nə saxlamadılar – nə qabaq, nə də çuğundur… Bilirsən, elə pisimə gəlir…

- Sakit ol, Lilka! Onlardan incimək ağılsızlıqdır. Onlar axı balacadırlar – böyüyərlər, ağıllanarlar… Sən özün onları ərköyün etmisən, özün belə tərbiyə vermisən, ona görə də döz… Və sonra, sənin alətin var – dua elə, Lileçka. Sən axı bacarırsan… - Hirsindən Jenyanın başı partlayırdı. Bu gün gündüz Qalya-Hava ona yaşamağı öyrədərkən olduğu kimi. Hətta ondan da bərk.

- Qəm yemə, Lilka! Yaxşısı budur, de, sənə Almaniyadan nə gətirim?..

Dəstəyi qoydu. Hələ də isti qalmış yeməyin bir hissəsini plastik qutulara qoydu. Çantasına yığdı. Geyindi və ucadan Kirilə dedi:

- Kiryuş, mən bir saatlığa aralanıram! Lilyanın yanına!

- Jenya, sən lap yeni ruslar kimi danışırsan: «aralanıram» nə deməkdir?

Amma o artıq eşitmirdi, pilləkənlə üzüaşağı qaçır, hirsini boğmaq istəyirdi. Ah, necə də ləzzətlə bu suyuşirin sifətciklərin hər ikisinə ilişdirərdi…

Qapını İrişa açdı. Sevindi. Uşaq otağından sakit zığ-vığ eşidilirdi, kabakdakı kimi tüstülətmişdilər.

- Bəs anam deyirdi ki, siz getmisiniz, - İrişa güclü qaşlarını çəkdi.

- Sabah gedəcəyəm. Mən burada anana bəzi şeylər gətirmişəm. Onda deyəsən hər şey qurtarıb.

- İrişa! – deyə İrişa bacısını çağırdı və Jenya başa düşdü ki, yenə onları qarışıq salıb. Onların qəribə oxşarlığı vardı: bir yerdə olanda kimin kim olduğu dərhal bilinirdi, ayrı olduqları zaman isə heç cür bilmək olmurdu.

Doğruçu İrişa peyda oldu. O, içkili idi, qəhqəhə ilə gülür, təbiətin süni dişlərdən heç də pis düzəltmədiyi parlaq dişlərini göstərirdi:

- Oy, bilirəm, anam xəbərçilik edib!

Jenya, qəzəb tonqalında alışıb yanaraq, qaşqabaqlı halda isti qutuları çıxarırdı.

- Jenya xala, Sizə nə oldu? Mən axı zarafat etdim! Sizin yeməklərdən biz heç nə götürməmişik! Sadəcə soyuducudan çıxartdıq ki, qarpızı soyudaq! Mən bankalarınızı pəncərənin qabağına qoymuşam! Anam isə lap dözülməz olub – o gərək hər şeyə göz yetirsin, hər yerə burnunu soxsun, gizlincə bizimlə nə baş verdiyinə baxsın.

İkincisi, Marişa, təsdiqlədi:

- Biz, axı, böyükük. Bizim öz həyatımız var. O isə bizi elə hey tərbiyələndirir…

Lilyanın qapısı aralandı: o, başını araya salaraq, hər an geri çəkilməyə hazır olan tısbağa kimi qınından çıxmağa başladı.

- Oy, Jeneçka! Sən gəldin! Mən gicbəsəri bağışla! Qızlar bayramı qeyd edirlər. Qızlar, məni bağışlıyın! Mən axı bilmirdim ki, İom-Kippurdur…

Jenya qabaqları əlində gic kimi çaşıb şalmışdı. Amma birdən onu vəhşi bir gülüş bürüdü. Cingiltili qız gülüşü ilə qəhqəhə çəkib güldü:

- Sizi görüm şeytan aparsın!

Lileçka tez havada xaç çəkdi – o bu cür xatırlatmalardan qorxurdu.

- Ağlınız yoxdur, qızlar! Axı İom-Kippor – ciddi pəhrizdir, yeməksiz, susuz! – Jenya elə izah etdi ki, sanki bu yəhudi İom-Kippuru barədə bu gün səhər eşitməmişdi, bütün ömrü boyu bunu bilirdi…

Lileçka divardan tuta-tuta ona tərəf gəlirdi, çünki qəşənc əsasını çarpayısının yanında qoymuşdu:

- Jeneçka! Sağ ol ki, gəldin! Tanrı köməyin olsun!

…Jenya yataq otağına girəndə, Kiril artıq yatırdı. Əhvalı çox yaxşı idi. O, lazım olandan da artıq iş görə bilmişdi. Qızlar, əlbəttə, qancıq idilər, amma bundan da pis ola bilərdi. Jenya zəngli saata baxdı – on ikiyə iyirmi beş dəqiqə qalıdı. Saat altının yarısına qoydu – reys erkən idi. Və bu vaxt telefon zəng çaldı. Hava idi.

- Jenya, sən məni bağışla, xətrinə dəymişəmsə. Amma bunu sənə deməyə bilmərəm, bu çox vacibdir. Talmud deyir ki, insan başqaları üçün elə edəndə ki, onlar üçün yaxşı olsun, özü

üçün isə pisdir, belə düzgün deyil… İnsan üçün yaxşı olmalıdır... Sən düzgün yaşamırsan… İnsan üçün yaxşı olmalıdır!

O, ciddi və ürəklə danışırdı. Jenya isə gülümsünürdü, onun oyma sifətini, bəlkə də, ən gözəl qadın sifətlərindən birini təsəvvür etdi… Bəs bədən quruluşu necədir…Düzbucaqlı gicbəsər!

- Hava! Sən hardan bilirsən ki, mənim üçün pisdir? Mənim üçün yaxşıdır. Mənim üçün əladır! Qulaq as, bəs Talmud mənim pulumu nə vaxt qaytaracağın barədə heç nə demir?

Hava susurdu: onlar bütün ömürləri boyu tanış idilər. Onun borc alıb qaytarmadığı onluqlar da, iyirmibeşliklər də, yüzlüklər də olmuşdu və indi o götür-qoy edirdi, görəsən Jenya nəyi nəzərdə tutur.

- Sən nəyi nəzərdə tutursan?

- Müqəddəs kitablar üçün aldığın otuz iki dolları, - Jenya tez cavab verdi.- Başqa nə ola bilər?

- Hə, - Hava rahat nəfəs aldı. – Sən qayıdıb gələn kimi, dərhal qaytararam.

- Lap əla! Gecən xeyrə qalsın! – Jenya dəstəyi asdı.

Kiril onun yerini daha çox eləyərək, divara tərəf çəkildi, yuxulu əlini uzatdı, donquldandı…

- Yazıq…

Jenya isə gülümsünürdü – onun kefi kök idi: daha bir sakitlik günü başa çatdı.

Sabahkı gün isə gərgin olacağını vəd edirdi.

5

Jenyanın slavyanlara xas olmayan dəqiqliyinə görə qiymətləndirdiyi sürücü Lyonya öz köhnə «sıfır beş»ində gəldi,

yuxarı qalxıb çamadanı götürdü. Jenya hazır idi, amma Kirillə yaxşıca xudahafizləşmək, ona axırıncı təlimatlarını vermək istəyirdi.

- Bəlkə, hava limanına kimi yola salım? - Kiril nəzakət xatirinə soruşdu.

Jenya başını yellədi.

- Yaxşı, hələlik, xoş getdin, sənə yaxşı yol, - əri Jenyanı hara gəldi, gicgahından öpdü və o, ərinin kişi ətrini duydu: odekolon iyini yox, təbii – quru ot və yonqar iyini. Təmiz, yaxşı bir iyi.

Özünü yaxşı apar, - Jenya onu tikanlı çənəsindən öpdü. – Qrişkanı oyatmayacağam, qoy yatsın.

Kiril, kəməri harasa yoxa çıxmış xalatını qarnı üstündən əlləri ilə tutaraq, onu liftə kimi yola saldı.

Çamadanı Lyoşa artıq yük yerinə qoymuşdu. Boş səhər Moskvası ilə yola düşdülər: erkən reys onunla yaxşı idi ki, bu vaxtları tıxaclar olmurdu. Asfalt yaş, şeh içində idi.

Bəli, biz şəhərdə yaddan çıxarırıq ki, şeh, sübh küləyi, qürubönü çəpəki işıq var, - Jenya təzə yaranmış fikrinə sevindi və hətta həyatdakı bütün səhvlərinə görə peşman oldu və öz fikirlərində qətiyyətlə irəli getdi. – Kiril düz deyir, şəhərdən kənara çıxmaq yaxşı olardı. Amma aydın deyil, necə… Aydındır ki, yeni rusların kotteclərinə yox, əslində heç bu qədər pul da yoxdur. Köhnə bağ, öz cazibəsi olan, kanalizasiyasız, - ora da adam istəmir… Orada dan yeri ləng sökülür və şeh…

Və dərhal Qrişkanın səsini eşitdi:

- Ana, yenə yükləyirsən…

Əlbəttə, yükləyirdi. Amma özünü!

Yol, Kirilin sözləri ilə deyilərsə, dəsmal kimi sərilmişdi – qarşıdakı işıqforlar onları görən kimi yaşıla keçirdilər. Jenya saatına baxdı – hələ vaxt ehtiyatı qalırdı. Bir daha gülümsündü:

hər şey plan üzrə idi, bütün işlər görülmüş, silinmişdi, tezliklə əqrəbləri iki saat qabağa çəkəcəkdi və on gün başqa, hər şeyin daha ləng getdiyi xarici zamanda yaşayacaqdı, özü də ikisaatlıq oğurlanmış vaxt ehtiyatı ilə…

Və zərbə düz həmin yerə, şəhərdənkənarı həyat haqda fikirlərinin aramla xarici sərbəstliyə keçdiyi yerə, dəydi. Kinematoqrafik sürətlə yan Pravda küçəsindən qırmızı, göründüyü kimi, Leninqrad prospektini keçmək istəyən «Audi» çıxdı və «Jiquli»nin sağ böyrünə çırpıldı. Sürücüyə tərəf yanakı oturan Jenya çatdırıb bunu görə bilmədi. Maşınlar havada fırlanaraq, zərbədən müxtəlif tərəflərə atıldılar. Jenya nə əzilmiş qırmızı maşını, nə də pedant, heç vaxt gecikməyən Lyoşanın bədəninin çıxarıldığı dəmir xarabalıqları, nə də özünü Sklifosovski İnstitutuna aparan təcili yardım maşınını görmədi.

Üç sutka özünə gəlmədi. Bu müddət ərzində onu səkkiz saatlıq əməliyyat etdilər, sınmış çanaq sümüklərini birtəhər yığdılar, iki dəfə ürəyi dayandı və hər iki dəfə onu çəlimsiz anestezioloq Kovarski işə saldı... Sonradan Jenya ona sual vermək istədi: o, həyata qaytardığı insanın daha heç vaxt ayağa durmayacağını, zəlil bir varlığa çevriləcəyini yəqinliklə bilə-bilə bunu niyə edir… Və həkim ona anlaşıqlı şəkildə cavab verə bilməyəcəkdi.

Üç sutkalıq komadan sonra özünə gələndə, uzun müddət nə baş verdiyini başa düşə bilmədi. O hətta tam başa düşmürdü ki, bütün bunlar məhz kiminlə baş verib. Yox, yox, o adını, soyadını, ünvanını xatırlayırdı – gözünü açan kimi bütün bu sualları ona verdilər. Amma o bədənini hiss etmirdi: nəinki ağrını, hətta əl-qolunu da. Buna görə də tibbi baxımdan verilən anket suallarını cavablandırdıqdan sonra çatdırıb sağ olub-olmadığını soruşa bildi… Amma cavabı eşitmədi, çünki yenidən harasa üzüb getdi… İndi bir cür süst yuxular, mənasız

şəkillər görürdü və bunlardan sonra televiziya proqramlarının dəyişməsindən sonra olduğu kimi bir boşluq hissi qalırdı…

On gündən sonra onu reanimasiya şöbəsindən palataya köçürdülər. Qəbul saatı olmamasına baxmayaraq, Kiril onu palatada gözləyirdi. O bilirdi ki, vəziyyət çox pisdir, pisə hazırlaşmışdı, amma həqiqətdə hər şey onun təsəvvür edə biləcəyindən daha pis idi. Jenyanı o tanımadı. Başı daz qırxılmış, alnına tənzif yapışdırılmış, arıq, qara sifətli, o əvvəlki özünə zərrə qədər də oxşamırdı. Başının bir o qədər böyük olmayan zədəsi və beyin silkələnməsi onurğa zədələnməsi də daxil olmaqla, aldığı zədələrin uzun siyahısına kiçicik bir əlavə idi. Ona artıq demişdilər ki, arıvadını hərəkətsizlik gözləyir. Lakin xəbərdar etmədilər ki, indi Jenyanın əvəzinə başqa bir insan olacaq: qaşqabaqlı, susqun, demək olar ki, qeyb olmuş… O suallara başını tərpətməklə cavab verirdi, özü isə bircə sual da vermirdi. Nə nəşriyyat işləri haqqında, nə artıq iki il xaricdə yaşayan böyük oğlu Saşka barədə, nə də rəfiqələri haqqında…

O, Jenyaya kimin zəng etdiyini, xətəxanadan kənarda nələrin baş verdiyini danışmaq istəyirdi. Jenyanı isə ərinin Qrişka ilə onsuz necə dolandıqları, yeməyi kimin aldığı və kimin hazırladığı da maraqlanmırdı… Bu da Kirili sadəcə öldürürdü.

Onlar iyirmi ildən artıq evli idilər. Nikahları da mürəkkəb olmuşdu – iki dəfə ayrılmışdılar, Jenya hətta vaxt tapıb qısa müddətə də olsa kənar bir adama, özünü az qala Sibirin hansısa küncündən gəlmiş ovçu kimi təqdim etmiş, əslində isə orta səviyyəli dövlət təhlükəsizliyi əməkdaşı olan bir kişiyə ərə də gedə bilmişdi… Kiril Jenyanın bu macərasını çətinliklə həzm etdi, sonra da öz aspirantının yanına köçdü, amma orda da heç nə alınmadı. Artıq on il idi ki, onlar son və qəti ittifaqa girmişdilər, bir-biri ilə özlərini yaxşı və rahat hiss etdiklərinə

görə deyil, tamamilə başqa qəbildən olan səbəblərə görə: onlardan hər biri o birisini özünü tanıyan kimi tanıyırdı, - məhz özünü tanımağın mümkün olduğu qədər – ən xırda fikir dönəmlərinə qədər, o səviyyədə ki, artıq heç bir söhbətləşmə vacib deyil, yalnız sözləri tələffüz etmək vərdişindən başqa mənası olmur. Hər biri o birisinə özündən də çox etibar edirdi. Zəifliklərini də əzbər bilirdilər və onları da sevməyi bacarmışdılar. Şöhrətpərəst Jenya, tərs Kiril… Bəxti gətirən Jenya, hər şey özü tullanıb onun ovcuna düşürdü və uğursuz, hər şeyə artıq özünə də lazım olmayandan sonra nail olan Kiril…

İndi Kiril arvadının yanında oturaraq, tərs xasiyyəti ilə arvadına nə olduğunu anlatmaq istəyirdi. O, təfəkküründə xüsusi bir sürüşməsi olan alim adam idi, buna görə də bütün dünya kristalloqrafiya, onun əsas fənni, baxımından nəzərdən keçirilirdi. Öz orijinal strukturologiyasını kristalların özlərindən çoxdan ayırmışdı… və bu elm, onun dərin inamına görə, bugünkü dünyanın əsas və az qala yeganə elmi idi, mövcud olan bütün başqa şeylər – riyaziyyat, musiqi, bütün üzvi və qeyri-üzvi strukturlar, hətta insan təfəkkürünün özü də ondan doğurdu və kristallik şəkildə təşkil olunmuşdu… O, bunu hələ orta məktəbin doqquzuncu sinfində başa düşmüşdü, amma iyirmi il sonra, artıq dissertasiya müdafiə edəndən və elmlər doktoru diplomundan əlavə həm də dahi, ya da ki böyük orijinal, bəlkə də sadəcə dəli kimi ad çıxartdıqdan sonra, əsl kəşfini etdi – kristallik strukturların xəstəliklərini aşkarladı. O, həmin xəstəlikləri təsvir etdi, onların təsnifatını verdi. Ossiloqramlara, spektroqramlara və elektronoskopiyanın göstəricilərinə məqsədyönlü nəzərlə baxır, formullar yazır və mental strukturları ilə manipulyasiyalar etməklə, getdikcə daha dərin bir əminliyə gəlib çıxırdı ki, materiyanın qocalması fenomenini qeydə alıb və bu qocalma ayrı-ayrı kristallik strukturların lokal

xəstələnmələri hesabına baş verir. Və əgər zədələnmiş, destruksiyaya meyilli hissələri fiksə edə biləcək tikiciləri tapmaq mümkün olarsa, onda bu xəstəliyə qarşı mübarizə aparmaq olar…

Kiril bu cür ideyalarla yaşayırdı; Jenya da ona bu cür xəstə kristal kimi görünürdü və bu sınmış strukturlar nə çanaq və bud sümüklərinin kobud sınıqlarından, nə onurğanın özünün zədələnməsindən ibarət deyildi, Jenyanın məhz şəxsiyyəti zədə almışdı. Kiril onun donmuş - demək olar ki, mimikasız sifətinə baxır, onun bir hecalı «hə-yox»larını dinləyir, onun daxilinə nüfuz etməyə çalışırdı və edirdi, içəridə müşahidə etdiyi tam viranəlik onu dəhşətə gətirirdi: Jenyanın zahirə üz tutduğu bütün minlərlə açıq valentliklərinin hamısı qara şamın iynələri kimi ölgünləşmişdi. Onun fasiləsiz elektriki tükənmişdi, Jenyanın özünün bunu deməyindən xeyli əvvəl də o bilirdi ki, indi arvadının yeganə arzusu ölməkdir və o, fikrində tutduğuna nail olmağı bacaran bir insan, indi də necə ölmək üsulu axtaracaq… Belə həyat ona lazım deyildi. Məsələ heç iynə-dərmanla boğulan ağrılarda, onun artıq nifrət etdiyi bədənini sıxan gips barama qabında, katetor və klizmalarda, ayrıca götürüldükdə hansısa bir şeydə deyildi... Bu həyat deyildi, qəddar bir karikatura, əvvəllər yaxşı, sadə, təbii və normal nə olmuşdusa, hər şeyin təhqiramiz bir eybəcərliklə əvəz olunduğu tilsimli bir ayna idi. Həyat üçün zəruri və istəkli olan yemək indi arzu olunan ölümə mane olurdu, Jenyanın həmişə həvəsli və səxavətli olduğu insani ünsiyyət də ləzzətini itirmişdi, çünki o artıq heç kəsə heç nə verə bilmirdi, götürməyi isə mümkün saymırdı – və o, palataya görüşə gələn olanda üzünü çevirir və gözlərini bağlayırdı… Lazım deyil. Lütfən, lazım deyil.

Jenya cəmi bir dəfə gülümsündü – Saşa Afrikadan gələndə. O, özünü kişi kimi aparmadı. Anasını gördü, çarpayısının

qarşısında dizləri üstə durdu, alnını döşəyə sıxaraq ağladı. Onda Jenya da ilk dəfə ağladı.

Bir ay keçdi və ikincisi başladı. O hələ də damcısalanın altında uzanmışdı, demək olar, heç nə yemirdi, elə hey «Svyatoy istoçnik» suyundan içir, çəkisini itirir və quruyurdu. Və danışmırdı. Kiril isə, dünyada nə varsa, əl çəkib onun yanında oturur, əlindən tutur və düşünürdü… başına heç bir böyük ideya gəlmirdi, lakin o, köhnə cərrah-travmatoloqlardan birini, yaşlı azərbaycanlı İlyasovu tapmışdı, onun da ideyaları vardı, Jenyanı uzun müddət müşahidə etdi, ondan da çox bütün bu müddət ərzində qalaqlanımış şəkillərə baxdı, bir yerə yığılıb dəmir mismarlarla bərkidilmiş sümüklər bitişəndən sonra bir növ hətta əməliyyat da yox, təftiş keçirməyi təklif etdi, çünki, onun fikrincə, haradasa hematoma gizlənib və onunla işləməyə dəyər…

Üç aydan sonra korset geyindirib buraxdılar. Yeriyə bilmirdi. Bir ayağında azca hərarət vardı, o birisini hiss etmirdi. Amma hər iki ayaq dəhşətli görünürdü – ağımtıl-göy, quru, qabıq verən dəriyə bükülmüş, arıq. Evə əlil arabası gətirdilər. Jenya arabada otururdu. Uzanmırdı, otururdu - irəliləyiş də elə bundan ibarət idi.

Və bir də balkon vardı. Balkon Qrişkanın otağında idi və yaza kimi bərk-bərk bağlanmışdı. Jenyanın arabada balkona çıxarılması üçün üç aydan çox vaxt keçməli idi və həmin vaxta kimi də o, qüvvə toplamalı idi ki, nifrət etdiyi bədənini, bu sallaq leşi qaldırıb maneədən o yana ata bilsin.

Kiril hər şey barədə bilirdi, hətta bakon barədə də. Jenya da başa düşürdü ki, Kiril bunu bilir. Amma bu haqda hər ikisi susurdu. Kiril onunla danışırdı, o isə ya eşitmir, ya da özünü eşitməyən kimi aparırdı. Bununla belə, bəzən «hə-yox» deyirdi…

Həftədə iki dəfə çeçen qadın Violetta gəlir, sakitcə, nə şotkalarla, nə əsgilərlə səs salmadan mənzili yığışdırırdı. Adətən evə iri, çudo-peçdə bişmiş piroq gətirirdi. Kiril onu Jenyanın olduğu otağa buraxmırdı – Jenya heç kəsi görmək istəmirdi.

Həftədə iki dəfə Kiril universitetdə mühazirə oxumağa, həftədə bir dəfə isə instituta gedirdi. Aspirantları gəlir, onun otağında oturub siqaret çəkirdilər. Bütün qalan vaxtını o arvadının yanında keçirirdi. Səhər onu yuyundurur, onunla səhər yeməyi yeyir, nahar edir, axşam arabadan çarpayıya qoyur və yanında uzanırdı… Kabinetində, son illər etdiyi kimi, gecələr daha qalmırdı…

Qrişa baş çəkirdi, bəzən xırda nöqtə və vergüllərlə örtülimüş vərəqlərini gətirirdi – bunlar onun ömrünü keçirdiyi şəkilləri idi. Qrişa bir başqa cür oğlan idi – qəribə kağız üzərinə bir tərzdə səpələnmiş çin tuşu nöqtələrindən başqa onu heç nə maraqlandırmırdı. Lakin bu, indi Jenyanı həyəcənlandırmırdı…

Jenya telefona yaxın durmurdu. Evə gələn kimi dərhal «yox» dedi – heç kəslə danışmaq istəmir, heç kəsi görmək istəmir. Tədricən hamı zənglərə ara verdi, yalnız Lilya Aptekman hər axşam zəng edirdi, amma o da daha Jenyanı telefona çağırmağı xahiş etmirdi, yalnız hər gün nəsə yeni bir şey çatdırmağı xahiş edirdi: bu gün hava yaxşıdır və ya hansısa kilsə bayramıdır, ya da bu gün qonaqları gəlmişdi və ona çox gözəl «Praqa» tortu gətirmişdilər, özü də doğruçu torta çox oxşayırdı… Lilyanı heç vaxt görməmiş Kiril bu zənglərə öyrəşdi və hər dəfə qadının nə vaxt təkrarlanacağını gözləyirdi, lakin o, hər gün yeni bir şey tapırdı…

Bir dəfə fevralın axırlarında Lilya şikayətlənirmiş kimi bir səslə bildirdi ki, bu gün onun ad günüdür və çox istəyərdi

ki, Jenya onu təbrik etsin. Jenya dəstəyi götürdü, solğun bir səslə dedi:

- Səni ad günü münasibəti ilə təbrik edirəm…

Və dəstəkdə gərgin bir fısıltı, kədərli hıçqırıq, inilti-hıçqırtı içərisindən Lilyanın səsini eşitdi:

- Jeneçka! Sən axı niyə məni atdın? Danışmaq istəmirsən? Sənsiz mənim üçün çox pisdir. Heç olmasa mənimlə bir az danış…

Jenya soyuqluqla təəccübləndi: Lilya ondan özünü necə hiss etdiyini soruşmadı, bu hətta maraqlı idi…

- Mən sənə zəng edərəm, Lilya, bu gün yox.

6

Jenya nə sabahısı, nə də ondan sonrakı gün Lilyaya zəng etmədi. Lilya iki gün gözlədi və özü zəng etdi, Kirildən xahiş etdi ki, dəstəyi Jenyaya versin. Kiril arvadından Lilya ilə danışıb-danışmayacağını soruşdu. Jenya sakitcə dəstəyi götürdü.

- Jeneçka, məndə o qədər şeylər baş verib ki… Olar, sənə danışım? Səndən başqa bunu heç kəsə danışa bilməyəcəyəm. Bilirsən, elə dəhşətdir, sən heç təsəvvür edə bilməzsən…

Lilya qızları barədə qəmli hekayətini başladı və bu qızlar elə şeylər etmişdilər ki… Məlum oldu ki, onun meymunlarından biri hamilədir, doğmağa hazırlaşır, o birisi isə bu arada İrişkanın hamilə qaldığı həmin o iyrənc proqramçı ilə ayrıca romana başlayıb, indi də evdə əsl cəhənnəmdir, çünki qızlar az qala vuruşurlar… Açığı deyilərsə, elə doğrudan da vuruşurlar… İndi nə olacaq, təsəvvür etmək çətindir, baxmayaraq ki, bundan da pis ola bilməz…

- Lil, mən ancaq dərdinə şərik ola bilərəm… - Jenya köks ötürdü. Bir az düşündü və əlavə etdi. - Yox, əgər düzünü desəm, sənin heç dərdinə də şərik ola bilmərəm. İmkanım yoxdur…

- Sən nə danışırsan? – Lilya qışqırdı, - Dəli olmusan? Sən – ən ağıllı, ən xeyirxah insan, mənə belə şey deyirsən? Yaxşı, mənim dərdimə şərik olmaq lazım deyil, mən özüm bütün bunlara layiqəm! Heç olmasa məsləhət ver, nə edim?

- Bilmirəm, Lileçka. İndi mən heç nə bilmirəm. Mən sanki yoxam. - Jenya dəstəyə gülümsündü, amma dəstək bu gülüşü ötürməyi bacarmırdı, o biri başda isə Lileçka fəryad edib ağlamağa başladı:

- Əgər sən yoxsansa, deməli, onda heç kəs yoxdur? Belə çıxır ki, sən mənə həmişə yalan demisən, hə? Sən yalan deyirdin ki, mən durmalıyam, əlimi işlətməliyəm, təzədən hər şeyi öyrənməliyəm? Mən isə çalışırdım, bəlkə də, yalnız sənin tərifləməyin naminə! Sən varsan! Sən varsan! Əgər yoxsansa, onda satqın və yalançısan! Jeneçka, mənə nəsə bir söz de…

Onların ikisi də ağlayırdı – biri qeyzdən və kədərdən, ikincisi gücsüzlükdən…

Qapıda Kiril durmuşdu və özünü qınayırdı ki, dəstəyi niyə verdi, axı Jenya demişdi, heç kəslə danışmaq istəmir. İndi isə, budur, ağlayır. Və birdən ağlına gəldi: bəlkə ağlasa yaxşıdır?

Jenya dəstəyi söndürdü. Dizinin üstünə qoydu. Və əməliyyatdan sonra özünə gələndən bəri ərinə ilk sualını verdi:

- De görüm, Kir, bizim pulumuz var?

Kiril bu sualı heç gözləmirdi. O arabanın yanındakı çarpayıya oturdu…

- Pul var, Jenya. Çoxdur. Sənin müavinin hər ayın birində gətirir. Həmişə sənlə görüşmək, danışmaq istəyir. Sən

isə… Ümumən, mənim üçün qaranlıq bir tarixçədir: o deyir ki, hələlik nəşriyyatın yükünü çəkəcək, səni pulsuz qoymayacaq. Sonrası da necə alınarsa alınar… Mənə də xırda-xuruş ödəyirlər… - o gülümsündü, çünki onun şərti maaşı dövlətin fundamental elmlə məşğul olan alimlərə bəslədiyi şərti hörmətə uyğun idi…

- Sən bir işə bax, - Jenya başını yellətdi. – Necə də maraqlıdır…

Bu, beş ayda ilk söhbətləri idi. Pul barədə…

- Ola bilər, o, vicdanlı adamdır? – Kiril çox ağıllı ehtimal irəli sürdü.

- Ola bilər. Amma ümumilikdə yetərincə nadir haldır… Seryojka çox cavandır, o bu haqda heç bilməməlidir…

- Ola bilər, yaxşı ailədəndir?

- Fakt deyil, - Jenya cavab verdi.

Və fikrə getdi. Lilkanın bu zəngi, Seryojanın olduqca gözəl davranması ona keyləşmiş cismində yalnız bir istək – yaza kimi sağ qalmaq və şappıltı ilə baş vurmaq, yeddinci mərtəbədən elə bərk baş vurmaq ki, bütün bunların hamısı, pamperslərlə birgə – delit, delit, delit… - istəyi gəzdirən buz altındakı balıq kimi donuq qalmağa mane olurdu.

Kiril isə artıq qapıda dayanmışdı, bu hadisəni bayram edirdi və öz işləri barədə düşünürdü – sabitliyini itirmiş yazıq kristallik şəbəkə barədə, hədd effektləri, kristala boy verən oyanış zonalarının deqradasiyası və aktivləşməsi barədə … Nə vaxtsa ona möhkəm vurulmuşdu, sonra uzun müddət sevdi, sonra doğmalaşdı, sonra biganələşdi, uzaqlaşdı, öyrəşdi, daha sonra aşkar etdi ki, onunla qarşılıqlı nüfuz edən kristallar kimi hansısa bir bölünməz struktur şəklində bitişib və indi, o, ölmək istəyəndə, bütün inadcıllığı ilə qiyama qalxdı və məhz bu uzunqulaq xüsusiyyətinə görə nifrət etdiyi hər şeyi vicdanla

öyrəndi: aşbaz kitabını açdı, borşu və qarabaşaq sıyığını necə bişirmək, kotletləri necə qızartmaq və necə kompot bişirmək lazım olduğunu oxudu, sonra təlimatları çıxardı və paltaryuyan maşının necə işlədiyini, hara camaşirin, hara isə yuyucu tozun yüklənməli olduğunu araşdırdı, yalnız ərzaq almaqda işi düz gətirmirdi, çünki belə bir dərslik yox idi. Bunu isə Qrişa öz üzərinə götürdü və bunu uğurla edə bildi: çantasında bişirilməli olan şeyləri daşıyıb gətirdi və onların ikisi də, həm ər, həm də oğul, öz fərasətləri və qorxmazlıqları ilə bir az da öyünürdülər, bir az da peşmançılıq edirdilər ki, bunları əvvəllər, Jenya şən və azca hirslə, zarafatla, deyinərək, siqaret kötüklərini hər yerə qoyulmuş rəngbərəng külqablarında söndürə-söndürə başılovlu ora-bura qaçanda eləmirdilər. İndi isə bütün tinlərdə təmiz külqabıları dururdu, o daha siqaret çəkmirdi… Və qaçmırdı… Onların ümumi həyatı davam etsin deyə, Kiril «özünə aid olmayan»ı öz üzərinə götürməli olmuşdu, və Violetta-köməkçi yalnız mənzili yığışdırırdı, pul götürməyə də utanırdı, hər dəfə Kiril pulu az qala zorla ona verirdi, bütün qalan şeylər – hər şeyə indi Kiril cavab verirdi, hətta elektrikin pulunu ödəmək üçün qəbzləri də doldurmağı öyrənmişdi… Həyatdan üz çevirmiş Jenyanın bunu sanki heç görməməsi də Kirili məyus etmirdi, çünki o, bütün bu yeni işləri təşəkkür naminə deyil, belə bir mübhəm hissə görə yerinə yetirirdi ki, nə qədər ki, o inadkarlıq edir, Jenya yaşayacaq. Və nə qədər ki o sağdır, ola bilər ki, bu lənətə gəlmiş sınıq da düzələr… Və o, Jenyanın zədələnmiş onurğasını lap az, daha çox isə - strukturu... strukturu... nəzərdə tuturdu… bunu o belə adlandırırdı. «Ruh» sözü onun üçün «vaxtını uzatmaq» və ya «nağdlanmaq» kimi istifadəsi mümkünsüz sözlərdən idi…

- Lilkaya bir az versək, pis olmaz… Mümkündür? – uzun pauzadan, Kiril öz krsitalloqrafik düşüncələrində uzaqlara uçub gedəndən sonra, Jenya soruşdu.

- Nə qədər lazımdır, de, Qrişka aparar, - Kiril cavab verdi.

-Yüzlük verə bilərsən?

- Asanlıqla, - Kiril başı ilə təsdiqlədi.

O necçə də qəribə cavab verdi. Qrişka belə danışır. Qrşkanın sözünü götürüb, - Jenya fikirləşdi.

Kiril donqarlanaraq, narahat bir pozada hələ də onun çarpayısında oturmuşdu. Boynunda hansısa tanış olmayan damarlar çıxmışdı, çənəsinin altında artıq dəri yığılmışdı. Arıqlayıb o, məsələ bundadır. Və qocalıb. Yazıq… necə öhdəsindən gəlir. İlahi, bütün bunların hamısını axı o özü… Bu ola bilməz… Bu, həm də artıq o deyil… Qrişkanın əskilərindən onun axı, öyüməyi gəlirdi!

İndi Lilka Jenya ilə hər gün telefonla danışırdı, öz mürəkkəb ailə həyatının bütün peripetiyalarını danışır, hər dəfə yenidən yardıma görə təşəkkür edirdi və bu, bir həftədən artıq, o vaxta kimi davam etdi ki, Jenya Lilkanın onun səhhətini bilərəkdən soruşmadığını və burada məsələnin xəstə adamın ağılsız eqoistliyində deyil, nəsə bir strategiyada olduğunu başa düşdü. Və o, fikrə getdi. Baxmayaraq ki, fikirləşmək onun üçün çətin idi. O, nicatverici əqli donuqluğa o dərəcədə öyrəşmişdi ki, bunun sayəsində özünü mötərizədən kənara çıxara, yarıcanlı bədəninə nifrətdən və alçaldıcı hərəkətsizliyindən çəkdiyi əzabdan qurtula bilirdi… Beləcə… nədədir bu strategiya? Niyə şəfqətli Lilka bir dəfə də ondan soruşmadı – bəs sən necəsən? Key ayaqlarınla pampersinin üstündə necə uzanmısan? Nə üçünsə bu, vacib görünürdü.

Soruşaram, - Jenya artıq yuxulayarkən qərar verdi…

7

Ertəsi gün cümə günü idi – Kirilin səhər saat doqquzda mühazirəyə getdiyi yeganə gün. Cümə günləri o, Jenyanı səhər erkəndən, yeddinin yarısında oyadırdı.

Həmişəki kimi vanna otağına apardı. Şişmanlaşan bütün başqa yataq xəstələrindən fərqli olaraq, Jenya arıqlayırdı. Lakin az çəkisinə baxmayaraq, Kirilə Jenyanı qaldırmaq çətin idi, aparmaq isə – babat idi, apara bilirdi. O, kəndli mənşəli, güclü idi, uşaqlıqdan kartof dolu kisə daşımışdı… Gənclik qüvvəsi artıq onu tərk etmişdi. Əslində güc bir o qədər lazım da deyildi, daha çox səriştə tələb olunurdu...

Jenyanı əvvəl unitaza, sonra da vannaya oturtdu, özü isə üzünü qırxmağa başladı ki, vaxt itirməsin. Sonra kreslonu sürüb vanna otağına gətirdi, üstünə böyük bir döşəkağı qoydu – hər şey düşünülmüş, uyğunlaşdırılmışdı. Jenya özu qurulanırdı. Sonra maykasını geyməyə kömək etdi, çarpayıya apardı, kürəyinə, ayaqları arasına krem sürtdü – diqqətlə baxdı: yataq yaraları yox idi, o yaxşı qulluq edirdi. Pampersi yapışdırdı. Sonra bir yerdə səhər yeməyini yedilər – Jenya çay içdi, iki qaşıq sıyıq yedi. Qabları apardı. Jenya dəstəyi gətirməyi xahiş etdi. O dəstəyi gətirdi və getdi – nahara kimi.

Lilkaya Jenya saat on birdə zəng etdi. Telefonu uzun-uzadı yadına saldı… bu vaxt ərzində başından nə qədər şey tökülüb getmişdi. Əvvəllər bütün telefonlar həkk olunmuş kimi yaddaşında qalırdı…

Lilka dərhal dəstəyi götürdü – və sevindi:

- Jeneçka! Bu birinci dəfədir, özün mənə zəng edirsən! Mən necə də şadam!

Səs cingiltili, xoşbəxt idi.

- Lil, de görüm, niyə bircə dəfə də soruşmadın ki, deyək,.. mən necə… uzanmışam…

- Mənə yanına gəlmək lazımdır, Jen. Hər şeyi izah etmək. Sən icazə ver, mən gəlim…

- Nə təhər gələcəksən sən? Süpürgəni minib uçacaqsan?

- Jen, mən ağacsız gəzirəm… Evdə, əlbəttə. Mən indi küçəyə də özüm çıxıram axı. Əlbəttə, nəqliyyatla yox. Taksi tutardım… Mən sənə bir şey deməliyəm. Amma telefonla yox. Telefonla bacarmaram…

- Gəl, - Jenya dedi. Və qorxdu. Elə qorxdu ki, ürəyi döyündü. – Ancaq, bəlkə, bu gün yox, - çəpərləyici qurğu tikməyə başladı. – İndi Kiril evdə deyil, sənə qapını kim açacaq?

- Bəs Qrişka? Bəs Qrişka aça bilməz? – Lilka dəstəyə qışqırırdı, eşidilirdi ki, o gələcək, piyada gələcək, qarnı üstə sürünə-sürünə gələcək…

- Sənin Qrişkan yatır. Lilka, sabah gələrsən, yaxşı?

- Heç söhbət ola bilməz, İlahi, qoy bir şalvarımı geyinim və dərhal…

İki saatdan sonra gəldi. Qrişka açdı. O, dəhlizdə xeyli xışıldadı. Nəhayət, içəri girdi. Nəhəng, tosqun. Qarnı üstündə yaxşı əlində buket tutub – holland, çəhrayı sellofanda, meşan toylarındakı kimi. Sol əllə isə – sağ əli saxlayır.

- Ancaq ağlama, şivən qoparma, - Jenya xahiş etdi.

- Heç hazırlaşmıram, - Lilya, titrəyən dodaqlarını birbirinə sıxaraq, cavab verdi. Dərhal da dizi üstə çökdü, başını çarpayıya söykədi, çiyinləri titrədi.

Səfehəm mən, səfeh, niyə icazə verdim gəlsin… - Jenya düşündü.

Lika çarpayını titrədib qurtardı, yaş üzünü əzik buketin içindən qaldırdı və qətiyyətlə dedi:

- Bağışla, Jen. Mən bu söhbətə yarım il hazırlaşmışam. Mənim beynimə sadəcə bir ideya girmişdi: mən ağlımda həmişə sənə müraciət edirdim. Kəsəsi, məni dinlə. Sənin bu bədbəxtliyin elə-belə baş verməyib. Bu işdə mən günahkaram.

- Yaxşı, yaxşı, - Jenya gülümsündü. - Hə, danış görək sonra nə oldu…

- Mən ciddi deyirəm. Bütün ömrüm boyu, Jenya, sənə paxıllıq etmişəm. Çox istəyirdim, əlbəttə, amma daha çox paxıllıq edirdim. Bunun isə necə enerji olduğunu bilirsən – paxıllığın. Deyirlər axı – göz dəyir. Bu, ola bilər, boş şeydir. Amma bunda nə isə var. Haçan ki, bu cür güclü paxıllıq edirsən, onda dünyada nəsə pozulur, - o sol, xəstə əlini tərpətdi, onu çiyni səviyyəsinə qaldırdı. – Və sonra mən yuxu gördüm. İki dəfə. Bir dəfə oktyabrın on beşindən qabaq, o biri dəfə – bir ay keçmiş.

On beş oktyabr nədir? Hə… əlbəttə. Frankfurta biletlər ayın on beşinə idi…

- Bax, təsəvvür elə, mən yolla gedirəm. Belə – hansısa xüsusi bir yol deyil, darıxdırıcı, qıraqlarında kollar bitir. Üzərimdə də ağlagəlməz dərəcədə ağır bir kisə yük var. Belə baxanda, kisə böyük deyil, amma məni yerə sıxıb yastı edir… Onu üstümdən götürmək istəyirəm, bacarmıram, bir əllə götürülmür. Yanımca da hansısa adamlar gedirlər, onların da hamısının yükü var. Kömək xahiş edirəm, onlar isə məni görmürlər. Sanki mən şəffafam, vallah. Və birdən görürəm – sən. Heç nəsiz gedirsən, əynində göy rəngdə don var, çəkmələrin də dikdabandır, öz çəkmələrin idi, göy. Çox qəşəng… Məni gördün, dərhal mənə tərəf atıldın, nəsə deyirsən, yadımda deyil, nə, amma təskinlikverici idi. Mən heç səndən xahiş etməyə macal tapmadım, sən dərhal asanlıqla kisəni götürürsən və boş bir şey kimi öz çiyninə atırsan. Elə bil, kisə sənin əlində

heç ağır da deyil. Mən də özüm-özümə fikirləşirəm – niyə belədir: mənim çiyinlərimdə kisə, elə bil, daş idi, sənə isə sanki yüngül gəlir. Bu da bütün yuxu. Mən əvvəl heç nə anlamadım. Sonra da səninlə bu iş baş verdi. Mən heç sənə danışmayacağam, biz buna necə tab gətirdik – mənim özüm də, qızlar da. Hə. Onlar səni çox istəyirlər, Jen. Mənim Fridmanım da, yeri gəlmişkən. O, indi geri, evə qayıtmaq istəyir, amma bunu sənə sonra danışaram. Bax, belə… Sən əməliyyatdan sonra artıq özünə gəlmisən. Sklifdə tanış bir həkim var, mən ona çox şey tapırdım, o da mənə hər gün zəng edirdi, hər şeyi danışırdı, nə və necə… Nə isə, sənin əməliyyatından düz on gün sonra yenə bu yuxu: yenə həmin o yolla gedirəm, yenə heç kəs mənə fikir vermir və yenə sən mənə yaxınlaşırsan. Amma bir başqa cürə geyinmisən: nə isə iş paltarıydı, qara xalatmı idi, ya da önlük… Ayaqlarında da bir cür dəhşətli çəkmələr, heç sənə oxşamır… Sən isə, heç nə olmamış kimi, mənə yaxınlaşırsan, yenə kisəmi götürürsən və biz yolumuza davam edirik… İnanırsan, yox?

Lakin Lilyaya heç bir inandırma lazım deyildi. O, hekayətini axıra kimi danışmağa tələsirdi… Jenya da zəif təbəssümlə dinləyirdi: hər halda, gözəldir, necə də səfehdir bu Lileçka Aptekman!

- Belə! Bilirsən, inanclı insanlarda, axı, ikinci plan var, başa düşürsən? O, birincidən daha vacibdir. Qat-qat vacib. Budur, mən düşünməyə başladım ki, bu yuxu nədən xəbər verir? – Lilyanın sifəti ciddi və müəmmalı oldu. – Mən öz yükümü sənin üstünə qoydum, bax, bu baş verib. Mən babatam, amma sən sındın. Səni qırmızı Audi vurmayıb, səni öz qayğılarımla, bir də paxıllığımla mən vurmuşam. Bəli, paxıllığımla. Sən başa düşürsən, bax, eyni ilə: sən yatırsan, mənim halım isə gündən-günə yaxşılaşır…

Lilya yenə ağlamağa başladı.

- Qulaq as, bu nə isə bir çərən-pərəndir, sənin dediyin şey. Ağlama, Allah xatirinə. Sərxoş qumarbaz kazinodan çıxdı, bir gecəyə saysız pulu bada vermişdi, yerindən götürüldü, təhlükəsizlik kisələri də onu xilas edə bilmədi … sən də mənə hansısa bir yuxudan danışırsan, - Jenya Lilyanın başını sığalladı. – Get, Qrişkaya de, qoy gülləri vazaya qoysun.

Lilya ağar-ağır, sağlam əli ilə çarpayıya güc verərək, dizləri üstündən durdu.

- Bax bundan mən ən çox qorxurdum, - qəmginliklə dedi. – Sən belə ağıllısan, amma sadə şeyləri başa düşmürsən…

Lilya Kiril gələnə kimi oturdu – günahlarını sadaladı, peşmançılıq bildirdi. Yuxusunu daha bir neçə dəfə danışdı, sonra – ürəkdən – Jenyaya dedi:

- Bax, başa düşürsən, deyilir: öz xaçını götür və dalımca gəl… Elə belə yox – xaçı götür, özü də özgənin xaçını götürmə. Özününkünü götür… Mən isə həmişə öz yükümü başqalarının üstünə atmışam: hamıya şikayətlənmişəm, hamıdan kömək və şəfqət almışam. Ən çox da – sənin üstünə. Budur, o, sənin belini qırdı. Gör bir nə alındı. İndi də mən elə dua edirəm ki, hər şey yerinə düşsün. Sən də ayağa durasan.

- Yaxşı, bəsdir, Lil. Sənin kitabını mən də oxumuşam, orda çox şey deyilib. Orda həm də deyilib: bir-birinizin yükünü çəkin. Bəlkə, nəyisə düz başa düşməmişəm? – Jenya Lilyanın silahıyla zərbə endirdi.

Lilya əllərini yellədi – birini tez və geniş, ikincisi hiss olunacaq qədər geri qalırdı, amma əl-qol atmada iştirak edirdi…

Kiril gəldi, nahar verdi. Mətbəxdə yeyirdilər, hamısı bir yerdə.

- Sən, Jenka, necə də dadlı bişirirsən, - Lilya tərifləndi.

- Mən? Kiril bişirib, - Jenya cavab verdi.

Kiril gülümsündü – indi ona çox şey lazım deyildi: təkcə tərif…

Beləcə Lilya axşama kimi oturdu, gedəndən sonra isə Jenya Lilyanın versiyasını Kirilə danışdı. Kiril bir az fikirləşdi, öz struktur ehtimalları ilə müqayisə etdi və başını yellədi: yox, düşünmürəm. Bu cür işləmir.

Saat on birdə azərbaycanlı həkim İlyasov zəng etdi. Həmin o, Jenyanın yanına Sklifə gələn və bütün sınıqlar bitişəndən sonra onu əməliyyat etməyi boyun olan. Bir dəfə də onların evlərinə gəlmişdi. Jenya xəstəxanadan çıxandan bir az keçmiş, amma onun bu gəlişini Jenya pis yadda saxlamışdı.

O, sabahısı gün gəldi. Tünd quru sifəti və ayna kimi qara gözləri ilə Jenyanı heyrətləndirdi. Görünür, onun özünün də hansısa xəstəliyi vardı. Uzun-uzadı Jenyanın kürəyini ovuşdurdu, əlini kürəyi boyu gəzdirdi, ağrılı şəkildə və gözlənilmədən barmaqları ilə basdı və Jenya çığıranda, sakitcə gülümsündü və Kirildən iynə gətirməyi xahiş etdi. Kibriti yandırdı, iynənin ucunu oyuncaq alova saldı və sonra uzun-uzadı Jenyanın kürəyini, ayaqlarını cızmağa, iynə batırmağa başladı...

Sonra iynəni Kirilin stolun üstündəki qeyd dəftərçəsinə sancdı, harasa tələsdi və qapıya tərəf gedə-gedə dedi:

- Çərşənbə axşamı, gələn həftə, səhər doqquz üçün klinikaya gəlin. Əməliyyatı, yəqin, çərşənbə edəcəyəm. Narkoz yerli olacaq. Hazırlaşın ki, dözməli olacaqsınız. Və altı yüz dollar gətirərsiniz. Qalanı – nəticəyə görə.

- Yeriyəcəyinə ümid var? – Kiril artıq dəhlizdə soruşdu.

İlyasov şübhəli-şübhəli, şəkklə Kirilə baxdı: bu adama izahat verməyə dəyərmi? Sonra cibindən bloknot çıxardı və elə burada, kandardaca, Kiril üçün fəqərə şəkli çəkməyə başladı, sonra ona ikincisini birləşdirdi – yaxşı şəkil çəkirdi, bir cür iti

dirsəklərlə, - amma inanmaq olmurdu ki, bu mürəkkəb millər, doğrudan da, orda, içəridədirlər… Çəkdiyi kiçicik deşiklərə doktor qara qələmini basdı və onlardan səlis xətlər – bir cüt bel siniri çıxartdı… Sonra yumru bir lövhəcik çəkdi, onu xırda-xırda ştrixlədi və qələmin ucunu ona dirədi:

- Budur. Düşünürəm ki, burada onurğa beyni mayesi yığılıb, bərkiyib və sinirləri sıxır. Belə təəssürat yaranır ki, onlar tam atrofiyaya uğramayıblar… Bunu təmizləməyə cəhd edək. Ondan sonra bilinər…

Violetta əlində əski mətbəxdən boylandı, başı ilə həkimə salam verdi. O da başını tərpətdi – bilmək olmurdu, onlar tanışmı idilər...

İlyasov gedəndən sonra Violetta Kirilin yanına gəldi və dedi:

- Kiril Vasilyeviç, mən bu doktor İlyasovu tanıyıram. Bizim uşaqları klinikaya götürür, bu cür iki ailə tanıyıram, biri bizimkidir, Qroznıdan, onların on yaşlı oğlu var, ayağı üzülüb. O protez düzəltdi. Pul götürmür, öz pulunu verir… O bizim müqəddəsimizdir.

- Yaxşı bir? – Kiril təəccübləndi. O, həyatda müqəddəs adama rast olmamışdı.

8

Əməliyyatın keçirildiyi bütün vaxt ərzində ağrı lap çox idi, lakin Jenya dözürdü, yalnız azca inildəyirdi. Bu, sonsuz dərəcə uzun çəkdi və o, tək bircə şey barədə düşünürdü: yazda onu necə balkona çıxaracaqlar və onun balkon məhəccərindən aşacağı dəqiqə necə də ləzzətli olacaq. Sonra o, İlyasovun səsini eşitdi:

- Jenya, sən məni eşidirsən? Bax, indi bir az qışqır, hə? Çox ağrıdırsa – çox qışqır. Az ağrıdırsa – az da qışqır. Hə, nə oldu?

Və Jenya var qücü ilə qışqırdı. Və birdən səsinin lap zil yerində donub qalana kimi qışqırdı.

Hə, yaxşıdır! – o, İlyasovun səsini eşitdi və nəhayət, huşunu itirdi.

Ağrılar daha üç gün çəkdi, beli elə zoqquldayırldı ki, elə bil, onurğasına qızarmış məfitil salmışdılar. İlyasov hər səhər gəlirdi, onu müayinə edir və deyirdi:

- Yaxşı! Yaxşı!

Kiril adətən artıq palatada oturmuş olurdu. Sonra İlyasovun dalınca çıxır və soruşurdu:

- Yaxşı olan nədir, həkim?

O da göz vururdu – gəzəcək, gəzəcək…

İkinci həftə masajçı gəlməyə başladı, o da Şərq adamı idi, amma daha çox hidistanlıya oxşayırdı… Jenya qarnı üstə uzanmışdı, onu arxası üstə çevirmirdilər, hindistanlı isə, yeri gəlmişkən, Bayram adında tacik imiş. Amma yenə də qəribə yerdir, Kiril öz-özünə fikirləşdi, Jenyaya isə heç nə deməmdi. Bayram uzun müddət onun ayaqlarını ovxaladı, onlara bir cür yanan şamlar qoydu.

Bir həftədən sonra kürəyi üstə çevirdilər, tapşırdılar ki, oturmasın. Daha bir həftə sonra İlyasov, əllərini Jenyanın qoltuqları altına salaraq, onu ayağa qaldırdı. Jenya ayaq üstə dururdu, ayaqları onu saxlayırdı.

O, bir dəqiqə durdu, həkim onu qaldırdı, yerinə uzatdı.

- Sənə oturmaq olmaz, başa düşdünmü? Üç ay oturmaq olmaz. Gəzmək olar, oturmaq isə olmaz…

Sabahısı gün tapşırdı ki, Kiril daha üç min gətirsin. Bayramla özün hesablaşarsan. Neçə desə, o qədər də ver. Mü-

qəddəs üçün – çoxdur, deyə Kiril düşündü. Pul vardı – Saşka öz Afrikasından göndərmişdi.

Bayram hər gün gəlirdi. Hər dəfə iki saat işləyirdi və onun aram hərəkətlərindən adam gözünü çəkə bilmirdi. Jenya inildəyirdi. Ağrıdırdı. Sonra, həftənin sonunda Bayram Kirilə dedi ki, qoy səkkiz yüz dollar gətirsin. Müqəddəslər çox bahalı idilər…

Jenyanın kefi kökəldi. Bacısı ona gəzmək üçün qurğu gətirdi – Jenya hər gün və getdikcə daha uzun müddətdə öz ayaqları üstə dururdu. Sonra yerinə uzanırdı, gərginlikdən islanmış halda və Kiril onun ayaq barmaqlarını bir xeyli – barmaqlar onun istisindən qızınana kimi - ovuşdururdu…

Bir aydan sonra Jenya palatadan dəhlizə çıxdı – kresloda yox, ona hələ də kreslodan istifadə etməyə icazə vermirdilər, yeni qurğusuyla, addım-addım. Onun dəhlizdə gördüyü birinci şey iki oğlan uşağının davası oldu: biri, ayaqları olmayan, arabada oturmuşdu və uzun əlləri ilə məharətlə ikincisinə, iki ədəd qoltuqağacında möhkəm durmuş oğlana tutuzdururdu. İkincinin dirsəkdən yuxarı bir sol əli və dizdən aşağı sağ ayağı yox idi. Arabada oturanın üstünlüyü aşkar idi…

- Piyadalar əleyhinə minalar, - Jenya başa düşdü.

- Ey, bu saat İlyasovu çağıraram, hər ikinizə göstərər! – postdakı tibb bacısı səsini qaldırdı. Arabaçı cəld dönərək uzaqlaşdı…

Jenya boğulurdu, amma özü dönə bilmədi.

- Kiril, palataya qayıtmağa kömək et, - xahiş etdi və Kiril ehtiyatla onun qurğusunu döndərdi.

9

Mayın axırında Hava İvanovna Qüdsdən gəldi. Orada yeddi ay yaşamış, hansısa yəhudi universitetində oxumuşdu.

Qonaq gəldi. Qəşəng və qocalmış qadın. Başına bir cür gümüşü çalma sarımışdı, uzun, açıq rəngli donu arıqlamış bədəndən qəşəng şəkildə sallanmışdı.

Balkonda durmuşdular. Jenya dirsəkləri ilə qurğunun kənarlarına söykənmişdi. O, müstəqil şəkildə bir neçə addım ata bilirdi, amma qurğuda özünü daha inamlı hiss edirdi.

Hava qeyri-adi dərəcədə susqun idi, Jenya özü ona sual verdi:

- Hə, bəs orda nə öyrənirdin?

- Dili və Tövratı, - Hava təmkinlə cavab verdi.

- Necə oldu? Öyrətdilərmi?

- Çətindir, - Hava cavab verdi. – Nə qədər çox cavab varsa, bir o qədər də çox sual var.

Ağaclar beşinci mərtəbə səviyyəsində qurtarırdı, balkondan yalnız iki göyrüş ağacının xırda-qıvrım ucları görünürdü və onların altında yeri çətinliklə görmək olurdu. Jenya daha aşağı atılmaq istəmirdi…

- Mən, Jenya, oxumağıma xitam vermək qərarına gəlmişəm. Mənə elə gəlir ki, ümumiyyətlə, lazımi yerindən başlamamışam. Hər şeyi atmaq və təzədən yaşamağa başlamaq istəyirəm…

- Bunu başa düşə bilərəm, - Jenya razılaşdı.

Sonra onlar çay içdilər. Sonra Hava Jenyanı kresloya oturtdu, tasa isti su tökdü, Jenyanın arıq ayaqlarını suya qoydu. Dırnaqlarını tutdu, dabanlarını süngərlə sürtdü. Köhnə bir ülgüc tapıb baldırlarındakı seyrək üzün tükləri qırxdı. Sildi, krem sürtdü. Hamısını da dinməz-söyləməz etdi.

Sonra, başını qaldırmadan, olduqca sakit tərzdə dedi:

- İçimdə o qədər köpük var. Amma yavaş-yavaş azad oluram: bütün həyatım boyu əzab çəkmişəm ki, Kostya səni sevirdi… Onun sənə məhəbbəti axıra kimi də tükənmədi…

- Boş söhbətlərdir… Bütün bunlar inişilki həyatda olmuşdu. Biz isə indi yenidən yaşayırıq… Bu haqda bəs Tövrat nə deyir?

- Minnətdaram sənə, canlı və həqiqi Çar, ona görə ki, Öz şəfqətinlə mənə ruhumu qaytardın… Bu, Jenya, səhər duasıdır. İvritdə çox gözəldir, - Hava boğaz səsləri ilə uzun bir cümlə dedi.

Seryojaya demək lazımdır ki, bu iki əlyazmasını gətirsin. Yoxsa özü çapa qəbul edib, redaktəsini fərli edə bilməyəcək, - Jenya fikirləşdi. – Saşkadan da gərək xahiş edim, Kirilə yeni şalvar alsın. Göy və qara. İki cüt. Və məktuba cavab vermək… Və, nəhayət, işlərini qeyd dəftərçəsinə yazmaq…

Tərcümə edəni: Seyfəl Həsənov

Tatyana Tolstaya

(esselər)

Kino

Teatrdan soyuduğum anı dəqiqliyi ilə xatırlayıram. Daha doğrusu, onu sevmə cəhdlərimin bütünlüklə boşa çıxdığı anı. On iki yaşındaydım, axmaqlıqdan bütün sinfi pis bir Sankt-Peterburq teatrına, maraqsız tamaşaya – Puşkinin "Kiçik faciələr"inə aparmışdılar. Uşaqları həssas vaxtında mənasız tamaşalara aparmaq məsləhət deyil, özü də yaxşı olardı ki, Puşkin tamaşaya qoyulmasın, nə olsun ki, mətn pyes şəklində yazılıb. O, heç də pyes deyil.

Mənə əmr edildiyi kimi, tamaşanı sevmək üçün əlimdən gələni etdim: axı, bu Puşkindir, Böyük İncəsənət, Məbəddir, burada xüsusi Ab-hava var və mən gərək Ülvi bir Həyəcan keçirəydim, amma eyni zamanda unutmamalı idim ki, Teatrda Teatr Şərtləri var. Unutmamışdım da, amma komzol, popurlu qolçaqlar geyinən, yekə qarnı nazik ayaqları üstündə yırğalanan yaşlı əmi sinif rəhbərinə xas zəhmli səsi ilə: "Laura, söylə görüm neçə yaşındasan?" – deyəndə və cavab olaraq gombul xala ona "On səkkiz!" – deyib qapanda məni dəhşətli həyəcan və xəcalət basdı. Sinif yoldaşlarım pıqqıldamağa başladılar. "Bəsdirin!" – Gözəllik Sərrafları olan böyüklər pıçıldadılar. "Sənin Don Huanın allahsız və əclafdır! Sənsə – sənsə ax-

maq!” – əmi bu sözləri var-qüvvəsi ilə elə dedi ki, “axmaq” sözü ilə birlikdə ağzından nəhəng konusda tüpürcək damcıları səpələndi, eynən poliklinikalarda qripə qarşı olan sərlövhədəki kimi: “öskürək zamanı – 1 metrə, asqıraq zamanı – 3 metrə qədər”. “Lül qəmbərdir ki” – oğlanlar sevincək oldular. “Sss!” – Sərraflar hiddətləndilər. İztirab bitmək bilmirdi ki, bilmirdi. Bundan sonra Don Huanla Komandor sağ-salamat və adi şəkildə itilib getdilər. Düşündüm ki, artıq bitdi, sən demə antraktmış, bir bu qədər də sonra davam etdi. Təəssüflər olsun ki.

Amma teatr isti idi, zaldan xoş, qeyri-adi qoxu gəlirdi, foyedə geyimli-kecimli insanlar gəzirdilər, pəncərələr paraşüt ipəyindən olan pərdələrlə örtülmüşdü, sanki bulud parçaları idi, bufetdə zəngin insanlar şampan içir, böyük bir şövqlə hisdə bərk qurudulmuş kolbasalı bahalı buterbrodlar yeyirdilər. Bəli, Məbəd. Bəlkə də. Amma nə Məbəd, nə də tanrılar mənimki deyildi.

Bax, Lev Tolstoy meydanında yerləşən yöndəmsiz anbara bənzəyən “Arse” kinoteatrı başqa məsələ. Burada narahat taxta oturacaqlar var, burada paltoda otururlar, burada dondurmanı zala qolun üzərində gətirirlər və o, kreslonun qoluna damcılayır, yer-yurd zibillə dolu olur. Kinoda teatr düşkünlərini, bəzək-düzəkli xanımları, heç bir şeydən məlumatı olmayan insanların mühitində üç saat üstəgəl antrakt vaxtı keçirənləri görə bilməzsən, bu plebey, bazar, qurama camaatın arasında cibindən muğayat olmalısan, yoxsa soyularsan. Burada, əvvəlki seansdan yatıb qalan, heç bir vəchlə yağışın altına çıxmaq istəməyən sərxoşun ənsə payından vurulub qovulması hamının gülüşünə səbəb olur. Sonra işıqlar sönür, yalnız şüaları qalır, on dəqiqəyə yaxın sənə kinojurnalla zülm verirlər, – hansısa toxucular, heyvandarlar, buna bənzər darıxdırıcı şeylər yalnız insanı hövsələdən çıxarmaq işinə baxır və yenə də qısa

işıq, insanlar oturacaqları cırıldadaraq yerləşməyə başlayırlar, zalı siqaret çəkənlərin, spirtli içki içənlərin, paltolardan gələn it iyi bürüyür. İndicə başlayacaq. Bu, xoşbəxtlikdir. Bu, kinodur.

Onlar işiğı tədricən söndürürlər – reostatları var. Proyektorun səsi, işığın zərbəsi – vəssalam, ötüb-keçdi, qəfil o düz və küt ekran yoxa çıxır, yerini fərqli bir məkana, aləmə verir, sanki röyalarda, xəyallarda, narkozdasan. Sən, sən deyilsən.

Bu kələ-kötür və natəmiz "Arse"də mən "Amfibiya adam"a baxmışam və o ovsunu, uzaqlarda qalmış 1962-ci ilin sehrini pozmamaq üçün bir də heç vaxt təkrarən baxmaram. Film maraqlımı idi? Mənlik deyil! Qoy, Anastasiya Vertinskayanın həyəcanla boğulduğu (ancaq indi onu İxtiandr xilas edir) zaman valehedici çöhrəsi, qırmızı (deyəsən) maykası, yaşıl (gərək ki) dəniz suyu, keçmiş və əcnəbi görünən adi sovet suyu gözümün önündə qalsın. Bu "Arse"də "İdman həyatı belədir" adlı darıxdırıcı kinoya da baxmışam – nə haqda idi xatırlamıram, gərək ki, idman karyerasına görə arvadını atan, sonra isə peşmançılıq çəkən bir idmançı barəsində idi. Daha nə haqda olacaqdı ki? Bircə səhnəsi yadımdadır: arvadı can verir, səhərdir və divarda yekə qara hörümçək peyda olur. İdmançı da yumruğu ilə hörümçəyi əzib öldürür! Sonra da hönkürtü vurub ağlamağa başlayır. Hə, dəqiq, arvadı öldü. Evdə gəlib səhnənin həyəcanlı, həm də xoşagəlməz olduğunu nağıl elədim, izah elədilər ki, belə bir metafora var. Bir sözlə, "Səhər hörümçəyi – bədbəxtlik demək imiş". Axşam hörümçəyi – ümidə, günorta – sevgiyə, gecə hörümçəyi isə darıxmağa yozulurmuş. O vaxtdan gün mənim üçün hörümçəklər arasında bölüşdülüb.

Bu "Arse"də ucuz bir Hollivud qızı göstərməklə məni təhqir də ediblər. Gözəlin qəfil oxumağı az imiş kimi (müzikl!

nə öldürərdim!), hələ bir açıq-aşkar parçadan hazırlanmış otların arasına dürtülmüş kağız gülləri parçalamağa başladı. Saxtakarlıq! Fırıldaq! Bu, yuxuda dünyanın anlamını açdığın bir vaxtda zəngli saatın səni kobudcasına yarımçıq oyatmağına oxşayır. İlğım itdi, hər şey yox oldu: mən yad insanların arasında zir-zibilli balaca zalda oturmuşam – axı, mənim burda nə işim var? Aradan çıxmaq lazımdır, xətrimə dəyiblər, tez evə getməliyəm – hər zamankı kimi çiskinli alaqaranlıqda "Balıq" mağazasının yanından, sərxoşların olduğu keşiş bağından, tramvay relslərindən, taxta körpüdən keçib adi həyata qayıtmaq. Möcüzə, vətəndaşlar, texniki səbəblərə görə təxirə salınır. Bəşər övladı torpaqdan yaranıb və ona qayıdır.

Axı, mən əksər insanlar kimi sadə və bəsit kino tamaşaçısıyam. Kinodan tamamilə yeni təsəvvürlər, ümumi illüziyalar gözləyir, "nə üçün? olduğunu fikirləşməmək, nə zaman? Olduğunu xatırlamamaq üçün" sonuna qədər aldanmaq istəyirəm. Teatr bu iqtidarda deyil, heç iddia da etmir. O, böyüklər üçündür, kino isə uşaqlar. Teatr canlı aktyorları sevənlər və incəsənətə qarşı onların qeyri-mükəmməlliyini xeyirxahlıqla bağışlayanlar üçündür. Kino isə kölgəni, röyanı, möcüzəni sevənlərin sevimlisidir. Teatr gördüklərinin yalan olduğunu gizlətmir. Kino isə özünü elə göstərir ki, guya gördüklərin həqiqətdir. Adi insanın sadə və yeganə həyatı əlavələr olmadan dadsız-duzsuzdur, bu səbəbdən də bəziləri "Byut" şampanı içir, digərləri isə yapışqan iyləyir. Nə fərqi var ki? Yapışqan, zəhmət olmasa.

Qızıl

Qızıl barədə nə isə anlamaq mümkün deyil.

O hər kəsin xoşuna gəlir, bütün bəşəriyyətin – çinlinin, avropalının, hələ Kiçik Asiya sakinlərini demirəm. Sanki qızıl və Şərq ayrılmazdır: bürkü, xudpəsəndlik, cah-calal, qəddarlıq, tamah, dünyaya sahib olma eşqi, acgözlük, bütün bunlar eynidir, bu, qızılı şərqdir. Hindistanda ölkənin qızıl ehtiyatından savayı, bütlərində daha çox qızıl var, nəinki Amerikanın xəzinəsində. Omanda banklardan birinin qapısı qızılla örtülüb – Alın! Götürün! Ən qədim qızıl zinət əşyası 5000 min il əvvəl Şumerdə düzəldilmiş, elə həmin vaxtlarda və məkanda çarx ixtira edilmişdi. Qızıl – günəş, gümüş isə aydır, bununla bağlı heç kəs mübahisə etmir, bunu kimyagərlər yaxşı bilirdi. Qızıl və gümüş: işıq və kölgə, major və minor. Qızıl – şadyanalıq və həyat, gümüş – hüzn və ölüm. Qızıl – isti, cənub, gündüz; gümüş – soyuq, gecə, şimal. Qızıl – yay, gümüş – qış; qızıl – qum, gümüş – qar. Qızıl – gülüş, gümüş – göz yaşı.

Boz tutqun gümüş fikirli olmaqdır, onunla bağlı olan hər şey də anlamağa, sual doğurmağa, fala baxmağa, sirli biliyə, mənanı və səbəbi axtarmağa yönəlib. Minervanın bayquşu – müdriklik ilahəsi – gecə uçur; qürubdan sonra fala baxır; aylı gecədə qüssələnir və ulayır, ürək çırpıntısı və öncədən nəyisə hiss etmə ilə ayılır. Mən kiməm? Hara gedirəm? Nə olacaq?

Qızıl bir balaca ağılsızdır, məqsəd, məna, xoşbəxtlik aramayan nəşəli və sağlam gənclik kimi, çünki burada və indi o sadalananlar var. Bəxtəvər insanlar saata baxmırlar, zaman axmır, məkan isə, dünyada mən varam və dünya da məndədir anlamındadır. Olmaq – budur ən böyük sevinc. Narahat olma-

dan şənlənmək. Qızıl əsr çiçəklənir və bar verir, gümüş dövr isə kədərlənir və geriyə baxır.

Çox az hallarda insanların fikri üst-üstə düşür, amma qızılın gümüşdən yaxşı olması konsensusu bütün konsensuslara uyğundur. Ən gözəl şeylər qızıldandır: qızıl ürək, qızıl əllər, ehh, zaman da qızıldan olsaydı! – bu siyahını sonsuza qədər uzatmaq olar. Səbəb qızılın təbiətdə az tapılması və yaxud da baha olmasında deyil, vaxtilə ondan da bahalı şeylər olub, məsələn, zanbaq, darçın, qara istiot kimi, indinin özündə də platin qızıldan iki dəfə bahadır, ancaq platin kimi sevindirəcək? – hər hansısa maliyyəçidən savayı. Bahalıdır, lazımlıdır, amma göz oxşamadıqdan, paxıllıq yaratmadıqdan sonra nə mənası var?

60-cı illərdə Sovet zəhlətökən marksisti qızıl haqda həvəssiz tərzdə yazmışdı: "Təbii əmtəə malları şəraitində insanların münasibətini əks etdirərkən hakimiyyət hadisələrin üzərindən çıxış edərək buna əşyaların münasibəti kimi baxır, bu isə kənardan təbii daxili xüsusiyyət kimi görünür, təbii olaraq qızıl və pul fetişizmi meydana gətirir... Qızılı yığıb saxlamaq ehtirası sərhəd tanımadan artır, qorxunc cinayətlərə sövq edir". Özüdür ki var, hüdudsuzdur! Amansızdır! Çünki qızılın hakimiyyəti heç bir qəmgin əmtəə-pul münasibətləri ilə izah edilə bilməz, o, insanı divanə edir, ovsunlayır, məftun edir, kor edir, o, az olmur, sadə xalq qəlbi ona doğru can atır, hətta saxtası üçün sevinir, şənlənir. Qızıla görə əldən gedirlər, yeməkdən, içməkdən imtina edirlər, ona görə hər şeyi verməyə hazırlar, öldürürlər, dövlətləri yer üzündən silirlər. Ondan yüksəkdə duran bircə Tanrı, həyat və sevgidir, buna görə də təəssüflənmədən, "Təbii əmtəə malları" barədə heç nə bilmək istəmədən barmaqlarından üzüklərini, qulaqlarından ağır sırğalarını çıxarır, itaətkarlıqla boyunbağılarını, bilərziklərini, səhənglərini

və mücrülərini "məbədlərə" bağışlayır, səhhətlərinə görə dua edir, sağ-salamat qayıdana görə, yeni bir möcüzənin baş verdiyi üçün minnətdarlıqlarını bildirirlər. Qızıl səbəbsizdir: biz ona layiq deyilik. Azotsuz və oksigensiz yaşamaq mümkün deyil, Dmitriy İvanoviçin cədvəlindəki Hassium və Hafnium nəyə lazımdır, kalsiumsuz biz addım belə ata bilmiriksə, onsuz biz maye yığını kimi yerdə qalardıq, qızıl isə üstümüzə elə belə səpilib, göylərin səxavəti kimi, zarafat kimi. O, nə zərərlidir, nə də xeyirli, əməli xeyri yoxa hesabdır. "Foto şəklin tonlaşdırılmasında istifadə olunur" – tonlaşdırma, vəssalam. "Tibbi preparatların sıralarına daxildir" – daxildir, amma müalicə etmir. Gəl gör ki, o, ümumi ekvivalentdir, bu ümumi arşınla hər şey ölçülür, dünyanın ən münasib, qəşəng, istəkli, portativ, paslanmayan arşını. Sanki Yaradan sonsuz zəkası ilə düşünüb qərara gəlib: gəlsənə, mən bunlara çürüməyən, xarab olmayan, qaralmayan bir şey verim, həm də darıxmamış olarlar, hər kəs onu arzulayar, onu axtarar, qoruyar, onunla oynayar, ondan fiqurlar və sallama bəzəklər, qutucuqlar və papaq düzəldər, barmağına, burnuna və qulağına taxar, axı, onlar haradan baxsan saf uşaqlardır.

İnsan təklikdə özü ilə çox qızıl aparmır. Bir ton qızıl – dörddə bir santimetrlik 37 tildən ibarət olan kubdur. Çarpayının altına girər, ancaq tonluq qızılı ayağı ilə kim tərpədə bilər? Dünya tarixi ərzində təxminən 150 min ton qızıl əldə edilmişdir. Bu 20 Rusiya büdcəsinin dəyəridir. Qızıldan beş Eyfel qülləsi inşa etmək olar. Yaxud da Moskvadan Peterburqa qədər qızıl rels çəkmək olar. Onun daşınması üçün hərəsi 40 vaqondan ibarət 70 dəmiryolu qatarı lazımdır. Bütün bu gözəlliklə haranısa qızılla örtmək olar, məsələn, ekvatorun ətrafında altızolaqlı şose çəkmək olar. Ya da ki, əksinə, qızılı 5 mikron qalınlığında məftil uzatmaq – həmin məftilin iki kilometri

1 qramdır, bir qramın dəyəri 19 dollardır, bir şüşə yaxşı çaxırdan ucuz – yer kürəsini göyərənə qədər bu məftillə bükmək olardı. Ondan şəffaf vərəq düzəldib onun üzərindən baxaraq kitab oxumaq olardı.

Avtomobilin xromlanmış hissələrini – sükanı, külqabını, çaxmaq alətini Elvis Presli kimi qızılı ilə əvəz etmək olar. Yaxud da yer üzündən silinmiş çibçə qəbiləsinin hinduları kimi etmək olar – onlar hər il yüzlərlə qiymətsiz qızıl zinət əşyalarını sevinclə qışqıraraq dağ gölünün sularına tullayırlarmış.

Əslində, qızıl kimi insan haqqında da nə isə anlamaq mümkün deyil.

Kvadrat

1913-cü il idi, 1914, 1915-də ola bilər, hansı gün olduğu məlum deyil, polyak mənşəli rus rəssamı Kazimir Maleviç 79,5-in 79,5-ə kətan parça götürüb kənarlarını ağ rəngli boya ilə rəngləyir, ortasını isə qalın qara rəngə boyayır. Bu cür asan əməliyyatı istənilən uşaq yerinə yetirərdi – əslində, uşaqların belə böyük sahəni eyni rəngə boyamağa səbirləri çatmazdı. Bu işi istənilən çertyojçu bacarardı, Maleviç də cavanlığında çertyojçu olub, lakin çertyojçular üçün belə bəsit həndəsi fiqurlar maraqlı deyil. Belə bir rəsmi yalnız ruhi xəstə çəkə bilərdi, çəkmiş olsa belə çətin ki, sərgidə lazımi zamanda və lazımi yerdə olmaq üçün bəxti gətirərdi.

Bəsitdən də bəsit olan əməliyyatın öhdəsindən gələn Maleviç dünyanın ən məşhur, ən müəmmalı, ən tükürpərdici əsərinin – “Qara kvadrat”ın müəllifi oldu. Fırçasının adi hərəkəti ilə

o, silinməyən keçilməz xətt çəkdi, köhnə ilə yeni incəsənət, insanla kölgəsi, qızılgüllə qəbir, həyatla ölüm, Tanrı ilə İblis arasındakı uçurumu ifadə etdi. Özünün dediyinə görə o "hər şeyi sıfıra endirib". Sıfır isə nədənsə kvadrat olub və bu sadə kəşf incəsənət tarixində mövcud olandan bəri ən qorxunc hadisədir.

Maleviç nə etdiyini bilirdi. Bu əlamətdar hadisədən il yarım əvvəl o, dostları və həmfikirliləri ilə birgə futuristlərin şimal tərəfdə yerləşən gözəl bağ evində keçirilmiş birinci ümumrusiya qurultayında iştirak edir və "Günəş üzərində qələbə" adlı opera yazmaq qərarına alınır, vaxtı fövtdə vermədən elə oradaca bunu həyata keçirməyə başlayırlar. Maleviç səhnəni tərtib edir. Səhnələrin birində arxa fonu bəzəyən ağ-qara rəngdə olan dekorasiya haradasa gələcəyi xatırladır, hələ dünyaya gəlməmiş kvadratı. Nə vaxtsa ilhama gəlib yaratdığı adi dekorasiya, sonralar Peterburqdakı emalatxanada qəfildən nəzəri nailiyyət kimi dərk edildi, sonuncu ali uğur – o, çətin, müəmmalı, tələb olunan nöqtədən sonra başqa heç nə olmayıb və olmayacaq da. Rəssam dahi intuisiyası, Yaradanın gələcəyi görmə qabiliyyəti sayəsində zülmətdə əli ilə axtararaq qadağan olunmuş rəngdə qadağan edilmiş fiquru tapır – minlərlə insanın yanından ötüb keçdiyi, üzərindən adladığı, məhəl qoymadığı, fikir vermədiyi... o sadə fiquru. Onu da demək lazımdır ki, ona qədər heç kim "Günəş üzərində qələbə" barəsində düşünməmiş, Zülmət hökmdarına meydan oxumağa cürət etməmişdi. Maleviç cəsarət etdi. İblislə şərt kəsmiş, ruhunu ona satmış Faustlarla bağlı gerçək povestlərdə olduğu kimi Ağa həvəslə və ləngimədən zühur edir və rəssama mövcud olmamağın düsturunu verir.

Həmin o 1915-ci ilin sonlarında artıq hər yerdə Birinci dünya müharibəsi getdiyi bir zamanda bu uğursuz rəsm əsəri digərləri ilə birgə futuristlərin sərgisinə çıxarılmışdı. Maleviç o

biri əsərlərini sadəcə adi şəkildə divarda asmışdı, “Kvadrat” üçün isə o xüsusi yer seçmişdi. Saxlanılmış foşəkildən görünür ki, “Qara kvadrat” küncdə, tavanın altında yerləşdirilib, adətən ikonanın asıldığı yerdə. Çətin ki, boya insanı olan biri bu önəmli, müqəddəs küncün “qırmızı” adlandığını, özü də “qırmızı”nın rəng yox, “gözəllik” mənasına gəldiyini fikrindən çıxarmış olsun. Maleviç qəsdən, bilərək qara dəliyi müqəddəs yerdən asıb əl işini “zamanımızın ikonası” adlandırmışdı. “Qırmızı”nın yerinə qara (sıfır rəng), sima əvəzinə uçurum (sıfır cizgi), ikonanın, yəni səmaya, işığa, əbədi həyatın yerinə qaranlıq, zirzəmi, cəhənnəmə lyuk, əbədi zülmət.

Maleviçin müasiri, çox gözəl rəssam və tənqidçi A. Benua, rəsm haqqında bunları yazır: “Ağ çərçivəyə alınmış qara kvadrat – bu, Marsov sahəsindəki evdə baş verən adi zarafat, adi çağırış, təsadüfi epizod deyil, bu əsər, adının mənası viranəlik olan, həmçinin sevgi və zərifliklə bağlı hər şeyi xudpəsəndliyin, təkəbbürün, ehtiramsızlığın vasitəsilə fəlakətə sürükləməsi ilə lovğalanan başlanğıcın özünütəsdiq aktıdır”.

Uzun illər əvvəl, 1869-cu ilin sentyabrında Lev Tolstoy qəribə narahatlıq keçirir və bu, onun həyatına güclü təsir göstərir, çox güman ki, dünyagörüşündə də dönüş anı olur. O, əhəmiyyətli və sərfəli alış-veriş etmək, mülk almaq üçün xoş əhval-ruhiyyə ilə evdən ayrılır. Yolda atlılar xoş söhbət edirlər. Gecə düşür. “Mürgüləyirdim, qəfildən oyandım: nədənsə qorxmağa başladım. (...) Birdən mənə elə gəldi ki, bu qədər uzaq bir yerə getməməliyəm, elə bildim bu qərib yerdə öləcəm. Məni vahimə bürüdü”. Yolçular Arzamas şəhərində gecələmək qərarına gəlirlər. “Budur, nəhayət ki, dirəkli kiçik bir evə yaxınlaşdıq. Ev ağ rəngdə idi, amma mənə çox kədərli göründü. Hətta ürpəndim də. (...) Kiçik dəhliz var idi; yanağında ləkə olan yuxulu bir adam bizə otağı göstərdi – üzündəki ləkə

məni daha da qorxutdu. Otaq zülmət kimi idi. İçəri girdim, halım bir qədər də pisləşdi.

(...) Tərtəmiz ağardılmış kvadrat otaq. Xatırladığım qədər məni vahiməyə salan da məhz otağın kvadrat olması idi. Qırmızı qardinalı[1] bir dənə pəncərə vardı… (…) Balışı götürüb divana uzandım. ayılanda otaqda heç kim yox idi və qaranlıq idi. (…) hiss edirdim ki, yuxuya getməyim imkansızdır. Mən, axı, niyə bura gəldim? Nədən qaçıram və hara? Nə isə qorxulu bir şeydən qaçıram, amma qaça bilmirəm. (...) Dəhlizə çıxdım, mənə əzab verən şeydən uzaqlaşmağı düşünürdüm. Lakin o da mənimlə birgə çıxdı və qanımı qaraltdı. Mən daha çox qorxmağa başladım.

Bu nə axmaqlıqdır, – öz-özümə dedim. – Nəyin dərdini çəkirəm, nədən qorxuram?

– Məndən, - astadan ölümün səsi cavab verdi. – Mən burdayam.

(...) Uzanıqlı idim, ancaq elə bil bu an uzandım, qorxudan qəfil sıçradım. Və sıxıntı, sıxıntı, – belə mənəvi sıxıntı yalnız ürəkbulanma zamanı olur, yalnız mənəvi. Qorxuncdur. Adama elə gəlir ki, ölüm qorxur, amma həyatı xatırlayıb onun haqda düşünəndə görürsən ki, əslində, ölən həyat daha çox qorxur. Sanki həyatla ölüm bir-birinə qarışıb. Ruhumu nə isə param-parça edirdi, amma buna müvəffəq ola bilmirdi. Bir daha gedib yatanlara baxdım, bir daha yatmağa cəhd göstərdim; yenə həmin ki kabus, – qırmızı, ağ, kvadrat. Nə isə partlamağa çalışır, ancaq partlamır. Əzab verəcək qədər soyuq və qəzəbli, özümdə bir damcı da olsa rəhmlilik hiss etmirdim, yalnız özümə və məni belə edənə qarşı sabit, sakit qəzəb”.

1 bütöv pərdə

Yazıçının həyatında olan bu əlamətdar və müəmmalı hadisə qəfil baş verən güclü depressiya tutması deyil, bu, "arzam kabusu" adı almış, ölümlə, şərlə olan gözlənilməyən görüşdür. Qırmızı, ağ, kvadrat. Maleviçin əsərlərindən birində olduğu kimi.

Lev Tolstoy başına gələn ağ-qırmızı kvadratı əvvəlcədən görə bilməz, baş verənlər nəzarət edə bilməzdi. O, yazıçının qarşısına çıxıb ona hücum etdi və baş verənlərin təsiri ilə, o dəqiqə olmasa da, tədricən buna qədər sürdüyü həyatından, ailəsindən, sevgisindən, yaxınlarının anlayışından, onu əhatə edən dünyadan, incəsənətdən uzaqlaşdı. Aşkar etdiyi "həqiqət" onu boşluğa, sıfıra, özünü məhv etməyə sürüklədi. Başı "mənəvi axtarışlar"a qarışan Tolstoyun ömrünün sonunda əldə etdiyi yeganə şey bir ovuc mənasızlıq oldu – ilkin xristianlıq variantı başqa heç nə. Davamçıları da bir nəticəyə varmadan dünyadan köçdülər. Araq əvəzinə çay içmək, ət yeməmək, ailə əlaqələrini qınamaq, özünə uzunboğaz çəkmə tikmək, özü də əyri-üyrü tikmək – bu da şəxsiyyətin kvadratdan keçən mənəvi axtarışının nəticəsi. "Burdayam", – ölüm astadan pıçıldadı və bütün həyat uçuruma yuvarlandı.

Mübarizə hələ davam edirdi, qabaqda Anna Karenina (yaşamaq istədiyi üçün müəllif tərəfindən amansızcasına öldürülən) və daha bir çox şah əsərləri vardı, lakin kvadrat zəfər çaldı, yazıçı incəsənətin həyat gücünü özündə yox edib, bəsit ibrətamiz hekayələrə, bayağı nəsihətlərə keçid aldı və sonda dünyanı əsərlərindəki ədəbi güclə deyil, çəkdiyi mənəvi iztirabları, etiraz fərdiliyi, açıq-aşkar özünə etdiyi əziyyətlə fiziki cəhətdən ölməyi ilə mat qoydu.

Maleviç də kvadratı gözləmirdi, baxmayaraq ki, onu axtarırdı. "Suprematizm"i (Maleviçin termini) ixtira etməzdən əvvəl "alogizm"ə etiqad edirdi, sağlam düşüncənin hüdudlarını

aşmaq üçün "logizmə, təbiiliyə, meşşan düşüncəyə və xurafata qarşı mübarizə"yə etiqad edirdi. Nəhayət axtardığını tapdı, qarşısında kvadrat peyda oldu və onu özünə çəkdi. Rəssam İblislə əlbir olmağın ona gətirdiyi şöhrətlə qürur duya bilərdi: duyurdu da. Bilmirəm, şöhrətin ona verdiyi ikimənalılığı başa düşmüşdümü. "Rəssamın ən məşhur rəsmi" – bu deməkdir ki, yerdə qalanlar daha az tanınır, bir o qədər də mənalı deyil, diqqəti cəlb etmir, bir sözlə, onlar pisdirlər. Həqiqətən də, kvadratla müqayisədə digərləri qəribə formada solğun görünürlər. Onun parlaq həndəsi kəndlilərdən ibarət rəsm seriyası var, burada insanların üzlərinin yerinə içi boş şəffaf yumurtaya bənzəyən ovallar təsvir olunmuşdu. Rəsmlər rəngarəng, dekorativ olsalar da, mənasız əlvan rənglərin toplusuna bənzəyir, sanki bir yerə toplanıb bir ağızdan Kvadratın dibsiz dərinliyinə qeyb olacaqlar. Onun açıq çəhrayı, impressionist ruhlu, adi peyzajları da var, belələrini başqaları da çəkib. Həyatının sonlarında o, yenidən fiqurativ incəsənətə qayıtmağa cəhd göstərmiş və yaratdıqları təxmin edildiyi qədər qorxunc görünmüşdür, məsələn, çəkdiyi insanlar mumiyalanmış cəsədlərə bənzəyirdi, müqəvvalar libaslarının çərçivəsindən baxır, sanki "kəndli" seriyasından parlaq bir parçadırlar. Əlbəttə ki, zirvəni fəth etdikdən sonra yeganə yol aşağısıdır. Dəhşətlisi isə zirvədə heç nəyin olmamağıdır.

Sənətşünaslar Maleviç haqqında sevgi ilə yazırlar: "Qara kvadrat" indiyə qədər mövcud olan bütün gözəllik təsəvvürlərini özünə çəkib, o, naturalist imitasiyasına yolu bağlayır, mütləq forma kimi iştirak edir, şəklin məğzini kəsb edib bir-birindən asılı olmayan və olan azad formalardan ibarət incəsənəti yüksəldir".

Doğrudur, Kvadrat "yolu bağlayır", elə rəssamın da. O, "mütləq forma kimi" mövcud olur, bu da düzdür, amma bu, o

demək deyil ki, onunla müqayisədə mütləq olmadıqlarına görə digər formalar gərəksizdir. O, "incəsənəti ucaldır", bax bu düz deyil. İncəsənətin sonunu, mümkünsüzlüyünü, lazımsızlığını yüksəldir, o, incəsənəti yandıran sobadır, yuvarladığı uçurumdur, ona görə ki, kvadratdır, Benuadan gətirdiyimiz sitatda olduğu kimi, "adının mənası viranəlik olan, həmçinin sevgi və zərifliklə bağlı hər şeyi xudpəsəndliyin, təkəbbürün, ehtiramsızlığın vasitəsilə fəlakətə sürükləməsi ilə lovğalanan başlanğıcın özünütəsdiq aktıdır".

"Kvadrata qədər" olan dövrdə rəssam öz peşəsini ömrü boyu öyrənir, həyat vermək üçün cansız, ətalətli, xaotik materiya ilə savaşır; odu alovlandırır, dua edir, daşda işıq yandırır, boğazını yuxarı dartaraq barmağının ucunda durub bəşər övladının gözünün görə bilməyəcəyi yerlərə baxmağa çalışır. Bəzən onun zəhməti və yalvarışları, nəvazişi uğura müvəffəq olur; bir anlıq və ya andan bir az çox zaman içində "bu" baş verir, "o" gəlir. Tanrı (mələk, ruh, pəri, bəzən şeytan) güzəştə gedir, razılaşır, özlərinə, bizdən gizli saxladıqları ecazkar evləri üçün qoruyub saxladıqları, adını verə bilməyəcəyimiz ötəri hissləri, səmanın işığından bir parçanı əllərindən buraxırlar. İlahi hədiyyə xahiş edən rəssam bir anlıq hədsiz minnətdarlıq, alçaldılmamış itaət, rüsvay edilməmiş qürur hissi duyur, bir anlıq yanağından qeyri-adi, müqəddəs və saflaşdırıcı göz yaşı damcıları yuvarlanır – görünən və ya görünməyən, bir anlıq katarsis. "O" axıb tökülür – o, dalğa tək keçir. Rəssam mövhumatçıya çevrilib. O, bu görüşün təkrarlanmağını istəyir, bilir ki, bu dəfə ilahi qəbula nail ola bilməyəcək, mənəvi gözlərini açır, o, daxilən əmindir ki, məhz bəzi hisslər (tamahkarlıq, hərislik, lovğalıq, təkəbbür) cənnət qapılarını onun üzünə bağlaya bilər, içindəki hissləri cilovlamağa çalışır ki, mələk kimi bələdçilərinin qarşısında xəta etməsinə, o, bilir ki, ən

yaxşı halda o həmmüəllifdir, şəyirddir, amma sevimli şəyird, taclı həmmüəllif. Rəssam bilir ki, ruh istədiyi yerdə, istədiyi kimi gəzib dolaşa bilər və bu həyatında elə bir şey etməyib ki, ruh onu seçsin, amma əgər bu baş veribsə, deməli, möcüzəyə görə dərin minnətdarlıq bildirmək lazımdır.

"Kvadratdan sonrakı" dövrün rəssamı, qara dəliyə baxıb kvadrata dua edən və bu zaman dəhşətdən içi titrəməyən rəssam. O, pərilərə və mələklərə inanmır; onun metaldan olan qısa qanadlı öz qara mələkləri var, bu dünyada şöhrətin nədə olduğunu və bu şöhrətin ən qalın, çox qatlı tikəsini necə ələ keçirməyi bilən praqmatik və özündənrazı cənablar. Peşə, sənət lazım deyil, lazım olan başdır; ilham lazım deyil, gərəkli olan hesabdır. İnsanlar yeniliyi sevir – yeni bir şey tapmaq lazımdır; insanlar hiddətlənməyi xoşlayır – buna reallaşdırmaq lazımdır; insanlar laqeyddir – onları təəccübləndirmək lazımdır: üfunətli, təhqir edici, diksindirici nəyisə burunlarına qədər gətirmək lazımdır. İnsanı çubuqla kürəyinə vursan o çevriləcək; bax, elə o an onun üzünə tüpürmək lazımdır, sonra isə mütləq buna görə pul almaq önəmlidir, yoxsa bu, incəsənət olmaz; əgər ki, insan qəzəblə fəryad edirsə, onu səfeh adlandıraraq izah etməlisən ki, incəsənət incəsənətin öldüyü xəbərindən ibarətdir, mənimlə birgə təkrar edin: öldü, öldü, öldü. Tanrı öldü. Tanrı heç vaxt doğulmayıb, Tanrını tapdalamaq lazımdır. Tanrı sizə nifrət edir. Tanrı alverçidir. Tanrı – İblisidir. İncəsənət öldü, siz də, ha-ha, pulunu ödəyin, bu da sizə zibil, əsl, yerli zibil, möhkəm saxlayın. "Sevgi və mehribanlıq", göylərdə işıq, uçuş, şüa, qaranlıqda işartı, yuxu, əhdpeyman yoxdur və heç bir zaman da olmayıb. Həyat ölüm deməkdir, ölüm burada və indi.

"Həyat ilə ölüm vəhdətə çevrilib", – Lev Tolstoy dəhşət içində yazıb və o gündən başlayaraq sona kimi bacardığı, anla-

dığı, bildiyi kimi mübarizə aparıb, İncil miqyasında möhtəşəm döyüş. “Kimsə Yaqubla dan yeri sökülənəcən döyüşür...” Dahi ilə İblisin mübarizəsinə baxmaq dəhşətdir: hər dəfə biri üstünlük qazanacaq... “İvan İliçin ölümü” belə bir döyüş meydanı var, özü də kimin qalib gəldiyini demək çox çətindir. Tolstoy bu povestdə danışır, elə hey danışır, təkrarlayır, sübut edir, beynimizə yeridir ki, həyat ölüm deməkdir. Lakin povestin sonunda onun ölən qəhrəmanı ölümdə doğulur – yeni həyat kimi, azad olur, çevrilir, aydınlaşır, bizdən ayrılıb, deyəsən, təsəlli tapa biləcəyi yerə gedir. “Yeni incəsənət” təsəlli tapmaq, aydınlaşmaq, yüksəlmək ideyasının özünü ələ salır – ələ salır və qürur duyur, oynayıb bayram edir.

Tanrı barəsində danışmaq ya o qədər qəlizdir ki, başlamaq belə vahiməyə salır, ya da əksinə, çox asandır: əgər istəyirsən ki, Tanrı olsun o, olur, yox, əgər istəmirsənsə, olmur. Tanrı, biz daxil olmaqla, hər şeydir, bizim üçün isə o, biz özümüzük. Tanrı özünü bizə sıramır – başqa insanlar onun təhrif olunmuş, uydurma obrazını bizə sırıyırlar, əslində, o, su kimi səssiz içimizdə durub. Onu axtaranda biz özümüzü axtarırıq, onu inkar edəndə özümüzü inkar edirik, ona lağ edəndə özümüzə lağ edirik – seçim bizimdir. İnsaniyyətsizlik və müqəddəsliyin yoxluğu eynidir.

Müqəddəsliyin yoxluğu – XX əsrin, cahilliyin, bacarıqsızılığın və kütlüyün şüarıdır. Bu, bir fərsizin digərinə verdiyi və üçüncünü hər şeyin məhz belə– mənasız, rəzil olduğuna (guya demokratik və əl çatandır), hamının hər kəsi qınama hüququnu varlığına, prinsipcə avtoritetin yoxluğuna, dəyərlərin iyerarxiyasının ədəbsizliyinə (axı, hamı bərabərdir), incəsənətin dəyərinin yalnız tələb və pulla ölçüldüyünə inandırdığı indulgensiyadır.

“Yeniliklər” və dəbli qalmaqallar, qəribə səslənsə də nə yeni deyillər, nə də ki qalmaqallı: Kvadratın pərəstişkarları incəsənətin nailiyyətləri kimi müxtəlif cismani hissələr və məmulatlar təqdim edirlər, məsələn, biri amneziya, digəri isə Altshaymer sindromundan əziyyət çəkən Adəm və Həvva bir-birilərini və övladlarını inandırırdılar ki, onlar əslində gildirlər, yalnız gil və gildən başqa heç nə.

***

Mən Rusiyanın Amerikanın pulu sayəsində mövcud olan fondlarından birində “müasir incəsənət” üzrə “ekspertəm”. Bizə “ədəbi layihələr” gətirilir, biz isə nəzərdən keçirib onların reallaşması üçün pul ayrılıb ayrılmamağını həll etməliyik. Mənimlə birlikdə ekspert şurasında “köhnə”, kvadrata qədərki incəsənət üzrə əsl mütəxəssislər, mahir ustadlar çalışırlar. Biz hamımız kvadratı və “adında viranəlik mənası olan özünütəsdiq mənbəyi”nə nifrət edirik. Tərslikdən bizə elə hey viranəlik, pislik layihələri gəlirdi, başqa heç nə. Ayrılmış vəsaiti xərcləməyə borclu idik, əks halda fondu bağlaya bilərdilər. Fond isə bizim kasıb ölkəmizdə çoxlarını doyururdu. Çalışırıq vəsaiti heç olmasa daha az ürək bulandıran və bir qədər az mənasız olanı uydurana ayıraq. Keçən il pulu iki rəssama: biri çay boyunca boş çərçivələr yerləşdirmişdi, digəri isə böyük hərflərlə yaxşı kölgə salan “MƏN” sözünü yazmışdı və Peterburq parklarında itlərin arxasınca nəcisin toplanması aksiyasını təşkil edən yaradıcı qrupa verdik. Bu il isə poçt markaları ilə çay daşlarını yapışdırıb Rusiyanın şəhərlərinə göndərən qadına və qan nohurunu sualtı qayıq boyu yayan qrupa verdik: bura gələnlər qulaqcıqda səslənən Abelyar və Eloizanın hekayəsinin mütaliəsi altında bu nohuru keçməli idilər. Növbəti iclasdan

sonra biz küçəyə çıxıb bir-birimizin gözünə baxmadan sakitcə siqaret çəkirik. Sonra isə bir-birimizin əlini sıxıb tələsik ayrılıq.

Yasəmən

Rusiyada şair – Puşkin, meyvə – alma, kol – yasəməndir. Demək olar ki, kol ümumxalqdır, demokratikdir, hər yer üçün yararlıdır, yəni kiçik şəhər bağlarında qanunsuz şəkildə qoparılmaqdan başlayaraq bağ evlərində sakit çiçəklənməyə qədər. Yadımdadır, uzun illər əvvəl bağ evindən şəhərə, bacımın toyuna böyük bir buket tünd bənövşəyi rəngdə yasəmən gülü gətirirdim, Finlandiya vağzalında[1] məni milislər saxladı, inana bilmirdilər ki, Kuşelevkadakı Meşə Təsərrüfatı Akademiyasının bağına basqın etməmişəm. Toy – sevgi – gənclik – yasəmən, bütün bunlar artıq çoxdan təravətini itirib. Yasəmən hər zaman hər şeyin "çoxdan" olduğu, keçmişdə qaldığı və heç vaxt geri qayıtmayacağı deməkdir! Əfsus! Çoxdan uzaqdadır! Mənim üçün bahar gəlməyəcək! Hərçənd necə baxmağına bağlıdır.

Yasəmən Rusiyada on səkkizinci əsrdə peyda olsa da, on doqquzuncu əsrin ortalarında dəbə düşüb: fransız sortu çoxlu miqdarda alınıb əkilirdi. Elə bir malikanə tapılmazdı ki, bənövşəyi və ağ kolluqlar artırmada bir-birini əvəz etməsin. Qızıl əsrin ikinci yarısı yasəmənə qərq olmuşdu. Fet, Tütçev, Qonçarov, rəssamlardan Polenov, Maksimovdan tutmuş hamısı.

1 Sankt-Peterburqda yerləşir

May, pəncərələri taybatay açıb dərindən nəfəs aldım – “uzaqda qalmış ana vətənimi xatırladım” ... (K. R.) “Yasəməni gördüm pəncərənin önündə, // Bunun şahidi oldum gözəl bir yaz günündə (Blok). Yasəmən – gəncliyin, hisslərin ötəriliyidir. Məsələn, Oblomov özünün bezikdirici gümrah Olqası ilə yasəmən budağı altında gəzir və köhnə, məstedici “qanmazdan da qanmaz” sevgi oyunlarına başları qarışıb:

“Əlinizdəki nədir?” – Olqa soruşdu. – Budaq. – Nə budağı? – Görürsünüz: Yasəmən budağı. – Bu, sizdə hardandır? Axı, burada yasəmən yoxdur. – Bunu siz bir az əvvəl dərib atdınız...

“Bu nədir? – Oblomov özünü itirərək soruşdu. – Görürsünüz – budaq. – Nə budağı, – Yasəmən. – Onu bilirəm... bəs, mənası nədir, – Həyat gülü və...”

Amma sevgi keçib gedir, “yasəmənlər gedir, dünən gedir, bu an da gedəcək yasəmən kimi”.

“Oblomovun axırı nə oldu? Hardadır o? Harda? – Yaxınlıqdakı qəbiristanlıqda adi bir urnada kolluqların arasında ruhu sakitlik tapıb. Dost əli ilə əkilmiş yasəmən budaqları məzarın üzərində yuxulayır...” (“dost əlləri”, bilirsinizmi ki, yasəmən gilli torpaq istəyir? Alçaq rütubətli yerlər drenaj üsulu ilə qurudulmalı və torpaq tökülməlidir. Yasəmən PH 6,5-8 torpaqlarda yaxşı yetişir, ona görə də turşulaşmış torpaq əhənglənir. İlk bəslənmə erkən yazda aparılır, zoğlar təzə-təzə böyüməyə başlayanda. Bu zaman bolluca mineral gübrə verilir: bir bitkiyə 20-30 q ammonyak şora, 30 q superfosfat və 15-20 q kalium xlorid. Sonra isə 10-15 sm dərinliyində basdırılır. Mineral gübrə yaxşı olar ki, peyin və sığırquyruğu məhlulu ilə bir yerdə verilsin).

Yasəmənlər getdikcə hey artırdı – budur, artıq onu qəbiristanlığa da köçürüblər, zadəgan malikanələri boğulur, –

“Hər şey keçmişdə qaldı” – Maksimovun rəsm əsəri – kresloda oturan qoca qadın əsərin adını doğruldur, başının üzərində isə saysız-hesabsız gül. Bu da bir növ qəbiristanlıqdır. Sonra isə o kəndbəkənd çoxalıb artır, ona görə də Yesenin kəndli tələbatı da bundan yan keçə bilməyəcək: Köhnə adətimlə alıb kürkümü Mən ot çardağıma doğru baş aldım. Bağ-bağat içiylə yeriyirəm mən, Arabir üzümə dəyir yasəmən.

Nabokov da «hər tərəfi bürümüş stansiya yasəmənləri»ni xatırlayaraq nostalji hisslərə qapılacaq, çünki 1918-ci ildə yasəmən də quşarmudu kimi gündəlik kola çevriləcək və onun barəsində qürbətdə xoş danışacaqlar. Yasəmən gözəl bir bahar çiçəyidir, amma etibarsızdır, tez solur. Nə isə, gümüş dövrün əvvəllərində yasəmən elə bir xüsusi diqqət çəkmir, alışıqlıq yaratmırdı, lakin bu dövr bənövşəyi rəngin vurğunu idi, sanki qeyri-adi bir varlığın rəmzi, şəhvani əzginlik, dekadentlik, narkotikli, zəhərli, məstedici və başgicəlləndirici axtarış kimi ondan yapışmışdı. Əvvəlcə Eros: “yasəmən – ehtiras rəmzidir”, “aylı gecədə, mayın aylı gecəsində yasəmənin çiçəklərinə doğru əyilərək”, “çılğın xəyallarda, ehtiraslı röyalarda yasəmənin naməlum səadəti var – beş ləçəkdən ibarət naməlum səadət”, “yasəmən yarpaqlarından olan röyamdan məst-xumaram”, daha sonra, əlbəttə ki, Tanatos: “yadetmə günündə qəbiristanlığa gedirsən, Allahın bəyaz yasəmənlərini görürsən”... “Yasəmənlər aylı nəqarət altında ağlayırlar”. “Rəssam bizə yasəmənlərin dərin qəşşini təsvir edib”. Vrubelin “Yasəmən”i – bu sizin üçün Polenovun bəsit olan “Nənəmin bağı” deyil, bu, bir dəryadır. Onun ilk “Yasəmən”i hələ çəhrayı idi, ikincisi artıq bənövşəyi rəngdədir: sonra Blokun “bənövşəyi dünyası” başlayır, əbədiyyətdə uçurum, müsibəti görmək. Narın yağış – qəbiristanlığı bürümüş bənövşəyi məzar xaçları, “məni dəfn etməyə gəlmisən... səndən yasəmənin ətri gəlir”.

“Qəbiristanlıqdan da yasəmən iyi gəlir”. “Yasəmənin iyi pisdir”. Belə götürəndə Nabokovun “stansiya yasəmənləri” də ölüm anlamına gəlir, çünki istənilən gediş xırda ölümdür, böyük ayrılıqdır. Kim üçün aydın olurdusa, o hiss edirdi: “bütün yollardan, bütün astanalardan yavaş-yavaş kölgə yaxışlaşırdı”. Qafiyə tapmaq. Vrubel kor oldu, Blok kar, Nabokov və Teffi qaçdı, çatmayan isə gecikdi. Vaxtında yetişən də söndü.

Buruna sevinc, qayalara kədərmi, Adalaramı yasəməni quşlar – Hara yan aldığımızın fərqi yoxdur, yorğun kirpiklərimizi qaldıra bilmərik.

Bənövşəyi aləm yüksəyə qalxdı və dağıldı, gözləyən və gözləməyənləri batırdı, hər şey öldü. Sonra – uğursuzluq. Taxıl müsadirə edildi.

Heç belə aclıq görülməmişdi. Çörəyi nəcis və ağac özəyindən bişirilirdi. Torpaq yeyilirdi. Arvadlar insan ətindən piroq satırdılar.

Gül halında deyildi heç kəs. Yalnız qırmızı qərənfillər, axıdılmış qan kimi, qan tökməyi söz vermiş kimi artıq ilk bolşeviklərin məzarı üzərindəydi. Qərənfili haradan götürürlər çox maraqlıdır? Yəqin, yayda burjua bağlarından, qışda isə kağızdan kəsirlər. Belə bir fərziyyə də var: hələ 1915-ci ildə Xodınkada, “təyyarəçilər”in yerə çırpılıb həlak olduqları düzəngaha qanlı qərənfillər səpilmişdi. Yasəmən haradasa oralarda öz başına çiçəkləyirdi – əlacı nə idi? – amma heç kəs onu mədh etmirdi. Heç kəs yoxdur. Beləcə yavaş-yavaş yasəmənin – incə ölüm olduğu unudulurdu. Ətrafda kobud ölüm olduqca çox idi, elə kobud yaşamaq istəyi də.

Və o, otuzuncu illərdə bağban qayçısı ilə kəsilib güvəcə soxulmuş halda, kobud həyat gücü, ət kimi, Konçalovskinin fırçasının sapı kimi qayıdır Qeyri-iradi düşünürsən ki, təlimata

görə o, Ustadın möhkəm sol əli ilə böyük sağlam budaqlardan yapışıb buketi ayırıcı lövhəyə sıxıb Ustadın güclü sağ əli çəkiclə budaqların aşağı hissəsini çəkiclə xıncım-xıncım edib, artıq yarpaqları qoparır, dibçəyə iki tikə qənd atıb çalxaladıqdan sonra hamarlayıb; daha sonra təsvir etməyə başlayıb. Təzə-tər, qırmızı. Bir daha yaratdı. Bir daha. Pasternak da həmçinin belə edib:

Göyün üzü fırtınayla sovrulur Hər şey canlı, hər yer cənnət Bənövşəyi salxımlarda dolanır Yasəməndən yayılan o təravət.

Sağlamlıq. Məzarlıq yox. Daha bir dənə:

Gecə mənim mərtəbəmə daxil olacaq Və dəhlizdən çıxarkən Məni səhəng kimi Su və yasəmənlə dolduracaq.

Daha biri:

Buludlar da qaçdı-tutdu oynayır, Və böyüyün səsi eşidilir, Yasəmənlər yerlərinə düzməli, Suyu durudulmalı və axıdılmalıdır.

Dipçəkdə, səhəngdə, boşqabda yasəmən – o, praqmatikdir, çünki qəşəngdir, çünki təzə-tərdir; həyati güc, yaşadığı yeri bəzəmək, qoparmaq, sındırmaq və zövq almaq, özünə və insanlara, zəiflik üzərində zəfər, insan Dneprə dedi: mən səni divar ilə bağlayacam! Onu yaxşılaşdırmaq üçün! Və seleksiya! Böyük yasəmən bağçısı Kolesnikov “Sokol” (Qartal) stansiyasındakı bağda, bütün torpağı aviatorların qanına bələnən Xodınkanın torpağının yaxınlığında yüzlərlə yasəmən sortu yetişdirir. Sortların adı da – ehh! Gücün və paklığın əzginlik və hansısa eros üzərində qələbəsi: Kolesnikovun olimpiadası, Donbassın Alovu, Kommunizmin Qu quşu, Şəfəqi, Kapitan Qastello, Böyük Qələbə, Valentina Qrizodubova, Aleksey Meresyev, Partizan qadın, Taras Bulba. Sındı – yasəməndə! Ayaqsız – yasəməndə! Elə vur ki – güllə deyil, almandır! Kol-

lar isə iki sortdadır – Kommunizmin bayrağı və Kommunizmin Yolu – ABŞ Konqresinin bağçasında yetişir. “Onun birdən ağlına gələcək: onlar haradadırlar? – Biz isə artıq onun qəlbində olacağıq!”

Bu gündən etibarən o, həyat deməkdir, bütöv həyat başdan ayağa, əldə tutulmadan yüksəlmiş.

Mumdan olan bənövşəyi Bulud tək dəstə ilə bayağı üzən:

Çiçəklədi
Yasəmən mənim kiçik bağımda.
Sən gəldin
Yasəməni yaylıqda.
Sən gəldin və mən gəldim
Sənə də mənə də yaxşıdır.

O, sürgün üçün əlçatmaz olan Rusiyadır (mən uzaqda olan vətənimi xatırladım), arzu edilən yarımsəyyar altmışlıq sərhəddir (“yasəmən pəncərələrin məhvəri ilə alovlanan Parisə bənzəyir”).

O bizim hər şeyimizdir – hər yer üçün uyğun olan gülümüzdür, rus olan və olmayan, fars ətirli gümüşümüzdür.

Tərcümə edən: Jalə İsmayılova

Lyudmila Petruşevskaya

(hekayələr)

Sokolnikovda əhvalat

Müharibənin əvvəllərində Moskvada bir qadın yaşayırdı. Əri təyyarəçi idi, ərini elə də çox sevmirdi, amma pis də yaşamırdılar. Müharibə başlayanda ərini Moskva ətrafında xidmətdə saxlamışdılar və bu Lida da onun yanına aerodroma gedirdi. Bir dəfə yenə ora gedəndə Lidaya dedilər ki, ərinin təyyarəsini aerodromun yaxınlığında vurublar, sabah dəfn olunacaq.

Lida dəfndə iştirak etdi, orada üç bağlı tabut gördü, sonra isə Moskvaya, öz mənzilinə qayıtdı, evdə isə onu tank əleyhinə xəndəklər qazmağa çağırış vərəqəsi gözləyirdi. O, evə payızın əvvəllərində qayıtdı və qəribə görkəmli – arıq, solğun bənizli, islanmış cavan bir kişinin nə vaxtdır onu izlədiyini hiss elədi. O, kartoçka ilə mal almağa gedəndə dükanda, xidmətə gedəndə yolda bu kişini görürdü. Bir gün axşam evdə qapının zəngi çalındı, Lida qapını açdı. Qapıda həmin kişi durmuşdu, o dedi: "Lida, doğrudanmı sən məni tanımırsan? Mən ki sənin ərinəm." Sən demə, dəfn olunan o deyilmiş, tabuta torpaq yığıb basdırıblar. Təyyarə vurulanda hava dalğası onu meşəyə, ağacların içinə atıb, o isə bir də cəbhəyə qayıtmamağa qərar verib. O bu iki aydan artıq bir vaxtı necə yaşayıb, Lida bu barədə heç

nə soruşmadı, o deyirdi ki, özünə aid hər şeyi meşədə qoyub, mülki geyimi isə tərk edilmiş boş bir evdən tapıb.

Onlar beləcə yaşamağa davam edirdilər. Lida, qonşuları bunu bilməsin deyə, çox qorxurdu, amma əlində deyildi, demək olar ki, hamı həmin aylarda Moskvadan köçürülürdü. Bir dəfə Lidanın əri dedi ki, qış yaxınlaşır, gedib onun kolluğa atdığı hərbi formanı basdırmaq lazımdır, birdən kim isə onu görər.

Lida həyətin süpügəçisindən qısa bir bel aldı və getdilər. Əvvəlcə tramvay ilə Sokolnikov rayonuna, sonra isə meşə ilə, hansısa bir çayın qırağı ilə xeyli yol getmək lazım idi. Yolda onları heç kim saxlamadı və nəhayət, axşamçağı qırağında böyük çala olan geniş bir talaya gəlib çatdılar. Artıq hava qaralırdı. Əri Lidaya dedi ki, daha taqəti qalmayıb, amma bu çalanı qazmaq lazımdır, çünki yadına düşüb ki, o, hərbi geyimi bu çalaya atıb. Lida çalaya göz gəzdirdi, həqiqətən də aşağıda təyyarəçi kombinezonuna oxşar nəsə gözünə dəydi. O, çalaya yuxarıdan torpaq tullamağa başladı, əri də onu çox tələsdirirdi, çünki hava tamam qaralmışdı. O, çalanı üç saata doldurdu, sonra isə gördü ki, əri yoxdur. Lida qorxmuşdu, onu axtarmağa, ora-bura qaçmağa başladı, az qalmışdı ki, çalaya düşsün, birdən çalanın dibində bir kombinezonun tərpəndiyini gördü. Lida bütün gücü ilə ordan qaçmağa başladı. Meşə zülmət qaranlıq idi, amma buna baxmayaraq, Lida hava işıqlananda özünü tramvaya çatdıra bildi, evə gəldi və yatağa uzandı.

Və yuxusuna əri girmişdi, o Lidaya dedi: "Sağ ol ki, sən məni basdırdın."

Əl

Müharibə vaxtı bir polkovnikə arvadı məktub göndərmişdi ki, onun üçün çox darıxır və xahiş edir ki, onun yanına gəlsin, çünki qorxur birdən ölər, onu görməz. Polkovnik məzuniyyət almaq üçün çalışmağa başladı, bundan bir az əvvəl orden alması lap yerinə düşmüşdü, onu üç günlüyünə buraxdılar. O, təyyarə ilə gəldi, ancaq onun gəlib çıxmasından bir saat əvvəl arvadı öldü. Polkovnik bir az ağladı, arvadını dəfn elədi və qatarla geri qayıtdı, birdən gördü ki, partiya biletini itirib. Bütün əşyalarını, hər tərəfi axtardı, getdiyi vağzala qayıtdı, hamısı da əzab-əziyyətlə, amma heç nə tapa bilmədi və nəhayət, evə qayıtdı. Evdə yuxuya getdi, gecə yuxusuna arvadı girmişdi. Arvadı dedi ki, partbileti onun qəbrinin içində sol tərəfdədir, polkovnik onu öpəndə cibindən düşüb. Arvadı polkovnikə onu da dedi ki, onun üzündəki örtüyü qaldırmasın.

Polkovnik arvadının dediyi kimi də elədi: qəbri qazdı, tabutu açdı, arvadının çiyninin üstündən partbiletini götürdü, ancaq özünü saxlaya bilmədi və arvadının üzündən örpəyi qaldırdı. Arvadı, elə bil, canlı adam kimi uzanmışdı, yalnız sol yanağında soxulcan var idi. Polkovnik soxulcanı əli ilə götürüb atdı, örtüyü arvadının üzünə çəkdi və qəbri yenidən doldurdu.

İndi çox az vaxtı qalmışdı, o, aeroporta getdi. Ona lazım olan təyyarə yox idi, amma birdən yanıq kombinezon geymiş hansısa bir təyyarəçi onu bir az kənara çağırdı və dedi ki, o elə polkovnikə lazım olan tərəfə uçur, onu da özü ilə apara bilər. Polkovnik təəccübləndi, təyyarəçi haradan bilir ki, o hara uçur və birdən gördü ki, bu, həmin onu evə gətirən təyyarəçidir.

– Sizə nə olub? – polkovnik soruşdu.

– Hə, mən bir balaca əzilmişəm, – təyyarəçi cavab verdi. – Elə geri qayıtdığım yoldadır. Amma heç nə eləməz, mən sizi düşürərəm, bilirəm sizə hara lazımdır, yolumun üstündədir.

Onlar gecə uçdular, polkovnik təyyarənin bu başından o başına qədər bərkidilmiş dəmir skamyada oturmuşdu və təəccüb edirdi ki, bu təyyarə, ümumiyyətlə, necə uça bilir. Təyyarə içəridən əyilmişdi, hər tərəfdən cırılmış parçalar sallanırdı, bir dənə yanmış kötük isə ayaqlarının altında o yan-bu yana diyirlənirdi, kəskin yanmış ət iyi gəlirdi. Onlar tez uçdular, polkovnik hələ bir dəfə soruşdu da ki, həmin yerə uçurlar, təyyarəçi isə düppədüz ora uçuruq dedi. "Sizin təyyarəniz niyə bu gündədir?" – polkovnik məzəmmət elədi, təyyarəçi isə dedi ki, həmişə şturman təmizləyirdi, o isə elə indicə, bir az əvvəl yandı. Və o, "bax budur mənim şturmanım" deyərək, yanıq kötüyü təyyarədən sürüyüb çıxarmağa başladı.

Təyyarə talada dayanmışdı, ətrafında isə yaralılar dolaşırdı. Hər tərəf meşə idi, uzaqda tonqal yanırdı, vurulub dağıdılmış maşın və topların arasında insanlar uzanmışdılar, bəziləri oturmuşdu, kimisi ayaq üstdə durmuşdu, kimisi isə digərlərinin arası ilə gəzişirdi.

– Sən məni hara gətiribsən, əclaf? – Polkovnik qışqırdı. – Məgər bu, mənim aerodromumdur?

– Bura indi sizin hissənizdir, – təyyarəçi cavab verdi. – Hardan götürmüşdümsə, ora da gətirdim.

Polkovnik anladı ki, onun polku mühasirədədir, başını əzəcəklər, hər şeyə lənət oxudu və şturmanım dediyi, dur gedək deyə xahiş elədiyi kötüyünü ora-bura sürüyən təyyarəçini də lənətlədi.

– Hə, evakuasiyaya başlayaq, – polkovnik dedi, – əvvəlcə qərargahın kağızlarını, polkun bayrağını və xüsusilə ağır yaralıları.

– Bu təyyarə daha heç yerə uçmaz, – təyyarəçi bildirdi.

Polkovnik tapançasını çıxardı və dedi ki, əmri yerinə yetirmədiyinə görə onu vuracaq. Ancaq təyyarəçi elə fitini çalır, "hə, gəl gedək" deyə-deyə kötüyü gah o tərəfi, gah bu tərəfi üstə dikəldirdi.

Polkovnik atəş açdı, amma, görünür, dəymədi, çünki təyyarəçi elə "gedək, gedək" deyə donquldamağa davam edirdi, elə bu vaxt maşınların uğultusu hər yanı bürüdü və meşəyə əsgərlərlə dolu alman yük maşınları kolonu daxil oldu.

Polkovnik bir təpəciyin arxasında otların arasında gizləndi, maşınlar hey keçib gedirdilər, ancaq nə bir atəş açılırdı, nə bir komanda verilirdi, maşınların mühərriklərinin səsi də qarma-qarışıq çıxırdı. On dəqiqə sonra maşınlar keçib getdi, polkovnik başını qaldırdı – təyyarəçi yenə əvvəlki kimi öz kötüyü ilə əlləşirdi, uzaqda tonqalın ətrafında kimisi oturmuş, kimisi uzanmış, kimisi də var-gəl edirdi. Polkovnik durdu və tonqala tərəf getdi. O, ətrafdakıların heç birini tanımırdı, bu polk onunku deyildi, burda həm quru qoşunları, həm artilleriya əsgərləri, Allah bilir, daha kimlər var idi, paltarları cırılmış, əlləri, ayaqları, qarınları qan içində yaralılar idilər, bircə üzləri tər-təmiz idi. İnsanlar astadan danışırdılar. Düz tonqalın qırağında arxası polkovnikə tərəf, qara mülki geyimli, başı yaylıqlı bir qadın oturmuşdu.

– Burda rütbəcə böyük kimdir, vəziyyəti məruzə edin, – polkovnik dedi.

Heç kim tərpənmədi, polkovnikin atəş açmağa başlamasına da heç kim fikir vermədi, amma əvəzində təyyarəçi yanıq kötüyü tonqala tərəf diyirlədəndə hamı, onun özünün dediyi kimi, bu "şturman"ı tonqala tullamağa kömək elədi, beləcə ocaq söndü. Tamam qaranlıq oldu.

Polkovnik soyuqdan titrəyirdi, başlamışdı söyməyə ki, daha qızınmaqdan keçdi, bu kötükdən sonra ocaq bir də yanmaz.

Bu vaxt qadın geri çevrilmədən dedi:

– Sən nəyə görə mənə baxdın, niyə örtüyü qaldırdın, indi sənin əlin quruyacaq.

Bu, onun arvadının səsi idi.

Polkovnik huşunu itirdi, ayılanda isə gördü ki, hospitalda yatır. Ona bildirdilər ki, onu qəbiristanlıqda, arvadının qəbrinin yanında tapıblar, bir qolu üstündə uzanıb qaldığı üçün həmin qolu ciddi zərər görüb və ona görə də indi həmin qolu ola bilsin ki, qurusun.

Şopen və Mendelson

Bir qadın həmişə şikayətlənirdi ki, hər axşam divarın o biri tərəfindən eyni musiqi səsi gəlir, yəni axşam yeməyindən sonra qonşuları qoca ər-arvad, qatar kimi, elə bil cədvəl tutublar, pianinoya yaxınlaşırlar və arvad eyni şeyi çalmağa başlayır, əvvəlcə həzin bir mahnı, sonra vals. Hər axşam damba-durum, tatati-tatata. Qocaların qonşusu bu qadın bütün tanışlarına, iş yoldaşlarına gülə-gülə bu barədə danışırdı, amma onun özü heç də güləsi gündə deyildi. Axı hər şey ola bilir, başın ağrıyır və yaxud sadəcə istirahət etmək istəyirsən, hər axşam qulaqlarını televizorun səsi ilə batıra bilməzsən ki – qocalarda isə elə eyni dınqır-dunqur, damba-durum, tatati-tatata.

Qocalar evdən də həmişə birlikdə çıxırdılar, səhər tezdən, böyüklərin, zırpıların, sərxoşların işdə olduğu və ya yatdığı, heç kimin xətirlərinə dəyməyəcəyi vaxt yenə cədvəl tutublar kimi, nizamla alicənabcasına dükanları bir-bir gəzirdilər.

Xülasə, vaxt keçdikcə bu qonşu hətta onların repertuarını da öyrəndi, onlarla üz-üzə gələndə (məhz onlar yenə bala gedirmişlər kimi yaraşıqlı, ütülü paltarlarını geyinib dükana gedirdilər, qadın nimdaş panamasında, kişi ağ kepkada, hər ikisinin gözləri gülürdü, əlləri qırış-qırış idi) yetərincə kobud şəkildə, öz zarafatcıl tərzində – bu nədir siz həmişə çalırsınız, bağışlayın, qanmıram – yəni o demək istəyirdi ki, "niyə siz hey çalırsınız, mane olursunuz", onlar isə tam əksini başa düşdülər, fərəhləndilər, muncuq kimi plastmas dişlərini ağardaraq gülümsədilər və dedilər, qadın dedi: "Mahnı, sözsüz ki, Mendelsonun silsiləsindəndir, vals Şopenin hansısa bir fantaziyasıdır" (qonşu "tfu sənə" deyə düşündü).

Amma həyatda hər şey nə vaxtsa qurtarır, musiqi də beləcə birdən bitdi. Qonşu qadın dərindən rahat nəfəs aldı, mahnı oxuyub şənləndi, o, atılmış tənha idi, yəni atılmış arvad, daha doğrusu, heç arvad da deyildi, iş elə gətirmişdi ki, ayrılarkən birotaqlı mənzil almışdı, sonra onun yanına kimsə bir nəfər köçüb burda yaşamağa başlamışdı, mətbəxdə divara rəflər mıxlamışdı, hətta evin əsl sahibi kimi ayaqyolu üçün bəzi əşyalar da almışdı, bu nə oturacaqdır, bunda oturmaq olmaz deyib deyinə-deyinə bağlamada gətirdiyi bir oturacağı (sedlo) boltlara keçirib bağlamışdı. Sonra isə öz evinə, anasının yanına qayıtmışdı. Və elə o vaxt nazik divarın arxasındakı həmin bu musiqi, Şopenin valsı köhnə patefondakı kimi həmişə eyni yerdə tutula-tutula hər axşam dəng eləməyə başladı. Televizor o biri divarın qabağına qoyulmuşdu, burda isə bir divan vardı, elə patefon da hər axşam tam qulağının dibində dururdu. Yəni

bu qonşu qadının eşitmə qabiliyyəti yarasanınkı kimi yaman güclənmişdi, kor adamlar kimi televizorun bu qədər səs-küyünün içində lənətəgəlmiş Mendelson ilə Şopeni seçirdi.

Xülasə, birdən-birə hər şey qurtardı, iki gün musiqi səsi gəlmədi, sakitcə televizora baxmaq, oxumaq, hoppanıb atılıb-düşmək olardı, düzdür, uzaqda, elə bil yuxarı mərtəbələrdə, kim isə uşaq kimi ciyildiyirdi, amma bu da bitdi. Hər şey aydınlaşandan sonra bu qonşu işdə "mənim nə yaman musiqi duyumum var" deyirdi, sən demə, bu ciyilti pianoçu qarının ərinin ciyiltisi imiş, qarını başqa bir yerdə yox, döşəmədə ərinin altında uzanmış vəziyyətdə tapıblar, əri isə demə çoxdan imiş ki, iflic olub çarpayıda uzanırmış ("mən də düşünürdüm ki, axı, deyəsən, mən onları görmüşəm, məgər bu lap çoxdan olub?" – cavan qonşu özü-özü ilə hey danışırdı), qoca kişi iflic vəziyyətdə uzanırmış, arvadı isə, görünür, şənləndirmək üçün hər axşam qonşunun qulağının dibində ona öz repertuarını çalırmış, sonra isə o, necə olubsa yıxılıb, kişinin çarpayısının yanında ölüb və kişi, görünür, telefona tərəf sürünməyə başlayıb, axırda arvadının üstünə yıxılıb, amma bu vəziyyətdə də necə olubsa axır zəng vura bilib, mənzilin qapısını sındırıb açıblar, onlar ikisi də ölübmüşlər, tez keçiniblər.

"Mənim nə yaman musiqi duyumum var", – cavan qonşu qadın, həmin o uzaqdan gələn ciyiltini, iniltini, onun telefonu götürmək üçün əlləşdiyi vaxtı (axşam, gecə boyu və bütün ertəsi gün) xatırlayaraq, telefonla bir-bir hamıya şikayətlənirdi, bu inildəyən, görünür, o qoca kişi imiş.

"Mənim nə yaman musiqi duyumum var, – qonşu Şopen və Mendelsonu ürəyində sevgi və kədərlə xatırlayaraq həyəcanla gələcək qonşuları haqda düşünürdü, – bax, onlar adam idilər, mədəni, sakit, gündə on beş dəqiqə səs salırdılar, vəssalam, indi onların yerinə kim gələcək? Ölləndə də bir az fərq

ilə eyni gündə öldülər, nağıllardakı kimi, çox yaşadılar və bir az fərq ilə eyni gündə öldülər," – sakitlikdən qulaqları tutulan qadın təxminən belə düşünür, Şopen, Şopen və Mendelson.

Arvad

Bir nəfər arvadını dəfn edəndən sonra qızı və qoca anası ilə tək qalır. Arvadı uzun müddət idi ki, xəstə idi, xəstəxanada arvadının yanında özü qalırdı, güvəci özü aparıb-gətirirdi, özü yedizdirirdi, yuyundururdu. Arvadı öləndən sonra, uzun müddət özünə yer tapa bilmirdi, ancaq sonralar qonşu küçədə, özünə maşın almağa hazırlaşan bir qadının yanına gedib-gəlməyə başladı. Bir dəfə o, axşamçağı nə üçünsə – kitab verməyə, ya almağa – gedərkən gördü ki, düz küçənin ortasında bir pişik oturub. Çovğun pişiyi qara bürümüşdü. Bu adam pişiyin yanından qaçıb keçdi, həmin qadıngilə gəldi, bir az oturdu, çay içib evlərinə yollandı. Geri qayıdanda gördü ki, artıq həmin pişiyin yerində balaca qar təpəciyi yaranıb. Onda o qarı dağıdıb pişiyi götürdü. İstədi pişiyi paltosunun içərisinə qoysun, amma pişik tamam qar idi, bütün üst-başını isladacaqdı. Hələ o da məlum deyil ki, bu pişik xəstədir, ya yox, kim deyər ki, xəstəliyə yoluxdurmayacaq.

Onun qoca anası heyvanları xoşlamırdı, amma etiraz da eləmədi, onlar pişiyi bulaşıq vedrəsində birlikdə yudular, sonra təmiz döşəmə əskisi ilə bükdülər. Pişik yeni sahibinə o qədər minnətdar idi ki, baxmayaraq ki, pişiklər çimizdirilməyi sevmirlər, o, bir dəfə də olsun miyoldamadı, bir cırmaq belə

atmadı. Hətta pişiyi evə gətirərkən, yolda, küçədə olanda pişik ona qısılaraq xoruldamışdı.

Amma səhər tezdən məlum oldu ki, pişik xəstədir. O gecə durub şkafın, uşaq çarpayısının altını batırıb-murdarlamışdı. Qoca ana pişiyi bütün batırdığı yerlərdə sürüdü, hələ belinin ortasına da bir dənə çəkdi, hər halda, pişik də balaca deyildi, başa düşməli idi ki, murdarlamaq olmaz. Ayaqyoluya onun üçün xüsusi qab qoydular, amma pişik yenə hər tərəfi gündə yeddi-səkkiz dəfə murdarlamağa davam edirdi. Pişik bütün günü, demək olar ki, tərpənmədən dəhlizdə balaca qızın köhnə paltosunun üstündə uzanırdı, yalnız ifraz etmək istəyəndə dururdu. Qoca ana yemirdi-içmirdi, yatmırdı ki, təki pişiyi batırmağa gedəndə tutsun, sonra onu ayaqyoluya gətirir, qaba öyrəşdirirdi. Ancaq pişik isə, elə bil, təzə doğulub, heç nə başa düşmürdü, ayaqyoluda borunun altında gizlənir, qaba heç yaxın getmirdi. Və nəhayət, axırda, pişik daha ayaqyoludakı borunun altından çıxmırdı, orda yaşamağa başladı, batıranda da qapının ağzında döşəməni batırırdı, qaba heç vaxt yaxın getmirdi.

Qızın pişikdən çox xoşu gəlirdi, o da, demək olar ki, tualetdən heç çıxmırdı, onu tumarlayır, öpür, yedizdirirdi. Ancaq qoca arvad ilə oğlu bilmirdilər ki, bu pişiklə nə etsinlər. Çöl pişiyinə də oxşamırdı, cansız və sakit idi, çöl pişikləri çox qəzəbli, acıqlı olurlar, ev pişiyi isə hara ifraz etməli olduğunu çoxdan bilməli idi.

Onlar belə də yaşayırdılar, əziyyət çəkirdilər, bir dəfə yuxusu, rahatlığı ərşə çəkilən qoca arvad qərara gəldi ki, pişiyi heyvan müalicəxanasına aparsın, görsün buna nə olub. Arvad pişiyi dərin bir çantaya qoyub apardı. Pişik çox qorxmuşdu və çantadan atılıb çıxmağa çalışırdı, qoca isə gözlərini islanmış yerə dikmişdi, qorxurdu ki, müalicəxanada yoluxucu xəstə

kimi onu tutub alar, zəhərləyib öldürərlər. Ancaq həkim müayinə edib dedi ki, pişik heç də qoca deyil, daha doğrusu, cavandır, iki il yarımlıqdır və onun mədəsi xəstədir, qastrit, dərman vermək lazımdır, bir də yalnız suda qaynadılmış və südlü şeylər yeyə bilər, bundan sonra hər şey keçib gedəcək.

Onlar belə də elədilər. Pişik dərmanları udmaq istəmirdi, boğazı çox dar idi, cırmaq atırdı, qoca arvad və oğlundan çox qorxmağa başlamışdı, onlar yanından belə keçəndə pişik döşəməyə qısılırdı. Qızdan isə qorxmurdu, bəzən elə olurdu ki, qızın çıxarıb tulladığı ayaqqabısını döşəmədə tapır, ona toxunub mırıldayırdı. Qız deyirdi ki, bu, mənim pişiyimdir, əgər pişiyi mənə versəniz, hər şeyi, yığışdırmağı, silib-süpürməyi özüm edəcəyəm, amma ona icazə vermirdilər, uşağın istədiyinə bir bax.

Elə həmin vaxtlar qoca arvad yuxusuna haram qatıb gecələr yatmırdı, silib-süpürməkdən o qədər yorulmuşdu ki, bütün gecəni keşik çəkirdi, görsün pişik nə vaxt murdarlamağa gedəcək, onu tutsun. Və bir dəfə gecə qoca arvad qərara gəldi ki, pişiyi bir gecəliyinə binanın giriş dəhlizinə buraxsın – axı gecələr pişikləri buraxırlar.

Pişik pilləkənlərə heç getmək istəmirdi, amma sahibəsi onu məcburən otaqdan çıxartdı. O gündən pişik hər gecə pilləkənlərdə gecələyirdi, görünür, orda zibil vedrəsində özünə hansısa lazımi bir şey, nə bilmək olar, bəlkə də sadəcə kartof qabıqları tapırdı və o, yavaş-yavaş kökəlməyə, özünə gəlməyə başladı – dərmanlar isə ona elə də kömək eləmədi.

Qoca arvad vəziyyətdən çıxış yolu tapdığına görə çox sevinirdi, hər səhər pilləkənlərdə pişiyi axtarır, evə çağırırdı, bəzən də oğlu pişiyi gətirməyə gedirdi – nəyə görəsə pişik həmişə üçüncü mərtəbədə otururdu, görünür, orda xeyirxah insanlar yaşayırdılar, çünki pilləkənə pişiklər üçün yeməkqabı

və kağızın üzərində yemək qoymuşdular. İndi pişik hara gəldi islatmırdı, ifrazatını da səliqə ilə edirdi, kiçik topa kimi, qoca arvad həmişə pişiyin zibillərini görən kimi yığışdırırdı.

Bu qayda belə də davam edirdi. Hər gecə pişik özü evdən çıxmaq istəyirdi, hər şey də yaxşı gedirdi. Ancaq bir dəfə oğlan necə oldusa gecəyarı evə gələrkən xeyirxah insanların qapısı önündə yeməkqabının yanında oturmuş Murkanın yanından ötüb keçdi. Murka sahibini gördü və həyatında ilk və son dəfə sahibinin arxasınca evə qaçdı. Sahibi onun qaça-qaça necə miyoldadığını gördü. Amma pişik addımlarını bir az da sürətləndirdi, sözün həqiqi mənasında pilləkənlərlə yuxarı qaçdı və Murka yoxa çıxdı.

Səhər tezdən sahibi Murkanı axtarmağa getdi, bütün pilləkənləri gəzdi, bütün həyəti, qonşu həyətləri axtardı, amma Murkanı bir də tapa bilmədi. Onu ya qəddar insanların elədiyi kimi zibil borusuna tullamışdılar, ya da sadəcə binanın girişindən qovub çıxarmışdılar və Murka həyətdə hardasa donmuşdu, amma onun izini tapa bilmədi.

Murka itəndən sonra balaca qız düz bir ay ağladı, qoca arvad da ağlayırdı, elə oğlan da özünə heç cür yer tapa bilmirdi, çünki o, indi dəqiq bilirdi ki, bu onun arvadı imiş, gəlibmiş.

Tərcümə edən: Əliş Mirzallı

İÇİNDƏKİLƏR

Ən yeni rus nəsri nümunələri
yeni tərcümə layihəsində (T.Vəlixanlı).....3

Y.Polyakov
Rayon miqyasında FH 7

V.Voynoviç
Axmaq Qalileyin nağılı 154
Narazı adamın nağılı 163
Biz hamıdan yaxşıyıq 165
Adamlar və donuzlar 168

B.Yevseyev
Qəssab 175

L.Ulitskaya
Yaşamaq sənəti.....204

T.Tolstaya
Kino.....257
Qızıl.....261
Kvadrat.....264
Yasəmən.....274

L.Petruşevskaya
Sokolnikovda əhvalat 280
Əl 282
Şopen və Mendelson 285
Arvad.....288

Новейшая русская литература

Антология

В 2-х томах

Том 1. Проза

Ən yeni rus ədəbiyyatı

Antologiya

2 cilddə

1-ci cild. Nəsr

Nəşriyyatın direktoru – T.Cəfərov

Nəşriyyat redaktoru – A.Məmmədov

Kompüter tərtibatı – G.Allazova

Üz qabığının dizaynı – C.Kişiyev

Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində
səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 20.05.2014.
Format: 84x108 1/32. Qarnitur: Times. Ofset çap.
Ofset çap üsulu. Həcmi: 18, 5 ç.v. Tiraj: 1000 (1 z: 500).
Sifariş № 16.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az